

***Əliyev Elman İslam oğlu***
***(1959-2011)***

## *Elman Əliyev haqqında*

Əliyev Elman İslam oğlu 1959-cu il yanvarın 11-də Naxçıvan şəhərində anadan olmuşdur. 1966-1976-cı illərdə oxuduğu N. Tusi adına 9 saylı orta məktəb öz əlaçı şagirdində, eyni zamanda, dahi astrofizik və böyük filosofun irsinə dərin məhəbbət oyatmış, C.Məmmədquluzadə adına 2 saylı orta məktəb isə nümunəvi yeniyetməyə Molla Nəsrəddinə xas hazırcavablıq və xeyirxahlıq aşılamışdır.

1976-cı ildə Azərbaycan Neft-Kimya İnstitutunun İdarəetmə sistemlərinin avtomatlaşdırılması fakültəsinə daxil olmuş, 1981-ci ildən təyinatı üzrə Rusiya Dəniz Donanmasının Həştərxan İdarəsində AİS üzrə elektronika mühəndisi vəzifəsində çalışmışdır.

1983-cü ildə Azərbaycan LKGİ Babək RK-nə təlimatçı, 1985-ci ildə isə şöbə müdiri təyin edilmişdir.

1988-ci ildə Azərbaycan KP Babək RK-nin təşkilat şöbəsinə təlimatçı kimi irəli çəkilmişdir.

1990-cı ilin yanvarında Bakıdakı qanlı hadisələrdən dəhşətə gələrək, partbiletini atıb, partiya sıralarını tərk etmişdir. Həmin vaxtdan etibarən Naxçıvan televiziyasındakı mühəndislik fəaliyyəti, eyni zamanda, operator kamerası ilə tale yoldaşlığı onun keçmiş mədəni irsə hədsiz marağının və gələcək araşdırmalarının mövzu dairəsini yaratmışdır: Naxçıvanda Nuh peyğəmbərin izləri, "Əshabi-Kəhf" möcüzəsinin sirləri, N.Tusi irsinin ümumbəşəri əhəmiyyəti, C.Rumi humanizminin, H.Cavid dühasının, M.Araz poeziyasının sehri və i. a.

2001-ci ildə Azərbaycan Milli Qeyri Hökumət Təşkilatları forumunun "Üçüncü sektor", "Həftəlik TV" proqramı layihəsinin koordinatoru təyin olunub. Onun çoxcəhətli fəaliyyətindəki peşəkarlıq səviyyəsi və dərəcəsini vurğulamaq üçün təkcə Beynəlxalq simpoziumdakı çıxışlarını və dünya şöhrətli "SİEMENS" şirkətindən aldığı sertifikatları xatırlatmaq kifayətdir.

2011-ci il sentyabrın 17-də Elman Əliyevin qəfil ölümü onu yaxından tanıyanların və bütün Elmansevərlərin qəlbində həyəcan təbili çalaraq, onların hamısını görkəmli ziyalının mənəvi irsini üzə çıxarmaq yolunda səfərbər etmişdir.

# Elman: olduğu və göründüyü kimi

Redaktor: Yusif Rəhimoğlu

Operator: Turan Məhərrəmli

İlahə Dadaşova

Dizayner: Aysel Heydərova

Korrektor: Zəri Abdullayeva

Məsləhətçi-koordinator: Mirələkbər Seyidov

Məsləhətçilər: tarix e.d – Abbas Seyidov

Sultan İslam oğlu Əliyev

Yazıçı-publisist – Məhərrəm Zaman

Əməkdar jurnalist – Tahir Aydınoğlu

Vahid Zeynal oğlu Rzayev

**«Elman: olduğu və göründüyü kimi».**
Bakı, «Nərgiz» nəşriyyatı, 2012, – 320 səh.

E $\frac{742000000}{079}$ 687-2012

© «Nərgiz», 2012

# *Elman zəkasından qətrələr...*

## *Həsrətində olduğum İnsana məktub*

Salam, İnsan...

Həsrətində olduğum İnsan...

Bəşəriyyətin çox böyük inamla gözlədiyi İnsan.

Gecənin lal sükutunu pozan şərti zaman sayğacının aramlı çıqqıltısı altında Sənə məktub yazıram. Sənin varlığınla zaman sonsuzluğu arasında sanki çaşıb qalmışam. Haradan başlayım bu məktubu.

Yarandığın gündən Xeyirlə Şərin mübarizəsində qalib çıxmağa çalışsan da, zülmlərə məruz qaldın, sınmadın...

Dabanından soyuldun, haqdan dönmədin...

Odda yandırıldın, daşqalaq edildin, sürgünlərlə, həbsxanalarla sınağa çəkildin, tankların tırtılları altına salındın, canlıların şüurunun dərk edə bilməyəcəyi zülmlərlə üz-üzə qaldın, lakin ləyaqətini, şərəfini itirmədin, içindəki işığa doğru inamla getdin...

Yaxşı ki, sən varsan, İnsan! Yoxsa dünya zülmət içində boğulardı. Yoxsa «Sirlər xəzinəsi » bomboş qalardı...

Bütün varlıqlar nəfs quluna çevrilərdi.

Nə üz tutacağımız Müqəddəs kitablar olardı, nə də ki, günahlardan təmizlənmək üçün son ümidlə ziyarət etdiyimiz Müqəddəs yerlər.

Bu məktubu Sənə yazdığım anda bəşəriyyət yenə də həmişəki kimi Xeyirlə Şərin savaşı ilə üz-üzədir. Yenə haradasa terror, haradasa aclıq - səfalət, müharibələr, yalanın haqqı tapdayıb keçməsi, zülmlər tüğyan edir. Məxluqatın bir-birini vəhşicəsinə məhv etmək istəyi azmış kimi, təbiətin də zəlzələ, külək, sel fəlakətləri bu bəlalarla həmahənglik edir.

Bəlkə, doğrudan da axır zamandır?

Qiyamət günü yaxınlaşıb?

Bəlkə, ona görə haqla nahağı seçmək bu qədər çətinləşib.

Bəlkə, «...Ya hər kəsə xain olan insan...»ın, Şərin təcəssümü olan İblisin Xeyrə qarşı son savaşıdır?

Uğura gedən yol həmişə dərddən keçər.

Bəlkə, Şərin yaratdığı bəlaların sirri tükənir, Xeyir qarşısında acizləşir deyə, son ölüm-dirim savaşına çıxıb?

Bəlkə, elə «Qiyamət günü» deyilən gün Şərin Xeyirə məğlub olduğu gün olacaq?

Sənə çox ehtiyacımız var...

Sən cilalanmış güzgü kimisən. Hər kəs səndə özünü görər. Cilalınmış güzgü çirkini gözəl, gözəli çirkin göstərə bilmədiyi kimi, Sən də kimsənin xətri üçün yalan söyləyə bilməzsən.

Gəl!..

Bizləri de, gəl!..

Gəl bizi özümüzə göstər ki, çaşıb Şərə sevinməyək, Xeyrə ağlamayaq. Nəfsimizin quluna çevrilməyək.

Hamının ümidi sənədir. Sən hər şeyi, həm yaşamağı, həm yaşatmağı bacarırsan. Yolunu azmış, «yaşatmaram, yaşaram!» deyən, qan içən vəhşilərin, «bizliyə», «sizliyə», «dağlıya», «düzlüyə» bölünənlərin qarşısına ancaq Sən çıxa bilərsən.

Gəl!.. Gəl göstər haqqı bizə. Görək, yalanla düz haradadır?

Bəlkə, «zamanın yuya bilmədiyi yalanlar» o qədər artıb ki, daha Yer də tablamır bu ağırlığa.

Bəlkə, ona görə yerlərimizi verə-verə «yerlibaz» olmuşuq.

Sənə çox ehtiyacımız var...

Dünən də həsrətində olmuşuq, bu gün də həsrətindəyik, sabah da həsrətində olacağıq...

Bəlkə, Sən varlığına çökmüş nurunla zülmətə bürünmüş mənəviyyatların üzərinə işıq saçıb, bu bəlkələr dolaylarından bizləri keçirəsən...

***Hörmətlə, Səni həsrətlə gözləyənlər***
***23.01.2002***

## *Öyrətmənim*

Əziz Fəridə Hocam...
Əziz Fəridə anam...
Əziz Fəridə xanım...
Haqqınızda yazmaq,
yoxsa haqqınızı yazmaq...
Yoxsa
Bu ÜÇLÜYÜ birləşdirən
SİZDƏN yazmaq...

HOCA...ANA...XANIM...

Haqqınızda yazmağa yetərli bişkin deyilik.
Haqqınızı yazmağa HAQDAN icazəli deyilik...
Yazmağa cəsarət etsək, SİZDƏN yaza bilərik...
Onu da bacarsaq...

28 il öncə Sizi ilk dəfə sinifdə gördüm...
HOCA gördüm...Öyrətmən gördüm...
Türkcəmizdə necə də düzgün deyim:
Öyrət - mən... Məni Öyrət...
Bəli, gəlmişdim 10-cu «A» sinfində
Riyaziyyatı mənə öyrədəsiniz.
Amma SİZ məni yox, bizi öyrətdiniz.
Mən gəlmişdim riyaziyyatı öyrənməyə...
Amma SİZ riyaziyyatı yox,
Riyaziyyatı SEVMƏYİ öyrətdiniz bizə...
O cansız, o ölü, o quru,
o qupquru rəqəmlər arxasında gizlənən
ilahi gözəllikləri bizə göstərdiniz...
səbirlə göstərdiniz...
səbirlə öyrətdiniz...
Qəlbinizin əliylə əllərimizdən tutdunuz...

Qəlbinizin nuruyla bizim üçün qaranlıq gələn,
Əcayib görünən yolları işıqlandırdınız...

Bizə elə gözəllikləri göstərdiniz ki,
biz o gözəlliyə əsir olmaya bilmədik.
Hər yorulanda misal edirdik...
Yolda gedəndə də məsələ edirdik...
Yemək yeyəndə də,
Hətta yatanda da
ANA laylası qədər şirin gələn bir səslə dediyiniz
«Dincələndə misal edin!»
kəlməniz qulaqlarımızda səslənir...
Elə bilməyin, səhvən yazmışam səslənir.
Yox!
Düz yazmışam...
Bu günə qədər o məlahətli səs qulağımdadır...
Ömrümün sonunacan o səs mənimlə gedəcək...
O səs məni mürgüləməyə qoymayan səsdir...
O səs məni hər an ,
hətta yatanda da ayıq saxlayan səsdir...
Öyrətdiniz
misal həll etməyi...
məsələ həll etməyi...
bir məchullu, iki məchullu, üçməchullu...
«N» məchullu tənliyin köklərini tapmağı...
törəmə almağı...
Bu gün çox məchullu həyat tənliklərinin
Köklərini tapdıqca qəlbimdə bir nida səslənir:

Əziz Fəridə Hocam... Əziz öyrətmənim,
HOCALIQ haqqınızı halal edin...

«İki nöqtədən bir düz xətt keçir » dediniz...
öyrətdiniz...
«Mən» deyilən nöqtədən
«Haqq» deyilən nöqtəyə
yönələn düz xətti
dama-dama dəftərdə çəkmək nə qədər asan...
Həyatda bu düz yolu getmək nə qədər çətin...
O çətinliyə dözməyi,
Səbirli olmağı,
Yolu öz gücünə,
özünə güvənərək tapmağı
öyrətdiniz bizə...
HOCALIQ haqqınızı halal edin bizə...

Əziz Fəridə anam...
Bu gün də,
hətta başqası üçün kimdənsə!
«Heç səndən bunu gözləməzdim!»
kəlməsini eşidəndə, utanıram...
Elə bilirəm Fəridə ANA yenə o
Şıltaq 10-cu «A» sinfini,
Ərköyün, sonbeşik sinfini
dərsdən qaçmaq üstündə,
saç düzəltdirmək üstündə,
ağ köynək geymək üstündə,
hansısa müəllimin narazılığı üstündə,
nə bilim, daha nə dəcəlliklər üstündə,
o bir kəlmə ilə danlayır...
O kəlmə qulaqlarıma
dəyəndə yeniyetmə oluram...
Zaman ölçülərini itirirəm...

Əziz Fəridə ANA!
ANALIQ haqqınızı halal edin bizlərə...
25 ildən sonra Sizi
döyüşkən, dözümlü, dərdini içində boğan,
dərdə yoldaş deyil, dərdə sinə gərən bir
TÜRK XANIMINI tanıdım...
Əziz Fəridə Xanım...
Mən Türk Xanımının
DƏYANƏTİNİN şahidi oldum...

Bir daha İNANDIM ki, TÜRK KİŞİSİNİ
İstər BƏY olsun,
İstər XANIM,
Nə yaş(qocalıq),
Nə xəstəlik,
Nə tənhalıq,
Nə vəfasızlıq,
Nə sayğısızlıq,
Nə bilim daha
Nələr...nələr...
sındıra bilməz...
Əyə bilməz...
Bütün o NƏLƏRİ içində boğar...
Boğar...boğar...
Dözər... Mətanətlə dözər...Kimsəyə
Heç nəyi ...heç bir şeyi
Hiss etdirmədən DÖZƏR...
Mən bunu da SİZdə gördüm,
Əziz Fəridə XANIM!!!
AMMA AÇIQLAMIRAM!!!
XANIMLIQ HAQQINIZI da halal edin...
Mümkünsə...

Əziz Fəridə Hocam...
Əziz Fəridə anam...
Əziz Fəridə xanım...

Qarşınızda baş əyirik...
Tanrı Sizi qorusun!...

***Şagirdiniz*** ***Əliyev Elman İslam oğlu.***
***Bakı şəhəri*** ***13 mart 2003-cü il***

***Cümə axşamı.***

*Ey rəhmətliklər, üzünüzə açılan səhər sizin üçün dirilərin səhərindən daha sakitdir. Siz onlardan xoşbəxtsiniz. Dirilərdən fərqli olaraq, Allah sizi bundan sonra gələn günlərin əzab-əziyyətindən azad etmişdir.*

***Məhəmməd Peyğəmbər.***



*Sən, əvvəla, gözlərindən barmağını çək.*
*Ondan sonra dilədiyini gör.*
*İnsan gözdən ibarətdir.*
*Geri qalansa cəsarətdir.*
*Göz isə ancaq dostu göstərənə deyilir.*

Həzrəti Mövlana Cəlaləddin

Görüş ünvanı: **Cəvahirin diki**

X[a] sinif təşəbbüs qrupu
zəng və təklif gözləyir...

Əlaqə telefonları:
(8.50) 210 89 57 mobil; (8.12) 41 02 78 ev
Elman
(8.50) 314 83 99
Cəfər

*Əziz Fəridə*
***müəllimə !***



Sızlar yada düşəndə ürəyimin telləri

Sizin
yandırdığınız məşəlin
aydınlatdığı fövqəlağıl bir aləmdə
ömür zirvəsinə doğru addımlayan
yoxsul və qərib səyyahların

Sizlərlə
bir daha görüşmək arzusuna
qoşulmaq istəsəniz,

Onların könül dünyasını
öz qəlb nurunuzdan bir daha
pay vermək
istəsəniz

onda
*25 may 2001-ci ildə səhər saat 9-da Naxçıvan şəhər*
*C. Məmmədquluzadə adına 2 saylı orta məktəbdə*
olmaq yetər.

## *Dostum Samiqə*

***Əzizim Samiq...***
***Əzizim Salman...***
**Bu ömürdü yaşayırıq...**
**Həm elədi... həm də belə...**
**Keçib gedən günlərimiz**
**Həm elədi.., həm də belə...**
**Qarşı-qənşər günlərimiz**
**Ümidliyik, gəlir belə...**
**Nə edək ki, ay qardaşım,**
**Ümid dolu günümüz də**
**əksər zaman**
**Həm elədi.., həm də belə...**
**Eh!...**
**Hey düşünürəm...**
**Nəyə görə çox şeyimiz**
**Həm elədi.., həm də belə?..**
**Dost-yoldaş...**
**Bacı-qardaş...**
**Ata-ana...**
**Övladların-ciyərparən...**
**Hətta bütün varlığınla**
**Bağlandığın ən əziz kəs...**
**Bir də gördün....**
**Həm elədi.., həm də belə...**

**Niyə axı...**
**Düşüncəmiz,**
**Əməlimiz,**
**Sevincimiz-kədərimiz...**
**Hönkürtümüz-qəhqəhəmiz...**
**Hətta çox vaxt**
**Eşqimizlə nifrətimiz**

**Həm elədi.., həm də belə?..**
**Niyə axı?**
**Dağlar-dərələr,**
**Yerimiz-göyümüz,**
**Yolumuz-izimiz,**
**Torpağımız-suyumuz,**
**Çörəyimiz-duzumuz,**
**Həm elədi.., həm də belə?..**
**İmanımız, gümanımız,**
**Hünərimiz, cürətimiz,**
**Sözümüz, niyyətimiz,**
**Daha nə bilim nəyimiz,**
**Həm elədi.., həm də belə?..**
**Nə yaxşı ki,**
**Namus,**
**Qeyrət,**
**Mənlik,**
**Ləyaqət,**
**Kişi sözü - Türkün sözü olmur,**
**Həm elədi.., həm də belə?..**
**Nə yaxşı ki,**
**Olum olmur,**
**Həm elədi.., həm də belə?..**
**Ölüm olmur,**
**Həm elədi.., həm də belə?..**
**Ruzi olmur,**
**Həm elədi.., həm də belə?..**
**Haqq...**
**Haqqın yolu olmur,**
**Həm elədi.., həm də belə?..**
**Nə yaxşı ki...**
**Nə yaxşı ki.**

**Az da olsa, var dünyada**
**İnsanlar ki, ola bilmir!!!**
**Həm elədi.., həm də belə?..**
**Onlar ancaq olur belə...**
**Onlar ancaq ölür belə...**
**Onlar ancaq qalır belə...**
**Əzizim Samiq...**
**Əzizim Salman...**
**Sən buracan gəldin,**
**Belə...**
**Mümkün deyil bundan sonra**
**Sən olasan**
**Həm elədi.., həm də belə...**
**Sənin yolun ancaq belə!!!**
**Uğurlu yol, Dostum, sənə!..**
**Uğurlu yol!..**
**Ey hamıdan Uca Tanrım,**
**Bizi qoru o yoldan ki,**
**Həm elədi.., həm də belə!..**

***17.04.2003.***
***Bakı***

## *Unut məni*

Unut məni, ey təbiət,
xatırlama heç bir zaman.
Çünki sənə lazım deyil
qəlbən məhv olmuş bir insan.
Unut məni, ey dağ-dərə,
ey sərt qaya, xallı lalə,
Qədrinizi bilmədim mən,
yanıram indi həsrətlə.
Unut məni, ey gəncliyim,
heç bir vaxt da salma yada,
Sevgi ilə keçən günlər,
qəlbimi hey ağrıtsa da.
Unut məni, əziz dostum,
sayma məni sən görəndə,
Çünki qalmayacaq sənə
məndən kiçik xatirə də...

***Naxçıvan***
***16 fevral 1975***
***20.11.1981***

## *"Yanıq Kərəm"*

Ay aman!..
Bu nə səs,
bu nə haraydır...
Qatıb bir-birinə
tozu-dumanı
Elə bil,
dağlardır,
uçulub gəlir...
Elə bil,
min illik
yatmış vulkandır,
oyanıb dağıdır
düzü-dünyanı...
Elə bil, Arazla
Kürdür, coşaraq,
oynadır yerindən
daşı-qayanı...
Yox!..
Yox!..
Bu nə vulkan səsidir,
nə uçqun səsi...
bu nə sel səsidir,
nə insan səsi...
Bəs, bu nə səsdir ki,
qəlbi inlədir?
Bütün varlıqlara
hakim kəsilir?
Bu,
üç telli sazın
ah-fəğanıdır!..

"Yanıq Kərəm!" – deyib
tellər ağlayır..
"Yanıq Kərəm!.. Aman, qoyma,
Yanıq Kərəm!" –
Fəryad edir saz...

Gah zildən,
gah bəmdən
ağı deyir saz.
Aşıq çalır
"Yanıq Kərəm..."
Yana-yana
başın qoyub
sazın üstə
çalır aşıq...
Barmaqları şığıyır
tellərin üstə,
Haray çəkir
pərdələr:
"Aman, qoyma
yandı Kərəm!"...
"Yanıq Kərəm" –
məhəbbətin kinə qarşı
savaşıdır...
"Yanıq Kərəm" –
ədalətin haqsızlıqla
davasıdır...
"Yanıq Kərəm" –
vətənimin
ərlərinin
qəzəbidir!...

Babəklərin
nərəsidir,
Qoç Nəbinin
azğınlara,
ağalara
nifrətidir...
Gərayımın sinəsindən
qopan ahdır,
Nər Mehdimin
dodağında
donub qalmış
son nidadır!..
Sıxıb sinəsinə
sədəfli sazı,
Aşıq çalır...
Saz inləyir...
Elə bil ki,
“oğul dağlı”
ağ birçəkli analar,
Bayatı çağırır,
ağı söyləyir..
Aşıq çalır
“Yanıq Kərəm”!
Yana-yana
başın qoyub
sazın üstə
çalır aşıq...
Barmaqları şığıyır
tellərin üstə,
Haray çəkir
pərdələr:
“Aman, qoyma,
Yanıq Kərəm!...”

***Bakı: 24-28.10.1980***


Унут мәни
Нахчыван
16 феврал 1975
20. 11. 81.


„Ҹаныг Кәрәм"

# *Elmanın gündəliyindən*







Имам Садиг (ә) бујурур:

«Өз һачәтини (Аллаһдан) истә вә өз истәјиндә исрар ет, чүнки һәгигәтән Аллаһ Өз мө'мин бәндәләри ичәрисиндә исрар едәнләрини исрарыны севир.» «Васаилуш-шиә», ч.7, с.60

19/7/1422 | Һичри гәмәри 1422 | Милады 2001 | 7/10/2001

Базар

РӘЧӘБ 19

ОКТЈАБР 7

Шәр'и вахтлар (Бакы үфүгү илә)

Субһ азаны 5-12
Күн чыхыр 6-43
Күнорта азаны 12-28
Күн батыр 18-20
Ахшам азаны 18-35
Кечә јарысы 24-28

Инсан, хүсуси шәраитләрдә, чәтинлијә дүшәндә өзүндән үстүн вә јүксәкдә олан мәхлугларә еһтијачлы олмасыны дујур. Бу, онун дахилиндән кәлән фитри бир сәс олуб ону јеканә Аллаһа доғру чағырыр. Гур'ани-кәрим бу барәдә бујурур:: «Мүшрикләр кәмијә миндикләри заман (дәрјада батачагларындан горхуб) ихласла, јалныз Аллаһы чағырыб дуа едирләр. Аллаһ онлары сағ-саламат гуруја чыхаран кими, јенә дә (Она) шәрик гошурлар.»

196

## *Orta məktəb yazıları*
## *(Qaralama)*


(Гаралама)
Нахчыван шәһәр Н. Туси адына 9 №-ли орта мәктәбин VIII^a синиф шагирди Әлијев Елманын ана дилиндән имтаһан јазы иши.


7 ијун 1974-ҹү ил.
Сон дөврдә охудуғум китаб.
Инша.
Китаб — инҹиләр, мирвариләр хәзинәси!

# *İnşa dəftərindən*



5/5

Нахчыван шәһәр Н. Туси
адына 9 №-ли орта мәк-
тәбинин VIII "а" синиф ша-
ҝирди Әлијев Елманын
ана дилиндән инша-
лар јазы иши



7 ијун 1974-ҹү ил.
Сон дөврдә охудуғум китаб.
Инша.
Китаб — инҹиләр, мирвариләр хәзинә-
си!
Китаб — бүтүн бәшәријјәтин мүәл-
лими!
Китаб — ҝәләҹәјин мүждәчиси!
Китаб — бир нәслин диҝәр нәслә вер-
дији мәнәви сәрвәт!
Бөјүк Азәрбајҹанын мәрд оғлу Мех-
ди Һүсејнзадә гәһрәманлығы китаблардан
өјрәнмишдир. Бәлкә, Һүсејнбала Әлијев дө-
зүмү алмагда өзүнү Короғлуја бәнзәтмиш-
дир. Китаб инсанларын ән јахшы досту-
дур. Буна ҝөрәдирми ки, Ленин һәбсха-
нада, сүрҝүндә, һәтта хәстәханада ки-
таб охумаг она гадаған олундуғу һал-
да, о, мүталиә етмиши. Пушкин ахыр
нәфәсиндә сон сөзүнү китаблара демиш-
дир.
Китаб севирләри машын кими инсан-
лары һәм кечмишә, һәм дә ҝәләҹәјә апа-

## *Hazırladığı kitablardan...*







Əshabi-Kəhf
Tanrı hüzuruna gedən yol
Kitab pulsuz paylanır.
Hazırlanmasında zəhməti
olanlardan Allah razı olsun.
Məsləhətçi: Hacı Sabir Həsənli
Qafqaz müsəlmanları
idarəsinin sədr
müavini, Bakı İslam
Universitetinin rektoru.
«Nəhəcir» Məhdud Məsuliyyətli Cəmiyyət.
CAR Nəşriyyat-poliqrafiya müəssisəsində çap olunmuşdur.
Tel: 430-23-10, 430-23-20.


Hacı Qadir Qədirzadə
HƏZRƏT-İ
İNSAN

*Mədəniyyət*

Azərbaycan torpağının dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olması, ölkənin geosiyasi yerləşdiyi məkan, qədim İpək Yolu üzərində yerləşməsi, respublikanın ərazisində dünyada mövcud olan 11 iqlim zolağından 9-nun mövcudluğu, lazımi nəqliyyat kommunikasiyaların olması, turizm üçün lazımi infrastrukturanın mövcudluğu Azərbaycanı dünyanın ən mühüm turizm mərkəzlərindən birinə çevirməyə imkan verir.

Lakin bu məsələnin praktik həlli zamanı gənc dövlətçiliyimiz üçün problem yaradacaq milli təhlükəsizlik məsələləri diqqətdən yayınmamalıdır.

Məhz bu önəmli məsələyə diqqətin yayınmasının nəticəsidir ki, keçən ilin yayında rus şərqşünası A.Polyakov Azərbaycan Gənclər İdman və Turizm Nazirliyinin dəstəyi ilə Naxçıvan MR-nın turizmə hazır olmayan və ya arxeoloji işlər heç başlamayan və ya icazə verilə bilməyən bir sıra qədim memarlıq və millətin mentaliteti üçün çox önəm daşıyan dini obyektlərində olmuşdur. Bu zaman onun yanında AMEA-nın Arxeologiya institutunun və AMEA Naxçıvan bölməsinin heç bir əməkdaşı olmamışdır. Özü ilə gətirdiyi guya Ginnesin rekordlar kitabına düşən və guya 99 dil bilən Əfqanıstan mühribəsində kontuziya almış Villi Melnikov adlı birisi (və digərləri ilə birgə) bir neçə gün Naxçıvan MR-nın müxtəlif bölgələrində olduqdan sonra Moskvadan müxtəlif KİV ilə ümumbəşəri tarix üçün sensasion olacaq açıqlamalar verməyə başlamışdır.

Eyni zamanda Azərbaycan alimlərinin bu bölgədə heç bir araşdırma aparmadıqları barədə həqiqətə uyğun olmayan təhqiramiz məlumatlar yayaraq, Azərbaycan xalqının min illər boyu qoruyub saxladığı müqəddəs ziyarətgahlar barədə də yumşaq desək uydurmalar, ağlasığmaz, ucuz sensasiya xarakterli məlumatlar verməkdən çəkinməmişdir.

O daha da uzağa gedərək 2005-ci ilin may ayının 13-dən başlayaraq Naxçıvan MR-da konkret proqramla paralel olaraq həm arxeoloji, həm turist gəzintisi təşkil edəcəyini və eyni zamanda apardığı tədqiqatlarını dünyaya canlı teleyayımla ötürüləcəyini bəyan etmişdir. İlk arxeoloji qazıntı işini isə

Televiziya

Son zamanlar Rusiyanın müxtəlif KİV-də və internet saytlarında rus şərqşünası A.Polyakovun guya 2005-ci ilin may – avqust aylarında Naxçıvan MR-na edəcəyi səfər – ekspedisiya zamanı dünya tarixi üçün əhəmiyyətli sensasiyon kəşflər edəcəyi barədə milli mənafeyimiz üçün qərəzli, təhlükəli məlumatlar yer almaqdadır.

Bu məsələ ilə əlaqədar lazımi alternativ təbliğat mexanizmi yaradılması ilə əlaqədar olaraq televiziya kanallarında Azərbaycan MEA-nın və onun Naxçıvan bölməsinin bu sahə üzrə aparıcı elmi tədqiqat institutlarının və ali təhsil müəssisələrində çalışan dəyərli alimlərinin, Qafqaz Müsəlmanları idarəsinin və onun elmi dini şurasının mütəxəssislərinin, Din üzrə Dövlət Komitəsinin əməkdaşlarının, bu işlə maraqlanan vətəndaşların iştrak etdiyi müntəzəm televiziya proqramlarının, televerlişlərin, telefilmlərin yaradılmasını məqsədəuyğun hesab edirik.

Paralel olaraq bu sahədə yeni aparılan və aparılacaq tədqiqat işlərinin təbliğ olunaraq bu haqda tamaşaçılara müntəzəm məlumat verilməsi cəmiyyət üçün və böyüməkdə olan gənc nəsil üçün çox önəmlidir.

Dünya praktikası göstərir ki, qədim tarixi yaşayış məskəni olan Azərbaycanın indiyədək öyrənilən (və gələcəkdə öyrəniləcək) və rəsmi qaydada turizm üçün açılmış tarixi abidələrinin və turist marşrutlarının təbliği və reklamı gənc respublikamızın iqtisadiyyatına və o cümlədən blokada şəraitində yaşayan Naxçıvan MR-nın iqtisadiyyatının inkşafına güclü dəstək verə bilər.

Göstərilən məsələlərlə əlaqəli lazımi tədbirlər görməniz və bu barədə bizə müntəzəm məlumat verməniz rica olunur.

*Turizm*

Azərbaycan torpağının dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olması, ölkənin geosiyasi yerləşdiyi məkan, qədim İpək Yolu üzərində yerləşməsi, respublikanın ərazisində dünyada mövcud olan 11 iqlim zolağından 9-nun mövcudluğu, lazımi nəqliyyat kommunikasiyaların olması, turizm üçün lazımi infrastrukturanın mövcudluğu Azərbaycanı dünyanın ən mühüm turizm mərkəzlərindən birinə çevirməyə imkan verir.

Lakin bu məsələnin praktik həlli zamanı gənc dövlətçiliyimiz üçün problem yaradacaq milli təhlükəsizlik məsələləri diqqətdən yayınmamalıdır.

Məhz bu önəmli məsələyə diqqətin yayınmasının nəticəsidir ki, keçən ilin yayında rus şərqşünası A.Polyakov Azərbaycan Gənclər İdman və Turizm Nazirliyinin dəstəyi ilə Naxçıvan MR-nın turizmə hazır olmayan və ya arxeoloji işlər heç başlamayan və ya icazə verilə bilməyən bir sıra qədim memarlıq və millətin mentaliteti üçün çox önəm daşıyan dini obyektlərində olmuşdur. Bu zaman onun yanında AMEA-nın Arxeologiya institutunun və AMEA Naxçıvan bölməsinin heç bir əməkdaşı olmamışdır. Özü ilə gətirdiyi guya Ginnesin rekordlar kitabına düşən və guya 99 dil bilən Əfqanıstan mühribəsində kontuziya almış Villi Melnikov adlı birisi (və digərləri ilə birgə) bir neçə gün Naxçıvan MR-nın müxtəlif bölgələrində olduqdan sonra Moskvadan müxtəlif KİV ilə ümumbəşəri tarix üçün sensasion olacaq açıqlamalar verməyə başlamışdır.

Eyni zamanda Azərbaycan alimlərinin bu bölgədə heç bir araşdırma aparmadıqları barədə həqiqətə uyğun olmayan təhqiramiz məlumatlar yayaraq, Azərbaycan xalqının min illər boyu qoruyub saxladığı müqəddəs ziyarətgahlar barədə də yumşaq desək uydurmalar, ağlasığmaz, ucuz sensasiya xarakterli məlumatlar verməkdən çəkinməmişdir.

O daha da uzağa gedərək 2005-ci ilin may ayının 13-dən başlayaraq Naxçıvan MR-da konkret proqramla paralel olaraq həm arxeoloji, həm turist gəzintisi təşkil edəcəyini və eyni zamanda apardığı tədqiqatlarını dünyaya canlı teleyayımla ötürüləcəyini bəyan etmişdir. İlk arxeoloji qazıntı işini isə

*Maliyyə*

Son zamanlar Azərbaycanın və Rusiyanın müxtəlif KİV-də Rusiyalı şərqşunas – türkoloq Andrey Polyakovun «Nuh peyğəmbərin gəmisi» və gəminin Naxçıvanda tapıldığı; Nuh peyğəmbərin məzarının Naxçıvanda olması; Ümumdünya tufanından sonra Nuh peyğəmbərin Naxçıvanda qərar tutması barədə respublika əhalisi arasında ciddi narahatlıq doğurmaqdadır.

Bir çox materiallardan görünür ki, o bu ekspedisiyanı həm də paralel olaraq turist gəzintisinə döndərmək istəyir və bütün görüləcək işləri canlı teleyayımla müşaiət olunacağını bildirir.

Həqiqətən uzaq olsa da, diqqət çəkən məqamlardan biri də budur ki, Naxçıvanda Azərbaycan alimlərinin heç bir arxeoloji və digər tədqiqat işləri aparılmadığı önə çəkilir və tez bir zamanda (may-avqust aylarında) dünya əhəmiyyətli tarixi kəşflər ediləcəyi bildirilir və hətta Nuh peyğəmbərə heykəl düzəldiyi və himn yazıldığı da vurğulanır.

Bu işləri hansı maliyyə vəsaiti ilə görəcəyi isə açıqlanmır.

Bu məsələnin arxasında Azərbaycanın Milli maraqlarına qəsd gizlənməsi faktı şübhəsizdir.

Araşdırmalarımız göstərir ki:

Həqiqətən uzun illər boyu Naxçıvanda və Azərbaycanın digər önəmli tarixi mədəni yerlərində aparılmış arxeoloji və digər tədqiqatlar özünün həcmi və keyfiyyətinə görə günün tələblərinə cavab vermir.

Ümummilli liderimiz H.Ə.Əliyevin 2002-ci ilin yayında AMEA-nın Naxçıvan bölməsinin yaradılması və Naxçıvanın tarixi yerlərində o cümlədən, Xaraba Gilan, İlanlı dağ, Kültəpə, Şərur və s. yerlərində qədim tarixin öyrənilməsi üçün elmi ekspedisiyaların təşkili, bu diyarın turizmə açılması və Möhtərəm Prezidentimiz İ.H.Əliyevin regionların sosial iqtisadi inkşafına uzunmüddətli dövlət proqramının təsdiqi haqqında fərmanına (2003-cü il) uyğun olaraq AMEA-nın rəhbərliyi altında onun Naxçıvan bölməsinin iştrakı ilə xarici dövlətlərdən və MDB ölkələrindən müxtəlif sahələri əhatə edən və imzası dünyada qəbul edilən alimlər dəvət olunmaqla uzunmüddətli (bir neçə illik proqramm əsasında) elmi-arxeoloji işlər və qazıntılar aparılmalı və lazımi

1



**Ustad deyə işığına sığındığı böyük şair Məmməd Arazla**



**Elman Əliyev Azərbaycanın görkəmli mədəniyyət xadimləri ilə**




**Tanınmış ziyalılar Elməddin Əlibəyzadə və Mirələkbər Seyidovla**



**Elman Əliyev Akif İslamzadə ilə**




**Elman Əliyev toplantıda çıxış zamanı**



**Toplantı sonrası**



**Elman Əliyev sənət adamları ilə**







**Yaxın dostları ilə**

## *Sözü Məmmədsiz qalan yurdum heyyy!!!*

Bu gün sənsizlikdən günlər keçir. Yerin görünür. Sözlərimiz yetim, sərgərdandır, Hocam. Tanrı sənə də Söz adlı bir möcüzə vermişdi:

***Qılınc kimi suvar sözü,***
***Döyüşlərə apar sözü,***
***Qorxar sözdən "məzar" sözü,***
***Söznən zarafat eyləmə.***

Sən sözə səcdə edirdin. Sən sözü sevirdin. Sən sözə aşiqdin. Sən sözü qanınla suvarırdın. Sən biganələrlə, qana susamış quduzlarla, qudurğanlarla, adını demədiyimiz, "onlar" dediklərimizlə döyüşə Sözlə GEDİRDİN...

Sən sözə hesabat verirdin:

***Hürənə dəm tutanı yalaq başında gördük,***
***Həddinə göstərmədik sözün həddini, ustad!***

Hər döyüşdən də qalib qayıdırdın. Hocam heç bu DIN, DİN, DUN, DÜN şəkilçilərinə dilim yatmır. Sənin haqqında keçmişdə danışmaq da var imiş mənim taleyimdə:

***Daha gəlməyəcək Məmməd harayı,***
***Bizə də taleyin YUMRUĞU dəydi.***

Özü də yaman dəydi. Nə yaman ağır imiş Hocasız qalmaq. Nə yaman ...

Mən bilirdim qulaq mehriban bir söz üçün göynəyər. Amma, Hocamın qartal başlı çəliyinin hər qapı zəngindən sonra gələn qeyri ahəngdar taqqıltısı üçün də göynəyərmiş qulaqlar...

Sənin yeriməkdən çox ayaq sürüməyə bənzər qeyri ahəngdar addım səslərin üçün də göynəyərmiş qulaqlar.

Sənsizlik göynərtisi var içimdə, Hocam. Səs göynərtisi... Qəlb göynərtisi... Göz göynərtisi...

Qardaş göynərtisi(Allah bilər bunu yazmağa nə qədər haqqım çatır, amma sən bu haqqı vermişdin)...

Göynəyirəm, Hocam... Amma kədərlənmirəm.

Göynəyirəm, Hocam... Amma ağlamadım, ağlamıram, ağlamaram da... Gedənin arxasınca aglamazlar. Sən getmisən, qayıdacaqsan... Nə sən gedər gəlməzə inanırdın. Nə də mən inanıram:

***Gedər-gəlməz!***
***Bəs varmı, görəsən,***
***gələr-getməz,***
***ölər-itməz,***
***itər-ölməz qanunları?***
***"Var" deyirəm öz-özümə.***
***Bəs biz nəyik!***
***Bəlkə, elə Xaqaninin, Nəsiminin***
***zərrəsiyik.***
***Yoxsa, axı nəyə gərək***
***Bu havayı gediş-gəliş.***

Hocam, yenidən səni oxuyuram: Fikrinin çəkisi özündən ağır, Hocam.

Sən öz fikrinin ağırlığına tabladın, Hocam. Bu ağırlığa ayaqların gərildi, əsdi, amma tabladın... Dedilər xəstəsən.

O fikirləri yazıya çevirəndə əllərin əsdi... Dedilər xəstəsən.

O sözləri dilinə gətirmək istəyində dodaq titrədi, baş əsdi, deyiləcək söz sənin vücuduna sığmadı... Dedilər xəstəsən.

Səsin pıçıltı kimi gəldi bizə.

Amma o haraydı. O elə bir uca haraydı ki, biz onu pıçıltı kimi anladıq. Pıçıltı harayı...

Yox! Hocam, sən xəstə deyildin! Sən çox sağlam idin. Amma o yük ki, sən çəkirdin, altına girən az idi. O yükün altına girənlərin çoxu...

O can o ağırlığa, o yükə 30 il tabladı. Mənzil başına çatdırdın yükü, sənə verilən ömür payında çox dözümlə, səbirlə daşıdın yükü.

İndi o yük qalıb ortada .

Kimsə varmı, bu yükə sahib çıxsın?...

### *Sözü Məmmədsiz qalan yurdum hey...*

500 il öncə Məhəmməd Füzulidən qalmışdı bu SÖZ

Füzulinin babalardan aldığı bu yükün XX əsrdə sizlər girdiniz altına: Cavid, Müşfiq, Səməd, Rəsul, Vahid, Şəhriyar (Adını çəkə bilmədiklərimin ruhu bağışlasın məni)...

Sonra bu yükü çəkənlərin sıraları yaman seyrəldi. Çox seyrəldi. Lap çox.

Dözdün, Hocam. Sözü mənzilinə yetişdirdin. Adlatdın 21-ci əsrə. Yeni əsrə şərəflə gətirdin əmanəti.

***"Yol ayrıcında " çaşmadın.***

Əllərin əsdi yükün ağırlığından, amma ürəyin əsmədi. Dizlərin əsdi, amma qəddin əyilmədi. Dodaq titrədi, sifətin səyridi, amma dilin heç zaman çaşmadı:

***Bu dünya bir sınıq gəmi,***
***Tərsi hara, düzü hara...***
***Məni alıb yedəyinə,***
***Üzgü bilməz üzür hara?...***

- dedin, Hocam. Qollarını avar edib, səmtini itirmiş bu dünya adlı gəmini səmtinə yönəltməyə çalışdın. Günəşi gizlədib zülmətin vahiməsini, qorxusunu bizə anlatmağa çalışdın.

***Arazda şaxələnən çinar oldun,***
***Tufan əydin, su yardın ki,***

olan qalan türklüyümüzü tufanlar perik salmasın, sellər yuyub aparmasın.

Səbirlə dözdün bu biganələr iqliminin sərt şaxtasına, çovğununa.

Gah da nəfəsini Murovda səngərdə sayıq əsgərlərin nəfəsinə qoşdun ki, buz bağlamış döyüşkənliyimizin donu açılsın, cəsarətimizi tətiyə qoyub, Qarabağda, Zəngəzurda, Borçalıda, daha nə bilim harada - Gündoğandan Günbatana düşmən nəslinin qəhqəhəsini hədəfə alaq, düşmənin qəhqəhəsini ağzındaca qoyaq.

Gah da döyüş meydanından qaçan kişilərə "Səhra məhkəməsi" qurdun. Prokuror da özündün, məhkəmə də. Ağır məhkəmə idi, "Düşmən qabağından qaçan kişilər" məhkəməsi:

Müttəhim- ***Başını qorudu boş papağınan,***
***Pay verdi düşmənə zər tabağınan;***
***Tökdü namusunu it qabağına***
***Düşmən qabağından qaçan "kişilər".***

Hökm: ***Haqqı yox özünə qəbir qazmağa.***
***Haqqı yox bu yurda ayaq basmağa.***

Sən qalmışdın Allahla bizim aramızda:

Düşmən laylasına yatanların dərdi...Qoltuğa sığınanların dərdi...Mürgülülərin dərdi. Bizliyə, sizliyə bölünən yerlibazların dərdi... Lovğa mənlərin dərdi... Qudurğanların dərdi... Mələyən qurd dərdi...

Sən kainatı bizə tanıtmağa, öyrətməyə çalışdın. Sən hər şeyi olduğu kimi öyrətməyə çalışdın. Palçıqlı, bulanıq, donmuş gölməçələrə biganələrin gözü dedin. Yarğanlara yalan dedin. Qəlbi yanan kəslərə Vulkan dedin. Dedin.. Dedin...

***Xoşbəxt o kəslərdir ki, arzuladığı kimi olur.***

Sən vətəndaş olmaq istədin... Oldun. Qayalarda mamıra dönmək istədin... Döndün. Sən son anında duman olmaq istədin... Oldun. Qəfil ölüm istədin... Nail oldun. Sən quma dönmək istədin... Onu da oldun. Sən şer yazmadın, sən sözü həyata güzgü etdin. Həyatı göstərdin bizə... Həyatı öyrətdin bizə:

***Nə yaxşı ki,***
***Əlifba***
***Atadan başlanır,***
***Anadan başlanır.***

Sən belə yazmışdın "Atamın kitabında". Hər dəfə bu poemanı oxuyanda, düşünürsən ki, doğrudan da:

***Nə yaxşı ki,***
***Əlifba***
***Allahdan başlanır,***
***Amindən başlanır,***
***Anadan başlanır,***
***Atadan başlanır.***

Sən öz zirvənə çatmaq istəyirdin - Məmməd Araz zirvəsinə. Sən çatdın öz zirvənə:

***Yığıb qanadını qaya başından,***
***Uzaq uçuşlara şığıdığı an***
***Mənə bağışlana dağ qartalından...***

1963-cü ildə yazıb, üç nöqtə qoymuşdun - Məmməd Araz zirvəsi.

Çatdın o zirvəyə, Hocam. Zirvən mübarək, Hocam!!!

O zirvəni fəth etməyə "Duman ömrü " lazım idi. Haqq etdin o ömrü. Onu ancaq sən bacarardın. Bu sənin "Borc"un idi. Ölümlərə baş əymədən yaşayacağam dedin. Yaşadın və ölümlərin acığına Ölümü qəbul etdin, ölümsüzlüyə getdin:

***Varım-yoxum beş on sözdü-yurda qismət.***
***Bu torpaqdan bircə ovuc torpaq alıb,***
***Bircə kəlmə xoş söz alıb,***
***Öz köçümü yığıb getmək istəyirəm,***
***Yığıb getmək,***
***Çıxıb getmək istəyirəm.***
***Çıxıb getmək...***

Dedin də, getdin də... Amma çox soyuq görüşüb getdin. Çox soyuq...

***İndi daha qaynar təbin ayazdı,***
***İsidərmi bir od-ocaq, nə bilim?..***

Gedişindən günlər ötür, gün ötür, yaxud aylar, illər ötsə nə fərqi?... Artıq sən getdin. Gedər gəlməz yolunu yox ha, Hocam ...Ölümsüzlüyə getdin! Çoxdan getmək istəyirdin. Amma səni "Ölməyə qoymayan" dostlarına görə getmirdin.

***Çox duyğulu deyirdin:***

***Məni ölməyə qoymurlar.***

Çox təəssüf ki, biz səni ölməyə qoymayan dostlarından ola bilmədik, Hocam...

Amma səndən bir xahişim var. Bilirsən ki, Hocam, sənə heç vaxt xahiş etməmişəm. Amma indi bir xahiş edəcəyəm. Onu ancaq sən yerinə yetirə bilərsən.

Niyə gülümsədin, Hocam? Yenə sağ əlin əsə-əsə çox mənalı şəkildə getdi qaşlarının üstünə. Bildinmi nəyin xahişini edəcəyəm?

Həmişəki kimi çox mülayimcəsinə başını tərpədirsən ki, deyim...

Bu dəfə icazə verməsən də, deyəcəkdim. Çünki bu xahişi səndən başqa kimsənin yerinə yetirəcəyinə inana bilmirəm:

***Ey daşlaşan, torpaqlaşan ulu babam!***
***Bu günümdən dünənimə uzaqlaşan ulu babam!***
***Ayağa dur!***
***Dəfn etdiyin məsəlinin***
***Başdaşına***
***Bir təəssüf xatirəsi yazıb, yondur:***
***Səndən ötən mənə dəydi,***
***Məndən ötən sənə dəydi,***
***Səndən , məndən ötən zərbə***
***Vətən, Vətən, sənə dəydi...***

Yazdır ha, Hocam...Mütləq yazdır!.. Mən bilmirəm:

Daş dilində yazdır! Od dilində yazdır! Su dilində yazdır! Gürşad dilində yazdır! Ağac dilində yazdır! Duman dilində yazdır! Torpaq dilində yazdır!

Yazdır...Yazdır...Yazdır...Bütün dillərdə yazdır... Amma sonda QƏLB dilində yazdır...

Bəlkə, İmana gələk... Bəlkə, bundan sonra evimizin içində, gözümüzün qabağında zorlanmış, it qabağına atılmış Namusumuzu qurtara bilən Vətən daşına dönək... Bəlkə, bundan sonra Ulu dağlarımızın ağ örpəyinə düşmüş qeyrətsizlik ləkəsini yuya biləcək gürşada dönək...

Bəlkə, bundan sonra ocağımızın başında tariximizə, mədəniyyətimizə, elmimizə, Nizami atamıza, ulu babalarımıza sahib çıxanlara şir payı - şilləyə dönək... Bəlkə, bundan sonra "Döz !" deyiləndə dözməyək, Özümüzü doğramaqdan əl çəkib, ağzımızdan halal tikəmizi qapan əlləri kəsən baltaya dönək... Bəlkə, bundan sonra

***Əl çala-çala alçalmayaq...***
***Namusunu yeyənləri ayağa salaq...***

Bir az tez yazdır təəssüf xatirəsini, Hocam!..

***Axı, yazısız BAŞDAŞI, BAŞ DAŞI  olmaz!!!***

***Elman İslam,***
***Şəmidə Mahmud***
***25 yanvar 2005***

## *M.Araz – qəlblərə işıq daşıyan insan*

***Məmməd Araz yazdı:***

***Kim işığı ürəklərə doğrayar,***
***Kim işığı ürəklərdən oğrayar...***

Qələmi ilə işığı ürəklərə doğradı Məmməd Araz. Allahın ona verdiyi işıq payını necə almışdısa, elə də payladı.

Məmməd Araz yazdı, amma azmadı. Ürəyi deyəni yazdı əlləri.

**Məmməd Araz yazdı...**Amma Arazla danışdığını yazdı. Palıdla söhbətini yazdı... Daşların harayından yazdı.

Məmməd Araz haqq yazdı, meydanda tənha qaldı...Yol ayrıcında tənha qaldı Məmməd Araz. Həmin anda kimi taxtından yapışdı, kimi toqqasından...

Məmməd Araz yazdı. Buyruqlara sığışmayan inadıyla, nizamlara baş əyməyən nizamıyla yazdı...

Məmməd Araz az yazdı...Umacaqsız yazdı. Bir daş sinəsi mamır payı üçün yazdı. Kürəyini ana torpağa söykəmək payına yazdı.

Kimlərinsə söz hökmündə qul olmadı, söz hökmündə Atabəy oldu Məmməd Araz.

**Məmməd Araz yazdı.** Yazılarıyla fikirlərinin, duyğularının, hisslərinin rəsmini çəkdi.

Məmməd Araz yazdı. Söz baqqalı, söz dəllalı olmadı.

Bu get-gəllər bazarında dəvə təkəbbürünə yaxın düşmədi, ömür gün naxışına həvəlik etdi Məmməd Araz. Ömür-gün naxışına üzü dəyən tər çiçəkləri toxudu... Naxışları boyamaq üçün boyaqçıdan rəng almadı, vətən meşələrinin payız rəngindən, vətən ormanlarının yaz rəngindən, vətən düzlərinin qış rəngindən, vətən dağlarının yay rəngindən aldı boyalarını...

Bu ömür-gün xalısını üz qoyduğu daşların üstünə saldı ki, namusunu yeyən qeyrətlilər o daşlarla özümüzü adsız şəhidlərə döndərməsinlər.
Məmməd Araz yazdı. Xətai qılıncından göyərmiş qələmlə yazdı. O qələmi hər barmaq tuta bilməz. Hər bilək saxlaya bilməz. Onu ancaq Məmməd Araz saxlaya bilərdi... Əlləri əsə-əsə saxladı.
O əl yanılmağın qorxusundanmı əsirdi?..
O əl qılıncdan göyərmiş qələmin məsuliyyətini anlayaraqmı əsirdi?..
O əl ağlın yox, qəlbin səsinə diqqət kəsildiyindənmi əsirdi?...
Nə bilim... O əl –

***Bəlkə, əlli misrası yox əllimin,***
***Bu titrəyiş günahıdır əlimin –***

yazdı. Bəlkə, qələmin yazdıqlarının hədər olacağı qorxusundan əsirdi o əl?..

Məmməd Araz yazdı. Elə əlləri əsə-əsə yazdı. Amma qəlbi əsmədi. Qəlbinin hökmünə həm əlləri, həm dizləri tablayırdı. Əllər də, ayaqlar da Məmməd Araz çəkənə əsə-əsə tablayırdı.

Masaya oturanda qələmi kağıza söykərdi ki, əl əsməsin, yeriyəndə əsasını yerə söykərdi ki, ayaq əsməsin. Hər ikisindən eyni səs, eyni tıqqıltı gələrdi. Qələm səsi - əsa səsi...

Hüseyn Cavid əfəndinin bir kəlməsi yadıma düşür (bu kəlməni dostumuz Azər Turandan eşitdim). Cavid əfəndi əsəbiləşəndə əsasını yerə vura-vura deyərmiş: özün çaşasan məni çaşdıran!

İnsanı çaşdırmaq istəyən iblis-şeytanlardır. Onda anladım ki, Məmməd Arazın nə əli, nə də ayağı əsirmiş...Tənha qalmış Məmməd Araz qollarından sallanmış, ayaqlarına dolaşmış iblis şeytanları qovurmuş:

***İnsana yad insanlığım göyərsə,***
***Yaxşı şumda yamanlığım göyərsə,***
***Köhnə kösöy şeytanlığım göyərsə,***
***Tanrım, məni məndən qoru bu yaşda.***

2005-ci il 14 oktyabr. Məmməd Arazın doğum günü - ad günü. Bu il düşüb müqəddəs Ramazan ayına - Allahın ən gözəl ayına. Yaza-yaza düşünürəm ki, təsadüfdürmü bu?

Amma nə sən, nə də mən təsadüfə inanmırıq axı.

**Məmməd Araz yazdı. Az** yazdı. O sözə oruc yazdı. Sözləri aradı yazdı. Arınmış yazılar yazdı. Arlı yazılar yazdı Məmməd Araz. Elə adına layiq yazdı Məmməd Araz.

Hər ad günündə çiçəklərlə təbrik edərdik. Amma bu il...

2005-ci il 14 oktyabr da düşdü seçki dövrünə...

Hərdən düşünürəm ki, Allah bizə də Sarıbulaq dərəsində qoyun otaran çobanın, Naxçıvanda Əshabi-Kəhf ziyarətgahındakı bağbanın qəlbinə verdiyi cəsarətdən versin...Çobana o kamilliyi, o hikməti, o cəsarəti verdi ki, o, Sarıbulaq dərəsində yol üstündə sal bir daşı "Məmməd Araz kürsüsü" adlandırırdı. Əshabi-Kəhf ziyarətgahında bağban əkdiyi qoz ağacını Məmməd Araz adından əkdi.

Bunu düşünürəm, düşünürəm...Xəyaldan qələmimin tıqqıltısına ayrılıram, baxıram qarşımda iki "fərman" var: Sarıdərə çobanının fərmanı, Əshabi-Kəhf bağbanının fərmanı. Düşündüm ki, gecikmiş də olsa, bu da mənim - heç nə olan kimin "fərmanı" (mən özüm bilirəm nəçiyəm, nəyəm - M.Araz) olsun:

**1. Gündoğandan Günbatana mənzilin Vətən göyü göylüyündə "Bu mənzildə Məmməd Araz yaşayır" yazılsın.**

**2. Zirvədəki əl çatmayan qala, dağların ətəyindəki sinə-cığır, tala müvafiq olaraq, "M.Araz qalası", "M.Araz talası", "M.Araz sinəsi", “M.Araz cığırı" adlansın.**

**3. Xudafərin harayına "Məmməd Araz harayı" deyilsin.**

**4. Bütün tüstülü ocaqlar "Məmməd Araz ocağı" adlandırılsın.**

**5. Bütün sel ağzı və çay qıraqlarına "Məmməd Araz həyatı" adı verilsin.**

**6. Tufan əyən, su yaran bütün çinarlara "Məmməd Araz çinarı" deyilsin.**

**7. Günəşin zirvədə doğan anı "Məmməd Araz anı" adlansın.**

**8. Qayalarda bitən mamırlara "Məmməd Araz mamırı" deyilsin.**

**9. Vətənsevərləri mükafatlandırmaq üçün "Məmməd Araz sevgisi" ordeni təsis edilsin.**

**10. Qayaları oyan, əl dəyəndə çaxmaq** daşına **dönən çaylaq daşları "Məmməd Araz daşı" adlandırılsın.**

**11. Səndən, məndən ötən zərbələrin hədəflərindən birinə "Məmməd Araz hədəfi" adı verilsin.**

**12. El üçün ağlayan gözlərin göz yaşları " Məmməd Araz yaşı" adlansın.**

**13. Araz boyu bir əsimlik mehə "Məmməd Araz mehi" deyilsin.**

**14. Azərbaycanın döngəsiz yollarından birinə "Məmməd Araz yolu" adı verilsin.**

**15. Ölkə vətəndaşlığı öyrədən məktəblərdən biri "Məmməd Araz məktəbi" adlandırılsın.**

**16. Əlli-dilli gənc yazarları təltif etmək üçün "Məmməd Araz örnəyi" ordeni təsis edilsin.**

**17. Ali məktəblərdə Araz dili, külək dili, daş dili, çay dili, ağac dili ixtisası üzrə təhsil alan tələbələrə "Məmməd Araz" təqaüdü təsis edilsin.**

## *Ozan yurduna gəldi...*

Ana yurda xoş gəldin, Ozan...

Öz elinə xoş gəldin, Ozan...

Palazsız qalmış elə, ocaqsız qalan yurda xoş gəldin, Ozan...

Odsuz ocaqlarımızın qaralan daşları ürəyinə qara xal saldımı?

Ağaran arğaclarımızın harayı ansız ağaran saçlarının ağlığına ağ qatdımı?

Ozan səsinə qəribsəmiş meşələrimdə xan çinarların, qoca palıdların gileyindən göynədinmi?

Qopuz səsinə yadırğamış dağların, dumanlı qayaların durna gözlü bulaqlarından axan göz yaşlarından kövrəldinmi?

Hər qayamda, hər dağımda döyüşə çağıran ocaqlar yanmalıykən, namusu ayaqaltına atılmış ellərimin imdad iniltisinin şaxtalı sazağında inləyərək dondunmu?

Yurd boyu durna qatarları tək səf-səf düzülmüş şəhid məzarlarının od püskürən namus-qeyrət qınağından yanağında donan göz yaşın qurudumu?

Xoş gəldin Ozan! Kökdən düşmüş qəlb tellərimizi kökləməyi sən bacaracaqsan.

Gör neçə illərdir yolunu gözləyirik, Ozan. Nə yaxşı ki, gəldin Ozan. Nə yaxşı gəldin.

Salam, Salam, Mərhəba! - dedin...

“Salam, Salam, Mərhaba!” titrətdi Bakının göylərini. Hər halda mənə elə gəldi.

Düzü indiyədək tanımırdıq Ozan Arifi. Hətta proqramları nədən ibarətdir, xəbərimiz yoxdu bizim. Aldığım dəvətnamə mənim üçün o qədər də anlaşılan deyildi. Bu konserti Türkiyədə təhsil alan tələbələrin hazırladığını bilirdim. Hətta Allahın qismətindən o gənclərin bir gün əvvəl də, görüş keçiriləcək gecədən bir saat əvvəl də keçirdikləri həyəcanın şahidi oldum: birdən adam az gəlsə, Ozanın qarşısında biabır olmarıqmı? -

düşünürdülər. Axşam saat altıda görüş başlayacaqdı. Axşam saat altıda 2500 nəfər tutan Respublika Sarayı tam doldu.

Görüş başlandı. Gənclərin hazırladığı səhnəcik ötən əsrdəki və bu günə qədər davam edən acıları bir daha yaşatdı bizə. Səhnəciyin sonunda hamının yumruqları düyünlənmiş, düşmənə nifrət dolu gözlərdə giləlenmiş damcılar yanaqlarda donmuşdu ki, Nuru Paşaya həsr olunmuş marş çalındı. Marşın əzəmətli sədası altında artıq uzun illərdir ki, qələbə xəbərini qayaları titrədən gur səsiylə ellərə yayacağı anı gözlədiyimiz Şəmistan Əlizamanlı mətin addımlarla beş ildir ki, onun addım səslərinə qəribsəmiş səhnəyə çıxdı.

Alqış... Alqış... Sürəklimi-sürəksizmi bilmirəm, amma qəlbdən gələn alqışlardı... 0 alqışlarda nə qədər sevgi var idi. İlk dəfə oxunurdu Nuru Paşa haqda mahnı. Amma bütün salon ilk anından nəqarəti Şəmistan bəylə birgə oxudu. Nəqarət oxundu. Pərəstişkar sevgisi ilə sənətçi həsrətinin, duetinin şahidi oldu Saray... Sanki hamı əsgərləşdi, Nuru Paşa marşı ilə, "Döyüşən türk" şərqisi ilə "Bakı, Təbriz, Ankara"dan keçərək "Ana yurdum”a, Turana yol başlandı.

Mənə elə gəldi ki, bu gün gündoğandan başladı türkün yolu, yürüşü.

Mahnı qurtardı. Şəmistan səhnədən getmişdi. Lakin salon alqışlar altında hələ də nəqarəti oxuyurdu.

Coşmuş döyüş ruhuna, Fəzail Miskinli "Ruhani" havası ilə bir kövrəklik gətirdi. Gənc aşıq sanki saz çalmırdı. Əlindəki təzanəylə salondakıların ürək tellərini dinləndirirdi. Bütün salon susmuşdu. Bircə sazın simlərinə dəyən təzanənin səsi gəlirdi. O səslə qəlblərimizin tellərini titrədirdi. Səs-səsə qarışmışdı. Saz səsiylə, qəlb səsi. Çox qəribə ansambl yaranmışdı.

Aparıcılar alqış sədaları altında Ozan Eset Kabaklını səhnəyə dəvət etdilər. Tanımırdım. Amma hamı alqışladı. Qolsuz dəri gödəkcədə, sadə geyimdə döyüşçü ruhlu Eset Kabaklı göründü. Əlində türk sazı...

Əyləşdi. İlk oxuduğu Qarabağ haqqında söyləmə oldu: Baban gəzən bu dağları gəz, oğlum,

Düşmənləri bu dağlardan qov oğlum...

Bir saata qədər həm el çəkdiklərindən söylədi, həm də oxudu, bizləri də oxutdu: “Sarı gəlin” oxuduq... “Tello” oxuduq...

"Çırpınırdı Qara dəniz,
Baxıb Türkün bayrağına..."

şərqisi səslənəndə bütün salon ayaq üstə qalxdı...Əllərdə Türkiyənin, Azərbaycanın bayraqları yellənirdi... Hamı necə eşqlə: "Qurban Türkün Bayrağına..." oxuyurdu. Bu eşqin hərarətindən salon kül də ola bilərdi.

Eset Kabaklı çıxışının sonunda ağsaqqal, Hoca saygısıyla, çox böyük ehtiramla Ozan Arifi dəvət etdi səhnəyə...Bu diqqətdən hamı Ozanı ayaq üstə qarşıladı.

Ozan səhnəyə gələndə artıq axşam doqquza on beş dəqiqə qalırdı. Ağsaçlı, ağçarıqlı Ozanım: “Salam, Salam, Mərhəba!” ilə başladı.

Amma salon qarşılığın tam vermədi...

Ozan necə şirin, necə mehribanlıqla salam deməyi, salam almağı öyrətdi bizə. Sağ ol Ozan! Unutduğumuz salamı yenidən öyrətdin bizə:

Salam, Salam, Mərhəba!..

Salam, Salam, Mərhəba, Ozan... Xalqın, millətin güzgüsü Ozan! Gəldin bizi özümüzə göstərməyə... Xoş gəldin, Ozan!..

Bizi kökümüzə, özümüzə qaytardın, Ozan...Ulu xaqanların ruhu qarşısında bizi yaman utandırdın Ozan: Qara xan, Oğuz xan, Atilla, Bilgə Qağan.

İtirilmiş ellərimizlə xəcalətli olduq, Ozan. Oğuz ellərinin sönmüş ocaqlarının qaralan daşları kimi qara üzlü qara başımızı aşağı dikdik, Ozan. Bu qara başlar vətən yolunda qurban getməliykən, xəcalətdən aşağı dikilmişdi...

Bu başlar Xocalıda, Şuşada, Kərkidə, Zəngəzurda, Göyçədə... çox yerlərdə qurban getməliydi. Qurban gedəsi baş əyilməz, dik tutular.

Başımızı dik tutmağı öyrətdin, Ozan...Əlimizdən tutub Gündoğan-Günbatan dədə yurdunu gəzdirdin, Ozan...Kıprız dərdindən keçirib, Kərkük odundan dolandırıb, Qarabağa, Laçın, Şuşa zirvəsinə qaldırdın, hamı səninlə birgə:

"Ya Qarabağ, ya ölüm, başqa yolu yox artıq!!!" – deyə oxumadı, döyüşdü...

Salondakı qocalar da, gənclər də, uşaqlar da. qucağında körpə olan analar da: "Ya Qarabağ ya ölüm, başqa yolu yox artıq!!!" deyirdi...

Bilmədim burada oxuyurdu yazım, ya deyirdi...Əslində heç biri düz gəlmir...Çünki o sözlər ağızlardan söz kimi çıxmırdı, güllə kimi çıxırdı...

O sözlər söylənəndə gözlərdə yaş yox idi, ATƏŞ partlayırdı... parlamırdı, partlayırdı... Bunu o anı yaşayanlar hamısı gördü, duydu, düşündü...

Bu sarayda çox ədəbi bədii gecələr olub. Əl götürüb oynayan da olub, çırtma çalan da, göbək atan da...Çox şit qəhqəhələr, hırıltılar, mədhiyyələr də olub. Hətta söyüş də olub...

Amma Ozan görməmişdi bu Saray! Heç biz də Ozan görməmişdik. Aşıq görmüşdük, vəssalam... Bu sarayda gecələrdə iştirak edənlərə, əl çalmaq öyrədilib, şüar demək öyrədilib, baş əymək öyrədilib, amma "Salam, Salam, Mərhəba!" öyrədilməyib.

Amma sözlə nahağı güllələmək, gözlə düşməni, alçağı atəşə tutmaq öyrədilməyib. Bunları da sən öyrətdin, Ozan!.. "Azərbaycan bir gözdür, Qarabağsa bəbəyi!" - ədəbi-bədii gecəsi bizim şüurumuzda, canımızda içimizdən gələn ilahi türk nuru ilə aydınlatdı bizə. O gecəni söz güzgüsündə əks olunan alqış nuruna, sevinc nuruna boyadı.

Gecə çox gec, gecə saat on birə on beş dəqiqə qalmış qurtardı.

Amma heç kim salondan çıxmaq istəmirdi. Hamı ayağını sürüyə-sürüyə çıxırdı. Sanki bu nur qapının ağzında qurtaracaqdı. Saraydakı nur Bakının küçə işıqlarının içində itə bilərdi. Elə itdi də... Saraydan bayırda Bakı həmin Bakı idi...Sakit...İşıqları, budu

açıq, əzmə-büzmə qızlara göz vuran sırtıq oğlanların göz qırpmaları kimi sayrışırdı.

Gecən xeyrə qalsın, Bakı...

Salam. Salam, Mərhəba, Azərbaycan!










Hörmətli.............................................

Sizi

**"AZƏRBAYCAN BİR GÖZDÜR QARABAĞSA BƏBƏYİ"**

adlı ədəbi-bədii gecəyə dəvət edirik.

Yer: HEYDƏR ƏLİYEV adına SARAY

Tarix: 19 iyun 2005-ci il

Saat: 18<sup>00</sup>

Təşkilatçı: "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi

Gecədə iştirak edirlər:

| Türkiyə: | Azərbaycan: |
|---|---|
| OZAN ARİF | MÜBARİZ TAĞIYEV |
| ESAT KABAKLI | ŞƏMİSTAN ƏLİZAMANLI |
| | FƏZAİL MİSKİNLİ |

• Dəvətnamə bir nəfərlikdir!

# PALIDIN ŞİKAYƏTİ

Qəribə bir meşədəyəm,
Qəribə bir peşədəyəm...
Burda bütün ağaŞların dilləri var,
AyaXları, əlləri var.
Bəzisinin ayağı baş, Bəzisinin başı ayaX.
Eləsi var: görən kordu, Eləsi var: yatmış oyaX. Qarnı ilə düşünən də, Qarnı ilə baxan da var;
Gözlərini "dost-müsahib" böyüklərin gözlüyünə taxan da var. Qəribə bir meşədəyəm, Qəribə bir peşədəyəm - GözətÇiyəm.
Gözləyirəm Görən gözlər bura cığır, yol aŞmasın.
AyıXbaşlar Qulağını şeşələyib,
Meşəmizin dövrəsinə dolaşmasın.
Görürsən ki, bəzən mənim Kötüyümün yan cibinə Bir göbələY tulladılar –
Mənası var.
Mənası var:
“Ağzını yum”, "Səsini kəs”.
Bu dünyada "Görən bilməz, Bilən görməz..."
Görürsən,
bəzən belə bir mövzuda "iclas" gedir:
"Meşəmizdə nə çatışmır..."
**Meşəmizdə nə çatışmır?**
QulluXçular, buyruXçular dəstələnir.
Yırtıcılar qürrələnir,
"Dəymə mənə..." kolluğunun QonaXlan DiMməməYçün xəstələnir.
Söz alır qurT:
DikəldərəY boynunu, Deyir:
- QoyaX talalarda Təzə yeriş qanunu. OtluXlardan şikayət var: ƏliYlər bərk qaça-qaça ÇiçəYləri əzir ancaX..."
Təklif hədəfə dəyir. Çaqqal söz istəyir:

- Yoldaşlar, bülbül səsi Çaşdırır meşəmizi.
Yoldaşlar, səhər-səhər İşə gedən Bizim işcil tülkülər Xoruz banı istəyir, Xoruz banı...
Onun səsi quyruX üstdə Durğuzdurur ilanı. - Deyir:
"bizim meşəmizdə Cür-cücünü qırmağa Bilirsizmi nə çatışmır? – Qurbağa, göy Qurbağa!.."
Sonra da təklifinə Özü əl çalır.
Sədr - Ayı hirslənir, Qalxıb özü özündəncə söz alır:
- DeyəY ki, deməliyəm... İşimizdə kAnkret Təkliflər azdı. Məgər yaxşı olmazdı DeyəY ki, filan dərə Çoxdandı müdürsüzdü?..
Səslər:
- Düzdü, çox düzdü!
- Düzdüsə, niyə düzdü?! Bəs niyə müdürsüzdü? Təklifiniz bəs nədi?
- Zoğal yaxşı namizəTdi!
- Yaxşıdırsa çox yaxşıdı! Nə karədi, o hardandı?
- Göy taladan...
- Göy taladan... Bəlkə bir az gözləyə o, Çox cavandı...
Səslər: "düzdü, Dahiyanə məsləhətdi."
Bu minvalla neçə belə Təklif olur, söhbət gedir. Qaş-göz ilə qeybət gedir.
Eh, nə bilim, nə bölgülər, nə seŞmələr, Aramlar görürəm mən. İpəY donlu maralları Yorub yıxan
Yalan dolu arabalar Görürəm mən.
Çox qəribə meşədəyəm,
Çox qəribə peşədəyəm,
Çox qəribə nəşədəyəm...

## *Qızıl orta*

Mərhəmətli, bağışlayan, rəhmli, mehriban Allahın adı ilə

30. Bir zamanlar Rəbbin, mələklərə:

"Mən yer üzündə bir xəlifə yaradacağam!" - dedi. Mələklər: "Orada pozğunçuluq yapacaq, qan tökəcək birisimi yaradacaqsan? Oysa biz səni öyərək təşbih edir və səni təqdis edirik?" - dedi.

Rəbbin: ***"Biz sizin bilmədiklərinizi bilirik"*** dedi.

31. Adəmə isimlərin tamını öyrətdi. Sonra onları mələklərə sundu: «Haydı, əgər dediklərinizdə doğrusunuzsa, isimlərini mənə söyləyin» dedi.

32. Dedilər ki, «sən ucasan, bizim sənin bizə öyrətdiyindən başqa bir bilgimiz yoxdur. Şübhəsiz, sən bilənsən, hakimsən."

33. Allah dedi ki: «Ey Adəm, bunlara onların isimlərini xəbər ver». Adəm onlara isimlərini xəbər verincə Allah: «Mən sizə göylərin və yerin qeyblərini bilirəm, sizin açıqladığınızı və içinizdə gizlətdiyiniz şeyləri bilirəm, deməmişdimmi?» dedi.

*Qurani-Kərim, Bəqərə surəsi*

İnsanın bildiklərini mələklər bilməz, əgər insan Allah rizasına elm öyrənirsə.

XX əsrdə elmin inkişafı, texniki imkanların genişlənməsi, kosmik və aero tədqiqatlar bəşəriyyət tarixinin öyrənilməsi sahəsində böyük uğurlar gətirdi. Dünyanın bir çox dağ silsilələrində tapılan qayaüstü rəsmlərin ciddi elmi mahiyyət

daşıdığı ortaya qoyuldu. Lakin bu rəsmlərin və işarələrin öyrənilməsi birtərəfli istiqamətdə aparıldı. Bu tapıntılar yazı kimi öyrənilməkdən çox şəkil kimi öyrənildi, hətta bu öyrənilən metodların özündə belə yanlışlıqlara yol verildi. Bu yanlışlıqların əsas səbəblərindən biri tədqiqatçıların xalqın qədim kökü ilə bağlı nağıl və rəvayətlərini ciddiyə almamağı, millətin inanc, dini təfəkkür qaynaqlarına biganə yanaşması oldu.

Xüsusən Azərbaycanda və digər Türk dövlətlərində arxeoloji və tarixi tədqiqatlarda dini təfəkkürlə yanaşmanı qəbul etmirdilər. Təəssüf olsun ki, bu ənənə yenə də qalır. Son dövrlər arxeoloqlar, dilçi alimlər artıq qəbul edirlər ki, bu rəsmlər əslində yazılardır. Bu yazı mədəniyyəti hələ ki, elm tərəfindən tam öyrənilməyib. Halbuki Şərq, xüsusilə Türk nağıl və rəvayətlərində bu yazı mədəniyyəti ilə bağlı çox tutarlı məlumatlar var.

Hələ çox qədimdən insanlar müxtəlif işarə və simvollarla məlumatlar ötürə biliblər. Məhz Qurani-Kərimin Ələq surəsindəki ilk ayələrində buna işarə var:

Oxu, Yaradan Rəbbinin adı ilə
O insanı qan laxtasından yaratdı
Oxu, Rəbbin ən böyük kərəm sahibidir.
O, insana qələmlə yazmağı öyrətdi,
O, insana bilmədiklərini öyrətdi.

Qurani-Kərim, Ələq surəsi

Bu ayələr sonuncu səmavi kitabın ilk ayələridir. Bu ayələr təsadüfüdürmü?

Allahın yaratdığı insana “oxu”, “qələmlə yaz”, “bilik öyrən” əmrini - bu üç əmri sonuncu kitabda ilk göndərməkdə məqsədi nədir?

Bu üç əmr insandan başqa heç bir canlıya aid deyil.

Ən qədim yazılı abidənin “Bilqamış” dastanı olması, bu adın bilik - bilgi ilə bağlı olması da maraqlı məqamlardan xəbər verir. Bəlkə, bilgi ilə dünyaya gəlmiş insan öz bilgisini qayalara,

daşlara yazmış, sonra isə bu məlumatların öyrənilməsi üçün "Oxu" əmri gəlmişdir? Ayədən belə məlum olur ki, insan yaranışdan qələmlə yazmağı bacarıb. Həyatda isə o öyrədilmiş ola bilmədiklərini öyrənir, hətta təsadüfi deyil ki, el arasında belə bir söz də var:

Bilmir ki, bilir

Bəlkə, o "oxu" əmri bilmədiklərimizi bilmək üçün gəldi bizə?

İnsan bilmədiklərini bilmək üçün həm milli, həm elmi, həm də dini təfəkkürə malik olmalıdır ki, öyrəndiklərini hərtərəfli araşdıra bilsin. Bu gün hər bir arxeoloji tapıntı millətin öz təfəkkür süzgəcindən keçməlidir. Qobustandakı qayaüstü rəsmlərin yazı olduğu bir neçə illərdir ki, tədqiqatçıların diqqətini cəlb edib. Bu, müxtəlif mübahisələr doğursa da, artıq elmi aləmdə öz təsdiqini tapmaqdadır. Naxçıvanın Ordubad rayonundakı Gəmiqaya rəsmlərinin də məhz Qobustan mədəniyyət ilə oxşarlıq təşkil etməsi, həmçinin Gəmiqaya mədəniyyətinin Qobustandan daha öncəki mədəniyyətə aid olduğu fikri irəli sürülür. Gəmiqayadakı daşların maraq doğuran bir neçə cəhəti var: bu daşlar sanki göydən yağıb. Bu daşların rəngi də, forması da, hətta tərkibi də Gəmiqaya daşlarından fərqlənir. Onu heç bir daşla cızmaq mümkün deyil. Sanki, bu daşlar özgə bir yerdən gətirilib. Gəmiqayadakı daşların üzərindəki yazılarda sözlərin hələlik yalnız bir qismi oxunub. Ruhaniyyətdə isə müqəddəs kitabların məğzini məhz daşlar üzərində gəldiyi haqda məlumat var. Bəlkə də, bu daşlar üzərindəki yazılar məhz elə ilahi yazılardır. Bu gün bizim tədqiqatçı alimlərimiz Gəmiqayada, Qobustanda və digər yerlərdəki qayaüstü rəsmləri yazı kimi öyrənmək istəyində olmalıdırlar. Bu istəksə, Nəsrəddin Tusinin təbirincə desək, iman və elm prizmasından keçirilməklə iman və elmin vəhdətində gerçəkləşməlidir. Yoxsa oradakı yazıların mənasını anlamaq və anlatmaq çətin olacaq. Tanrı insana iki göz verdiyi kimi iman və elm də verib. Hər gözün ayrılıqda eyni bir şeyə baxışında fərq nə qədərdirsə, elm və imanla ayrı-ayrı baxışın fərqi də o qədərdir.

Ona görə də bu yazılara iki gözlə eyni anda, onları iman və elm gözü ilə baxmaq, inam və sevgi ilə öyrənmək lazımdır.

Maraqlıdır ki, "Bilqamış" dastanında da belə bir açıqlama var ki, dastanda danışılanlar qayalara, daşlara yazılıb:

O hər sirri bilərdi, o hər şeyi görərdi,
Yeri su basmasından bizə xəbər verərdi.
Uzun yollar dolaşıb, yorulub əldən düşdü,
Başına gələnləri sal bir qayaya döydü,
Sonra hasara alıb, adını Uruk qoydu.

Bilqamış dastanı - Birinci lövhə, birinci hissə, beşinci bənd.

Bütün bunlar çayarası, Kür-Araz ovalığının, Xəzəryanı ərazinin qədim yaşayış məskəni olmaqla bərabər həm də dünya elmi üçün ilk başlanğıc mənbə olması inamını bir daha önə çəkir.

Ən maraqlı cəhətlərdən biri də odur ki, dünyada öyrənilən qayaüstü rəsmlərin çoxunda, o cümlədən, Gəmiqaya və Qobustan rəsmlərində əks olunan yazılar türk dilində danışır. İlk oxunan yazılar "Tanrı", "Tenqrı", "ana", "od", "su", "utu" kəlmələri olub.

İnsanların həyatda baş verənlərə şüurlu yanaşması Allah vergisidir. Başqa heç bir canlı bu xüsusiyyətə malik deyil. Ona görə də insanların Allahla bağlı, yaradana yönəli duyğu və fikirlərinin inkişafı təbiidir. Amma zaman-zaman xeyirlə-şərin mübarizəsində insanlar maddi görünən səbəblər sonucunda görünməyən səbəbləri ciddi qəbul etmədilər. Görünən səbəbləri reallıq adlandırıb, adını elm qoydular, görünməyən hər şeyə idealizm deyərək o qədər də bu səbəbin yaratdığı nəticələri qəbul etmək istəmədilər. İlkin dini məlumatlara söykənən bilgilər sonradan elmi adlanan bilgilərə söykənməyə daha çox meyl etdi. Bu hal XX əsrdə daha çox özünü qabarıq göstərdi. Artıq bu gün elmin həm texniki, həm də mənəvi bazasının inkişafı elmlə dinin vəhdətdə olmasını tələb edir, bütün real səbəb və nəticələri məhz din və elmin kəsişdiyi qızıl ortada görmək mümkündür.

Bu qızıl orta sonuncu səmavi kitab olan "Qurani-Kərim"lə tamamlandı.

Qurani-Kərimin "Oxu" ilə başlanması, başqa canlılar kimi qan laxtasından yaranan varlığın fərqli olaraq qələmlə yazmaq, bilik sahibi olmaq əmri altında olması, ayrıca "Qələm" surəsinin olması, bu müqəddəs kitabda dörd surədə qələm sözünün keçməsi, Qurani-Kərimin demək olar ki, bir çox surələrində elmə, biliyə, düşünməyə, öyrənməyə, öyrətməyə diqqət yetirilməsinə göstərişlər olması məhz bu səmavi kitabın elm və dinin qızıl ortası olduğuna işarətdir. Elm bütün hadisələrin səbəblərini bu vəhdətdə öyrənməlidir.

Qayaüstü rəsmlərin yazı kimi oxunması insanda qəribə hiss yaradır – sanki bu yazılar müqəddəs səmavi kitablar olan "İncil", "Tövrat", "Zəbur", "Qurani-Kərim"in, bəşəriyyətin yaranması, inkişafı haqda, keçmiş, bu gün, gələcək haqda olmasına şahidlik edir.

O gün ağızlarını möhürlərik, əlləri bizə söylər, ayaqları yapdıqlarına şahidlik edər.

Qurani Kərim, surə 36, ayə 65.

Bəlkə, elə dünyada baş verən bu qiyamət hadisələrinin sellər, tufanlar, daşqınlar, müharibələr fonunda haqla nahaqın ölçü meyarlarının itdiyi indiki zamanda Tanrının bəşəriyyətə göstərdiyi qaya, daş, dağ şahidliyidir bu yazılar:

Baxın, ey bəşər övladları, baxın, ey adamlar... Bu qədim yazıların dünya mədəni irsinə, tarixə, ən əsası isə bəşəriyyətə ilk tək Allah düşüncəsini gətirən İnsanın – türkün dilində danışması Türk mədəniyyətini dananlara qaya, daş şahidliyi deyilmi?

Qurani Kərimdə deyilir: ***"İxlaslıları mən qoruyuram."***

Əsrlərin sınağından keçən bu millət dilini itirmədi, çünki Allah qorudu:

Yaranışdan
Tanrı dedi-İndi də deyir, Tanrı
Ana dedi, indi də deyir, Ana
Ata dedi, indi də deyir, Ata
İşıq dedi, indi də deyir, İşıq
Kişi dedi, indi də deyir, Kişi

Əzəldən tək Allaha sığınan Türk əsrlərlə şər reaksiyalar ilə, Allah sevgisi ilə üz-üzədir.

Bu Qurani-Kərimdə var: Allah öz istədiyini imtahana çəkər.

Tanrı Türkə uzunəsrlik imperiya qismət etdi. Amma Türk heç kimin haqqını yemədi. Onun haqqını yedilər və yeyirlər. O, sınaqdan uğurla çıxdı və çıxır. Özünü itirmədi-itirmir! Ona görə indi dünyanın hansı bölgəsinə əl atırsan, mədəniyyətini öyrənirsən, hamısında Türkün izi var. Bunu danmaq istəyənlər istəsələr də, dana bilmirlər. Çünki dünyanın hər hansı bir dilində danışan elə xalq, millət tapa bilməzsən ki, Allahı tanısın, dua etsin, sonda “Amin” deməsin.

Amin!

Heç bir dildə bu söz bir başa anlamında deyil. Hətta yanıltmaq üçün çox zaman deyirlər ki, bu ilahi sözdür və izahı, mənası yoxdur.

Türk dilində bu söz birbaşa anlamında işlənir:

Amin - Əmin olmaq, inanmaq, inam gətirmək, qəbul etmək mənasında işlənir. Bu gün Türk dünyadakı şər qüvvələrlə düşüncə, idrak savaşındadır. Allahına sığınaraq bu savaşda səbrlə irəliləyir. Özündən qismən uzaqlaşmış Türk bu gün özünə qayıdır. Unudulmaqda olan özünü öyrənir. Bu gün biz özümüzü çox az tanıyırıq. Bizdən olmayanlar bizi daha çox öyrənib, daha çox tanıyır deyə, qara yaxıb çaşdırmaq istəyirlər bizi.

Öyrənmək heç vaxt gec deyil. Azərbaycan türkünün, o cümlədən, keçmiş SSRİ-nin imperiya caynağından qopan Türk dövlətlərinin 15 yaşı, yetkinlik yaşı tamam olur.

Türkiyə isə ahıllıq yaşındadır. Bu gün tariximiz iman və elm gözü ilə, aydın, sağlam təfəkkürlə bu türk toplumlarının alimlərinin birgə səyi ilə öyrənilməlidir.

Əsrlərdən qorunub gələn bu tarixi mənbələr oxunmalı, öyrənilməli, öyrədilməlidir... Həm özümüzə, həm də bizimlə idrak, varlıq savaşına çıxanlara.

Bu gün qayaüstü rəsmlərin yazı olmasına dair sübutlar bu yazılardakı məsələlərin müqəddəs kitablardakı bəşəri məsələlərlə üst-üstə düşməsi də bizdən bir az düşünməyi tələb edir.

Bəlkə, bir az düşünək?

Mövlanə Cəlaləddin Rumi demişkən:
Sən, əvvəla, gözlərindən barmağını çək,
Ondan sonra dilədiyini gör.
İnsan gözdən ibarətdir.
Geri qalansa cəsarətdir.
Göz isə ancaq dostu göstərənə deyilir.

Necə düşünürsən, əziz yurddaş, dərdli vətəndaş, bəlkə, gözlərimizdən barmağımızı çəkək?

***Elman Əliyev***
***Mirələkbər Seyidov***
***«Dialoq – XXI əsr» jurnalı***
***Noyabr – 2007, № 2***





MÜNDƏRİCAT


| | |
|---|---|
| **Nizami Cəfərov** / Azərbaycan Atatürkçülüyü... | 4 |
| Azərbaycan Milli Şurasında **Rəsulzadənin** çıxışı | 7 |
| **Akif Əli** / Dövlət və Mədəniyyət | 8 |
| **Xaqani Məmmədov** / Erməni məsələsi necə yarandı | 11 |
| Ölkə ictimaiyyətinin qəbul etdiyi nüfuzlu ziyalı / **Qulu Məhərrəmli** | 16 |
| **Əbdülhəmid Əfşar** / Bığır kəndindəki Şəhid Əsgər Məzarı | 17 |
| **Dr. Fəthi Gədikli** / Dünya Türklüyünün Mədəni Birliyi | 20 |
| **Hüseyn Cavid** / İblisin monoloqu | 21 |
| **Vasim Məmmədəliyev** / Müsəlman alimlərinin elmə baxışı | 22 |
| **Təryel Fazilioğlu** / "Türk-İslam ideoloji xəttini seçməyimizə səbəb bayrağımızın rəngi olub" | 24 |
| **Nazirməmməd Qaramanlı** / ATƏT çərçivəsində sülh danışıqlarının məntiqi yoxdur | 26 |
| **Şamil Vəliyev** / Azərbaycan jurnalistikasının yolgöstərəni "İRŞAD | 29 |
| **Vüqar Zifəroğlu** / Qərbi Avropa dillərində Türkizmlər | 33 |
| **Elman İslam / Mirələkbər Seyidov**: Qızıl Orta | 37 |
| **Dr. Müzəffər Şahin** / Ramazan və Oruc | 40 |
| **Elşən Mustafaoğlu** / İslamda insan həyatına verilən önəm | 42 |
| **Əhməd Qəşəmoğlu** / Şərq və Qərb mədəniyyətlərinin təkamül xüsusiyyətləri | 44 |
| **Mehriban Ələkbərzadə** / Azərbaycan Türklərinə edilən növbəti qətliyam | 48 |
| **Aqşin Atalızadə** / Əlimərdan bəy Topçubaşovun "Qafqaz dövləti" ideyası | 53 |
| **Kərəm Məmmədov**/ Xəzər xaqanlığı | 57 |
| **Həmid Vəliyev** / Ermənilər folklor nümunələrimizə çoxdan mənimsəyirlər | 60 |
| **Fərid Qurbanlı** / Soyuq müharibə: qurtarıbmı, yoxsa davam edir? | 62 |
| **Esmira Orucova** / Ermənilər dünya ictimaiyyətinin diqqətini 5 minə yaxın itkindən yayındırmaq istəyirlər. | 66 |
| **Azər Həsənsoy** / Türk döyüş silahlarının istehsalı və yayılması tarixi | 68 |
| Gəncliyə Yardım Fondunun prezidenti **Əhməd Tecimlə** reportaj... | 70 |






Mərhəmətli, bağışlayan, rəhimli, mehriban Allahın adı ilə

# Qızıl Orta

Elman İslam / Mirələkbər Seyidov









bilməzsən ki, Allahı tanısın, dua etsin, sonda "Amin" deməsin.

Amin!

Heç bir dildə bu söz bir başa anlamında deyil. Hətta yanıltmaq üçün çox zaman deyirlər ki, bu ilahi sözdür və izahı, mənası yoxdur.

Türk dilində bu söz birbaşa anlamında işlənir:

Amin - Əmin olmaq, inanmaq, inam gətirmək, qəbul etmək mənasında işlənir. Bu gün Türk dünyadakı şər qüvvələrlə düşüncə, idrak savaşındadır. Allahına sığınaraq bu savaşda səbrlə irəliləyir. Bu gün özündən qismən uzaqlaşmış Türk özünə qayıdır. Unudulmaqda olan özünü öyrənir. Bu gün biz özümüzü çox az tanıyırıq. Bizdən olmayanlar bizi daha çox öyrənib, daha çox tanıyır deyə, qara yaxıb çaşdırmaq istəyirlər bizi.

Öyrənmək heç vaxt gec deyil. Azərbaycan Türkünün o cümlədən keçmiş SSRİ-nin imperiya caynağından qopan Türk dövlətlərinin 15 yaşı, yetkinlik yaşı tamam olur.

Türkiyə isə ahıllıq yaşındadır. Bu gün tariximiz iman və elm gözü ilə, aydın, sağlam təfəkkürlə bu Türk toplumlarının alimlərinin birgə səyi ilə öyrənilməlidir.

Əsrlərdən qorunub gələn bu tarixi mənbələr oxunmalı, öyrənilməli, öyrədilməlidir... Həm özümüzə, həm də bizimlə idrak, varlıq savaşına çıxanlara.

Bu gün qayaüstü rəsmlərin də yazı olaraq sübutu bu yazılardakı məsələlərin müqəddəs kitablardakı bəşəri məsələlərlə üst-üstə düşməsi, bizdən bir az düşünməyi tələb edir.

Bəlkə bir az düşünək?..

Mövlanə Cəlaləddin Rumi demişkən:

Sən, əvvəla, gözlərindən barmağını çək,
Ondan sonra dilədiyini gör.
İnsan gözdən ibarətdir.
Geri qalansa cəsarətdir.
Göz isə ancaq dostu göstərənə deyilir.

Necə düşünürsən, əziz yurddaş, dərdli vətəndaş, bəlkə gözlərimizdən barmağımızı çəkək?..

Bu gün Türk dünyadakı şər qüvvələrlə düşüncə, idrak savaşındadır. Allahına sığınaraq bu savaşda səbrlə irəliləyir. Bu gün özündən qismən uzaqlaşmış Türk özünə qayıdır. Unudulmaqda olan özünü öyrənir. Bu gün biz özümüzü çox az tanıyırıq. Bizdən olmayanlar bizi daha çox öyrənib, daha çox tanıyır deyə, qara yaxıb çaşdırmaq istəyirlər bizi.









## *Hamının tanıdığı insanı bir daha tanıtmaq istəyi ilə*

Elman bəylə bir neçə il bundan əvvəl, təxminən 2006-cı ildə dostum Nicat Sadıqlının vasitəsilə tanış oldum. O zaman "Müasir İnkişaf" İctimai Birliyini yenicə yaratmışdıq. Nicat məni maraqlı fikirləri olan ziyalılarla görüşdürəcəyini söyləmişdi. Nəhayət, bir gün vaxt edib görüşdük də. O zaman "Xətai" metro stansiyasının yaxınlığında yerləşən ofislərində görüşdük onlarla. İki nəfər idilər – Elman İslam (Allah qəni-qəni rəhmət etsin) və Mirələkbər Seyidov.

Elman bəyin ilk tanışlıqda mənə o qədər də xoş təsir bağışlamadığını etiraf etmək istərdim. Onunla bağlı ilkin təəssüratım onun əsəbi və aqressiv adam olması kimi formalaşdı. Lakin Elman bəyin maraqlı söhbəti və hərtərəfli məlumata malik olması, ən əsası da, cəmiyyətimizin mövcud vəziyyəti ilə barışmayaraq mübarizə aparmaq əzmi bizi bir-birimizə yaxınlaşdırdı. İlk günlər müzakirə mövzumuz Gəmiqaya abidələri idi. Bu abidələrin nə qədər mühüm əhəmiyyətə malik olması, bu məsələni Azərbaycan cəmiyyətinin gündəmində saxlamaq üçün çalışmalar görüşümüzün əsas aparıcı mövzusu idi. Hətta o dərəcədə bu işlə məşğul olurdu ki, onu Azərbaycanın milli ideologiyasına bərabər səviyyədə tuturdu.

Sonralar daha geniş mövzular ətrafında ünsiyyət saxlamağa, demək olar ki, hər gün görüşməyə başladıq. Azərbaycanın düşdüyü vəziyyət, bir çox hallarda cəmiyyətdəki haqsızlıqlar onu çox incidirdi. İnqilabçı xasiyyəti ilə hər cür haqsızlığa qarşı etiraz səsini ucaldır, bəzən isə susur, içinə salaraq hərəkəti ilə öz etirazını bildirirdi. Haqsızlığa heç cür dözmürdü. Çox mütaliə edir, çox öyrənir, hər kəsə də bunu məsləhət görürdü, geniş məlumata malik olması səbəbindən ətrafındakı neqativ hadisələr onu üzürdü. Emosionallığı üzündən haqsızlıqlara sərt, amma haqlı şəkildə etiraz edəndə insanlar onu yanlış anlayırdılar. Nə üçün belə

etdiyini soruşduqda “biganə qala bilmirəm, axı, bununla bizim cəmiyyət hara gedəcək?” - deməklə hər zaman düzgün addım atdığını sübut edirdi.

Onu geniş ictimaiyyət tanımırdı. Çünki özünü reklam etməyi sevmirdi. Amma tanıyanların da ona olan böyük hörmətini görməmək mümkün deyildi. Fikirlərini bölüşən insanların sevgisini, bölüşməyənlərin kinli baxışlarını sezməmək də mümkün deyildi. O isə onun tənqidlərindən narazı qalan insanların kinli baxışlarını vecinə belə almaz, sözünü, təklifini, fikrini söyləməkdən, tənqidini etməkdən çəkinməzdi.

Təşkilatı yeni qurmağımızla əlaqədar məsləhətlərini əsirgəmirdi. Ziyalılarla ünsiyyət qurmaqda, təşkilati işlərdə yardımçı olurdu. Onun bizimlə tanış etdiyi iki şəxsin adını çəkəcəyəm, bununla da rəhmətliyin heç də hamıya bəlli olmayan portreti gözləriniz önündə bir az daha canlanacaq. Bu şəxslərdən biri hamımızın böyük hörmət bəslədiyi ziyalı, sosioloq Əhməd Qəşəmoğlu, digəri isə Türkiyənin baş naziri Ərdoğanın müşaviri, gözəl ziyalı Qeybulla Qeybullayevdir.

Hər zaman əməli fəaliyyət göstərməyi daha üstün sayaraq reklamdan qaçardı. Hətta dəfələrlə təklif verirdi ki, filan-filan işləri həyata keçirək, təşkilatçı qismində isə “Müasir İnkişaf” İctimai Birliyi çıxış etsin. Tanışlığımızın yeni olmasına baxmayaraq görülən bütün işlərlə maraqlanar, yeni qurulan təşkilatın fəaliyyətinin daha da mükəmməl olması üçün yorulmadan, usanmadan çalışardı. Bəzən baş verən qüsurlara qarşı da, onları tənqid etməkdə də heç rəhm bilməzdi. Bu məni o qədər razı salmasa da, sonralar onun nə qədər doğru hərəkət etdiyinə əmin olurdum. Necə deyərlər “məşqdə çətin, yarışda asan”.

O zaman “Türk Eli” jurnalımız “Dialoq-XXI əsr” adı altında, demək olar ki, yenicə çap olunmuşdu. Elman bəydən jurnala məqalə istədim. İlk əvvəl vəd vermədi. Sonra mənim təkidlərim nəticəsində razılaşdı. Həmin gündən etibarən əlində olan hazır bir məqalənin üzərində bir neçə gün yenə də məsuliyyətlə işlədi. Nəhayət “Qızıl orta” başlıqlı məqaləsini mənə

təqdim etdi. Yazımın əvvəlində də qeyd etdiyim kimi Gəmiqaya abidələri ilə bağlı məsələ Elman bəyin diqqətini xüsusi cəlb etdiyi üçün tanışlığımızın ilk dövrlərində ünsiyyətimiz, əsasən, bunun üzərində qurulmuşdu. Elə "Qızıl orta" başlıqlı məqalə də bu mövzuya həsr olunmuşdu. Amma məqalə onun qələmindən çıxdığı üçün jurnalımızın oxucularının çox böyük marağına səbəb olmuşdu.

Yazımın əvvəlində qeyd etdiyim kimi haqsızlığa heç cür dözə bilmirdi. Cəmiyyətimizin onun arzuladığı şəkildə inkişaf etməməyi Elman bəydə ciddi narahatçılıq yaradırdı. Bütün olanları içində saxlayaraq bir qədər kənara çəkildi. Məhz bu səbəbdən bir neçə il görüşə bilmədik. Açığı məndən incidiyini zənn etmişdim. Amma sonra yenidən görüşdükdə onun ümumən cəmiyyətimizdən narazı olduğunu gördüm. Həm sakitləşdim, həm də narahat oldum. Sakitləşməyim özümlə bağlı idisə, narahatçılığım Elman bəy kimi dəyərli ziyalımıza bu vəziyyətin ziyan vura biləcəyi sarıdan idi. Və bir də bu günlərdə Mirələkbər müəllimdən qəfil gələn mesaj və telefon zəngi... Mirələkbər müəllimin səsi qulaqlarımda əks-səda verdi, inana bilmədim. Təkrar-təkrar soruşdum, Elman bəyin bizləri artıq tərk etdiyini dəqiqləşdirdim. Elə bu ağır düşüncələr içərisində çox böyük çətinliklə (demək olar ki, üç gün ərzində) bu sətirləri qələmə ala bildim. Allahdan sənə rəhmət diləməklə mənim üçün çox ağır olan bu mövzunu bitirirəm. Amma rəhmətliyin ruhunu əmin etmək istəyirəm ki, onun haqqında bəhs etdiyi mühüm işləri bizlər sona qədər mübarizə aparmaqla həyata keçirmək üçün var gücümüzlə çalışacağıq. Rahat uyu... Ruhun şad olsun, gözəl insan!..

***Mübariz Aşırlı***
***"Müasir İnkişaf" İctimai Birliyinin***
***İdarə Heyətinin sədri***

## *Müraciət*

Dünyada siyasi mühit çox sürətlə dəyişir. Belə sürətli dəyişikliklər müstəqil yaşamaq təcrübəsi az olan dövlətlərə bir çox təhlükələr – siyasi, iqtisadi, mənəvi təhlükələr yaradır. Bu təhlükələrin anında qarşısının alınması üçün mövcud dövlət strukturlarının gücü kifayət etmir. Yaxın keçmişin tarixi dərslərini örnək olaraq xatırlasaq, görərik ki, 1990-cı illər hadisələri elə sürətlə baş verdi ki, SSRİ kimi super gücə və idarəetmə sisteminə malik bir dövlət hadisələrin arxasınca getməli oldu. Artıq dünya qısa tarixi müddətdə ikinci kritik dövr yaşayır. Belə bir dövrdə müstəqil Azərbaycan baş verənlərə təkcə dövləti həssaslıqla deyil, həm də milli həssaslıqla yanaşmalıdır. Ona görə də bu gün geniş spektrli strateji analitik informasiya və proqnozlaşdırma mərkəzinin yaranmasına çox böyük ehtiyac hiss edilir. Əgər son dövrlər baş verən hadisələri bir il qabaq baş verənlərlə tutuşdursaq görərik ki, artıq Qafqaz bölgəsində elə hadisələr baş verməyə başlayır ki, Azərbaycanda yaşayan bizlər bir millət kimi yubansaq, hadisələrin arxasınca getməli olacağıq.

Artıq dünyada müharibələr bir neçə müstəvidə gedir. İnformasiya müharibəsi özünün gücünü göstərməyə başladığı bir dövrdə bizim bu müharibədə iştirak etmək imkanlarımız belə məhdudlaşmağa başlayır. Bu müharibə üçün ən mühüm xammal informasiyalardır ki, bizim, ölkəmizdəki qarmaqarışıq xarici qurumlar çox ucuz qiymətə, hətta deyərdim ki, havayı özlərinə lazım olan məlumatları bizdən ala bilir, onları özlərinin və bizim düşmənlərimizin xeyri üçün istifadə edirlər. Biz isə yalnız əleyhimizə yayılan məlumatlara cavab verməklə məşğul oluruq. Bu gün Azərbaycan KİV-i bəzən özləri bilmədən belə düşmənlərimizə xidmət edirlər. Yenicə formalaşan gənc respublikamızda informasiya axınının qarşısını almağın qeyri-mümkün olması ilə barışmaq məcburiyyətindəyik. Ona görə də bizə qarşı yönəlmiş, milli-mənəvi dəyələrimizə xələl gətirən informasiyaları neytrallaşdırmaq məqsədi ilə dünyanın bir çox

ölkələrində çoxdan fəaliyyət göstərən analoji bir qurumun yaradılması zərurəti günbəgün aktuallaşır. Ona görə dövlətin dəstəyi və rəhbərliyi ilə Azərbaycanın vətən, millət duyğusunu qorumuş elm və ictimai xadimlərindən, müxtəlif peşə sahiblərindən ibarət strateji mərkəz yaradılmasına ehtiyac olduğunu düşünürük. Bu mərkəz Azərbaycanla bağlı dünyanın aparıcı KİV və həm də Azərbaycan ərazisindəki KİV-də gedən bütün məlumatları öyrənməli, analiz etməli, proqnozlaşdırmalı, nəticələri Azərbaycanın müvafiq dövlət qurumlarına təqdim etməlidir.

Dünyanın yenidən bölünməsinin reallığa çevrildiyi indiki vəziyyətdə təkcə malik olduğumuz ərazini qorumaqla, iqtisadiyyatımızı inkişaf etdirməklə iş bitmir. Dövlətimizin qüdrətlənməsinə, itirilmiş, işğal olunmuş ərazilərimizin geri qaytarılmasına nail olmaq vəzifəsi qarşımızda durur. Həmçinin millətin varlığının və gələcəyinin əsas göstəricisi olan milli mənəviyyatımızın ən mühüm köklərinin-dilimizin, tariximizin, dinimizin qorunmasını və təhrif olunmadan gələcək nəslə ötürülməsini təmin etməliyik.

Hazırda:

- BTC-nin yaxın zamanlarda işə düşməsi gözlənilir;
- Turizmin genişlənməsinə geniş imkanlar açılır;
- İran-ABŞ münasibətləri Qafqazda siyasi mühitin gərginləşməsini son həddə gətirib;
- Rusiya Qafqazdakı mövqeyini qorumağa çalışır;
- Azərbaycan Qafqazın ən böyük dövləti olduğu üçün bu hadisələrin fonunda önə çıxır;
- Son günlər İslam faktoru dünyada qızışdırılır;
- Avropa şurasında Azərbaycan əleyhinə qərar çıxarılır (Naxçıvan MR-Culfa) məsələsi;
- Qafqazda, xüsusən, Azərbaycanda etnik toqquşmalara düşmən qüvvələr tərəfindən zəmin yaradılır;
- Dini sektaların və müxtəlif ideoloji qurumların fəaliyyəti güclənir;

- QHT-lərin dövlət və millət heysiyyatına toxunan hərəkətləri artmaqdadır;
- İctimaiyyətdə öz millətinin və dövlətinin problemlərinə biganəlik formalaşır;

Bizə elə gəlir ki, dövlətin yeni bir qurum yaratması zəruridir. Bu qurum baş verə biləcək hər hansı məlumat boşluğunu doldurmağa, düşmənlərimizlə informasiya müharibəsini aparmağa, aparılacaq informasiya müharibəsinin strategiya və taktikasını işləməyə, ardıcıl və davamlı mübarizə aparmağa köməklik göstərə bilər.

Əgər silahlı müharibə üçün dövlətimizin ölkə prezidentinə tabe olan, müasir texnikaya malik, günü gündən güclənən bir neçə güc strukturu millətdə öz silahlı qüvvələri ilə fəxr etmək hissi yaradırsa, biz istərdik ki, qısa müddətdə indiyədək uduzduğumuz informasiya müharibəsində də qalib gəlmək üçün ciddi dönüş yaradaraq, 21-ci əsrin informasiya müharibəsindən şərəflə çıxaq. Ona görə ki, artıq informasiya müharibəsində müdafiə olunmaq sindromundan qurtarıb, hücuma keçmək zamanı yetişmişdir. Düşünürük ki, Azərbaycan MTN-nin, XİN-nin təcrübəli, milli təfəkkürlü mütəxəssislərinin iştirakı və rəhbərliyi ilə Azərbaycanın türk millətindən olan tanınmış yüksək ixtisaslı alimlərini- arxeoloqlar dilçilər, etnoqraflar, epiqrafistlər, palentioloqlar, geoloqlar, memarlar, tarixçilər və sair məqsədəuyğun mütəxəssislərini tapıb bu işə cəlb etmək vaxtı çatıb.

Məktubu tərtib edən Mirələkbər Mirmöhsün oğlu Seyidov və Elman İslam oğlu Əliyev bir sadə Azərbaycan vətəndaşları olaraq öz bilik və bacarıqlarını bu işə sərf etməyə (rəsmi və ya qeyri rəsmi formada) hazırdır.

## *Müraciət*

***Bismillahir rəhmanir Rəhim!***

Bu dünyanın gərdişinə baxanda adamda çox ciddi narahatlıq hissi baş qaldırır. Bu adamlar nəyə nail olmaq istəyirlər? Allah xofu yoxmu qəlblərində, ölümün onlar üçün də gələcəyi onları qorxutmurmu? Yoxsa Qiyamət gününə şəkk edirlər? Doğrudanmı, bu kəslər heç nə anlamırlar? Şeytani hisslərə uyub təkəbbür göstərdiklərini duymurlarmı? Allahı tanıyanları, bu dünyanın gərdişini başa düşənləri, yeni gələn nəsilləri özlərinə taymı etmək istəyirlər? Xeyr, alınmaz!!! İxlaslıları, haqq yolu gedənləri Allah qoruyur. Sizin İblisə xidmət edən əməlləriniz özünüzə bəla gətirəcək. Bu şeytani əməllərinizin mükafatını alacaqsınız. Biz sizləri, siz kimilərin əməllərini RƏDD EDİRİK!!! İblisə uymuş sizlərin şərindən Tək Qüdrət Sahibi, Aləmlərin yaradanı və idarə edəni, Ərşin və Kürsün tək sahibi və yaradıcısına, hikmət verilmişlərin və məzlumların tək pənahına - Aləmləri Həzrəti İnsan üçün yaradana - Rəbbimizə pənah aparırıq. Təvəkkül Allaha deyərək, onu özümüzə tək vəkil edərək, ümidimizi ona bağlayır və ondan kömək və yardım diləyirik. Əzizlər, dualarınızla və əməllərinizlə yardımçı olun! Dünyanı şər əməlləri ilə qatanları rədd edirik!

***Mahmud Mahmudov***
***Mirələkbər Seyidov***
***Elman Əliyev***

## *“Əshabi-Kəhf” kitabının (Bakı, 2001) müqəddiməsindən*

***El arasında isə Əshabi-Kəhflə bağlı belə bir rəvayət var:***

Çox qədim zamanlarda Ölən şəhərdə Dağyunus adlı bir zalım padşah var idi. Dağyunus hər yerə elan edir:

- Allah mən özüməm. Sizin tanıdığınız allahı tanımıram.

Dağyunus şahın zülmü ərşə dayanır. Günlərin bir günü Dağyunusun qulağına bir milçək girir. Şah nə qədər çalışır, milçəyi çıxara bilmir.

Vəziri, vəkili çağırıb deyir:

- Gəlin milçəyi çıxarın. Vəzir ona deyir:
- Şah, sənin ki, bir milçəyə gücün çatmır, qulağından çıxarasan, bəs niyə özünü allah adlandırmısan?

Dağyunusun acığı tutur, onların hamısının boynunu vurmaq əmrini verir. Vəzirlərdən Təmlixa, Müslim, bir də bir neçə nəfər qaçırlar. Bunların qabağına bir çoban çıxır Çoban onlardan soruşur:

- Hara gedirsiniz?

  Ona deyirlər:
- Zalım Dağyunusun zülmündən baş götürüb Allaha tapınmağa qadirik.

  Çoban deyir:
- Mən də o padşahın zülmündən cana gəlmişəm. Sizinlə qaçacağam, ona rəiyyət olmaq istəmirəm. Çobanın Qitmir adlı bir qırmızı iti var idi. İt də onların dalına düşür. Nə qədər eləyirlər, it onlardan əl çəkmir. İti qovanda o dilə qəlib deyir: «Siz niyə məni özünüzə yaxın qoymursunuz, dəstənizdən uzağa qovursunuz?» - cavabında ona demişdilər: «Ona görə ki, sən bizim cinsdən deyilsən.» O heyvan demişdi: «Məhəbbət məzhəbində, sədaqət dinində cins əsas şərt deyil. Əgər onu siz şərt hesab edirsinizsə, siz də bu yoldan geri qayıtmalısınız, çünki o kəsin ki, məhəbbətinə görə yola çıxmısınız, o da sizin cinsinizdən deyil». Bundan sonra

onlar itə toxunmur və birlikdə gedirlər. Gethaget bir mağaraya çıxırlar. Gecə olduğundan bu mağarada qalmalı olurlar. Hərə başını bir daşın üstünə qoyub yuxuya gedir. Bir vaxt yuxudan oyanırlar bir-birinə deyirlər:

- Qalxın günorta olmuşdur. Gör ne qədər yatmışıq, aclıq bizi lap əldən salıb. Təmlixanı başqa dona salıb göndərirlər ki, gedib şəhərdən çörək alıb gətirsin. Təmlixa şəhərə gedir. Baxır ki, heç bu gördüyü şəhərə oxşamır. Hər şeyin yeri deyişmişdir. Gəzib bir çörəkxana tapır. Çörək alıb pulunu vermək istəyəndə çörəkçi onun yaxasından tutub deyir:

- Yəqin sən xəzinə tapmısan. Səni padşahın yanına aparacağam.

Çörəkçi onun yaxasından əl çəkmir. Səs-küyə adamlar tökülür. Təmlixanı padşahın yanına aparırlar. Təmlixa bütün əhvalatı padşaha söyləyir. Padşah deyir:

- Sən evinizi tanıyırsanmı? Təmlixa deyir:

- Əlbəttə, tanıyıram!

Təmlixa bunlarla gedir, öz evlərinə çıxır. Bu evdə bir qoca kişi olurmuş. Ondan kim olduğunu soruşurlar. O, cavab verir:

- Mənim babamın cəddi babasının adı Təmlixa olmuşdur.

Hesablayırlar ki, Əshabi-Kəhf adamları mağarada üç yüz doqquz il yatmışlar. Hamı işə təəccüb edir. Padşah, vəzir, vəkil, camaat Təmlixamn başına toplaşıb yola düşürlər ki, gedib onları dəbdəbə ilə şəhərə gətirsinlər. Mağaranın yaxınlığına çatanda Təmlixa deyir:

- Siz burada dayanın, mən gedim yoldaşlarıma xəbər verim, yoxsa qorxarlar. Təmlixa gedib bütün əhvalatı yoldaşlarına nağıl edir:

- Evi yıxılmışlar, möcüzədir. Üç yüz doqquz il yatmışıq. İndi ayrı qərinədir, ayrı zəmanədir, hər şey dəyişib.

Bunu eşidəndə hamısı əl qaldırıb göyə dua edirlər:

- İlahi, bizi həmişəlik yuxuya apar!

Ağızlarından söz qurtaran kimi iki qaya gəlib ağız-ağıza qovuşur, adamlar içəridə qalırlar.

***O, gündən bu dağ Əshabi-Kəhf adlanır***
***Əziz dost! Ziyarətgaha yol buradan başlanır***

*Burada bir dəqiqə ayaq saxla!.. Dövrənə diqqətlə bax!.. Min itlərdir sinəsində müqəddəs Əshabi-Kəhfi qoruyan Əshabi-Kəhf dağını, onunla çiyin-çiyinə durmuş, qərinələrin tarixini özündə yaşadan Nəhəcir və Haça dağı görəcəksən.*

Bu o dağlardır ki, qədim Şumer-akkad ədəbiyyatının ən yaxşı nümunələrindən biri sayılan eramızdan əvvəl VI-II minilliklərdə formalaşaraq gil lövhələr üzərində yazılmış "Bilqamıs" dastanında adları çəkilən dağların adına uyğun gəlir:

*Həmin Nisir [Nəhəcir] dağında dayandı bizim gəmi,*
*Dağ gəmini saxlayıb tutmuşdu dayaq kimi.*

***[Bax lövhə XI Lövhə 140]***

Bilqamıs tanrılar məclisindən "bu həyat-ölüm nədir?" sualına cavab tapmaq üçün Aç dağına səfər edir:

*Canımı qəm bürüsə, qəlbimi qəm əzsə də,*
*İstisə, şaxtadısa, qaranlıq, zülmətsə də,*
*Ah çəkib ağlasam da irəli gedəcəyəm.*
*Aç [Haça] dağa gedən yolu mən səfər edəcəyəm!*

***[Bax lövhə IX, IV 33]***

"Qurani-Kərim"in Əl-Kəhf surəsinin 21-ci ayəsində göstərildiyi kimi Rəbbinə iman gətirmiş 7 gənci 309 il yatırdıqdan sonra onları oyatmaqla, "(insanları, Tərsus əhalisini) onların halı ilə beləcə tanış etdik ki, Allahın (məxluqatın öləndən sonra diriləcəyi haqqındakı) vədinin doğru olduğunu və qiyamətin qopacağına əslə şübhə olmadığını bilsinlər".

Bilqamısın aydınlaşdırmaq istədiyi "... bu həyat-ölüm nədir?" sualına "Qurani-Kərim"də verilmiş cavab!.. Bu sual-cavabın eyniliyi, dağların adlarının, məkan və zaman oxşarlıqları bu sahədə geniş tədqiqat aparılmasını zəruri edir. Bütün bunlar Naxçıvanın nə qədər qədim, müqəddəs bir torpaq olduğunu göstərir.








AZƏRBAYCAN
NAXÇIVAN
Əshabi-Kəhf
Müqəddəs kitab Qurani-Kərim də adı çəkilən Əshabi-Kəhf ziyarətgahının
yerləşdiyi müstəqil Azərbaycan Respublikasının Naxçıvan bölgəsi
Musəlmanların müqəddəs zəyarətgahı yerləşən bir torpaq
ermənilərin ola bilərmi?
- təbii ki yox!
Bu ulu babalarımızın ruhları uyuyan torpaqlarımıza uzanan mənfur
qonşularımızın əllərini kəsmək üçün tutarlı cavabdır

## Elman Əliyevin ilahiyyat haqqında elmi düşüncələri – qeyd dəftərlərindən










Kişi
ALLAh
TENGRI
TANQRI
TANRI
OL
ƏMƏL
IMAN
AMIN
IBLIS


20+12













## *Elmanın qeyd dəftərindən*

1. Qurani Kərim nədir? – 1-5 Qurani Kərim uyaran və müjdələyəndir. Əslində bu kitab bizim içimizdədir. Oxu – özümüzü oxumaq üçün gəlib. Quran buna güzgüdür.

Kəhf surəsinin hikmətləri:

1. İnsanın zaman təsəvvürünü yanlış olduğunu anlatmaq – 12, 19 ayə.
2. Yalan və doğru arasındakı fərqi görmək. (12, 19)

İnsan inanır gördüyünə.

***(Yasin surəsi)***

Allah Kəhf surəsi ilə insanları anladır ki, yatıb duran insan özünün nə qədər yatdığını bilmir. Hətta ətrafındakılar belə təyin edə bilməz. Hər şeyin düzünü Allah bilər.

Birinci 5 bənd Qurani Kərimin hikmətini açır və sonrakı ayələr bu hikməti daha da anlaqlı olmağa xidmət edir.

Biz bu güzgüdə özümüzdə olan yaxşıları görüb sevinir, pisləri təmizləməyə çalışırıq. Əgər bəsirət gözümüz açıqsa, əgər sən oxuduqca özündə onlarla üst-üstə düşərsə demək sən müjdələndin. Əgər olan səhvləri görüb düzəldirsənsə, artıq uyarıldın və müjdə yolundasan.

Əgər baxmadın bu güzgüyə oxumadın, oxumaq istəmədin boş şeylərdir, əhdinə nicat yolun yox, Allahdan sizlər üçün verilən vəd doğru olacaq.

***

6, 7, 8 ayələrdən.

Adamların hamısında bədən üzvləri eyni olsa da həyatda davranış fərqlidir. Üzvlərin sayı eynidir. Fəqət forma fərqləri var. Xasiyyət fərqləri var. Kənd fərqləri var. Lakin adamların görünən əlamətlərlə fərqi Allah yanında mahiyyət daşımaz. Məhz ona görə də insanların suç olması onların əməllərinin fərqli olmasına işarə

edir. Burada gözəl işə işarət olur ki, əgər gözəl iş az, pis iş artarsa 8-ci ayə doğru olar.

***

Allahın yaratdığı:

1. Gözəl iş;
2. Qupquru torpaq.

5, 6, 7 ayələrin mənası onu deyir ki, Peyğəmbərlər, qullar insanlara 7, 8 ayələri adamlara bütün varlıqları ilə anlatmağa çalışmalıdır. Bu işi adamlara böyük inam və diqqətlə, səbirlə öyrətməlidirlər.

Əslində bu ayələr peyğəmbər, qul öhdəliyidir. Peyğəmbərin vəzifəsidir.

6, 7 ayələr adamlara anlatmaq, 9-cu ayədə buna işarə var.

Allahın seçilmişləri özlərini Allahın bu buyurduqlarını adamlara çatdırmaqda özlərini fəda etməlidirlər.

***

Kəhf surəsində gənclərin yanlışlığı – "onlar Allaha sığınmalıykən mağazaya sığındılar." – 10-cu ayə və 16-cı ayə bunu bir daha da dəqiqləyir. İçlərində biri mağaraya sığınır ki, Rəbbimiz sizə zəhmətindən bir parça yaysın.

İhlaslıları Allah qoruyar.

Gənclərdə Allah qorxusu zəifdir. Onlar adamlardan daha çox qorxurlar. Fəqət İbrahim peyğəmbər, Məhəmməd peyğəmbər bir və digər peyğəmbərlər ölümdən qorxmayıb.

26-cı ayə həm də buna hökm verir ki, o kəndi hökmünə kimsəni ortaq etmək. Onlar Allahı tanıyıb və ona görə də mağaraya sığınmaqları yanlış idi. Allahın həm də bu hikməti burada ortaya çıxır ki, əgər vaxtımız tamamsa, istər orda, istər burda ömür sona yetdi. Qaçmağın xeyri yox, ölüm yatmaq və oynamaq kimi bir şeydir.

***

Ayə 19. Bu ayədə diriltmək oyatmaq mənasında gəlir.

Yatdıqları zamanı nə qədər olduğunun fərqində deyillər. Bir gün, gün yarım bilirlər. Sonda nə qədər yatdıqlarını Allah bilər düşünürlər, gümanla. Lakin əsas mahiyyət onların yatması. Onlar bunu anlamırlar.

Yeyəcək üçün şəhərə gedir biri (can qorxusu var, ona görə biri gedir).

Allah göstərir ki, uzun vaxt keçməsinə baxmayaraq bu gənclər hələ də zamanın fərqində deyillər.

Hələ o qorxu içlərində var. Onlar Allahı tanıdılar. Lakin Allah yolunda cihada hazır deyillər. Hə, onlarda can qorxusu Allah eşqindən yuxarıdır. (Ayə 20-yə bax)

Allah hər kəsi yaxşı tanıyır. Onların işinə qalib gələnlər – yəni mağaraya sığınanların məslək, istəklərinə, hansı ideya üçün ora gəldiklərini anlayıb, duyanlar qalib gəlir.
Onların işinə qalib gələn o kəslərdir onlar Allahın tək olduğuna inanır, Allahın vədinin gerçək olduğunu və qiyamətin olacağını bilir.

***

Diqqət!!!

Görünməyən haqda mübahisə zamanı 22-ci ayə onu izah edir ki, əgər bir həqiqət az adama məlumsa, səthi mübahisə ilə kifayətlənmək lazımdır. Münaqişəyə qədər mübahisəni dərinləşdir, nəyə ehtiyac yoxdur. Hətta mübahisə etdiklərindən həmin məsələ haqa heç nə soruşmaq lazım deyil.

23 ayə onu göstərir ki, hətta sabah bu məsələyə görə sübut gətirərəm demə - (Ayə 24-ə bax) 23, 24-cü ayə hadisələr haşiyədir və mağaza hadisəsi ilə bağlı uyarıdır. Sanki həm bu hadisəni oxuyanı uyurarır ki, sən hadisəyə Rəbbinin daha doğru bilgiyə ulaşdırsın səni.

Allahın kitabı nədir?

İnsan özü, kainat. Onun sözlərini necə dəyişmək olar ki?
Gün – gündür,
Ay – aydır,
Yer – yerdir.
Necə dəyişmək olar ki?
Bütün kainat onun əlində ondan başqa hara sığınacaqsan.

***

Ayə 51. Allah yaratdığında heç kəsi şərik tutmayıb. Hər şeyi bir kəsin şahidliyi olmadan yaratdı.

Azanın mənası da burdan çıxır. Yəni Azanla düz yola gəlsin. Allahın heç bir yardımçıya ehtiyacı yoxdur.

***

Ayə 58. Allahın Rəhmi-günaha batanları, pis əməl sahiblərini həmin an cəzalandırma = deyil-səbr sahibidir Allah. İnsanı azad faili muxtar yaratdığı üçün ona haqq yoluna gəlmək imkanı verir ki, Allah səbrindən örnək götürək.

Gələ bilməyənlərin günahı özündə: sığınacaq bir yer olmayacaq.

***

Yol

Balıq – Tövhid dəryasından ilham yolu ilə könülə daxil olan mərifətullahdır – Niyazi.

- İlahi etmə talib olan salihdir.
- Arifin könlündəki tovhid dəryasından ilham yolu ilə könülə gələn mərifətullahdır. (ə)
- Bəs onda duzlu, quru balıq nədir?
- Onda o da Allahın ona öyrətdiyi bilmədikləridir. İnsanın o içindəki o quru balıq Tofhidlə dirilə bilər, dəniz, dərya tovhiddir.

***

Hadisi – Qüdsi (386-cı hədis)

Əshabi Kəhf öz imanlarını gizlədib zahirdə özlərini müşrik kimi göstərdilər, Allah da onların mükafatını iki dəfə verdi.

***

O gənclər arasında ailəli yoxdur. Gənclərdir. Ailə adı çəkmir. Mağazaya gedənlər arasında qadın yoxdur. Amma cinsi söhbət də edilmir.

Fəqət gənc olmaqları önə çəkilir.

Nədən Allahı o gənclərə hikmət vermədi. Axı İbrahimin oğlanları peyğəmbərlik etdilər lap erkən.

Nədən bu Allah tərəfindən hidayət edilən gənclər peyğəmbər olmadılar?

Gənclikdə səbir az olar!

Gənclikdə təkəbbür olar!

Gəncliyin elmi bəsit olar!

Onlar 40 yetişməmişdir.

Tez ailə quran imanının 3/2-ni qorumuş olar – M.Peyğəmbər.

Deməli inamlı olmaq hələ imanı qorumaq deyil, imanlı olmaq deyil.

## Əl-Kəhf surəsi barədə Elmanın düşüncələri (İlahiyyatşünas alim Nəriman Qasımoğlu həmin dəftərə baxaraq yuxarıdakı mətnləri önəmli hesab etmişdir)



Nə ? — Oxu !
Niyə ? — Düşün!
Nə səbəbə (üçün) ? — Öyrən!

hər şey qoyulmuş şərt daxilində araşdırılır.. həmişə şərti nəzərə al!

Kəhf surəsi rəqəm sirlərinin açılışına bağlı görünür. !

İnsanlıq üçün əsas şərt - İman.

Ərəbisi Qüdsi - 386-ya bax.

Türkiyə - Yaşar Nuri
Süleyman } Ateş
Təmiyyə
İsrail oğulları haqda - 45/18.
Quran - Nur - 42/52. səh. 147. [illegible]
Ailə tərbiyəsi - Lüğət - səh. 135 - [illegible]
səh. 162 - [illegible]









## Tələsən adam

Bu yazıya başqa adlar da qoymaq olardı. Amma onu tanıdığım 6 il ərzində gördüyü bütün işlərdə, verdiyi tövsiyə və məsləhətlərdə həmişə tələsən gördüm. Sanki ömrünün qısa olacağını bilirdi. Ona görə də biliklərini bizlərə vaxtında vermək istəyirdi. Elman müəllim tələsə-tələsə olsa da tanıdıqlarına, yaxınlarına, bütövlükdə Azərbaycana, xalqımıza, türk dünyasına çox şeylər verdi. Açığı onun ölümündən sonra bunu daha dərindən dərk edirəm. Onun imza atdığı bütün işlərin cəmiyyətimiz üçün, Azərbaycan üçün, türk dünyası üçün necə böyük əhəmiyyət kəsb elədiyini etiraf edim ki, indi dərk etmək daha asandır. Elman müəllimin qaldırdığı bəzi məsələlərin, problemlərin həllinə göstərilən cəhdlərdə iştirak eləməyimə baxmayaraq onun necə taleyüklü məsələlərin həllinə girişdiyi son iki ay ərzində mənim üçün daha aydın oldu. Onun razılaşmadığı məqamlara görə kimliyindən asılı olmayaraq başqasının sözünü kəsib öz fikrini bildirməyə tələsməsi indi daha başa düşüləndir.

Altı il dostluq etdiyim bu insan ən yaxşı sözlərə layiqdir və ürəyimdə yazılacaq sözlər çoxdu. Amma düşünürəm ki, Elman müəllim kimi insanların gördüyü işlərin açılmasına bu sözlərdən daha çox ehtiyac var.

Sizə bu kitabda təqdim olunan “Ruslar Nuhun gəmisini Azərbaycanda axtarırlar”, “Bütün uca dağlar türklərindir” yazıları məhz Elman müəllimin səyləri nəticəsində ərsəyə gəlib. Bu yazıların dərcindən az əvvəl tanış olmuşduq. Tanışlığımıza səbəb olan rusların təşkil elədiyi ekspedisiyanın Azərbaycanda bütün türk dünyasının xeyrinə olmayan araşdırmaları idi. Ölkədə bu prosesə ilk reaksiya verən, təhlükəni duyan məhz Elman müəllim və dostları olmuşdu. Etiraf edim ki, ilk günlər Elman müəllimin başlatdığı bu davanın uğurla nəticələnəcəyinə o qədər də inanmırdım. Amma onun hadisənin bizim ziyanımıza olan tərəfləri barədə məsləhətləri, məsələnin Naxçıvan və Ağrıdağ üçün təhlükəsi haqda verdiyi həyəcanlı tövsiyələri sayəsində sona qədər

dava aparmağın əhəmiyyətini dərk etdim. Təxminən 7-8 aylıq mübarizə nəticəsini verdi və tarixçilərin, biz jurnalistlərin, ziyalıların həyəcan dolu çıxışları, yazıları müvafiq qurumların diqqətini cəlb etdi və bu gün çoxlarının xəbəri olmadığı bir təhlükə, qara bulud ölkəmizin, türk dünyasının başı üzərindən çəkildi.

Ermənilərin xeyrinə təşkil olunan ekspedisiyanın Naxçıvandan, ölkəmizin başqa bölgələrindən ayağı kəsildi. Bu mənada yazının əvvəlində qeyd etdiyim kimi, Elman müəllimin o zaman üzərinə götürdüyü məsuliyyətin, ağırlığın, gördüyü işlərin əhəmiyyəti onun vaxtsız vəfatından sonra daha aydın dərk olunur və dərk olunmaqla yanaşı müqəddəsdir.

***Nicat Sadıqlı***

## *Ruslar Nuhun gəmisini Azərbaycanda axtarırlar*

*(Bu ekspedisiyanın bizim üçün təhlükəli niyyəti də var)*

**Ruslar Nuhun gəmisinin axtarışına çıxıblar. Bir qədər qeyri-ciddi səslənsə də, bu faktdır. Rusiyanın müxtəlif informasiya vasitələrində, o cümlədən Azərbaycan diasporunun nəşr etdiyi "Azerros" qəzetində bu məsələyə geniş yer verilir. Həmin məlumatlara görə, ruslar artıq ekspedisiya qrupu da yaradıblar və həmin ekspedisiyaya "Nuh-2005", "Nuh gəmisinin axtarışında" adları veriblər.** Ən maraqlısı isə odur ki, Naxçıvana və Ağrıdağa göndəriləcək bu ekspedisiya ikinci obyekt üçün maraqlı bir ad da seçib: "Ararat dağına hücum". İlk baxışdan rusların belə bir niyyətə düşməsi cəlbedici görünə bilər. Çünki, onlar dünyanın xilaskarının axtarışına çıxıblar. Amma Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi Əjdər Fərzəli "xilaskar" axtarışının arxasında təhlükəli məqamlar durduğunu

deyir. O, rusların niyyəti ilə bağlı yayılan müxtəlif məlumatları, ekspedisiya üzvlərinin verdiyi müsahibələri təhlil edərkən bu nəticəyə gəlib.

***"Nuh-2005"***

Həmsöhbətimiz öncə ekspedisiya ilə bağlı məlumatlardan başladı. Onun sözlərinə görə, bu məsələ Rusiyada hələ 2003-cü ildən qabardılmağa başlayıb. Amma ötən ilin sonları və bu ilin əvvəllərindən etibarən məsələ ilə bağlı informasiyalar daha da intensivləşib: "Rusiyada çap olunan "Obozrovatel", "Komsomoloskaya pravda", "Trud" qəzetləri və Rusiyanın mərkəzi televiziyası bu məsələyə xeyli yer ayırır. Həmin informasiya vasitələrində məlumat verilir ki, ekspedisiya qrupu yaradılıb və həmin qrup bu ilin may və avqust aylarında Naxçıvana gələcəklər və Gəmiqayada, Əshabi-Kəfh mağarasında, Xaraba Gilanda qazıntı işləri aparacaqlar. Həmin ekspedisiya qrupunun daha sonra Ağrıdağda axtarış aparacağı bildirilir. Maraqlıdır ki, bu məlumatların heç birində ekspedisiyanın Azərbaycanın müvafiq strukturlarından icazə alıb-almaması barədə bir kəlmə olsun yazılmır". Ekspedisiyanın məqsədinə gəlincə, həmsöhbətimiz hesab edir ki, bu niyyətin görünən və görünməyən tərəfləri var: "Həmin məlumatlara görə, bu ekspedisiya dünyanı daşqından xilas etmiş Nuhun xatirəsinə həsr olunub və Gəmiqayada, sonra isə Ağrıdağda aparılacaq axtarışlar da Nuhun gəmisi ilə bağlıdır".

**Haşiyə:** *Elə buradaca qeyd edək ki, tədqiqatçı-alim Əjdər Fərzəli son 20-25 il ərzində Gəmiqayada və Qobustanda, o cümlədən, digər qayaüstü təsvirlər üzərində tədqiqat işləri aparıb və bu tədqiqatların nəticəsi olaraq iki il öncə onun "Gəmiqaya-Qobustan əlifbası" adlı kitabı çap olunub: "Həmin kitabın sonuncu fəslində mən Gəmiqaya haqqında geniş elmi hesabat yazmışam. Burada Nuh və onun dünyanı xilas etməsi ilə bağlı məqamlar, bu məqamların Gəmiqaya ilə bağlılığından da söz açılır."*

***Villinin 99 dili***

Əsas mətləbə qayıdaq. Tədqiqatçının məlumatına görə, "Nuh-2005"in tərkibində müxtəlif peşə adamları var: "Bura geoloqlar, arxeoloqlar və digər peşə adamları daxildir. Ekspedisiyanın rəhbəri Andrey Polyakov jurnalist, rejissor və səyyah kimi təqdim olunur. Tanınmış mütəxəssis kimi təqdim olunanlardan biri də Villi Melnikovdur. Materiallarda Villi Melnikovun 99 dil bildiyi iddia olunur".

Onu da qeyd edək ki, Rusiya KİV-nin məlumatlarına görə, bu ekspedisiyanın əsas simaları artıq bir neçə dəfə Azərbaycanda və tədqiqat üçün hədəf seçdikləri Naxçıvanda olublar. Bu barədə Əjdər Fərzəlinin bilgisi: "Məlumatlara görə, Andrey Polyakov ötən il həm Qobustanda, həm də Naxçıvandakı Gəmiqayada və Əshabi-Kəfh mağarasında olub. Hətta onlar mağarada bəzi qazıntı işləri də aparmağa nail olub. Villi Melnikov isə iki dəfə Azərbaycana səfər edib. O Qubanın Xınalıq kəndinə, Bakıda Atəşgaha və Naxçıvana baş çəkib".

***Gilqamışın vətəni***

"Nuh-2005" in müəllifləri KİV-də yer alan bilgilərində səfər edəcəkləri yerlə bağlı bəzi xırdalıqlara varıblar. Gəlin onlarla tanış olaq. Əjdər Fərzəli bir tərəfdən bu xırdalıqları təqdir edir: "Bunlardan biri qədim şumerlərin Gilqamış (Bilqamus) dastanının qəhrəmanı Gilqamışın Dilmun ölkəsinin vətəndaşı olması ilə bağlıdır. Ruslar da öz çıxışlarında Gilqamışın tarixi şəxsiyyət, hökmdar olmasını elmi cəhətdən təsdiqləyirlər. Məşhur tədqiqatçı, şumerşünas Samuel Kramer Dilmun ölkəsinin sorağını “ikiçayarası” ölkəsində axtarır. Dilmun ölkəsinin birbaşa Azərbaycan ərazisində olması ilə bağlı təsdiqləyici amillər var. Məsələn, Ağsu rayonunda Dilman kəndi var. Burada Hacıman, Xaçman kəndləri də mövcuddur. Məsələ burasındadır ki, bu adlar qədim Şumerdəki yer adları ilə eynidir. Hətta Şumer ədəbiyyatında əks olunan Dilman kəndinin təbii şəraiti və s. xüsusiyyətlərini hazırda mövcud olan Dilman kəndinə şamil etmək

olar. Şəkidə yerləşən Kişkəndi və çayı eynilə qədim Şumerdə var. Şumerdə Nuhun gəmisi ilə bağlı olan yer adları da var. Məsələn, Şumerdə Haçadağdan, Nisir dağından danışılır. Azərbaycanda Haçadağ və Nəsirvaz dağı, eyni zamanda, kəndi var. Həmin adlar "Gilqamış" dastanında əks olunur. Dastanda Kingir adlı xalqdan söhbət açılır. Kəngər adlı tayfalar Naxçıvanda, Qarabağda və Azərbaycanın digər yerlərində indi də var. Bizim böyük alimimiz, türkoloq Vaqif Aslanov da Azərbaycanda şumer obaları olduğunu yazır. Məsələn, Oğuz rayonunun ərazisində şumer adlı kənd var. Mən bir tədqiqatçı olaraq bu fikirləri söyləməklə yanaşı, şumerləri birbaşa türk adlandırmıram. Fikrimcə, burada Şumer ərazisində yaşamış türklərdən söhbət getməlidir. Rus müəlliflərin başqa bir fikri isə odur ki, Dilmun ölkəsi Naxçıvan ərazisini əhatə edir. Və mən bunun tərəfdarıyam. Buradan belə nəticəyə gəlmək olur ki, əgər Dilmun ölkəsi Naxçıvandadırsa, deməli Gilqamış bilavasitə Azərbaycanda doğulub və bu yerlərin hökmdarı olub. Əslində məşhur şumerşünas Samuel Kramer də yazır ki, şumerlər İkiçayarası ölkəsinə Urmiya ərazisindən, İranın qərbindən köçüb gəlmişdilər".

***Villi nəyə hazırlıq görür?***

Bəs "Nuh-2005"-in təhlükəsi, təqdir olunmayacaq məqamları hansıdır?

***Ruslar Nuhun gəmisinin axtarışına çıxıblar. Bir qədər qeyri qeyri-ciddi görünsə də, bu faktdır. Ruslar artıq ekspedisiya qrupu da yaradıblar və həmin ekspedisiya "Nuh-2005" adlanır.***

Bəs "Nuh-2005"-in narahatlıq doğuran tərəfləri hansılardır?

Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisi Əjdər Fərzəlinin təhlillərinin nəticəsinə görə, ekspedisiya üzvlərinin əsas fikri aparacaqları işlərin nəticəsində ortaya çıxanları Azərbaycandan və türk adından uzaqlaşdırmaqdır. Bu barədə alimin arqumentləri belədir: "İlk

növbədə qeyd edim ki, bu məsələ ilə bağlı gedən yazılarda "Dilmun" "Tilmun", Gəmiqaya isə "Djamiqaya" kimi yazılır. Halbuki rus dilində bu sözü "Qyamiqaya" kimi yazmaq mümkündür. "Djamiqaya" isə "Cəmiqaya" kimi tələffüz olunur. Buradan isə belə nəticəyə gəlmək olur ki, bu ekspedisiyanın üzvləri elmi ədəbiyyata qətiyyən nəzər yetirmir və ancaq yerli əhalinin dilindən eşitdiyi sözləri əks etdirir".

Tədqiqatçının fikrincə, ən qorxulu məqam onların Nuhu və Gilqamışı qədim xorrid dilində axtarmalarıdır: "Qeyd edim ki, xorrid dili hind-Avropa dillərinin bir qoludur. Rus və erməni dili də hind-avropa qrupuna daxildir. Bu sözləri xorrid dilində axtarmaları həmin məqamları türkdən və türk dilindən uzaqlaşdırmaq cəhdidir. Ekspedisiyanın üzvlərinin, xüsusilə də Polyakovla, Melnikovun çıxışlarında qeyd olunur ki, Qubanın Xınalıq kəndi Azərbaycan ərazisində ən qədim kənddir və burada yaşayan xalq ən qədim xalqdır. Eyni zamanda qeyd edirlər ki, Nuh peyğəmbər Xınalıq dilində danışıb. Məsələ burasındadır ki, onlar Xınalıq dilini Dağıstan dillərindən birinə aid edirlər. Bu baxımdan, hesab edirəm ki, onlar gələcək nəticə üçün hazırlıq işləri aparırlar".

***"Ara-ut-xateya"***

Tədqiqatçının bilgisinə görə, xorrid dili ermənilərin özlərinə mənşə seçdiyi bir faktordur: "Melnikov etimalogiyanın qaydalarını pozaraq bir sözü bir neçə dildən çevirə-çevirə izah etmək istəyir. Nəticədə isə nağılvari bir izah verir. O, qeyd edir ki, Ararat qədim xorrid dilində Urartu sözünün qalığıdır. Melnikov bu sözü "Ara-ut-xateya" kimi parçalayır və qədim xorridcə "nə isə olmuş bir şey yuxumuza girmişdi. O zaman ki, biz yamacda idik" mənası verdiyini bildirir. Bu izah uydurmadır. O bu sözü xorrid dilində axtarır. Ermənilər də deyir ki, Xorridlər Urartularla qohum olub, urartular isə erməni xalqının nəslidir. Doğrudan da, Ararat Urartunun təhrif olunmuş adıdır, amma bunun erməniyə aidiyyəti yoxdur. Əslində Ararat kimi qələmə verilən dağın adı da

Ağrıdağdır və Türkiyədə bu dağ məhz belə adlanır. Amma ekspedisiya üzvləri əksər qeydlərində onu "Ararat kimi qələmə verirlər və "Ararata hücum" anlayışını ortalığa atırlar. Digər tərəfdən dilçilikdə belə izah qəbuledilməzdir. Belə çıxır ki, 99 dil bilən Melnikov hələ bilmir ki, sözün məzmunu tərcümə olunmur. Melnikov daş yazını oxumaq üçün çoxpilləli bir sistemdən istifadə edir. Dilçilikdə isə belə bir sistem yoxdur. Deməli, burada əsas məqsəd odur ki, sözləri pilləli yolla əsl mənasından, daha doğrusu-türk dilindən uzaqlaşdırıb başqa bir dilə qohum çıxarmaqdır. Əslində "Xateya" sözündəki, "eya" başqa bir dilin şəkilçisidir. Apardığım təhlillər əsasında deyə bilərəm ki, Melnikov etimologiyanı bilmir. Bir sözlə 99 dil bilmək dilçi olmaq demək deyil. Dilçilik və dil bilmək başqa-başqa sahələrdir."

***Ekspedisiya elmi ədəbiyyatdan niyə qaçır?***

Tədqiqatçının sözlərinə görə, ekspedisiyanın qəbul olunmayan xüsusiyyətlərindən biri də qrup üzvlərinin elmi ədəbiyyatdan qaçmasıdır: "İndiyə qədər bələdçilərə üstünlük veriblər.

Yazıların birində isə Kamil adlı bələdçinin adı çəkilir. Ekspedisiyanın rəhbəri səyyah Andrey Polyakov məqsədlərini bir qədər də konkretləşdirərək məlumat verir ki, onlar avqust ayında Naxçıvana gələcəklər və Nuhun qəbrini axtaracaqlar. Onun dediklərindən belə aydın olur ki, hələ 1980-ci illərdə Naxçıvan partiya təşkilatının qərarı ilə Nuhun qəbri dağıdılıb. Və bu iş ateizm prinsipi ilə həyata keçirilib. Andrey Polaykovun dediklərindən belə anlaşılır ki, bu prosesin yaşlı bir şahidi var və həmin şəxs qəbrin yerini onlara göstərəcək. Bu pis bir niyyət deyil, amma qeyd etdiyim kimi, onlar elmi ədəbiyyatdan qaçırlar".

Onu da qeyd edək ki, ekspedisiya üzvləri Azərbaycanlı alimlərinə müraciət etməyiblər. Yalnız Ordubad rayon Xalça muzeyinin direktoru Arif Qədimovun danışdıqlarına istinad edirlər: "Axı, xalça muzeyinin direktorunun bu işə aidiyyəti çox azdır. Bizim Naxçıvan, xüsusilə də Gəmiqaya ilə bağlı araşdırma

aparan alimlərimiz var. Tanınmış arxeoloq, akademik Vəli Əliyev Gəmiqayanın ön sırada olan araşdırıcısıdır. Təvazökarlıqdan uzaq olsa da, dilçilik müstəvisində bu işi mən davam etdirirəm. Nəticədə kitab yazmışam və dəyərli alimlər bu işə müsbət rəylər veriblər. Bütün bunlara baxmayaraq, ekspedisiya ilə bağlı yazılarda bir nəfər də olsun Azərbaycan aliminin adı çəkilmir. Onu da qeyd edim ki, Andrey Polyakovun "Nuhun gəmisinin axtarışında" adlı kitabı da çapdan çıxıb. Yaxşı olar ki, bu kitabla Azərbaycan alimləri də tanış olsunlar".

***"Nuh-2005"in sensasiyası nə olacaq?***

Konkret olaraq "Nuh" sözünün özünə gəldikdə isə tədqiqatçının sözlərinə görə, bu söz "Hun", "Qun", "Gün" anlamlarına gəlir və əslində od nəslinin, elinin başçısı kimi təqdim oluna bilər: ***"Professor Qara Məşədiyev 1880-ci illərdə çap olunan "Tiflis dəftəri"ndə Azərbaycanın qədim adlarından birinin Hunestan olduğunu aşkarlayıb. Bu elə "Nuhestan" anlamına gəlir. Onu da qeyd edim ki, Azərbaycanın çoxadlı bir ölkə olması ilə bağlı fikirlər öz təsdiqini tapıb. Bunu hörmətli alimimiz Ağamusa Axundov da təsdiq edir. Oğuz, Türk, Hun, Nuh, Azər-bütün bunlar bizim xalqın adlarıdır. Bu mənada ekspedisiya üzvləri bilməlidirlər ki, Naxçıvan, Gəmiqaya bütövlükdə türklərə məxsus olan tanrıçılığın tarixidir. Ekspedisiya üzvlərinin nədənsə Tilmun adlandırdıqları Dilmun həm də tanrılar məskənidir".***

Onu da qeyd edək ki, ekspedisiya üzvləri gördükləri işin bu il bir sensasiya ilə nəticələnəcəyinə ümid edirlər. Əjdər Fərzəli isə onların bu niyyətinə belə aydınlıq gətirir: "Ekspedisiya üzvləri Rusiya KİV-nə verdikləri açıqlamalarında sensasiya axtardıqlarını bildirirlər.

Məsələ burasındadır ki, onlar Nuhla bağlı bilgiləri digər mənbələrdən götürürlər. Bizim mənbələrə isə əl vurmurlar.

Elə bir mənbədən ki, onun bir qolu erməni dilinə gəlib çıxır. Onlar Gəmiqaya hesabına özlərinə yeni şöhrət qazanmaq

istəyirlər. Amma bu şöhrətin arxasında Naxçıvan və onun ətrafındakı xalqların kimliyinin axtarışı da durur. Ona görə də hesab edirəm ki, bu uydurma sensasiya olacaq".

***"Ekspedisiya Dədə Qorquddan yan keçir"***

Tədqiqatçının fikrincə, Naxçıvanda, Gəmiqayada tədqiqat işləri aparacaq ekspedisiya Dədə Qorquddan yan keçir: "Axtarış aparılacaq Gəmiqaya bilavasitə Dədə Qorqud qəhrəmanlarının ov etdikləri, yaşadıqları məskənlərdir. Polyakov və Melnikov Gəmiqayadan danışanda bilavasitə Dədə Qorquddan da danışmalıdırlar. Görünür, onların Dədə Qorquddan xəbərləri yoxdur, ya da bunu istəmirlər. Dədə Qorqudu Gəmiqaya ilə bağlayan ciddi faktorlar var. Dədə Qorqud dilində səslənən "anam adı Qaba ağac"ın, "Atam adı Qağan Aslan"ın əksi Gəmiqayada var. Bundan başqa Qazan xan deyir ki, Ağqayanın qaplanının erkəyində bir köküm var. Bu məqam Gəmiqayada böyük bir qayada təsvir olunub. Hörmətli alimimiz Vəli Əliyevin kitabında da bu təsvir var. Nuhun gəmisi haqqında əfsanədə bəhs olunan Qaranquşun adı ilə bağlı Gəmiqayanın ətəyində dağı".

***Ermənistan Şuşada arxeoloji qazıntı aparmaq istəyi ilə Nuh gəmisini axtarmaq üçün Naxçıvana ekspedisiya göndərilməsinin eyni vaxta düşməsi təsadüfi deyil. Çox güman ki, ermənilər bir vaxt Qarabağla bağlı irəli sürdükləri fikirləri indi Naxçıvana yönəltmək üçün baza hazırlayırlar. Ona görə də Milli Təhlükəsizlik Nazirliyi bu prosesə müdaxilə etməli və ekspedisiyanın işinə nəzarət etməlidir.***

### *Müqəddəs ziyarətgahda qazıntı işləri*

Məlumatlardan o da aydın olur ki, indiyə qədər ekspedisiya üzvləri mü**əyyən işlər görüblər. Bu barədə həm**söhbətimizin bilgisi: ***"Ekspedisiyanın işləri barədə məlumat verilmir. Sadə***cə, Əshabi Kəfdə (Naxçıvanda mağara adı, Quranın 18-ci surəsi), Gəmiqayada, hətta Qobustanda söz oxuduqlarını bəyan edirlər. Amma bu sözləri məxfi saxlayırlar. Qeyd edirlər ki, "Naxçıvanda qədim xalçaların üzərində Nuhun dövründən qalma işarələr var. Bu işarələri Villi Melnikov oxuyub". Amma Melnikov xalçaların üzərindən nə oxuyub, bəlli olmur".

Əjdər Fərzəlinin sözlərinə görə, ekspedisiya qrupu Gəmiqaya ilə yanaşı Naxçıvandakı Xaraba Gilanda və Əshabi Kəf mağarasında da qazıntı işləri aparacaq: "Onu da qeyd edim ki, Quranın 18-ci surəsinin adını daşıyan bu mağara daşqın zamanı insanları xilas etmiş bir yer hesab olunur. Ekspedisiya üzvləri isə burada müəyyən qazıntı işləri apardıqlarını və bu il daha böyük qazıntı işləri aparacaqlarını bildirirlər. Bəllidir ki, müqəddəs yeri ziyarət edərlər. Ona görə də Qafqaz Müsəlmanlar İdarəsi bu işə qarışmalıdır. Yeri gəlmişkən, onu da qeyd edim ki, "Nuh 2005"ə Provaslav kilsəsi də xeyir-dua verib".

***"Ararata hücum"***

Yazın əvvəlində ekspedisiya qrupunun Türkiyə ərazisindəki Ağrıdağda da axtarışlar aparacaqları barədə bilgi vermişdik. Əjdər Fərzəlinin sözlərinə görə, Ağrıdağa səfərdə təkcə Rusiya deyil, Amerika, Türkiyə və Ermənistanın ekspedisiya qrupları da iştirak edəcək: "Ekspedisiya üzvləri deyirlər ki, Nuhun bir gəmisi Ağrıdağda, biri isə Gəmiqayada olub. O da iddia olunur ki, Nuhun gəmisinin bir parçası Eçmiədzin muzeyində saxlanılır. Guya Nuhun gəmisinin bir parçası 2300 il bundan əvvəl Ermənistana düşüb, bu ölkə isə 1700-cü illərdə həmin gəmi parçasından bir hissəsini Yekaterinaya hədiyyə edib. Mən bir tədqiqatçı kimi elmi ədəbiyyatda belə bir fakta rast gəlməmişəm".

Əjdər Fərzəlinin fikrincə, "Ararat dağına hücum" devizi ilə Ağrıdağda aparılacaq tədqiqat işlərinə ermənilərin qoşulması təhlükəlidir: *"Bu ölkə Türkiyəyə, Azərbaycana düşmən münasibət bəsləyir. Türkiyəyə qarşı məhz Ağrıdağın yerləşdiyi istiqamətdə ərazi iddiası var. Ona görə də mən türk qardaşlarımızı bu məsələdə məsuliyyətli olmağa çağırıram".*

***Bir niyyətin iki istiqaməti***

Tədqiqatçı belə hesab edir ki, ermənilərin Şuşada arxeoloji qazıntı işləri aparmaq istəyi ilə Naxçıvana ekspedisiya göndərilməsinin eyni vaxta düşməsi təsadüfi deyil: "Mənə belə gəlir ki, ermənilər bir vaxt Qarabağla bağlı irəli sürdükləri fikirləri indi Naxçıvana yönəldiblər. Ona görə də mən Milli Təhlükəsizlik Nazirliyinin hörmətli rəhbərindən xahiş edirəm ki, bu prosesə müdaxilə etsin və nəzarətə götürsün. Azərbaycan müstəqil dövlətdir, o öz ərazisinə gələn səyyahı, turisti, xüsusən, ekspedisiyanı sərbəst buraxa bilməz. Bir şeyi də unutmaq olmaz ki, Ermənistan Naxçıvana yönəlik ərazi iddiasını gizlətmir. Məncə, Milli Elmlər Akademiyası və onun Naxçıvan filialının dəyərli alimləri də bu prosesə müdaxilə etməlidirlər".

***15- 16 mart 2005-ci il***
*"Mərkəz" qəzeti*

# Ailə xatirələri


Allahverdi - ulu babamızdır. Bundan sonrakı nəslə Allahverdilər nəsli deyərmişlər. Anadan olduğu, öldüyü, ata və anası haqqında dəqiq məlumatım yoxdur (XVIII əsrdə yaşayıb).
Alməmməd - Allahverdinin oğlu olub, anadan olduğu, oxuduğu və s. haqda məlumatım yoxdur (XIX əsrin 70-ci ilinə qədər yaşayıb).
oğlu
oğlu
Əli (İki arvadı olub: Nərgiz və Şərəbanı) Beş oğlu olub, üçü Nərgizdən, ikisi Şərəbanıdan. (XX əsrin əvvəlinə qədər yaşayıb)
Fərzalı - ətraflı məlumatım yoxdur. (XX əsrin əvvəlinə qədər yaşayıb)
Nərgizdən olanlar
Şərəbanıdan olanlar
oğlu
qızı
Əmrah (öldürülüb)
Kamo (öldürülüb) eyni vaxtda
Qurban (1880-1977) 2 arvadı olub
İmran 1983-1964
Cəlal 1885-1945
Əziz xərçəngdən 1965 ölüb
Sona 1974-cü ildə ölüb
Sultan (1922-1945) mühar. ölüb
Fatma 1928
Səkinə 1932
Yusif 1934
İslam 1937
Arif 1953
Əmrah 1927-1979
Gülnisə 1935
Cahangir 1937
Çingiz 1925
Əsmətel 1933
Qaraqız 1935
Miman 1939
Musa 1935
Əpruz 1938
Simuzər 1946
Zeynəb 1930
Hümbət 1937
Məhəmməd 1937
1. Çiçək, 2. Elman (Əyyub), 3. Müşkünaz, 4. Ərkinaz, 5. Yusif, 6. Nəsib (Zülfiqar), 7. Seydalı.
1. Leyli
1. Elxan, 2. Zahir, 3. Pərvanə, 4. Yeganə.
1. Elman, 2. Oktay, 3. Lətafət, 4. Sultan, 5. Rasim, 6. Güllər.
1. Məriyəm, 2. Firuz, 3. Qurban, 4. Gülnar, 5. Aynur, 6. Aysel, 7 Aysu
1. İsa, 2. Əli, 3. Cəmşid
1. Fuqura
Allahverdi - Alməmməd - Əli - Qurban - İslam - Anaları Asya
İslamın - övladları, nəvələri, nəticələri
Elman h/y Şəmidə-1959
Oqtay h/y Sevda-1960
Lətafət h/y Fəxrəddin-1961
Sultan h/y Nazimə-1971
Rasim h/y Mədinə-1965
Güllər 1970
övladları
Emin 09.07.83 1. 2. 3. 4. 5.
Emil 24.02.86 1. 2. 3. 4. 5.
Günel 19.02.90 1. 2. 3. 4. 5.

## *Əbədi dünyanla yaşa!..*

Böyük oğlum Elman 1959-cu il, yanvar ayının 11-də Naxçıvan şəhərində dünyaya göz açmışdır. Yeddi yaşında Nəsirəddin Tusi adina 9№-li orta məktəbin birinci sinfinə daxil olmuş, 1976-cı ildə Naxçıvan şəhər Cəlil Məmmədquluzadə adına 2№-li məktəbin onuncu sinfini bitirmişdir. Elə həmin ili də Azərbaycan Neft Kimya İnstitutunun (indiki Neft Kimya Akademiyasının) İdarəetmə sistemlərinin avtomatlaşdırması fakültəsinə qəbul olunmuşdur.

1981-ci ildə təhsilini başa vurub təyinat yerinə getmişdir. 1982-ci ildə Naxçıvan Mərmər Zavodunun tələbi ilə həmin zavodda əmək fəaliyyətinə başlamışdır. Bir müddət orada işlədikdən sonra sex müdiri təyin olunmuş, xeyli müddət həmin zavodda çalışmışdır. Az bir müddətdən sonra Babək rayon Komsomol Komitəsinə ictimai vəzifəyə aparılmış, bir müddət işlədikdən sonra Babək rayon Partiya komitəsinin təşkilat şöbəsinə keçirilmiş, 1990-cı ildə Bakıda baş verən Qara yanvar qırğınından dəhşətə gələrək, partiya biletini cırıb atmış, partiya sıralarından çıxmışdır.

Həmin vaxtdan sonra Naxçıvan televiziyasinda mühəndis işləmişdir.

2000-ci ildən sonra Bakıya gəlib, qeyri-hökumət təşkilatlarının birində çalışıb. Azərbaycan Azad Mühəndislər Cəmiyyətini yaratmış, ancaq fəaliyyətini təmin edə bilməmişdir (maddi imkansızlıq üzündən).

Neçə illərdi ki, özəl şirkətlərdə çalışırdı. Elektronika sahəsini çox sevirdi. Gərgin əməyi, gecə-gündüz işləməyi nəticəsində həmin ixtisasın gözəl bilicilərindən birinə çevrilmişdi. Ancaq arzuları yarımçıq qaldı...

Vətəninə, xalqına, millətinə çox bağlı idi... Kitablar onun əzizi, dostu, sirdaşi, çətin-mətin günlərinin arxadaşı idi. Özünə dost bildiyi, seçdiyi adamın dərdini, dərdi-sərini və sevincini özününkü hesab edərdi.

Ən fərqli cəhətlərindən biri o idi ki, seçimi o qədər düzgün aparırdı ki, dostları onunla eyni səviyyədə, hətta ondan da yüksək mövqelərdə yer tuturdular.

Əhsən, mənim əziz balam!!! Allah sənə rəhmət eləsin! Məzarın nurla dolsun!

Mən onların simasında sənin necə böyük və xoşbəxt olduğunu gördüm...

Əvəzolunmaz, sədaqətli, təmənnasız, kamil insanlarla dostluq etməyin sizləri bir-birinizə mənən, ruhən daha yaxın edibdir...

Mən xoşbəxt atayam! Sənin haqq dünyasına qovuşduğun gündən sonra mənim və ananın nə qədər oğlu, qardaşı və bacısı artdı. Sənin qardaşların, bacıların, qohumların xoşbəxt adamlardır... Əbədi dünyanla yaşa... Çox sevirdin bu sözü!..

***

Uşaqlığı çox cəld və çevik idi. Hələ məktəbə getmirdi. Asfalt yolun hər iki tərəfindən su kanalı gedirdi. Balaca uşaqlar həmin kanalda çimirdilər. Keçid yerlərinə 8-10 metr uzunluğunda borular salınmışdı.

Qonşumuz Nadir bir gün mənə dedi ki, İslam müəllim böyük oğlun Elmana mən valeh oldum. Xırda oğlunu az qalmışdı su gilifə salsın, mən də qaçırdım onu xilas edəm. Bir də gördüm ki, uşağı dik götürdülər. Baxdım ki, Elmandır. Onsuz da mən çata bilən deyildim... Mən ona təşəkkür etdim. Mənə nə desə yaxşıdır: "Nadir əmi, mən həmişə Oqtayı nəzarətdə saxlayıram. Mən gördüm ki, onu su aparır, tez özümü yetirdim..." Halbuki, özü heç bir kəlmə də olsun, evdə söz deməmişdi...

***

Naxçıvan şəhər Nəsrəddin Tusi adına məktəbin birinci sinfinə (1966, IX) apardım. Çünki özüm həmin məktəbdə işləyirdim. Özü də yol gedə-gedə müəyyən suallar da verirdim, suallara cavab verəndə təşəkkür edir, istiqamətləndirirdim.

İlk əlifbanı başlayanda Cəvahir müəllimə mənə dedi ki, Elman qələmi sol əli ilə tutur, özü də yazdığı dəftəri qaralayıb, pis vəziyyətə salır. Hətta məni apardı həmin sinfə, ilk partada oturan Zemfira adlı bir qızı göstərdi ki, bu qız çox yaxşı oxuyur. Əlifbanı qıza oxutdurdu. O da sərbəst oxudu...

Müəlliməyə dedim ki, narahat olmasın, Elman çatdıracaq, yaxşı da oxuyacaqdır.

Hər ikimizin çalışması nəticəsində qələmi sağ əli ilə tutdu, hüsnxət qaydasına əməl etdi, həmin ilin mart ayında Təkmilləşdirmə institutundan yoxlama zamanı Elmanın yazıları hüsnxət qaydalarına tam cavab verdi.

Həmin illərdə əlifba yanvara qədər başa çatdırılırdı. May ayında birinci sinifdə üzündən oxunu yoxladılar. İkinci sinfin kitablarını üzündən o qədər sərbəst oxudu ki, gələnlər hamısı əhsən dedilər. Soruşdular ki, kimin uşağıdır? Məktəbin direktoru Həsənov Əbülfəz dedi ki, İslam müəllimindir...

Abdulla Şaiqdən, Abbas Səhhətdən, Mirzə Ələkbər Sabir və digər uşaq şeirləri yazan şairlərdən şeirlər seçib əzbərlətmişdim. Bir gün ondan soruşdum ki, Elman, neçə şeir bilirsən? Cavab verdi ki, ona qədər olar. Dedim ki, əzbərlədiyin şeirlərin adlarını say. O saydıqca mən qeyd etdim, 54 tamam oldu. Yaddan çıxanı da yadına saldım, 56 şeir oldu. Özünə də qəribə gəldi ki, nə qədər şeir bilirmiş!..

Öz qabiliyyət və bacarığına görə sinifdə fərqlənirdi. Sinif yoldaşlarının sevimlisinə çevrilmişdi. Mən ona adicə əsəbiləşəndə belə, hiss edirdim ki, sinif yoldaşları narahat olur...

İkinci sinifdə oxuyurdu. Məktəbin direktoru Həsənov Əbülfəz mənə dedi: "Yoldaş Əliyev” (müəllimim olsa da mənimlə belə danışırdı), sənin oğlun Elman ya istedadlı bir şəxsiyyət olacaq, ya da dəhşətli bir adam. Onuncu sinifdə oxuyan çox şuluqçu bir uşağımız var, yəqin ki, onu tamımamış deyilsən. Müəllimlər də, uşaqlar da ondan gileylidir. Dünən gəlib mənim yanıma deyir ki, Əbülfəz müəllim, İslam müəllimin 2-ci sinifdə oxuyan oğlu Elman yenə kubiki qapının üstündəki artırmanın dib tərəfindən itələyə-itələyə gətirib ön tərəfə, deyir ki, sən buradan keçəndə başına salıb öldürəcəyəm... Mən özüm də çıxıb baxdım, gözlərimə inanmadım. O, kubiki elə yerə qoyub ki, güclü bir təkanla kubik ordan düşər, bir neçə uşağa ziyan yetirə bilərdi. O, uşağın əlindən məktəb zara gəlib, o isə sənin oğlun Elmanın

əlindən zara gəlibdir. Ona başa salmaq lazımdır ki, adam belə işə yol verməməlidir.”

Mən də həmin dövrdə cavan müəllim idim, həmin şuluqçu uşağa hərdənbir “qulaqburması” vermişdim. Əlbəttə, mənim də pedaqoji ustalığım zəif idi. Onun qəlbinə yol tapa bilmədiyimdən, mənim də güclü olduğumu hiss etdiyindən sözünü Elmana deyərmiş... Elman da həmin uşaqdan qisas almaq üçün bu yolu seçib.

Həmin günü axşam bir hadisə uydurdum, yığcam danışdım. V sinifdə oxuyan bir şagird səhv edərək, oğurluq edib, həmin uşağın atasını tutublar. Bu günlərdə onun məhkəməsi olacaqdır.

Elman narahat vəziyyətdə dedi: - "Axı atasının nə günahı vardır? Uşaq qanmadan günah eyləyibsə, uşağa cəza versinlər..."

Mən dedim ki, atasına ona görə cəza verirlər ki, atası uşağı yaxşı tərbiyə etsə idi, yüksək tərbiyə almış uşaq oğurluq etməz, pis işlərlə məşğul olmazdı...

Ertəsi gün gördüm ki, həmin kubik artırmanın qırağından tam kənara çəkilib, əvvəlki yerinə qoyulub.

Sonra mən diqqət verirdim ki, Elman çalışır ki, həmin şagirddən uzaq olsun, hətta özü də onunla üz-üzə gəlməsin...

2-ci sinifdən başlayaraq şifahi xalq ədəbiyyatına çox meyl göstərirdi. 4-cü sinifdə "Molla Nəsrəddinin lətifələri”ndən şirin-şirin danışardı. Yayda aparardım kəndə. Rəhmətlik babası deyərdi: - "Ay Elman, o çoxbilmiş molla nə deyərdi?!”

Elman çox maraqla və şirin-şirin molladan danışar, babasını sevindirərdi. Hiss edirdi ki, babası fəxr edir ki, nəvəsi oxuduqlarını çox maraqla danışır, onu təriflərdi, daha da həvəsləndirərdi.

6-7-ci siniflərdə oxuyanda artıq kitab vurğunu idi. Bir gün kitab mağazasına girdim, Elman da mağazada idi. Mağazada 10-12 adam olardı. Baxdım ki, qarşısında bir neçə kitab var. Təxminən, 1970-ci illər olardı. O zaman lotereya bileti düzəldilmişdi. Uduşa kitab verirdilər. Asta addımlarla gedib yanında durdum. Arxaya çönəndə məni gördü. Əlindəki biletə də uduş düşmüşdü. Özünü itirdi, udduğu kitabları da götürmədi, uduş düşən

bileti də piştaxtanın üstünə qoyub, yoxa çıxdı... Ona elə gəldi ki, mən ona deyəcəyəm ki, sən qumar oynayırsan?!..

Mən daxilən xəcalət çəkdim, indi də özümə bağışlaya bilmirəm. Düzdür, mən evdə başa saldım ki, sən mənəvi sərvət toplayırsan. Əksinə, sənin kitaba marağın məni çox sevindirdi... Sənə istənilən qədər kitab almaq mənim borcumdur. Təki sən oxu... Bundan yaxşı nə ola bilər?!..

Komsomolda işləyən dövrü idi. Kitab mağazasının yanından keçirdim. Pəncərədən gördüm ki, Elman da mağazadadır. Mən də içəriyə daxil oldum. O, məni görmürdü. Əlində qalın bir kitab var idi, ancaq o biri əli cibində idi, nə isə axtarırdı. Kitabın qatlarını açıb çox maraqla baxırdı. Bir neçə dəfə kitabın o üzünə, bu üzünə baxdı, mən hiss etdim ki, narahatlıq hissi keçirir, pulu, yəqin ki, çatmır. Bir ata-bala olsaq da, həm də dost idik. Əlimi çiyninə qoydum, arxaya çöndü ki, mənəm. Üzünə xoş bir təbəssüm gəldi, daxilində bir sevinc qaynadı. Mən də gülə-gülə dedim: - “Komsomolun cibində pul olmaz, kitabı götür!" Çox sevincək halda gülə-gülə dedi: - “Əşi, gəl çıx görək da! Allah səni göydən saldı!

Baxdım ki, tibbə aid kitabdır. Dedim ki, yoxsa həkim olmaq istəyirsən?!

- Yox, ata, əvəzsiz sərvət toplayıram. Bir də nə biləsən, bu kitab nə vaxt buraxılacaq?

Doğrudan da, sonra məlum oldu ki, həmin kitabdan Naxçıvan şəhərinə bir ədəd gəlmiş imiş, onu da Elman götürüb. Kitablara o qədər vurğun idi ki, evdəki mebel əşyalarının hamısını dəyişib kitab rəfləri formasına salmışdı. Yoldaşım da narazılığını bildirərdi...

VII-X siniflərdə bədii əsərləri həddindən artıq çox oxuyardı. Mən imkan vermirdim ki, beyni çox yorulmasın, dərslərini hazırlamağa imkan olsun. O, gözləyirdi ki, mən yatım, sakitlikdə bədii əsər oxusun. Gecələr ayılanda görərdim ki, onun yatdığı otağın işığı yanır. Girərdim həmin otağa. Görərdim ki, Elman üzü üstə yatıb. Qəsdən çevirəndə görərdim ki, kitab sinəsinin altın-

dadır. Danlayardım ki, ay oğul, beyninə dinclik ver, o qədər vaxt olacaqdır ki, hamısını oxuyacaqsan... Həmişə belə olurdu...

1974-cü ildə VIII sinfi bitirib şəhadətnamə alırdılar. Həmin ili Elman da VIII sinfi bitirirdi. Qəsdən özümü onların imtahan komissiyasının sədri təyin etmişdim. Elmanla söhbətimiz olmuşdu ki, inşanı sərbəst yazmalı, heç kəsdən kömək almamalıdır. Yaza bilməsə, payızda yenidən gəlməlidir, imtahan verməlidir. Bu barədə razılığa gəlmişdik. Bu məsələni yalnız ikimiz bilirdik. Saat 9-da paket açıldı. Mövzular lövhəyə yazıldı, müəllimlər tərəfindən aydınlaşdırıldı. Müəllimlərə haradansa çatıb ki, İslam müəllim Elmanı tam nəzarət altında saxlayır, kömək olunmasına icazə verən deyil. Mən hiss etdim ki, müəllimlər çalışır ki, Elmana köməklik etsinlər. Dedim ki, xahiş edirəm, öz yerinizdə olun, imkan verin şagirdlər sərbəst inşalarını yazsınlar. Müəllimlər öz yerlərinə çəkildilər... Mənə dedilər ki, əlaçı şagirdi payız imtahanına saxlamaq nə dərəcədə düzgündür? Dedim ki, heç nə olmaz hazırlaşar, payızda gücünü yoxlayar. 15-20 dəqiqə əlini üzünə qoyub fikirləşdi. Düzdür, nə qədər qəddar yanaşsam da, fikrim onun yanında idi. Gördüm ki, nə isə yazır. Partalar arası gəzərək mövzulara baxırdım. Onun inşasına baxdım, gördüm ki, "Son dövrdə oxuduğum bədii əsər" mövzusunu seçib. "Səmərqəndin ulduzları" əsərini qeyd edib. Məni maraq götürdü. Bu əsərdən o nə başa düşə bilər? Bir neçə cümlə oxudum, baxdım ki, çox gözəl başlayıb. Dedim ki, pis başlamamısan, diqqətli olsan, yaxşı nəticə əldə edə bilərsən.

Bir neçə dəqiqədən sonra müəllimlərdən biri gəldi ki, Elman deyir 5 dəqiqəlik icazə versin, havamı dəyişim. İcazə verdim, 5 dəqiqədən sonra qayıtdı. Öz səviyyəsinə görə məzmunlu bir inşa yazdı.

İnstituta qəbul olan ili inşanı çıxarıb özünə verdim. Dedim ki, gələcək nəslinə-uşaqlarına, nəvələrinə göstərərsən ki, bizi belə çalışdırırdılar... (Təəssüflər olsun ki, nə nəvə, nə nəticə görə bildi!..)

1976-cı ildə Bakıda kitab həftəsi keçirilirdi. Komsomolun birinci katibi Sabirə xanım məni yanına çağırdı, çox hörmətlə qarşıladı. Sonra dedi ki, bilirsiniz Sizi niyə çağırmışıq?.. 2 №-li məktəbdən çox qabiliyyətli bir şagirdi Bakıya kitab həftəsinə aparacaqsınız, bir həftə də yaxşı istirahət edəcəksiniz.

Soruşdum ki, uşaq kimdir? Dedi ki, həqiqətən çox ləyaqətli, qabiliyyətli, gözəl bir şagirddir. Əliyev Elmandır. Onu görən kimi çox xoşuna gələcək.

Mən həmin dəqiqə dedim ki, mən apara bilmərəm, qəti olmaz! Sabirə Mikayılova bir az fikirləşib dedi ki, İslam müəllim, Siz şagirdi görmədən belə tez bir zamanda qərara gəldiniz? Mənə belə gəlir ki, Sizin haqqınızda yaxşı düşünməmişəm.

Mən gülə-gülə dedim: - “Yoldaş Mikayılova, Elman mənim oğlumdur!" Sabirə xanım özünü itirən təhər oldu və dedi: - "Axı o, çox yaxşı oğlandır!"

Mən də dedim ki, məgər mən pisəm?

Sabirə xanım gülümsəyib dedi ki, Siz məni bağışlayın. Elman tamamilə başqa bir oğlandır. Hansı müəllimdən, hansı sinif yoldaşından, onu tanıyanların hansından soruşdum, onun qeyri-adi oğlan olduğunu dedilər.

Sabirə xanım dedi: - “Oğlunu Sizin məktəbdən kimə etibar edirsən, o müəllim aparsın!” Mən də Nadirov Sultanın adını çəkdim.

- Sultan müəllim bir həftə Bakıda qaldı. Gələndə öz təşəkkürünü bildirdi, dedi ki, dünyanın həzzini mən bir həftədə gördüm. 41 yaşım var, bir həftədə yaşadığımı heç zaman yaşamamışam. Çox sağ ol, sənin hesabına bu xoş günləri yaşadım. İslam müəllim, oğlun Elmanda bir şeyi müşahidə etdim. Sənə həddindən artıq inanır, çox böyük hörmətlə yanaşır. Xoşbəxt atasan ki, övlad yanında bu dərəcədə hörmətin var. Səni ilahi qüvvə kimi qəbul edir. Hər sözünün başında deyirdi: “Atam belə demişdi”, “Atam belə məsləhət görmüşdü”, “Atam bu qaydanı belə aydınlaşdırmışdı” və s..

Sultan müəllim, - dedim hələ o çox gəncdir, gözünü açanda atasını görüb, ona bağlanıb, böyüdükcə hiss edəcək ki, atası heç də

onun düşündüyü səviyyədə deyil, öz tay-tuşlarından çox geridə qalır... Uşağa elə gəlir ki, onun atasından qüvvətli heç kəs ola bilməz. Zaman keçdikcə hər şey durulur, aydınlaşır...

Ali məktəbə hazırlaşanda qəribə bir hadisə baş vermişdi. İmtahana düşən dərslikləri seçib bağlayıb ki, mən ali məktəbə qəbul olmasam, atamın üzünə baxa bilmərəm. Ümumiyyətlə, müəllimlərimin, qonşuların, qohumların, tanışların üzünə çıxa bilmərəm. Bağladığım kitabları zəng edən kimi göndərərsiniz, mən BAM-a işləməyə gedəcəyəm, orada hazırlaşar, həm də zəhmətin nə olduğunu dadaram.

Mən isə tam arxayın idim ki, qəbul olacaqdır. Riyaziyyat müəlliməsi Fəridə xanımdan soruşmuşdum ki, Elman qiymətlərini doğruldacaqmı? O isə çox böyük inamla mənə demişdi ki, 4-dən aşağı qiymət alan deyil. Elmanı da öz balası qədər sevirdi. Onun dediyi kimi də oldu.

Mən də həmin ili "Bilgəh" sanatoriyasında istirahət edirdim. Birinci imtahanları riyaziyyat yazılı idi. Ürəyim dözmədi, $10^{30}$ – da Bakıda oldum. Azərbaycan NKİ-nin qarşısında nə qədər valideyn dayanmışdı. Mən də bir təhər yol tapıb, qapıya tərəf getdim, diqqətlə qapını izlədim. Bir də hiss etdim ki, çiynimə nə isə bir əl toxundu, çönüb baxdım, ancaq kim olduğunu tanımadım. Həmin adam mənə dedi ki, oğlunu gözləyirsənsə, gözləmə, o, çoxdan çıxıb gedib...

Elə bil başımdan bir qazan qaynar su tökdülər. Mənə elə gəldi ki, Elman kobudluq edib, çıxarıb ötürüblər eşiyə. Qaldığı mənzil tərəfə istiqamət götürdüm. Bir az getmişdim, gördüm pencəyi atıb çiyninə, laqeydcəsinə gəlir. Əsəb məni boğurdu. O, məni görmürdü. Tez özümü ona çatdırıb qışqırdım. "Özünü gözləyə bilmədin, səni imtahandan çıxartdılar?!" – dedim. Mən ona imkan vermir, üstünə qışqırırdım. O, sakitcə dedi: - "Ay ata, niyə əsəbiləşirsən, suallar çox asan olduğundan tez həll etdim və çıxdım. Boş-boşuna içəridə niyə oturmalıyam?" Bir az sakitləşdim, ancaq arxayınlaşa bilmədim.

Bizdən bir az kənarda riyaziyyat müəllimi bizim söhbətimizi, mənim narahatlığımı eşidirmiş. O, Elmandan imtahana dü-

şən sualları soruşdu, o da dedi və həmin dəqiqə də həll elədi. Əlavə bir müəllim də gəldi, bəzi suallar da verdilər və dedilər ki, çox sağ ol! Riyaziyyatı çox gözəl bilirsən... Siz də belə savadlı uşağı danlayırsınız?! Belə uşaqla fəxr etməlisiniz!.. Səbirli olmaq nə gözəl keyfiyyətdir! Münasibətləri qaydaya salmaq üçün dedim ki, gedək birlikdə şəkil çəkdirək. O, sevincək razılaşdı. Şəkili çəkdirəndən sonra dedi ki, ata, icazə versən, bığ saxlayardım.

Mən dedim ki, ona da icazə lazımdır? Ürəyin necə istəyirsə, elə də et. Ürəyim açıldı, aydın oldu ki, o məni bağışladı.

X sinifdə oxuyanda ona qarşı amansız, bağışlanılmaz bir səhv etmişəm. heç zaman özümə onu bağışlayan deyiləm!

Yolda 2№-li məktəbin direktoru Əbülfəz Əsgərovla görüşdük. Mənə dedi ki, oğlun Elman o biri uşaqlarla birlikdə axırıncı dərsdən qaçır. Mən çalışdım ki, bunu elə çatdırım ki, yaxşı nəticəsi olsun. İkimiz də tezdən məktəbə getməyə hazırlaşmışdıq. Soruşdum ki, axırıncı dərslərdən niyə qaçırsan? O, sakit dayanıb başını aşağı saldı. Bir də təkrar etdim, eyni vəziyyəti gördüm. Mən səbirsizlikdən bütün pedaqoji qaydaları unutdum, ona bir sillə vurdum, çox kobud səhvə yol verdim! O, heç başını da qaldırmadı, mənə qalib gəldi.

Bağışlanılan səhv deyil!!! Mən isə çevrilib məktəbə getdim... Sonra anasına deyib ki, ay ana, atama denən, məni bağışlasın, mən uşaqlardan ayrıla bilmərəm.

1976-cı ildə dörd imtahan verib ali məktəbə girdi. BAM-a getmədi. Onunla paralel qrupda oxuyan bir şagird də var idi. Yaxşı oxuyurdu. Gördüm ki, məktəbin direktoru ilə yolda söhbət edir. Direktor məni görən kimi əli ilə işarə edərək çağırdı. Getdim onunla salamlaşdım. Direktor mənə dedi ki, ... filankəs 4 imtahanın hamısından “5” qiymət alıbdır. Müəllimlər deyib ki, ay oğul, gərək sən hüquqa gedərdin. Mən də bilirdim ki, o, Elmanla imtahan verib, iki dörd, iki “3” qiymət alıb. Oğlanın yalan danışmasını eşidəndə dedim ki, düz demir, tamam yalan danışır. Mənim sərt cavabım oğlanın xoşuna gəlmir. Hərbi komissarlıqdan qeydiyyatdan çıxanda Elmana qarşı pis ifadə işlədir. Elman idmanla da məş-

ğul olurdu, həmin oğlandan güclü olardı. Mən bunu eşidəndə dedim ki, ona sən yaxşı cavab verməli idin. Elman mənə dedi ki, cavab vermək asan idi. Ancaq soruşacaqdılar, bu kimin oğludur? Tanıyanlar deyəcəkdilər ki, İslam müəllimin. Artıq Sizin haqqınızda başqa fikir yaranacaqdı. Mən özümü onun səviyyəsinə endirmədim.

O, düz düşünmüşdü.

İnstitutda oxuduğu illərdə üç nəfər bir yerdə qalırmış. Pulları qurtarır. Fikirləşirlər ki, zəng edib atalarından pul istəsinlər. Elman zəng edir. Telefonu mən götürürəm, ümumi vəziyyəti soruşandan sonra pula ehtiyac duyduqlarını soruşuram ki, qatarla pul göndərim. O isə cavab verir ki, hər şey yaxşıdır, heç nəyə ehtiyacımız yoxdur. Ailəni narahat etmək istəmirdi. O istəməzdi ki, doğmaları ona görə əziyyət çəksin, narahat olsunlar. Əyani oxuduğu halda, gecə də nəzarətçi işləyir, çalışırdı ki, ailəyə əziyyət verməsin.

Bir gün mənə zəng etdi ki, ata, imtahanların axırıncısı qalır, ancaq imtahanlardan sonra mən gələn deyiləm. Tikintidə işə düzəlmişəm, qalıb orada işləyəcəyəm. Gəlib boş-boş küçələrdə avaralanmaqdansa, qış tədarükümü görərəm, siz narahat olmayın!..

Mənim ona qarşı səhvlərim çox olsa da, ancaq o, atanın, ananın dediyi fikirləri, məsləhətləri canla-başla yerinə yetirməyə çalışıb, ailədə narahatlıq yaratmayıb.

Ali məktəbi qurtaranda təyinatını Rusiyaya – Həştərxana vermişdilər. Belə razılaşdıq ki, qızımın yaxın adamlarından tapıb, ad eləmək lazımdır. Elə də oldu. Elmanın xasiyyətini gözəl bilirdim ki, o heç kəsə baxmayacaq, pak bir cavan kimi ailəsinə sadiq qalacaqdır. O, ailəsinin arzusunu gerçəkləşdirdi. Naxçıvan Mərmər zavodunun tələbinə əsasən, dörd aydan sonra təyinatını həmin zavoda verdilər.

Onunla birlikdə işləyənlərin 60-70 faizi Nehrəm kəndindən idi. Nehrəmdə baş verən məzəli əhvalatlardan çox maraqla danışardı. Mən də deyərdim ki, Nehrəm kəndinin adamları bir gün səni döyəcəklər.

Şifahi xalq ədəbiyyatına çox meyl edirdi. Dedi ki, atalar sözünə aid bir nümunə deyəcəyəm, ona münasibətinizi bildirin. Ata-

lar deyiblər: “Düz düzdə qalır.” Siz bu nümunəyə necə baxırsınız? Bir neçə dəqiqə fikirləşdim, dedim ki, tamam düzgün işlənibdir. Bu atalar sözündə elə bir nöqsan görmürəm. Elman dedi ki, ancaq mən o atalar sözünə belə baxardım: - “Düz düz də olaraq qalır.” Axı, ulularımız həmişə haqqın tərəfində olublar. Ola bilməz ki, onlar insanları mənfi istiqamətə sürükləmək istəmiş olsunlar! Əlbəttə, hərə öz pəncərəsindən baxır, həqiqəti təhlil edir, özünə nəticə çıxarır.

O, VI-VII sinifdə oxuduğu zaman Məmməd Arazın şeirlərini vərəqləyirdim. O da çox diqqətlə baxırdı. Dedi ki, çox gözəl şeirləri var. Mən də dedim ki, IX-X sinifdə oxuyanda bu şeirləri düzgün başa düşəcəksən. Mənə dedi ki, çox gözəl, mənalı şeirlər yazmışdır. Hətta bir neçə şeirini də oxudu, təhlil elədi, hiss etdim ki, şeirlərə düzgün yanaşır. Məmməd Arazın şeirlərini bağışladım ona. Onun şeirlərini oxuyar, əzbərləyər, sonra sakit vaxtımız olanda şeirləri mənə deyər, sonra da təhlil edərdi. Mən də zarafatla deyərdim: - “Məmməd Araz poeziyasının vurğunusan, ancaq özün niyə şair ola bilmirsən?!” Onun cavabı çox yığcam olurdu: - “Hər adamda istedad ola bilməz!”

Bakıya köçəndən 1-2 il sonra telefonla danışırdıq, mənə muştuluq kimi dedi ki, Məmməd Arazı indi şəxsən tanıyıram, hətta o mənə oğlu kimi baxır. Şair bir az xəstə olsa da, biz bir-birimizi gözəl başa düşürük.

Elmanın 40 yaşı tamam olanda onun doğum günü qeyd olunurdu. Məmməd Araz da ailəsi ilə birlikdə gəlmişdi. Söz alan hər kəs şairin şeirlərini deyir, onun Elmanla münasibətindən danışırdı. Bu yığcam məclisdə dünyanı seyrə çıxardılar. Məmməd Araza o dərəcədə bağlı idi ki, bir az poeziyadan söhbət açılanda Məmməd Araz şeirləri mövzunun ana xəttinə çevrilirdi. Daha doğrusu, Məmməd Araz dəlisi idi.

Elman Bakıya gələndən sonra mağaza açdı. Ancaq hiss edirdim ki, əsəbləri yerində deyil. Ticarətdən başı yaxşı çıxmırdı. Hiss edirdim ki, yanında işləyənlər də sağlam düşüncəli deyillər.

Mağazada mən bir neçə dəfə olmuşdum. Hiss edirdim ki, digər mağazalarla müqayisədə burada dəqiq haqq-hesab aparılmır. Mağazadan istənilən mal götürülür, qeydiyyata alınmır.

Elman həddindən artıq humanist idi. Hamıya inanır, etibar edirdi. Ona görə də mağazadan mal götürənlər satdığı malın pulunu ödəmədən 2-ci, 3-cü malı götürür, 15-20 günə ödəyəcəyini söyləyirdi. Lakin pul ödənilmir, borc-borcun üzərinə yığılırdı. Bir qadın ondan beş min manatlıq mal aparmışdı. Sonra da həmin qadın yoxa çıxdı. Məlum oldu ki, həmin qadın malları gəmi vasitəsi ilə Özbəkistana aparır, guya orada satıb, pulunu gətirəcəkdir.

Gömrükxanada işləyənlərdən biri qadını tanıyır, söz verir ki, onu saxlayacaq. Elə də olur. Qadını saxlayırlar, Elmana zəng edirlər ki, qadını saxlamışıq. Qadın isə Özbəkistana 10 min manatlıqdan çox mal aparırmış. Qadın ağlayır, sızlayır ki, malı satacaq, Elmanın da pulunu gətirib verəcəkdir. Elmanın qadına yazığı gəlir, onu buraxdırır. Qadın elə o gedən gedib. Elə bu minvalla da müştərilər mağazanı boşaltdı. O da məcbur olub mağazanı bağladı. Orta hesabla mağazaya 80 min manatdan çox borcu olan var imiş. Oğurlanan mallar da hesablanarsa, hədsiz-hüdudsuz olardı.

Həddindən artıq da səxavətli idi. Bir dəfə maşına mindiyi vaxt bir cavan oğlan ona yaxınlaşıb deyir ki, qardaş anam xəstədir, həkim dərman yazıb, ancaq pulum yoxdur ki, dərmanları alam. Bəlkə, mənə kömək edəsən, dərmanları alam.

Elman əlini cibinə salır, 20 manatdan bir az artıq pul çıxır. Oğlan deyir ki, eybi yoxdur, elə onu ver, bir az da tapıb düzəldərəm.

Oğlan pulları alandan sonra Elman maşının aynasından görür ki, ondan aralı dayanmış başqa bir oğlana göz basır ki, hərifi aldatdım. Elman istəyir ki, maşından düşsün, onun cavabını versin. Ancaq yadına salır ki, Allah mənim qəlbimə o insafı ona görə salıb ki, imkansızlara kömək əli uzatmaq islam ümmətindən olan hər kəsin borcudur. Mən də ona imkansız kimi kömək əli tutmuşam. Allahı bilər, onun özü bilər!

Belə kiçik nümunələrdən istənilən qədər yazmaq mümkündür. Çox gərgin işləyirdi. Bəlkə də, sutka ərzində heç 6 saat da is-

tirahət etmirdi. Ancaq bizə gələndə özünü həddindən artıq gümrah tutur, heç nədən narahat olmadığını təsdiqləyirdi. Evə məzəli əhvalatlarla daxil olur, hamını sevindirir, güldürür, xoş əhvali-ruhiyyə ilə tərk edirdi.

15 sentyabrda bizə gəlmişdi. Anasını qucaqladı, kefini soruşdu, anası sızıldaya-sızıldaya dedi: - "Ay Elman, vallah, ölürəm, nəfəs ala bilmirəm." Elman zarafatla dedi ki, Əzrail bir dəfəlik bu tərəfə gələn deyil, arxayın ola bilərsən. Dünyanın işini bilmək olmaz, o Allahın əlindədir. Allahın işinə qarışmaq olmaz!

Ancaq o zaman Elmanın gözlərində bir sevinc qığılcımı parlayardı. Səbəbini soruşdum, gülə-gülə dedi ki, mən də baba olmaq arzusu ilə yaşayıram. Gəlin hamilədir. Mən də sevindim, dedim ki, həmişə şad xəbərlə gələsən. Nəvənin başqa bir dadı var. Arzum budur ki, o qədər nəvən olsun ki, sayıb qurtara bilməyəsən! Mənim 17 nəvəm, 2 nəticəm var. Allah deyən olsa, nəticəm də üç olar.

Mən bilirəm ki, Elmanın dostları, doğmaları, tanışları da sağlam düşüncəli, mənəviyyatca başqalarına nümunə olan insanlardır. İnanıram ki, Elman haqqında yazılan qeydlər, xatirələr çox səmimi, düzgün, dəqiq olacaqdır.

Bu təşəbbüsü qaldıran Miri (Mirələkbər) və Elmanın qardaşı Sultan bu qərara gəldilər ki, Elmanın necə bir keyfiyyətə malik olduğu gələcək nəsillərə çatdırılsın. Dostları, doğmaları, tanışlarının yazdığı xatirələr onun mənəviyyatını açacaq. Arzum budur ki, onun nəsilləri də ona xas müsbət keyfiyyətlərə yiyələnsinlər, həqiqət onların keşikçisi olsun!

Allah Elmanın qəbrini nura qərq etsin. O nurun işığında onun gələcək nəvə-nəticələri xoşbəxtlik tapsın, xoş günlər onların əbədi həmdəmi olsun!

Miri – Mirələkbər müəllim - görkəmli ziyalı mənə yaxınlaşıb çox sakitcə, ustalıqla dedi: - "İslam müəllim, sizi də, bizi də bu faciə göynədir. Ancaq nə etmək olar? Hamımızın yoludur. Həyat öz qaydasında inkişaf edir, belə olub, beləcə də davam edəcək. Ancaq şəxsiyyətlərin adını nisbətən əbədiləşdirmək üçün bir iş görmək lazımdır. Heç olmasa gələcəkdə yaxınları, dostları, qohumları onun kim olduğunu tanısınlar..."

Əvvəlcə mənə Mirinin fikirləri dəqiq çatmadı. Müəyyən vaxt keçəndən sonra o, mənə aydınlaşdırdı ki, Elman vətənini, xalqını, millətini, dostlarını dərin məhəbbətlə sevən, digərlərindən fərqlənən bir insan idi... Allah onu bizdən ayırıb haqq dünyasına qovuşdurdu. Biz də çalışmalıyıq ki, belə bir vətənpərvər insanın xatirəsini əbədiləşdirək. Siz atasınız. Onu hərtərəfli duyan Siz olarsınız. Xahişim budur ki, imkan olanda Elmanın haqqında xatirələrinizi yazıb mənə verəsiniz...

Mən o dərəcə də həyəcanlanmışdım ki, sanki dilim tutulmuşdu, nə deyəcəyimi bilmirdim...

Adi bir dostunun Elmana bu dərəcədə qayğı ilə yanaşması, narahat olması, ağrıması mənə möcüzəli bir təsir bağışladı....

Elman Miri haqqında mənə danışmışdı. Bilirdim ki, bütün varlığı ilə vətənə, insanlara bağlı, ailəcanlı pak bir insan, ailə başçısıdır... Mirələkbər bu qayğısı ilə təsdiq etdi ki, mən düşündüyümdən də yüksək səviyyədə dayanan bir şəxsiyyətdir...

***

Mənim pak ürəkli, sağlam düşüncəli, bəşəri ideyalarla dolu xeyirxah əməllərin daşıyıcıları olan əzizlərim! Başda Miri olmaqla sizə böyük minnətdarlığımı, tükənməz hörmətimi bildirirəm. Qoy can sağlığı, uzun ömür, gözəl həyat, gümrahlıq, xoş niyyətlilik sizin yol yoldaşınız olsun!

Mən Elmanın dostlarının bir hissəsini tanıyıram. Onlar necə də bir-birinə oxşayırlar. Məncə onlar Elmanı hamıdan yaxşı tanıyır. Bizim gözəl atalar sözümüz var. Birindən soruşurlar ki, qardaşının xasiyyəti necədir? Deyir ki, dostluq etməmişəm... Ürək dostları öz fikirlərini yazır.

Mən çox çətin bir vəziyyətdəyəm. onun barəsində xatirələrimin heç bir faizini belə, yaza bilməmişəm, ömür vəfa etsə, çalışacağam ki, heç olmasa, bu xatirələrin üçdə birini yaza bilim.

Onun dostları Elmanı yenidən mənə qaytardılar. Belə dosları olanlar əbədiyaşardır. Arzum budur ki, onlar bütün istək və arzularına çatsın, əməllərinə görə ən yüksək zirvələrə ucalsınlar!...

***Atası: Əliyev İslam Qurban oğlu***
***26.09.2011***



**Elman Əliyevin atası, görkəmli pedaqoq və fırça ustası İslam müəllim**



**Elman Əliyevin babası Qurban kişi**



**İslam müəllim ilk beşiyi Elmanla**



**İslam müəllim oğulları Elman, Oqtay və Sultanla birlikdə**





**Elman Əliyev doğmaları arasında**



**İslam müəllim ailə üzvləri ilə**





**İslam müəllimin fırçasından nümunələr**



**Avtoportret**



**İslam müəllimin yaradıcılığından**





**Övladı Rasim və xanımı rəssam ilhamının üfüqlərində**



**Elman uşaqlıq dostu Samiqlə**




**Elman Əliyev atası və dostları ilə**



***İslam müəllim və Asya ana övladları Rasim və Güllərlə***

## *Bala dağı*

Ana qəlbim bu dünyanı tərk edənə qədər sızlayacaq, onun isti, yumşaq əlləri, mehriban baxışları, şirin danışığı, şən qəhqəhələri, ürək açan zarafatları mən haqq dünyasına qovuşana kimi gözlərimin önündə olacaq... Allahdan arzum budur ki, heç bir anaya bala dağı göstərməsin!

Əlbəttə, bu allahın əlindədir, verdiyini nə vaxtsa geri qaytarır. Hökm yaradanın hökmüdür.

Bizə tez-tez gələrdi. Məni həkimə aparar, xəstəliyimi dəqiq öyrənmək istəyərdi. Nə qədər halım pis olsa da, çalışardı ki, məni güldürsün, əhvalımı düzəltsin, sonra evdən çıxsın. Dünyasını dəyişməmişdən bir gün əvvəl gəlmişdi. Dedi ki, ana, özünü necə hiss edirsən? Dedim ki, Elman, vallah, ölürəm! Qəhqəhə çəkib dedi: "Ay ana, mən sənə demişəm, axı! Əzrail 1970-ci ildə sənə hücum elədi, ancaq gücü çatmadı, əliboş qayıdıb getdi. Beş il bundan öncə də gəldi, gördü ki, o girən kol deyil, tez də uzaqlaşdı. Üz tutdu başqa yerə, and içdi ki, bir də bu tərəfə üz tutmasın. Arxayın ola bilərsən, gedib başqa bir yerdə məskən salıb..."

Bir az bizi güldürdü, özü də güldü... Dedi ki, ay ana, heç kəs deyə bilməz ki, kim bu dünyadan tez gedəcək. O, Allahın əlindədir. Bəlkə, mən səndən tez gedəcəyəm... Mən də dedim ki, Allah eləməsin, ay oğul! Allah mənim ölümümü sizin qarşınızda eləsin, cənazəm sizin çiyinlərinizdə aparılsın!

Elman gülə-gülə dedi: "O, Allahın öz əlindədir, özü bilən yaxşıdır." Bu bizim axırıncı görüşümüz oldu. Bu danışıqdan bir neçə saat keçmişdi. Yuyulan boşqabların yerini dəyişmək istəyəndə, əlimdən töküldülər, üçü sındı. Evdə mənə təskinlik verdilər, ancaq mən narahat oldum.

17.IX.2011-ci ildə hadisə baş verir, ancaq mənə demirlər. Həmin gündən sonrakı üç günü çox narahat bir halda keçirdim. Dördüncü gün mənə iynə vurdurdular ki, ağrılarım sakitləşsin (demə keyləşdirici iynədir)... Bir saat keçdikdən sonra İslam mənə dedi ki, oğlanlarına bax, gör hamısı yerindədir? Baxdım, Oqtay,

Sultan, Rasim. Elman yoxdur. İslam dedi ki, Rasim də gəlib məni görsün, amma Elman bundan sonra olan deyil, ürək tutmasından dünyasını dəyişib... İndi də inana bilmirəm...

Elmanla bağlı xatirələri yazmağa ömür lazımdır. Ancaq mənim ömrüm sona çatıb, əlimə qələm ala bilmirəm, hamısı ürəyimdə qalacaq, ruhumla birgə haqq dünyasına qovuşacaq. Bu da Allahın işidir...

***Anası: Əliyeva Asya Məmməd qızı***
***27.IX.2011***
***Asya ana ağır xəstədir.***
***Allahdan ona səfa diləyirik!***

## *Allah rəhmət etsin hər ikisinə*

Məmməd Araz vurğunu idi. Onun bir misrasını xatırladım: **Dünya sənin, dünya mənim, dünya heç kimin.** Heç kimə qalmayan dünya ona da qalmadı. Ömrünün əlli ikinci payızında təbiətin qoynunda bu ömrə son verildi...

Təbiətdən həzz alardı. Lakin daxilindəki arzu-istəkləri və narahatlıqları ona istirahət etməyə imkan vermirdi. Bəzi adamlar onu başa düşmürdü... Ona çox qəribə baxardılar Lakin onun öz dünyası var idi.

***Ürək dözəmmədi bu dərdi-sərə,***
***Ürək dözəmmədi bu soyuqluğa.***
***Təbiət sevəni bir dağ başında,***
***Bir payız ayında yetirdi sona!***

***Kiminə acıydı, kiminə şirin,***
***Kim üçün qəm-kədər, kim üçün gülünc.***
***Təbiət vurğunu, dağlar məcnunu***
***Uçub gedən kimi olubdur şirin.***

Hərəkətdə idi, daim hərəkətdə. Arzularına qovuşmaq üçün hey qaçardı. Bütün gücünü sərf edirdi ki arzularına tez qovuşsun. Lakin fikirləşmirdi ki, bir yumruğu boyda olan ürəyi bu ağırlığa dözə biləcəkmi???

Dözmədi və dözə bilmədi, onu yarı yolda qoydu...O yolda ki, onda o artıq bütün arzularına qovuşmaq ərəfəsində idi və onun arxasınca gedirdi...

Ancaq çata bilmədi, qovuşa bilmədi, ürək bu ağırlığa dözmədi və illərlə sürüşüb batmağı ilə insanlara təhlükə yaradan **MUĞANLI** yolunun üstündə öz fəaliyyətinə son qoydu. Onun arzularını özü ilə bərabər zülmətə qərq etdi. Arzularını yarımçıq qoydu.

Məmməd Araz demişkən:

***Öz ömrümü şum elədi öz əlim,***
***Yazında gül, payızında xəzəlim,***
***Gün doğandan gün batana mənzilim...***
***Bu da belə bir ömürdü, yaşadım!..***

***O da belə bir ömür yaşadı. Acı xatirələrlə dolu bir ömür...***

**Allah Rəhmət etsin, qəbri nurla dolsun!..**

***Oqtay Əliyev (qardaşı)***

## ***Yuxuda gördüm səni!***

*Yuxuda gördüm səni:*
*Gördüm Əshabi-Kəhfdəsən,*
*Yenə ziyarətdəsən, lalələr içindəsən.*
*Kameranı götürüb, uca zirvəyə qalxdın.*
*"Daş çiçək açıb!" – dedin,*
*Sonra əl edib getdin.*

*Yuxuda gördüm səni:*
*Naxçıvandakı evdə,*
*Atanın otağında,*
*Tarı sıxıb sinənə,*
*Asta-asta çalırdın,*
*Mənsə şeir deyirdim:*

***"Ana yurdum, hər daşına üz qoyum,***
***Hər dərəndə çaldığım saz yaşayır.***
***Kimi sənin çiynində, sən kiminin***
***Şöhrətini yaşadan az yaşayır."***

Az yaşadın, ancaq mənalı, ləyaqətli bir ömür yaşadın. Elman adlı bu dünyamla fəxr edirəm! Məzarın nurla dolsun! Məkanın Cənnət olsun!

***Lətafət İslamqızı (bacısı)***

## *Zəng vurdum, çağırdı, amma...*

Qardaşım haqqında danışmaq, onun həyatda yoxluğunu xatırlamaq mənim üçün olduqca ağırdır. Ona görə ki, o, mənim üçün təkcə qardaş deyildi, həm iş yoldaşım, həm dostum, həm də sirdaşım idi.

Elman haqqında hamıdan çox, daha geniş və ətraflı yaza bilərdim. Lakin bu həm həcm, həm də maraq baxımından həddindən artıq çox olardı deyə, buna getmədim. Bir də düşündüm ki, onun haqqında dostlarının və yaxınlarının da yazması üçün yer saxlayım. Məhz bu məqsədlə qısa və ən yadda qalan, Elman haqqındakı maraqlı epizodları xatırlamaqla kifayətlənmək qərarına gəldim.

Elman mülayim, mülayim olduğu qədər də sərt, zarafatcıl, şən, həm də olduqca ciddi olduğundan düşündüm ki, mən yalnız onun görünən tərəflərini deyil, görünməyən tərəflərini də olduğu kimi qeyd edim.

Elman 8-ci sinifdə oxuyurdu. Vətən haqqında inşa yazmışdı. Atamız dil-ədəbiyyat müəllimi olduğundan inşaya əvvəlcədən baxıb elə də kəsərli olmadığını, yəni, yaxşı yazılmadığını bildirmişdi (onu da qeyd edim ki, atamla Elman arasında elmi mübahisələr tez-tez baş verərdi). Elman inşa üzərində daha bir neçə gün işlədikdən sonra öz fikrini dəyişmədən, inşanın məzmununu olduğu kimi saxlamışdı. Atam ona deyəndə ki, əgər inşanın məzmununu dəyişməsə, onu sinifdə saxlayacaq, onda Elman tərsliyinə salaraq, cavab vermişdi ki, "Əgər səhv tapsanız, nə bilirsiniz edərsiniz!". İnşa yoxlanılan zaman səhv tapılmamışdı deyə, Elman "əla" qiymət almışdı.

O, dediyi və düşündüyü şeylərin doğru olduğuna əmin olduqda (o, fikrinə əmin olmayanda mübahisə etməyi sevməzdi) onu fikrindən yayındırmaq olduqca müşkül məsələ idi.

Elmanın dostları olduqca çox idi. Bu dostları içərisində mənim oğlum Nicatın xüsusi yeri vardı. Elman, demək olar ki,

Nicata böyük kimi yanaşır, onu həqiqi dost gözündə görürdü. Aralarındakı yaş fərqinə baxmayaraq, artıq Nicat da əmisini dost kimi qəbul etmişdi. Buna görə də bəzən onlar arasında maraqlı və lətifəyə bənzər dialoqlar da olurdu.

Bir gün gecə saatlarında Elman bizə gəlmişdi. O, Nicatla xeyli oynayıb, zarafatlaşdıqdan sonra gözlənilmədən ona dedi: - "Nicat gəzməyə gedək?"

Nicat böyüklərə məxsus ironiyalı baxışlarla əmisinin bu zarafatına çox qəribə tərzdə cavab verdi: - "İndi...?", yəni "məni dolamısan?!". Bu cavabdan gərəkli nəticə çıxaran Elman ertəsi günü vaxt tapıb, uşaqları gəzməyə apardı.

Elman elmi, ilahiyyatı, ədəbiyyatı necə sevirdisə, zarafat etməyi də bir o qədər sevirdi.

Bir dəfə yaxın dostumuz, Kamil Məhərrəmoğlunun dayısı oğlu rəhmətə getmişdi. Biz də Elmanla hüzürə getdik. Bundan əvvəl mən dəfələrlə Kamillə bir yerdə yeyib-içmişdik, dəfələrlə söhbətlərimiz olmuşdu, lakin nədənsə hüzrdə Kamillə üz-üzə otursam da, onu tanıya bilməmişdim. Ona görə də Elmanın qulağına pıçıldadım: - "Elman bəs Kamil hanı?". Mənim sualımdan təəccübünü gizlətmədən, gülümsəyərək o, mənə cavab verdi: - "Qardaş, polislər bir-birini papağından tanıyarlar, papaqlarını çıxartdılarsa bir-birini tanımazlar. İndi, mən neyləyim, sizin əlinizə badə verim ki, bir-birinizi tanıyasınız?"

Elman həm də özü lətifə danışmağı xoşlayardı və o lətifəni yalnız məqamı və yeri gələndə danışardı ki, bu da dinləyənlərə ləzzət edərdi.

Belə hallardan biri biz dostlar, mən, Elman, Müşfiq və Azad balığa gedəndə baş verdi. Uzun vaxt çalışsaq da, balıq tuta bilmirdik, Azad bunun səbəbinin qurdun yaxşı olmamağında görürdü. Ona görə də başladı təzə qurd axtarmağa. Elman onu çağırıb bu lətifəni danışdı: "Günün birində, "Lətifələr" kəndindən olan birisi gedir balığa, qarmağını çıxardır, hazırlayır və çantasına baxır ki, qurd götürmək yadından çıxıb. O istəyir balıqlarla zarafat etsin, ona görə də bir taxta parçası götürür, onun üzərinə "qurd"

yazır, taxtanı keçirir qarmağa və tolazlayır suya. 5-10 dəqiqə keçdikdən sonra gözlərinə inanmır, onun qarmağı “vurur”. Düşünür ki, zarafatı baş tutub, balıq yazını oxuyub, düşüb tələyə. Tələsik qarmağı çəkir, görür ki, qarmaqda balıq əvəzinə başqa, daha iri taxta parçası var. O taxtanı qarmaqdan çıxarıb, o tərəfinə, bu tərəfinə baxır. Taxtada yazını görüb, təəccüblə oxuyur: “balıq...”

Beləcə, Elman şən lətifələri ilə bizi həmişə şənləndirər, elmi biliyi və mülahizələri ilə düşündürərdi.

O yorulmaq bilmədən işləyər, gecə gec yatar, səhər tez durardı. İşgüzarlıqda istənilən şəxsə nümunə ola bilərdi. Bax beləcə, “o günə” kimi şən, qayğısız xatirələr dolu həyat yaşayaraq...

Sentyabrın 16-sı O, Qazaxdan toydan qayıtmışdı. Səhərisi günü, 17-si sentyabrda görüşümüz nəzərdə tutulmamışdı, ancaq atamı həkimə aparmalıydıq deyə, ona zəng vurmalı oldum. Təxminən saat 12-13 arası idi, bir necə dəfə zəng vurdum, telefonu çağırsa da ondan cavab gəlmədi... Elmanın yoxluğuna inanmağın çətin olduğunamı, ya başqa səbəbə görəmi, o zəngin cavabını hələ də gözləyirəm!..

***Sultan Əliyev (qardaşı)***

## *İbrət nümunəsi*

Məktəbdə oxuyarkən dərslərə o qədər maraq göstərmirdim. Zəif oxuyurdum. Bir gün Elman mənə dedi ki, sabah hazırlaş, mənimlə işə gedəcəksən. Mən fikirləşmədən dedim: "Mənə nə iş verəcəksən?" O dedi ki, mütəxəssissən? Mən duruxdum. Elman dedi: "Niyə danışmırsan? Xoşuna gəlmədi? Mən ancaq fəhlə işlədirəm..." Səhəri gün məni işə apardı. Bir nəfərə tapşırdı ki, işini ver, işləsin. Özü də yaxşı işlət.

Bir həftə heç kəs bilmədi ki, mən sex müdirinin qardaşıyam. Sonra fəhlələrdən hansısa eşidib ki, mən sex müdirinin qardaşıyam (əslində Elmanın özü də fəhlə paltarında idi, sex müdirinə oxşamır, fəhlələrdən seçilmirdi).

Usta çağırıb, kənarda Elmana dedi: "Elman müəllim, heç olmasa, qulağıma pıçıldayardın ki, qardaşındır!"

Elman çox sərt cavab verdi: "Mən sizdən bunu gözləməzdim, hər kimdir, buranın fəhləsidir, o biri fəhlələrdən heç bir fərqi yoxdur. Əksinə, iş qabiliyyətinə görə o birilərdən daha yüksəkdə dayanmalıdır!"

Fəhlələr ondan dəfələrlə çox əmək haqqı alırdılar, heç kəsdən bir qəpik də ummazdı. Dövlətin müəyyən etdiyi əmək haqqını alar, əyri yollara nifrət edərdi. Ona görə də fəhlələr ona çox hörmətlə yanaşardı.

Heç yadımdan çıxmaz. Bir gün dedilər ki, iki nəhəng dəzgah gətiriblər. O dəzgahlar qurulsa, işlərimiz daha yaxşı olar, məhsuldarlıq da üç dəfə artar.

Yığıncaq keçirib, belə razılığa gəldilər ki, dəzgahları qurmaq üçün iki aydan artıq vaxt lazımdır.

Yerləri müəyyənləşdirdilər. Elman dedi ki, biz çalışmalıyıq ki, dəzgahları tez quraq. Tez qursaq, nəticəsi yaxşı olar. Həqiqətən, ustalar, fəhlələr ona çox hörmətlə yanaşırdılar. Hamı ilə dost, qardaş kimi danışırdı...

Dəzgahlar 45 günə quruldu. Yaxşı da nəticə əldə olundu. Zavodun direktoru Tağıyev Heydər Elmana öz təşəkkürünü bildirdi. Belə anlarda mən öz qardaşımla fəxr edərdim. Heyif ki, o anlar bir daha olmayacaq!..

***Rasim Əliyev* (qardaşı)**



**İslam müəllim**



**Qardaşı Oqtay**



**Balaca Nicatı çox sevərdi**



**İslam müəllim qızı Lətafət və nəvəsi Elçinlə**



**İslam müəllim və Elman yaxınları ilə**



**İslam müəllimin övladları Sultan və Lətafət**



**İslam müəllimin nəvəsi Nəzakət xanım**

## *Nəvə arzusu ilə yaşayırdı...*

Ömrümə bir qığılcım kimi gəldin, belə tez öləcəyini bilsəydim, vəfanın bu qədər çəkəcəyini bilsəydim, səninlə ömür, həyat deyilən bu ağır yola heç çıxmazdım...

Haradan başlayım, harada qurtarım bilmirəm, ay Elman! Məni çətinliyə salmısan... Heç nədən, heç kimdən qorxmurdum səninlə. Bircə indi görəsən halımı... Elə ürkək, elə qorxaq olmuşam ki, sənsiz...

Mənə verdiyin sözlərin hamısını yerinə yetirmişdin (Allah səndən razı olsun...). Bircə: "Səni heç vaxt tək qoymayacağam!" sözündən başqa...

O qədər yollarda olmuşsan ki, o qədər səni gözləmişəm ki...

Elə indi də yollardan gözləyəcəyəm ümidlə, həvəslə...

Hə yaxşı ki, Emilin toyunu gördün, o sevinci hamıdan çox yaşadın. (Amma qulaqlarımda silinməz bir iz buraxdın, nəvə sevincini bildirdiyin o fərəhlə...)

Nəvə arzusu ilə yaşayırdı...

O, xəbəri ilk dəfə mən verəndə necə sevindi, İlahi?! (Köhnə bir mahnıda deyildiyi kimi:

**Halıma yanan gərək,**
**Səsin düşəndə yada...)**

Qalan arzularının həyata keçməsi üçün (ruhun duaçımız olsun) Allahdan səbir, dözüm, kömək, imdad diləyirəm.

Zəhməti sevməyin, öz işinin vurğunu olmağın balaların üçün bir örnək idi. İnşallah, qalan arzuların onların işlərində, əməllərində öz əksini tapar...

Sən ölməmişsən, sən yaşayırsan mənim üçün, ailən üçün, bütün sevdiklərin üçün ...

Əbədi uyuyan, əzizim Elman! Yerin rahat, rahat olsun...

***Sənin Şəmin***
***(Əzizin Şəmidə)***

## *Mənə şirin-şirin "Quzum!" deyərdi...*

Əziz atam, sənin üçün xatirə yazmaq, bu yaşda mənə çox çətindir...

Babam rəhmətə gedəndə anamın 40-a yaxın yaşı olardı. Həmin vaxtlar elə hey ağlayardı...

Mən onda 1-ci sinfə gedirdim. Uşaq ağlımla ona sual edərdim:

- Ana, sən nə üçün belə yanıqlı ağlayırsan? O da gözü dola-dola deyirdi:

- Günel, qızım, bir balanın dünyada ən böyük qazancı, varı atalı-analı olmasıdır. Atamı itirəndən sonra dünya mənə dar gəlir...

Mən o vaxt anamı istəsəm belə, başa düşə bilməzdim. İndi bildim ki, anam o vaxtlar nə çəkirmiş...

Heç düşünməmişdim ki, bir vaxtlar atam olmayacaq və "Ata" kəlməsini deyə bilməyəcəyəm...

Ata adı mənim üçün ən əziz, ən ülvi bir addır. Bu adı bir də dilimə gətirmək üçün həyatımda nələr etməzdim?!

Həyat dolu atam, mübariz atam, savadlı atam, fəxr etdiyim atam, bir də şirin-şirin "quzum", "gözüm" deyən atam hey...

Ömrümün qalan illərini Allahın köməkliyi ilə atama layiq övlad kimi yaşamağa çalışacağam...

Səni ən əziz hisslərlə xatırlayan Quzun Günel!

***Quzun Günel***

## *Gözün arxada qalmasın!*

Mənim üçün Ata itirmək daha çətin, daha əzablıdır. Çünki, hər addımımda atamın səsini, məsləhətlərini, işini görürəm.

Bir vaxtlar ağlıma gəlməzdi ki, böyüyəndə mən də atamla çiyin-çiyinə işləyəcəyəm. Və elə birlikdə işləməyimiz mənə çox ağır gəlir...

Atam həmişə bizdən narazılıq edərdi, ətrafdakılar isə onu qınayardı ki, belə uşaqlarla fəxr elə. Amma, doğrudan da, biz onun savadına, qabiliyyətinə cavab verə bilmirdik. Atamın savadına, qabiliyyətinə heyifsilənirəm, özü də çox...

Gözün arxada qalmasın, biz çalışacağıq ki, sənə layiqli övladlar olaq.

Atamın ruhu bizə duaçı olsun!

***Əzizin Emin***

## *Nə yaxşı, mənim toyumu gördün!..*

Əziz atam, səni xatırladıqca gözümün önündən uşaqlıq illərim bir-bir keçir. Bizə dərs öyrətməyin, şeirlər əzbərlətməyin, səsin qulaqlarımdan, yaddaşlarımdan heç vaxt silinməyəcək.

Sənin vətənə bağlı olmağın, ailəni sevməyin məndə hərbiçi olmaq həvəsini yaratmışdı. Bu fəxrli işimdə olmağıma görə sənə dünyalar qədər minnətdaram.

Mənim üstümdə sənin zəhmətin daha çox olub, Ata. İşimlə əlaqədar sənin əziyyətin, zəhmətin, narahatçılığın unudulmazdır (Haqqını halal et!).

Sən bizim hafizəmizə əbədilik həkk olunmuşsan, gözəl, unudulmaz, savadlı, dərin mənalı sözlərinlə...

Sevinirəm ki, nə yaxşı mənim toyumu gördün. O sevincin o biri dünyanda da səninlə olsun, heç üzündən nurun əksik olmasın!

**Əzizin Emil**

## Heyf E l m a n d a n !

Həyatda elə insanlar olur ki, Allah-təala onları bənzərsiz yaradır. Onlar həyatda heç kəsə bənzəmirlər. Belə adamların həyatda gündəlik, aylıq planları olmur.

Əliyev Elman İslam oğlu da belələrindən idi.

Elmanla bizim tanışlığımız 1982-ci ildən başlamışdır. Amma Elman və onun dolğun obrazını yaratmaq çox çətindir mənim üçün. O, öz işıqlı çöhrəsi, təbəssümü, zorlu baxışları ilə mənim və həmçinin, onu tanıyanların ürəyində özünəməxsus yer tapmışdır. Elmanda el-obaya bağlılıq, övlad məhəbbəti, fədakar ata hissləri, düşüncələri diqqəti daha çox cəlb edir. İnsanları sevən kövrək qəlbli, adamların yaxşılığını, qələbəsini, hər hansı uğurunu eşidəndə gözlərində şəfəqlər sayrışan bir insan kimi tanıdım onu. Bildim ki, bu şəfəqlər xeyirxahlığa, qardaşlığa, dostluğa, ən başlıcası insanlığa doğru uzanan yolların işıqlarıdır.

O, ilk baxışda insanda həlim, sadə və yumşaq adam təsiri bağışlayırdı. Sözünün sahibi idi. Elman həmişə yaxınlarının, dostlarının, qohumlarının xeyir-şər işlərində birinci sırada dayanar, bu işləri təşkil edər, nəyin çatıb-çatmadığı onun nəzərindən yayınmazdı.

Elman böyük dostluq aləminin mayakı, qibləgahı idi. Elə bir qibləgahdır ki, bu günə kimi öz işığını saxlamış və itirməmişdir. Beləcə zərif hissli, həzin duyğularla dolu bir ömür yolunun yolçusu olub Elman.

Ancaq həyat insanı hər zaman çətin sınaqlara çəkir. Belə sınaqlar onun da həyatından yan keçmədi. Vəfasız həyat onu doğmalarından, yaxınlarından ayırıb əbədiyyətə qovuşdurdu. Heyf, E l m a n d a n !.

Lakin Elman özündən sonra parlaq xatirə, gözəl ad-san, layiqli həyat yoldaşı və övladlar qoymuşdur.

Bacım Şəmidə, oğlanları Emin, Emil və qızı Günel öz əməlləri, insanlara olan xeyirxah münasibətləri ilə Elmanın əməllərini yaşadır, onun ruhunu, xatirəsini əziz tutur. Ona hər an rəhmət qazandırırlar. İnsana da elə bu lazımdır.

Əsl insan odur ki, özündən sonra iz qoysun, onun yoxluğu hiss olunmasın. Elman da məhz belə insanlardan olmuşdur. Elmanın qəfil ölümü hamımızı dərindən kədərləndirdi. Amma inanıram ki, Elman uzun illər onu tanıyanların, bizlərin qəlbində yaşayacaqdır.

Allah ona rəhmət eləsin!!!

***Şəmil Mahmudov***
***NDU Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekan müavini, k.e.n., dosent***

## *Sıradan biri deyildi...*

17 sentyabr 2011-ci il, adi günlərdən biri. Bəlkə də həyatın zərurətindən idi ki, həmin gün səhər tezdən mən Elmangilə gəldim.

Bacımla gündəlik məişət problemləri həll edərkən yaxınlarımızdan bir neçəsi bu bəd xəbəri dolayısı ilə bizə çatdırdı.

Elman həyat da yoxdur.

Elman bir qohum kimi sıradan bir adam deyildi. O, qayğıkeş, mehriban, hər bir yaxının problemləri ilə maraqlanan bir insan idi. Elmanın yoxluğu bütün ailə üzvləri kimi, məni də təsirləndirir, acı bir həqiqəti yaşamağa məcbur edir. O, yaşasaydı hələ çox problemləri həll edər, bütün qohumlar kimi məni də öz yaxşı əməlləri ilə sevindirərdi. Nə yazıq ki, həyat onun üzünə gülmədi, aramızdan vaxtsız apardı.

Elman həyatdan vaxtsız getsə də onun qohumcanlılığı, yaxınlarının problemləri ilə addımbaşı maraqlanmağı, öz gülərüzlüyü ilə ürəklərdən silinməyəcək.

**Allah rəhmət etsin!**
**Qəbrin nurla dolsun qardaş!**

***Əzizin Nahidə***

## *Savadı qarşısında baş əyirəm...*

Sentyabrın 17-si bütün qohumlar kimi, mənim də yaddaşıma qara hərflərlə yazıldı... Elmanın vaxtsız vəfatı bizim ailə üçün də böyük itki oldu.

Elman bizim ailə ilə qohum olanda mənim 17 yaşım var idi, qəbul imtahanlarına hazırlaşırdım. (Elman bacım Şəmidənin həyat yoldaşı idi) Mənim üçün Elman həm müəllim, həm də qardaş idi. O, tez-tez mənimlə fizika fənni üzrə məşğul olurdu. Onun bilmədiyi heç bir fənn yox idi. Fizika və biologiya fənnini mənə o sevdirmişdi. Ümumiyyətlə, Elman çox savadlı, çox elmli bir insan idi. İllər keçdi, mən ali məktəbi bitirib biologiya müəlliməsi işləməyə başladım. Bu fənnə aid nə maraqlı məlumat əldə etmək istəyirdimsə, yenə Elman öz dəstəyini məndən əsirgəmirdi.

Mənə həmişə əlavə ədəbiyyatlar verərdi ki, bunları mütləq öyrənməlisən. Böyük türk alimi Əbu-Əli İbn Sinanın bir neçə kitabını mənə vermişdi. Kitabları oxuduqdan sonra mütləq onları təhlil edərdik.

Çox təəssüf ki, bu cür savadlı insanın həyatında hər bir şey yarımçıq qaldı. Mən onun dərin biliyi, savadı qarşısında baş əyirəm.

Əzizimiz Elman, bizim ailə səni heç vaxt unutmayacaq!

Allah sənə rəhmət etsin!
Nur içində yatasan!

***Əziz bacın Aidə Mahmudqızı***

## *Olduğu kimi görünən insan...*

Mənə bir qohum kimi Elman haqqında danışmaq çox ağırdır. Çox heyflər olsun ki, Elman aramızdan çox tez – vaxtsız haqq dünyasına qovuşdu. Mən Elmanı qısa zaman kəsiyində hərtərəfli tanıdım. Onu tanımaq çətin deyildi, olduğu kimi görünən adam idi. Elman həddindən çox səmimi idi, mənə elə gəlir ki, onun xarakteristikasının əsas meyarı səmimilik idi. O tanıdığı insanların sevincinə sevinər, kədərinə kədərlənərdi.

Elman qohumluqda, dostluqda möhkəm, sədaqətli, həmişə etibar olunası bir şəxsiyyət idi. Mən onda ədalətli olmağı, prinsipiallığı, insanlara uğurlarına görə yox, uğursuzluqlarına görə yaxın olmağı görürdüm. Elman itkisi Elmansevənlərin qəlbində əbədi yaşayacaq. O, bizi tez tərk elədi, çox tez tərk elədi ancaq nə etmək olar dünyanın işi belədir, bir gün dünyaya gələn bir gün dünyadan gedir.

Qədim çinlilərin belə bir kəlamı var. İnsanlar bu dünyadan köçəndən sonra onların əsl qiyməti bilinir.

Mən, doğrudan, bu qədim sözün mahiyyətini Elmanın vəfatından sonra gördüm ki, onu necə sevirlər, onun şəxsiyyətini necə qiymətləndirirlər. Mənim yaddaşımda Elman haqqında ancaq xoş xatirələr qalacaq.

Allah ona rəhmət etsin, qəbri nurla dolsun!

***Ümidvar İbrahimov***
***(Elman Əliyevin qudası)***



**Elman və xanımının gənclik illəri...**



**Elman doğmalar arasında**



**Qızı Günel və oğlu Eminlə**



**Xanımı və qızı ilə**



**Güneli və Şəmidəsi ilə**



**Ömür-gün yoldaşı Şəmidə və övladları Günel və Emillə**



**Emilin toy məclisində**




**Qudalar**





***Qudası Ümidvar İbrahimovla***

# *Alim və ziyalı dostlarının xatirələri*

## *Zəkalı dost harayı*

Elmanla ilk görüş və tanışlıq Mirələkbərin ofisində olub. Elman İslam oğlu Əliyev gözəl insan, zəkalı dost, həmsöhbət!

Xocalı prospekti 24a mənzilində yığışar, elmi söhbətlər edər, dərdləşərdik. Azərbaycan tarixi, onun keçmişi, bu günü və gələcəyindən söz açar, mübahisələr edərdik. Gəmiqaya, dünya daşqını söhbətimizin əsas mövzularından idi. Nuhun tufanı, bununla bağlı tarixdə deyilənlər bitməz-tükənməzdi.

"Bəşəriyyətin yolu Nuhun gəmisindən başlanır" adlı yazım təzəcə çap olunmuşdu. Bu barədə çox mübahisələr ortaya çıxırdı. Çünki, ümumən, Şərq və xüsusən, Şumer mənbələri bu barədə çox yazmış, müxtəlif, bir-birinə zidd, mübahisəli məsələlər vardı. Söhbətdə Elman, Əlyar Səfərli, Hacı Qadirzadə, Əjdər Fərzəli, Abbas Seyidov və b. iştirak edirdi.

Elman öz fəallığı ilə daha artıq fərqlənirdi. O, avtomatika üzrə mütəxəssis idi. Amma tarixlə, xüsusilə, qədim dövrümüzlə çox maraqlanır, öz ağıllı, məntiqli sualları ilə fərqlənirdi.

İlk sözə də elə o başladı:

- Bu yazıda o qədər maraqlı və tariximizlə bağlı, necə deyim, bu günümüzlə səsləşən məsələlər qoyulub ki, deməmək, danışmamaq olmur. Məsələn,

1. Nuhun gəmisi əhvalatı bəzi mənbələrdə mif, əfsanə, yəni əsası olmayan bir hadisə kimi göstərilir.
2. Şumer mənbələrində, xüsusilə Bilqamıs // Gilqamış dastanlarında elə inandırıcı danışılır ki, buna inanmamaq olmur. Məsələn, dastanda Nuhun gəmisindən söz açılır, gəminin ölçüsü-biçimi, eni-uzunu o qədər dəqiq verilir ki, buna inanmamaq mümkün deyil və s.

Elman mühəndis idi. Lakin tariximizdən daha ayıq, tarixçidən – mütəxəssisdən ötkəm danışırdı, çünki mütaliə edir, öyrənirdi. O, tariximizin qədim dövrlərinə aid mənbələrlə tanış idi və hadisələrin gedişinə obyektiv münasibət bəsləyirdi.

Növbəti görüşlərin biri onun öz ofisində oldu. Söhbət yaradılışdan düşdü. İnsanın yaranması, əmələ gəlməsi, doğuluşu.

İlk sözə Elman başladı. İnsanın torpaqdan yarandığı fikri üzərində dayandı. Məlum oldu ki, çox mənbələrdən xəbəri var. Bu barədə mənim fikrimi bilmək istəyirdi. Bu barədə o, dini mənbələrə istinad edir, ağlabatan söz deyirdi:

"İstəyirəm sözümə qüvvət vermək üçün əvvəlcə böyük alim, dünyalarca məşhur olan A.Eynşteynin bu kəlamını xatırladım:

"Dinə əsaslanmayan elmə inanmaq mümkün deyil. Elə qədim Şumer mənbələrinə diqqət edək, deyə Elman "Bilqamıs // Gilqamış" dastanından bəzi səhnələri xatırladı. "Kainatın və insanın yaranması haqqında" adlı kitabəyə müraciət etdi: "Orada ilkin Şumer təsəvvürləri belədir: "Başlanğıc da kainatın bütün varlığı Böyük Okeanın dolu suyundan ibarət olmuş. Onun nə əvvəli, nə də sonu varmış. Onu heç kim yaratmamış, əbədi mövcud olmuş və çox min-min illər ondan başqa heç nə olmamış.." Həmin kitabədən götürdüyüm qeydləri davam etdirirəm: "An və Ki-nin (Ata göylər və Ana Yerin) nikahından – qovuşmasından ilkin insan tanrılar – Enlil və Enki qardaşları doğuldu."

- Maraqlıdır – deyə Elman sözümü kəsdi. Həmin fikir "Bibliya"da da eynilə təkrar olunur. Amma adlar başqadır. Habil və Qabil qardaşlarıdır.

- Çünki ilk qaynaq, mənbə Şərqdir, Şumer qaynaqlarıdır. İnsanın yaranması, ümumən, canlı aləmin (heyvanların, bitkilərin, həşəratın) yaranması, doğuluşu və inkişafında bu amillər də mühüm şərt kimi göstərilir: günəş, hava, su və yer (torpaq). Əgər bu dörd amildən biri çatmasa, canlı aləm məhv olar, həyat sönər.

Söhbət dərinləşdi. Elman ilk yaradılış Adam // Adəm ata və Hava // Həvva ana haqqında oxuduğu, bildiklərindən danışdı və "Siz yeni nə bilirsiniz?" – deyə müraciət etdi.

Qədim bu Şumer dastanından Adam ata, onun yaranması məsələsi bir qədər də açıqlanır. "Enema El işi Dünyanın yaranması" dastanı bütünlüklə bu məsələyə həsr olunub.

İnsanın yaranması, dünyaya gəlişi Göy ilahələrinin gözəl işi, yaradılışı isə Yerə verdikləri bəzək, töhfə kimi canlandırılır, təsvir olunur. Həmin dastandan bir səhnəni xatırladıram:

"Göydə ilahələr belə qərara gəlir, ilk ilahə Enkinin dilindən deyilir:

İlahi sifətdə dərrakəsi tam
Yaratsaq ağılla düşünən "Adam",
Yer üzü büsbütün başqa rəng alar
Adam canlıların əşrəfi olar.
Bir az da düşünüb dedi oğluna*
Amma gərəkdir ki, burda biz ona
Ölməzlər ruhundan, qanından verək,
Mələyə bənzəmək nədir, göstərək.
O da deyə bilsin, mən də bir odam,
Bu şərtlə yaranar dediyim adam.
Batildə Dinqiri qoruyar əlbət,
Zahirdə olarsa o Dinqir sifət**
Təklifdən baş mələk çox razı qaldı,
Onun çöhrəsini təbəssüm aldı
Yaman bəyənmişdi o bu təklifi,
Pirlər hamisinin açıldı kefi
Bir yerdə Enkini tərifləfilər,
Əylənib, keflənib şənlik etdilər" (səh.97)

- Gözəl fikirlərdir, ürəkaçan! Ulularımız nə qədər ağıllı olublar! – deyə Elman şənləndi, sevindi, - Xoş və ali düşüncələrdir!..

- Elman, gerisinə qulaq as! Gör nə deyir?!

"Martıq yaxınlaşıb olduqca xoşhal,
Bu işi təxirə salmadan dərhal,
Köməyə çağırıb Pır başı Anu
Əmr etdi: "Kinqin axan qanını,
Toplayaraq gillə həll edib onlar
Palçıqdan Adama ət yoğursunlar."

Kinqin sümüyündən bir parça alıb,
Martıq təmizlənmiş palçığa salıb
Diqqətlə çalışıb yoğurdu, yapdı,
Dinqir bənzərində Adam yaratdı.
Sonra nəfəsindən ruh verib, onu
Ayıldıb, anlatdı kim olduğunu.
Daha sonra ona öyrədib dili
Dedi yerdə verib insan nəsili,
Zəhmətə, əməyə orda alışın,
Doğulun, çoxalın, birgə çalışın.
Tər tökərək bolluq yaradın ki, Siz,
Əziyyət görmədən həyat sürək Biz
Sonra da Adama din-iman verdi,
Ki-En-Kir adlanan yerə göndərdi" (səh. 97-98)

* Dedi oğluna – Şumer ilahi panteonunda Martıq // Mardıq Enkinin oğlu olaraq təqdim edilir.

** Dinqir, Dinqir sifət: Tanrı, Tanrı sifət

- Gözəl, çox gözəl, ilahi fikirlərdir, ulularımız bizə çatdırır! – deyə Elman dərindən nəfəs aldı. Burada insanın xoş niyyətlə dünyaya gələn, gətirilən, yaradılan bir varlıq olduğu, dünyanın əşrəfi sayıldığı, onun Tanrıya (Dinqirə) bənzər yarandığı xüsusi olaraq vurğulanır.

- Burada mənim yadıma ali məktəbdə beynimizə yeridilən Darvinin İnsanın meymundan yarandığı, əmələ gəldiyi və haqda təlimi Engelsin "Meymunun insana çevrilməsində əməyin rolu əsəri ilə onun təsdiqə çalışdığı yadıma düşdü. Xəyalımda onlara sual verirdim: "İnsan meymundan əmələ gəlibsə, bəs meymun hardan, nədən əmələ gəlib?!"

- Elməddin müəllim, burada məni çoxdan bəri narahat edən bir sual, fikir düşündürür: ilk yaradılış olan Adam // Adəm və Hava // Həvva, Yeva cütü, ər-arvad adları türkcədir. Dini qaynaqlarda, elmi mənbələrdə də adları elə belə çəkilir. Bunu necə açıqlamaq olar!

- Bu çox ciddi sualdır. Sənin narahatçılığına haqq qazandırmaq olar. Bu adlar ilk adlardır, çox-çox qədimdir, min-min illər, bəlkə də, milyon illər öncəyə aiddir. Ola bilsin ki, Adam

sözü əslində Atam şəklində olub. Atam, (atalar atası) şəklində də işlənib, çünki türk dillərində d, t səsləri məxrəccə bir-birinə yaxın səslərdir və bu gün də özünü göstərir. Hava // Həvva adı daha maraqlıdır. İlk qadın insan Hava adlandırılıb. Adın seçilməsi, ilk yaradılışa verilməsi ilahi məntiqə əsaslanır. Belə ki, canlı aləmin (bitkilər, heyvanlar və s.) yaranması, mövcudluğu və yaşamasında Hava // Həvva ana da o dərəcədə zəruri olub. Bu, İlahidən gələn məna uyğunluğudur...

- Bu çox maraqlı təhlildir, ilahi mənalandırmadır! - deyə, Elman dinləndi, - İnandırıcıdır...

- Burada ən maraqlı cəhət ilk yaradılışın adlarının türkcə olmasıdır: Adam // Adəm, Hava // Həvva

Diqqət edilməli, düşündürücü haldır ki, son vaxtlar bu istiqamətdə axtarışlar, tədqiqatlar aparılır, fikirlər söylənilir. Məsələn, amerikalı alim Ceyn Matlok "Ey dünya insanlar, hamınız türksünüz!" adlı kitabında dünyada yaşayan xalqların hamısının türk kökündən ayrılıb yarandığını sübut edir. Habelə peyğəmbərlərin hamısının türk əsilli olduğunu deyir. Lent.az-ın xəbərinə görə, tədqiqatçı bunu Türkiyə mətbuatına açıqlamasında deyib. 81 yaşlı alim, araşdırmaçı bildirib ki, dünyada insan övladı ilk dəfə türkcə danışıb, elm, fəlsəfə və dinin də yaradıcıları türklərdir..." ("Yeni Müsavat", 2009, 11 sentyabr)

Daha qədim dövrlərdə aparılan tədqiqatlarda bu istiqamətdə deyilən fikirlər diqqəti cəlb edir.

XVII əsrdə yaşamış Xivə xanı hərbçi və tarixçi Əbdulqazi Bahadır xanın bu sözləri də qədim qaynaqlara əsaslanaraq deyilmişdi: "Yerdən su çıxdı, göydən yağış yağdı. Yer üzərindəki bütün canlı suya qərq oldu. Nuh peyğəmbər üç oğlu və düzgün, dinə inam gətirən 80 adamla gəmiyə mindi. Bir neçə aydan sonra Haqq Təlanın buyruğu ilə Yer suyu özünə çəkdi. Mosul adlanan şəhərin yaxınlığında gəmi Cudi adlı dağa yan aldı.

Gəmidən çıxan üç gəlini sağaltdılar, qalan bütün adamlar öldülər. ondan sonra Nuh peyğəmbər üç oğlundan hər birini müxtəlif ölkəyə göndərdi. Xam (Qam) adlı oğlunu o, Hindistan

ölkəsinə göndərdi. Sam adlı oğlunu İran ölkəsinə göndərdi. Yafəş (Yafət) adlı oğlunu quzey qütbü tərəfə göndərdi. O, hər üçünə dedi: “Adəm oğullarından sizin üçünüzdən başqa heç kim qalmadı. İndi siz üçünüz bu (üç) yurdda yerləşin. Haçan sizin çoxlu oğullarınız (uşaqlarınız) olarsa, o yerləri (özünüzə) yurd edin və (orada) yaşayın. Və Yafəs atasının iradəsi ilə Cudi dağını tərk edərək İtil və Yayıq sahillərinə getdi.”

- Elman, fikir ver, mətləb üstə gəlirəm. tarixçi davam edir:

“Yasəfin səkkiz oğlu vardı, (onun) oğullarının adları bunlardır: Türk, Xəzər, Saklab, Rus, Minq, Çin, Kəməsi, Tarix. Yafəs ölərkən öz yerinə böyük Türkü qoydu. Digər oğlanlarına isə dedi: “Türkü özünüzə hökmdar bilib, itaətindən çıxmayın!”

Diqqət edin! Ağlın məntiqi var. Hərbiçi-tarixçi Əbülqazi Bahadır xan bu fikri, söz yox, özündən əvvəlki etibarlı tarixi mənbələrə əsasən yazmış, demişdi. Türk indinin özündə dünyanın çox məşhur xalqlarının adlarında öz mübarək ifadəsini tapıb. Bu təsadüfdürmü?! Yox! Ağlın məntiqi də deyir ki, bu zərurətdir, bu xalqların kökü – mənşəyi buradan gəlir. Tarix onları bu kökdən – ailədən ayırıb müstəqil xalqlar etmiş, formalaşdırmışdır.

- Bunlar ilahi faktlardır, ilahi həqiqətdir, mənim dostum Elman!

Buna görə də dünyanın tarixi yenidən yazılmalıdır. Dünyanın məşhur alimləri bu istiqamətə yön alıb. Məsələn, böyük şumeroloq alim S.N.Kramerin “Tarix Şumerdən başlanır” əsəri də bu ehtiyacdan yaranmışdır.

Elmanla görüşlər belə məzmunlu və maraqlı keçirdi. O, daima öyrənmək və öyrətmək istəyən ziyalı idi. Təəssüf, çox təəssüf ki, dünyasını tez dəyişdi. 52 yaş nədir ki! Onu unutmaq mümkün deyil. Hər an o, göz önündədir. Artıq Elman həyatda yoxsa da onun parlaq ruhu bizimlədir. Ölüm çox da qürrələnməsin, o, qəlbimizdə yaşayır və yaşayacaqdır!

***Elməddin Əlibəyzadə***
***Filologiya elmləri doktoru***
***2011, 11 dekabr***

## *Ömrün bir anı*

*Elman Əliyev o şəxsiyyətlərdən idi ki, onu xatırlamaq üçün uzun müddət ünsiyyətdə olmaq hökm deyil. Sadəcə onu tanıyırsan, vəssalam. Cəmi bir dəfə görüşmüşdük. Sanki illərin tanışları kimi danışmağa çox sözümüz oldu. Əsasən elmdən, fizikadan - onun ixtisasından. Məşğul olmağa kifayət qədər imkan və vaxt tapa bilmədiyi bu sahədə çox işlər görmək istəyirdi. Söhbət əsnasında sistemologiyadan da söz düşdü. Bu nadir elmin əsasları barəsində danışarkən Elman ilk kəlmələrdən məni başa düşdü. Həm də nəinki başa düşdü, hətta fikrimi davam etdirdi. "Baktrian" jurnalının ilk nömrəsində yazdığım məqalədəki Eynşteynin məşhur enerji ilə kütləni tarazlayan düsturunda enerjinin informasiya ilə əvəz olunmasının mümkünlüyündən danışdım. O, həmin dəqiqə razılaşıb sözümü tamamladı: "Onda "c" işığın sürətini yox, fikrin sürətini göstərməlidir, "m" isə biliklərin cəmini". Jurnalı oxumayanları məqalənin bu hissəsi ilə tanış edirəm.*




***Bu şəkildəki yazılar Elmanın iştirakı ilə müzakirə zamanı yazılmışdır.***

## *Mürəkkəb sadəlik və sadə mürəkkəblik*

Hamımız informasiya alaraq və ötürərək enerji sərf edirik. Elektrik yoxdursa, internetə daxil olmaq, mobil telefon doldurulmayıbdırsa, onun vasitəsilə xəbər almaq, telefon stansiyası cərəyansız qalıbdırsa, stasionar telefonla danışmaq, benzin qurtarıbdırsa, məlumatdan ötrü şəhərin o başına getmək – onların heç biri mümkün deyil. Hətta qonşuya dəyib iki kəlmə söz demək də namümkündür, əgər ayağını yerdən götürməyə gücün çatmırsa.

Bunların hamısı texniki (məhz texniki!) məhdudiyyətdir. Çünki informasiyanı nəinki enerji sərf etməyərək, əksinə, enerji əldə edərək ötürmək üçün nəzəri cəhətdən heç bir maneə yoxdur. Bu da ağlabatandır. İnformasiya qəbul olunanda enerji sərf edilirsə, onda informasiya ötürüləndə enerji əldə edilməlidir. O da ona görədir ki, informasiya enerjinin digər şəklidir, daha dəqiq desək – onun başqa adıdır.

Eyni şeyin iki adı vardırsa, bunların arasında tərs mütənasiblik yaranır. "Good bye" deyən nə qədər çoxalarsa, o qədər də "Salamat qal" deyən azalar. Enerji kütlə ilə də tərs mütənasiblikdədir – bu, fizikadandır – yadınıza salın, orada əmsal – işığın sürətinin kvadratı da vardır. Belədirsə, kütlə ilə informasiya düz mütənasibdir? Bütövlüklə, elədir ki, var. Yəni kütlə artdıqca informasiya da artır. Bunun əksi də dürüstdür.

Nəzəri cəhətdən mümkündür ki, təbəddül edəsən – informasiyanın hər nə varını yığıb biçimsiz dərəcədə sıxışdırasan – və sonra? İnformasiya yoxa çıxır. O mənada ki, əlçatmaz olur. Bəs yerdə qalan nədir? Bəli, kütlədir. Kainat həcmində, solğun, həmcins – özü də astrofiziklərin qaranlıq maddəsindən daha yeknəsəq bir kütlə (o, həmin maddədir ki, onun haqqında əməlli-başlı bir şey bilən yoxdur, lakin bu barədə söhbət sonraya qalsın).

*Birdən illərlə axtardığın, fikirlərini sərbəst bölüşə biləcəyin adam qəfil qarşına çıxır. Hər iki tərəf üçün səmimi və işgüzar abhava yaranır. Bizim Elmanla tanışlığımız kimi. Çox hayıf ki, bir daha görüşə bilmədik. Görüşsəydik belə bir söhbət alına bilərdi.*

## *Nəhəng Partlayış, yaxud kainatın yaranması barədə*

İrlandiya arxiyepiskopu Ceyms Aşer (1581-1656) Əhdi-Ətiqin və başqa qədimi mənbələrin mətnini araşdırandan sonra belə nəticəyə gəlib ki, İlahi kainatı e.ə.4004-cü il sentyabr ayının 22-dən 23-nə keçən gecə yaradıb. Bu dəqiq tarix Qərb təriqətli xaçpərəstlər üçün bu günədək inkaredilməzdir. İnanmayan özü hesablayıb yoxlaya bilər.

Astrofiziklər zənn edirlər ki, kainatdakı obyektlərin yalnız 5 faizi gözə görünəndir, çünki işıq saçandır. Daha 25 faizi qaranlıq maddəyə aid edilir. Bunlar da işıq saçırlar, lakin işıqları gəlib bizə çatmır.

(Sistemoloji hesablamalara binaən astrofiziklər öz elmini bir az da inkişaf edirtsələr, onda başqa nəticəyə gələrlər: kainatın görünən hissəsi 0,44 faizdən, görünməz hissəsi – «qaranlıq maddə» 3,47 faizdən artıq deyil).

Qaranlıq maddənin mövcudiyyətini görünən obyektlərin saçdığı işıq yolunun əyrilməsi əsasında müəyyən edirlər. Hesab olunur ki, hər bir belə əyrilmənin səbəbi qurs görünməz obyektlərin işığı özünə cəzb etməsidir.

Qalan 70 faizi isə həmin «qaranlıq enerjidir» ki, astrofiziklərə kainatın müşahidə edilən varlıqlara zidd olmayan nümunəsini qurmaq üçün lazımdır.

Ötən əsrin 20-ci illərində Aleksandr Fridman və Jorj Lemetr kainatın quruluşunun kosmoloji nəzəriyyəsini işləyib hazırlamışlar. Bunların nümunəsinə görə Nəhəng Partlayış və sonrakı inkişaf nəticəsində bütün maddə (oxu: kütlə) kainat miqyasında eyni tərzdə təqsim olunur.

Bu nümunə kainatın var olmasının iki əsas ssenarisini: ya əbədi genişlənməsini, ya da sıxılma ilə əvəzlənən genəlməsini fərz edir. Lakin hər iki ssenari üzrə intişar (genəlmə) aləmin, həndəsi ölçülərdən məhrum və hüdudsuz enerji sıxlığına, başqa sözlə – sonsuz hərarətə malik, xüsusi (aləmin törədilməsinə bənzər)

vəziyyətindən başlanır. Bu cür başlanğıc nöqtəsinə «sinqulyar» (latınca *sinqularis*), yəni ibtida vəziyyət deyiblər.

Birinci ssenari üzrə aləmi bir kərə yaradıblar – bu əbədi intişar edən aləm öz varlığını ibtidadan başlayır, fəqət heç zaman daha ibtidaya qaytarılmır.

İkinci ssenari üzrə aləmi dəfələrlə yaradıblar – kainat öz intişarında hər dəfə müəyyən hüduda çatır, sonra isə yenidən çəkilib başlanğıc vəziyyəti alır.

Fridman və Lemetr tənlikləri riyazi cəhətdən qüsursuzdur, amma açıq-aydın əsasi çətinliyə malikdir: nə qədər böyük olursa olsun, lakin qapalı məkanda enerjinin hüdudsuzluğu – riyazi anlayışıdır, təbiətdə belə şey olmur.

Astronomlar (nəcmşünaslar) uzun-uzadı mübahisə edirdilər ki, kainatın intişarının sürəti necə olur – azalır yoxsa dəyişməz qalır. Nəhayət, 10 il öncə müəyyən ediblər ki, sürət artır, yəni kainat təcillə genişlənməlidir. Bu, onlar üçün gözlənilməzlik oldu, çünki onların nümunəsindəki maddənin kainat miqyasında eyniliyindən artıq söz gedə bilməzdi.

Dərhal belə bir güman ortaya çıxdı ki, bu təcilin maddi səbəbi vardır və həmin varlıq «qaranlıq enerji» adını qazandı, baxmayaraq ki, astrofiziklərdən heç kəs bu varlığın nə olduğunu bilmir. Loru dildə deyilsə, bu nə isə bir «yay»dır ki, kainatı intişar etməyə, özü də daima artan təcillə genəlməyə vadar edir; «qaranlıq enerji» adı isə Albert Eynşteynin kosmoloji sabitəsi, başqa sözlə – vakuumun (boşluğun) enerjisi haqqında çoxdankı fikrinə görə verilib.

Güman edilən «qaranlıq enerji» indi bütün «maddədən azad» məkanı doldurur və mənfi təzyiq adlanan xassə daşıyır. Mənfi təzyiq hesabına «qaranlıq enerji» cazibə itələnməsi doğurur: qurs obyektlər biri-birinə, cazibə nəzəriyyəsi göstərdiyi üzrə yaxınlaşmır, əksinə, biri-birindən uzaqlaşır, kainatın intişar təcili də məhz bununla izah olunur.

Kosmoloji sahə fərziyyəsinə görə «boş» kosmik fəzanın hər кubmetrində nə qədərsə eyni enerji vardır. Enerjinin bu cür olması

isə sadə dildə hərarətin artırılması deməkdir, buna görə də həmin kosmoloji enerji «vakuum hərarətini» yüksəltməlidir. İsidilmiş qaz qabın divarcıqlarına təsir göstərdiyi kimi (buğ, qaynayan çaydanın qapağını qaldırdığı şəkildə) boşluq sahəsində «qızdırıcı» enerji də kainatı içərisindən basıb partlatmalıdı. Bax, bu təzyiq guya kainatı tədricən intişar etdirir.

Məhz həmin «vakuum enerjisi» hesabına boşluğun istənilən nöqtəsində elektron ilə antielektron sayağı mikrohissəciklər zühur edə bilər və həqiqətən, sınaqlar sübut etdiyi üzrə, bunlar arasıkəsilmədən peyda olub oradaca biri-birini puça çıxardır. Belə qıqqılı hissəciklərin «doğulmasını» boşluq sahələrinin real mövcudluğunun sübutu hesab edirlər.

Lakin bunların hamısı boşluğun mikrohəcmlərinə aiddir. Fiziklər həmin düsturlar ilə bütün kainatdakı boşluq sahəsinin məcmu enerjisinin nə qədər olmasını hesablamağa cəhd göstərdikdə isə müşahidə edilən təcili intişar yaratmaqdan ötrü kifayət miqdardan $10^{123}$ (!) qat artıq kəmiyyət əldə ediblər. Azacıq isitmə üsulu axtararkən elə hərarət yaradıblar ki, kainat üçün “soyuducu” icad etmə vaxtı gəlib çıxıb.

Təbii sualdır: kainatın nümunəsini quraşdıraraq törədilmə məqamından vaz keçmək mümkün deyilmi? Yəni, belə nümunə qurmaq ki, kainat ibtida («sinqulyar») vəziyyətdən yox, adi, yəni hazırdakına oxşar vəziyyətdən başlansın? Sonra bir qədər vaxt azalan təcillə intişar etsin, daha sonra «sussun» və yenidən əvvəlki vəziyyətə çəkilsin, amma ibtidaya gedib çıxmasın?

Belə nümunələr yaradılıb. Bunlara dövrlü nümunə deyirlər.

Lakin bu genəlib-yığılan kainat nümunələrində bir-birinin ardınca gələn dövrlər uzunlaşır. Bunların tarixini zaman çərçivəsində geriyə döndərdikcə dövrlər gödəlir və nəticədə həmən ibtidaya gedib çıxır. İbtidanın başlanğıcı qapıdan qovurlar, bacadan girir.

Odur ki, fiziklər «qaranlıq enerji»nin öz sıxlığına içəridən basan təzyiqini bildirmək üçün xüsusi *w* əmsalını işə salıblar. Hesablamalar göstərirdi ki, həmin ölçü, kainatın hazırda müşahidə

edilən xassələrini nəzərə almaqla, –1,3-dən –0,9-dək (–1,3 < *w* < –0,9) yerləşdiyi hüdudlar daxilində olmalıdır. Əgər bu əmsal dəqiq 1-ə bərabərdirsə, «qaranlıq enerji» kosmik xassəlidir. Yox, əgər azacıq –0,9-a yaxınlaşırsa, onda «qaranlıq enerji» bambaşqa fiziki xassəlidir – o, «kvintessensiya» sahəli enerjidir.

«Kvintessensiya» qədim zamanda guya bütün varlığı dəlib keçən incə xəyali ünsürə deyilirdi. Müasir kosmologiyada həmçinin xəyalən təsvir edilən və hər şeyə daxil olunan xüsusi sahəyə də belə deyilir. Bu sahə Eynşteynin kosmoloji sahəsindən fərqli olaraq, daimi qalmır – istər zaman, istərsə də məkan daxilində nöqtədən-nöqtəyədək dəyişilə bilir. Burada içəridən basan təzyiq az olduğuna görə ümumkainat intişar təcili də azdır.

Amma axıcı intişar (genəlmə), *w*-nin qiyməti yalnız 0-dan –1-dək olduğu halda mümkündür. Bu qiymət –1-dən daha aşağı düşsə, kainat ya partlar və partlayışvarı şəkildə, özü də qurtaracağa (sona) malik zaman ərzində yoxa çıxar – bu sayaq təkamülün ssenarisinə Nəhəng Partlaq yerinəadı qoyulub. Deyək, *w* təqribən – 1,33-ə bərabərdirsə, kainat 33 milyard ildən sonra axıra çatasıdır.

Mövcud olaylardan birini seçmək üçün onlarca yox, bir neçə yüz ən yeni ulduz təsvir edilmişdir – bu, nəticənin etibarlılığını artırmalı idi. Tədqiqat göstərdi ki, *w* –1-ə çox yaxın olan daimi kəmiyyətə malikdir. Əmsalın qiyməti belə olduqda kainat həqiqətən əbədi, amma yeknəsəq təcilləşən intişara düçardır. Bu cür kainat öz ölçülərini sonsuz artıracaq və əməlin gedişatında bütün maddəvi hissəcikləri məhv edəcək – lakin bunların hamısı sonsuz zaman ərzində baş verəcəkdir.

Alimlər həmin yeniliyi dərk edənəcən, astronom Bred Şeffer bəyan edib ki, onun məlumatına görə *w* heç də daimi deyil, əksinə dəyişkəndir. Bundan əlavə əgər *w* bu gün –1-ə yaxındırsa, ilkin kainatda (10 milyard il bundan əvvəl) o hətta müsbət qiymətli idi, yəni intişarı sürətləndirmirdi – yubandırırdı! Nəcmşünas ən yeni ulduzlara olan məsafələri ölçmək əvəzinə kosmik γ-işartı deyilən mənbələrə olan məsafələri ölçərək bu nəticələri əldə etmişdir.

Nəhayət, Loris Baum, həm də Pol Fempton əslində Nəhəng Partlayış ilə Nəhəng Partlağı birləşdirən nümunə qurmuşlar. Bunların nümunəsində kainat ibtida vəziyyətindən başlanmır. İntişarının ilkin mərhələsində *w* istənilən qiymət kəsb edə bilər, lakin ən axırda –1-dən az olur. Nəticədə kainat birbaşa Nəhəng Partlağa doğru istiqamət alır, amma bu olayın son hüdudunda (müəllifin seçdiyi ölçülərdə – sona $10^{-27}$ saniyə qalmış) dayanır.

Bu məqamda kainat bomboş fəzanın sərbəst «qırıntı»larına ayrılıb dağılır, bunlar biri-birindən işıqdan sürətli təcillə uzaqlaşır və ona görə də biri-birinə heç bir cür qarşılıqlı təsir göstərmir. Belə çıxır ki, «qırıntı»ların hər birisi öz keçmişindən bixəbər aləmə çevrilir (*şəkilə bax*). Bunlarda maddə yoxdur, ancaq «qaranlıq enerji» ilə elektromaqnit şüalanma vardır.

Həmin «qırıntı»lar daha intişar etmir – əksinə, sıxılmağa başlayır. Ən kiçicik həcminə çatandan sonra bu aləmlər bir sıra dəyişikliklərə məruz qalır və dəyişikliklər nəticəsində, demək olar ki, dərhal adi maddə yaranır. Bu zaman «qırıntı»lar öz həcmini nəhəng təcillə artırır (buna «inflyasiya fəzası» deyirlər), sonradan isə sakit intişara keçir. Hər bir aləm öz partlaq nöqtəsinə yaxınlaşır və hər şey yenidən təkrar olunur. Hər genəlib-sıxılma bir çox yeni genəlib-sıxılan kainatların doğulmasına gətirib çıxarır.

Ancaq bu nümunəyə aid də çoxlu sual vardır. Məsələn, aydın deyil ki, ilkin «qırıntı» haradan əmələ gəlmişdir? Niyə məhz belə ölçülər seçilibdir ki, bunlar işə salındıqda yeni «qırıntı»lar «doğan» ana kainat məhv olunmalıdır? Nə üçün ana kainatın maddəsi vasitəsilə «qırıntı»ya onun keçmişi haqqında heç cür informasiya ötürülməməlidir? Nəhayət, aydınlaşdırılmır ki, «qaranlıq enerji» nədir?

Bütün ziddiyyətlər, prinsipcə, yalnız ona görə üzə çıxır ki, kosmoloqlar kainatı mütləq şəkildə fikrən yaratmağa, ya da onu bir oturumda təsvir etməyə (bunlar elə eyni şeydir) can atırlar. Əhatəsizlik isə əhatə olunmaz.

Astrofiziklərin köklü səhvi ondan ibarətdir ki, dünya onu təsvir etmək üçün işlənib hazırlanan nəzəriyyələrə nisbətdə daha

mürəkkəbdir. Kainatın yeganə ayrıca sistem şəklində xarici cizgilərini çəkmək olmaz. Niyə? Bu barədə növbəti buraxılışlarda bəhs ediləcək. Hələlik isə «qaranlıq enerji»nin nə olduğu, başqa sözlə, «isti vakuum» haqqında bir neçə söz.

Maddənin təşəkkül səviyyəsi eyni mürəkkəb tərzli obyektlərin hamısının cəmidir. Məhz hamısının – bunlar harada olursa olsun və hansı obyektlərin tərkibinə daxil edilirsə edilsin. Bu günədək alimlərə 16 təşəkkül səviyyəli obyektlər məlumdur. Bunların (şərti olaraq) ən aşağısı subnüvə səviyyəsidir.

Fəqət – bu şübhəsizdir – təbiətdə hələlik elmə naməlum daha sadə obyektlər mövcuddur: sistemologiya qanunlarının birinə əsasən, istənilən obyekt özünə görə sadə obyektlərdən ibarətdir. Bunların cəmi daha dərin səviyyələr təşkil edir. Bax, bu subnüvə səviyyəsindən daha dərin təşəkkül səviyyəli obyektləri astrofiziklər «qaranlıq enerji» kimi qəbul edirlər.

Subnüvə səviyyəsinə olduqca yaxın səviyyəli obyektlərin daha «soyuq» hissəsi kainatın ən sıx sahələrində azacıq imkan yaranarkən getdikcə «bizim» aləmin yeni-yeni obyektlərini əmələ gətirir. Daha «soyuq» nə deməkdir və həmin imkan nədən ibarətdir – bu xüsusda növbəti buraxılışı oxuyun.

Bir sözlə, Nəhəng Partlama və yaxud Nəhəng Partlaq o gözəlmi, yaxud da qorxulumu olsun, (oxucunun zövqündən asılı) o nağıldan başqa bir şey deyil. Kainat birdəfəlik və ya dəfələrlə yaradılmayıb. Kainat daima yaranır. Buna görə də o, izsiz yoxa çıxa bilməz. Elə hazırda bu sətirləri oxuduğunuz zaman da, çox güman, haradasa «qaranlıq enerji»dən yeni kəhkəşan, ulduzlar topası ya da qara dəlik əmələ gəlməkdədir.

*Əcəl hələ Elmanla edəcəyimiz nə qədər maraqlı söhbətləri baş tutmağa qoymadı. Amma heç bir qüvvə yüzlərlə insanın qəlbindən Elmanın işıqlı xatirəsini poza bilməyəcək. Elman yaşasaydı söhbətlərimiz çox güman ki, praktiki işlərə çevrilərdi. Misal üçün, alternativ enerji sahəsində.*

## *Əqli qüvvə*

Müasir insanların bütün həyatı boyu istemal etdikləri, prinsipcə, cəmi beş qrup prosesdən – qidalanma, isidilmə, işıq saçma, hərəkət etmə və yük daşıma, həmçinin rabitə yaratma proseslərindən ibarətdir. Bu tələbatları ödəməkdən ötrü hazırda, nəticə etibarilə, büsbütün Günəş enerjisindən istifadə edilsə də, həmin məqsədlərə bilavasitə yönəldilən enerjini iki böyük hissəyə – Yer üzündə insandan asılı olmayaraq alınan və saxlanılan enerjiyə və insanın iştirakı ilə, əlverişli istemal üçün başqa şəklə salınan enerjiyə (yəni təbii enerjiyə və başqalaşmış enerjiyə) növlərinə ayırmaq mümkündür.

Təbii enerji növlərinə Günəş şüaları, küləyin, dəniz qabarmasının və çay axıntısının, yanardağların və qaynar bulaqların, atomun radioaktiv parçalanmasının, qarşılıqlı kimyəvi təsirlərin, bioloji kütlələrin və onun neft, qaz, daş kömür və boz kömür, torf, yanar şist şəklində yığılmış təbii ehtiyatlarının enerjisi, heyvanların və insanların cismani fiziki gücü, habelə insan zəkasının qüdrəti – əqli qüvvə aiddir.

Başqalaşdırılmamış enerjinin hansısa növündən istifadə edilməsinin nisbəti dəyişkəndir: bu, bəşəriyyətin bütövlükdə yaxud ayrı-ayrı qruplarının sivilizasiyasından – mədəniliyindən asılıdır. Başqalaşmış enerjiyə gəldikdə isə, onun hazırda işlədilən 78 faizindən çoxu elektrikк enerjisidir.

Elektrik enerjisinin payı: qida məhsullarının hazırlanmasında 48%, yaşayış, həm də istehsalat yerlərinin isidilməsində 69%, işıq saçılmasında 92%, nəqliyyatın hərəkətə gətirilməsində 54%, informasiya kommunikasiyasında az qala 100 faizdir. Özü də bu göstəricilər getdikcə artmaqdadır. Həm də səmərəsiz artmaqdadır.

Çünki enerjinin hər hansı şəkildən başqa şəklə salınması (Karno siкli) onun itkisi ilə bağlıdır. Enerjinin dəfələrlə başqalaşdırılması, mənbədən istehlakçıya çatdırılması, istehlakçılar arasında cürbəcür bölüşdürülməsi bu itkiləri daha da artırır. Bunlara baxmayaraq, hal-hazırda enerjidən istifadə məhz həmin yolu tutub getməkdədir.

Bəşəriyyət enerjinin əksər hissəsini yer altından çıxarılan karbohidrogen xammalın (neftin, təbii qazın və s.-nin) səmərəsiz yandırılması nəticəsində əldə edir. Qaldı ki, «alternativ enerji mənbələri» deyilən amillərə, bunlar əslində enerji mənbələri deyil, təbii enerji növlərinin elektrik enerjisinə çevrilməsi üçün müxtəlif vasitələrdir. Odur ki, həmin «alternativ mənbələr» də çox baha başa gəldiyi üçün faydasızdır.

Hazırda ən sərfəli enerji mənbəyi (informasiya-vakuum dəyişdiriciləri nəzərə alınmazsa) ancaq insanın əqli qüvvəsidir (heyvanların fiziki gücü isə, eləcə də insanların fiziki gücü – fəqət bir qədər az dərəcədə, idarəetmə qüsurlarına görə səmərəsizdir). Lakin əqli qüvvədən də, iqtisadi, inzibati, zehni maraqların əlaqələndirilməməsi ucbatından lazımınca istifadə edilmir.

Buradan sadə bir fikir ortaya çıxır: «alternativ mənbələr» üsullarına və enerjinin ənənəvi dəyişdiricilərinə alternativ olaraq insan tələbatının təbii enerji mənbələrindən təminatı üçün əqli qüvvədən istifadə edilməlidir. Başqa sözlə, Günəşin hərarət, işıq və s. enerjisindən bilavasitə Yerə gəlib çatan və burada yığılan şəkildə, yəni bu enerjinin elektrik enerjisinə, yaxud hansısa enerjiyə çevrilmədən istifadə olunmalıdır. Bu da indiyədək işlənib hazırlanmış texnologiyalar vasitəsilə mümkün olası işdir.

Artıq 250-dək cürbəcür enerji təminatı və enerji qənaəti ilə bağlı texnologiyalar məlumdur, intəhası sənaye tətbiqi səviyyəsinə çatdırılmayıbdır. Bu cür texnologiyaların sayı getdikcə çoxalır, keyfiyyəti yaxşılaşır, səmərəsi artır, işlədilə bilən sahələri genişlənir: bunlar mülki və sənaye inşaatında, biotexnologiyalar üçün yardımçı avadanlıq yaradılmasında, kənd təsərrüfatının müxtəlif sahələrində, qida istehsalında, istirahət və turizm infrastrukturunda, bələdiyyə xidmətlərində və s.-də kara gələ bilər.

*Hər kəs özündən sonra bir iz qoyub gedir. Elman kimi nadir adamlar azacıq ömürlərində o qədər işlər görürlər ki, adi halda bunu hətta təsəvvür etmək belə mümkün deyil. İnanıram ki, onu tanıyanların yaddaşında Elman məhz bu cür qalacaq. Cəfakeş, düşüncəli, etibarlı, sadə, təmkinli... Allah rəhmət eləsin.*

***Bahadur Tahirbəyov***
***Ümumdünya sistemoloqlar klubunun müxbir üzvü***

## *Ruhun ucalığı*

*(Dostum Elmanın xatirəsinə)*

Hər kəsin göydə bir ulduzu var. Bunu bizə xalqın inamı təlqin edir. Biz də buna inanırıq. Çünki onu xalq deyib və xalq olmayan şeyi deməz. Çünki bu ruh aləmidir. Onu maddi aləmin məntiqi ilə izah etmək olmaz.

Hər bir adamın dünyadakı varlığı da elədir. Qarşında dayanan adam həm maddi aləmin, görünən dünyanın, həm də ruhi aləmin təcəssümüdür. İnsanda iki aləm birləşir. İnsan iki aləmin tarazlığında mövcuddur. Tarazlığın dəngəsi dəyişəndə həyat insanı bir tərəfə çəkir. Kimsə ruh aləmindən ayrılır, maddi aləmin içərisində qalır və nə qədər çalışsa da, bir daha ruh aləminə qayıda bilmir. Həyatda tarazlı yaşayan insansa, mütləqin məsləhəti ilə zamanında maddi aləmdən ayrılar və ruhlar aləminə köçər, onun seyrəngahına yüksələr. Hər şey öz məqamında baş verər. Bu zaman Göyün ulduzu yerindən qopur, yerdəki insanın ruhunu öz aləminə aparır. İnsan xəyal dünyasının sakini olur. Yer də, göy də sevinir.

Bu ayrılıq məqamıdır. Ucadan-uca ruh aləmi və sükunətə bürünən maddiyat. Onların ayrılığı və ayrılıq məqamı. Xalqın məntiqinə görə maddi aləmdə ölənə yas tutulmur. Xalq müdrikliyi bunun fəlsəfəsini qurduğuna və onu əsaslandırdığına görə deyir: “Ruhu şad olsun.” Ruhu şad olanın üstündə ağlamaq olarmı!? Mən də bunu dərk edirəm. Ancaq görünür zəiflik göstərib, bu “acı xəbəri” eşidəndə sızladım və ağladım. Sonra onu da anladım ki, ruhu şad olanın göylərə getdiyinə görə deyil, özümün yerdə qaldığıma, dərin mövzularda ürək söhbətləri etdiyim adamın bizi tək qoymasına, təklənmək qorxusuna görə göz yaşım içimə axdı. Bunu anlamaq olar. Yəni adamın öz taleyinə ağlaması kimi ona bəraət vermək olar. İnsanın varlığı, ruhi aləmi haqda dünyanın ən qədim və müdrik kitabları, xalq mifologiyası, səmavi kitablar, “Qurani-Kərim” maraqlı məlumatlar verir. Onlar hər şeydən əvvəl insana mənəvi həyatı, maddi və ruhi aləmini anladır, insanı müdrikliyə, mənəvi kamilliyə, təmiz yaşamağa çağırır. Bu aləmə

bas vuran adam daxilən zəngin olur, dünya varına deyil, könül mülkünə sahib olur. Dünyanın tarixi, insanlığın keçdiyi yol, xeyir və şər, qaranlıq və işıq, gündüz və gecə, sevinc və kədər həyatın əbədi və dəyişməz mövzusudur. İnsanlıq bunu görə-görə yaşayır və yenə də durula bilmir. Bəşəriyyət ölümə və müharibələrə sürüklənir. İnsanlıq tarixdən dərs ala bilmir, həyat imtahanından keçə bilmir.

Mən bunu niyə xatırlayıram, nə üçün Elmanın "xəbər"indən təsirlənib belə düşüncələrə dalıram. Mən onu cavan yaşımda deyil, xeyli gec, başım qovğalardan səngiyən bir zamanda, həm də yetkin çağımda, saçlarımın bəyaz vaxtında tanıdım. Bir də onu mənə tanıdan dostlarıma təşəkkür edə-edə. Çünki dünyanın daralan vaxtıdır. Bu zamanda dərdləşməyə, fikir bölüşməyə, həyati söhbət eləməyə adam tapılmır. Elman isə dostları üçün dərd ortağı, etibarlı sirdaş idi.

Elman maraqlı adam kimi, dininə, millətinə, vətəninə, el-obasına, adət-ənənəsinə, işinə, vəzifəsinə, ailəsinə, kökünə bağlı bir adam kimi könlümdə yer tapdı. Darıxan günlərimdə məni aradı. Xəstələnəndə mənə ürək-dirək verdi, dostları başına yığıb mənə baş çəkdi. Hər dəfə zəngini eşidəndə ürəyimin dözümü artdı, çoxaldı. Şən zarafatları, saf, tər-təmiz gülüşləri, ərkyana sözləri, ağayana məsləhətləri, insanı sabaha səsləyən vədləri, gözəl planları adamı ruhlandırırdı.

Elman hərtərəfli, savadlı, erudisiyalı adam idi. Onunla söhbət eləmək, tarixə baş vurmaq, ədəbiyyatdan, sənətdən, inanclardan, dini görüşlərdən danışmaq, bəzi məsələlərdə elmi mübahisələr aparmaq və müəyyən nəticələrə gəlmək mümkün olurdu və bir görüş başqa, yeni bir söhbətə körpü olurdu.

Ədəbiyyat adamı olmadan ədəbiyyatdan, tarixçi olmadan tarixdən danışmaq müasir insanlar hamısına müyəssər olmur. Hətta intellektuallıqda hər kəsə müasir və gərəkli mövzularda danışmaq imkanı vermir. Hər mütəxəssisin öz sahəsi, şəristə və imkanı olur. Yaxşı mütəxəssis öz elm sahəsində səriştəli fikir yürüdür. Milli ruhlu adam isə çağdaş zamanda milli düşüncənin

narahat mövzularına baş vurur və millətin ağrı-acısıyla yaşayır, düşüncələri də bu istiqamətdə cərəyan edir. Elmanın da tarixə, ədəbiyyata bağlılığı, məhz bununla əlaqədar idi. Elektronika sahəsi ilə məşğul olsa da, ədəbiyyat və sənət kitablarına bağlı idi.

Elman sadə və həssas adam idi. Adamın nə demək istədiyini hərəkətindən, bir kəlməsindən başa düşərdi. Bir dəfə bizə gəlmişdi. Uşaqlar televizoru qurdalayıb proqramı pozmuşdular. Cizgi filminə baxa bilmirdilər. Mən onlara dedim ki, evdə qonaq var, sonra düzəldərik. Uşaqlarsa Elman müəllimin bu sahədəki məharətini bilirdilər. Elman uşaqların kefini soruşanda "Sizdə cizgi proqramı göstərir?" deyən uşaqların nə istədiyini basa düşdü və "gəlin biz sizinkinə də baxaq"-dedi. Qısa zamanda uşaqların proqramı düzəldi. Onların sevinci Elmana da, mənə də fərəh gətirdi. Elman uşaqların yaddaşında "sehrli bir adam" kimi qaldı. Onun hər gəlişi uşaqlar üçün də çox maraqlı olardı.

Elmanla sonuncu görüşümüz baş tutmadı. Yayda bizə - Pirquluya gəlməli idi. Gələ bilmədi. Onunla vədələşən Əli Şamil müəllim gəldi. O isə yenə gələ bilmədi. Zəngimə zarafatla cavab verdi: "Məşhur adamlar belədir, söz verir, gəlmir. Məni də tez-tez işdən-işə çağırırlar. Özümlə məşğul olmağa vaxtım qalmır. Bu günlərdə vaxt tapıb gələcəyəm". O vaxt tapıb gələ bilmədi. Son danışığımızda mənə: "Söz verib gələ bilmədim, yəqin incimişsən" dedi. "Səndən inciməkmi olar, Elman?" - dedim. Axırıncı söhbətimizdən yadımda qalan da elə bu sözlər oldu.

...Xəbərini uzaqda eşitdim. Gözlənilmədən. "Ürəyindən xəstələnib" sözlərini eşitdim. Seyid idi. O Mirələkbər qardaşımıza belə deyərdi. "Darıxmasın, keçər, bunu mən də yaşadım" - dedim və "o artıq getdi" sözlərini eşitdim. Elə bildim müalicəyə gedib. Cavab olaraq "əbədiyyətə gedib" sözlərini eşitdim. Canımdan bir gizilti keçdi ki, onun təsirini heç zaman unuda bilməyəcəyəm.

Unudulmaz! Çünki gedən o idi. ELMAN… Təbəssümü, gülüşü sönməyən, qəlbi, könlü işıqlı, əsil ruh adamı. İndi də Ruh aləmindədir. Ruhu şad olsun!

***İsmayıl Öməroğlu Vəliyev***
***Filologiya elmləri doktoru, professor***
***8 oktyabr 2011-ci il***

## *Elman – sevimli şagirdim*

Şəxsiyyətinə, soykökünə hörmət bəslədiyim, yaxın dostumuz Mirələkbər müəllimin sakit, ancaq həyəcanlı səslə Elmanın faciəli şəkildə həyatdan köçməsi xəbəri məni yaman sarsıtdı. İlahi, Elman da bu dünyadan köçdü. Dünya nə dadsız, tamsız, dünya nə bietibar, nə ümidsiz oldu. Belə cavan oğullarımızın yarpaq tökümü nə tez başladı. Elmanın gələcək işləri, gələcək arzuları var idi. Niyə onlar yarımçıq, körpə balaları atasız qaldı, niyə ata-ananın taleyinə belə qəfil yazı yazıldı? Mən Elmanın gözəl işlərindən, gələcək arzularından yazmalı olduğum halda, niyə sevimli şagirdim, belə gözəl insan haqqında ağrılı bir yazı yazmalı oldum?

Mən həyatda Elman adlı bir neçə insanla ünsiyyətdə olmuşam. Onlardan biri əzizim, dayağım, ümidim, həyatmı çox tez başa vuran qardaşım Elman Nəsib oğlu, ikinci isə sevimli şagirdim, mənə çox doğma və yaxın olan Elman İslam oğlu idi.

Elman İslamoğlunu Naxçıvan şəhər 2 №li orta məktəbdə dərs deyəndən tanıyırdım. O, çox savadlı, sakit, mülayim, mənalı baxışları, ağıllı fikirləri ilə diqqəti cəlb edən, son dərəcə təvazökar, saf və mehriban bir şagird idi. Onun özünəməxsus hərəkətləri, danışıq tərzi var idi. Gözəl, nümunəvi bir ailədə doğulmuşdu Elman. Onun davranış mədəniyyəti doğulduğu ailə haqqında çox şey deyirdi. Bu ailəni də Elmanın timsalında tanıdım. Atası İslam müəllim və anası Asya xanımla iş prosesində tanış oldum, birgə işlədik, birgə çalışdıq. Onlarla əsas söz-söhbətimiz Elmanın dərslərinə hazırlaşması, gələcək təhsili ilə bağlı olurdu.

Elman orta məktəbi müvəffəqiyyətlə bitirdi, ali təhsil aldı, işgüzarlığı, yaradıcı əməyi sayəsində gözəl ixtisas sahibi oldu, vətənə layiq övlad kimi yetişdi. O, ev-eşik qurdu, oğul-uşaq sahibi oldu, ata-anasını da Bakıya apardı, qayğılarına qaldı...

Elman Bakıda yaşasa da, həmişə mənimlə əlaqə yaradırdı. Onunla az-az görüşsək də, səmimi görüşürdük. Yaxşı yadımdadır, 2008-ci ildə yenicə çapdan çıxmış kitabımı Mirələkbər müəllimlə

Elmana göndərdim. O, kitabı alan kimi mənə zəng etdi, görüşüb xeyli söhbət etdik, orta məktəb illərinin şirin xatirələri onun yaddaşında çözələndi, sinif yoldaşlarmı, sevimli müəllimlərini yada saldı. Elman Əshabül-kəhflə bağlı kitabçam, nəfis şəkildə hazırlanmış təqvimi mənə verdi. Dedi ki, Naxçıvan, onun tarixi abidələri ilə bağlı belə kitabça, buklet və təqvimləri çox buraxmaq, belə işləri təbliğ etmək, başqa dillərə tərcümə edib dünyaya yaymaq, nankor qonşularımızı başa salmaq lazımdır ki, Naxçıvan_ bizim dədə-baba yurdumuzdur...

Onunla xeyli söhbət etdikdən sonra ayrıldıq, amma haqq dünyasına qovuşana qədər telefon əlaqələrini kəsmədi. Hər bayram və tarixi günlərdə həmişə mənə zəng vurardı.

Həyat çox qəribədir. İnsanı hər şeyə dözməyə vadar edir. Elmanın ölümünə də dözdük. Allah-təala belə günləri heç kimə qismət eləməsin. Elman az yaşadı, amma dostlarının, yaxınlarının qəlbində qaldı. O, torpağı çox sevdiyindən, torpağa qovuşmağa tələsdi.

İslam müəllim, Asya xanım, nə etmək olar, həyatın qanunu belədir. Yaxşı bilirsiniz ki, 1993-cü ildə eyni gündə qardaşımla bacımı, 1997-ci ildə 71 günün içərisində 3 qardaşımı itirdim. Göz yaşlarım heç nəyə kömək etmədi, gedən getdi, amma Allah-təala qalana səbir verdi, dözüm verdi, taleyimə belə günlər yazdı...

İslam müəllim, Asya xanım, belə günlərdə təskinlik vermək üçün söz tapa bilmir, Allahdan sizə səbir və mərhəmət diləyir, başınız sağ olsun deyirəm.

***Elmanın ruhuna dərin hörmətlə Adil Bağırov***
***Filologiya elmləri doktoru***
***Naxçıvan şəhəri***

## *Sən qalan ömrünü dostlarında yaşayırsan, Elman!*

Bu dünyaya gələn və dünyadan köçən insanların sayı, hesabı yoxdur. Ulu Tanrının yaratdığı insanların bir gün Haqqın Dərgahına dönəcəyini hər kəs bilir. Kimi tez, kimi gec...Ömür Yaradandan gəlir. Amma sağlam və mənalı yaşamaq üçün İlahi insana bütün yaratdığı canlılardan fərqli olaraq, ağıl verir ki, o insan düşünərək mənalı, şərəfli ömür sürsün.

İnsanın təsir dairəsi müxtəlifdir. Kimi ailəsinə, kimi qohum-əqrəbaya, dost-tanışa, kimi məmləkətə təsir edə bilir. Əlbəttə, elə insanlar var ki, heç özlərinə də gücü çatmır.

Mən bu kiçik, lakin məsuliyyətli yazımda özünü heç vaxt ailəsindən, dostlarından, qohumlarından və məmləkətindən ayrı tutmayan, el oğlu Elman haqqında danışmaq istəyirəm.

Elman Əliyev... İnsan nə qədər geniş qəlbli, bacarıqlı, yaradıcı olarmış?!... Uzaqdan tanıyanlar onda bu istedadı, bəlkə də ,görə bilməzdilər. Lakin üz-üzə oturub söhbət edəndə, onunla bir işin qulpundan yapışanda bu istedadın şahidi olurdum. O, həm tarixçi idi, həm riyaziyyatçı. Həm musiqiçi idi, həm ssenarist. Həm vətənpərvər idi, həm millət fədaisi... Onda yaxşı olan hansı keyfiyyətlər yox idi?! Elman haqqında keçmiş zamanda danışmaq qəribəmə gəlir. Lakin nə edəsən? Onun aramızda cismani yoxluğunu duyduğuma görə bunları yazmıram. Bəlkə də, bir qədər kövrək hisslərlə yazıram. Amma onunla hər görüşəndə deyərdim ki, sən başdan-başa istedadsan! Sən xalqın layiqli, ziyalı oğlusan, Elman!...

Mən Elmanı 35 ildir tanıyıram. Bizim aramızda olan yaş fərqi çox azdır. Hələ keçən əsrin 70-ci illərində bir məktəbdə oxuduğumuz, təhsil aldığımız və özümüzü dərk edən günlərdən bir-birimizə hörmətlə yanaşmışıq. Elman ziyalı ailəsində dünyaya göz açıb. Atası İslam müəllim muxtar respublikanın sayılıb-

seçilən ağsaqqallarındandır. Söz yox ki, Elmanın şəxsiyyət kimi formalaşmasında ailəsinin rolu danılmazdır.

Dərin zəkası, iri eynəyinin şüşələri altından mənalı baxışları, gülən gözləri var idi. O, verdiyi suallara düzgün cavab almayanda belə, heç kəsin xətrinə dəyməzdi. Bir qədər kinayəli gülüşləri o demək idi ki, dediklərin doğru deyil. Milli məsələlərdə səhv edirdinsə, çox zəhmli, ciddi görkəm alar, amma çox ustalıqla qarşısında oturanı başa salmağa çalışardı.

Daha nə yazım? Xatirələr çoxdur. Amma sənin yoxluğun canımı o qədər sıxır ki, onları yazmağa da əlim gəlmir. Bir ədibin kəlamı ilə sözümə nöqtə qoymaq istəyirəm: - “Eşitsəniz ki, mən artıq yoxam, gəlin obamdan soruşun. Desələr ölüb, inanmayın. Gedin məzarımdan baxın. Məzarım dil açıb desə ölüb, yenə inanmayın. Gedin dostlarımdan soruşun. Dostlarım desə ölüb, onda inanın!” Bu, o deməkdir ki, dost dostun qəlbində həmişə yaşayır. Sən qalan ömrünü dostlarında yaşayırsan, Elman!

***Abbas Seyidov***
***Tarix elmləri doktoru, professor***

## *Elman – sadəcə Elman*

Elman – sadəcənə Elman!.. Elmana nekroloq yazmaq fikrim yoxdur. Bu qəbildən olan insanlar həmişə yaşar olduqlarından.

Elman xüsusiyyəti, az olan xüsusiyyətlərdən idi. Onun bütün vücudu, düşüncəsi, baxışlarında nəyəsə çatmaq - nəyisə çatdırmaq, yerinə yetirməkdən ibarət ifadə vardı. Onun baxışlarında və dinamik hərəkətlərində vaxt-zaman məfhumu yox, an məfhumu daha güclü ifadə olunurdu. Polemikaya gedirdi, amma tərəf müqabili onun düşüncə tezliyinə uyğun olmayanda, gülümsəyib, bir az dinləməyə üstünlük verirdi. Cümlələrində, düşüncələrində konkretlik hakim olurdu.

Elman – Elmən elinin tarixi mərzlərində, tarixi keçidlərində ilahiyyəti, ilahi incə bağlılığı axtarıb tapmaq, onu elmi-tarixi-ilahiliklə uzlaşdırmaq istəyirdi. İstəyə-istəyə də ona nail ola bilirdi.

Bizim yaxın tanışlığımız Mirələkbər müəllim vasitəsi ilə olmuşdu.

Sonuncu görüşümüzdən əvvəlki görüşümüz Mirələkbər müəllimin yanında oldu. Bir az yubanmışdım. Otağa daxil olanda Bahadur müəllim Tahirbəyov, Elmanla A.Eynşteynin nisbilik nəzəriyyəsi düsturunu lövhədə yazıb müzakirə edirdilər. Belə bir qənaətə gəlmişdilər ki, kainat sistemlərdən ibarətdir və bu sistemlər biri-birini tamamlayır və kainatın sonu olmur. Eynşteyn, Lütfü-zadə dünyanı istəmədi, dünya onları istədi.

Sonuncu görüşümüz, Elməddin müəllimin xanımı rəhmətə getmişdi, oraya yasa getmək lazım idi. Mirələkbər müəllim zəng etdi, bir yerə yığışdıq ki, yasa gedək.

Elmanın maşınında Mirələkbər, Akif Azalpla yasa yollandıq. Maşında türkcəyə tərcüməsində "Qurani-Kərim" səslənirdi, hamılıqla dinləyirdik. Bu inam və iman idi Elman dünyasında. İstək üçün inamın gərək ola. İnam üçün isə istəyin gərək ola.

Elmanın yaxşı fikri vardı: N.Tusi dühasından uzun illər ərzində araşdırdıqlarını şərh etmək. Elman, ərazisini, vətənini, tarixini, ilahiyyəti araşdıran Elman! Yaddaşımda Elman yaşlaşmadı, qocalmadı, yorulmadı...

Bəşəriyyətə miras qalan Dədə Qorqud dünyasında "Dəli Domrul" var. Domrul ölümün inkarı və ölümsüzlük prototipidir.

Əbədi olan Yaradandan Əbədi yaranış var, yoxdur ölüm! Bu sadə kainat mexanikasına görə Elman aramızda yox kimidir, amma əbədiyyətdə var kimidir.

Elman müəllimin aramızda olarkən söylədiyi fikir və çıxışlarında sistematik ardıcıllıq, dəqiq elmlərdəki kimi dəqiqlik və konkretlik var idi. O, tarixlə bağlı fikirlərini mənbələrə istinadla, ilahi işıq dairəsinə aid düşüncələrini isə aydın və düzgün çatdırmağa çalışan və buna müyəssər olan bir insan kimi yaddaşımda qalmaqdadır. Araşdırma və elm ölənə qədər lazım olur. Öləndən sonra onları "sərf" etməyin lazım olur.

Ətrafıma baxdım: hər bir var olan varlığı, təbiəti, fauna və floranı ilahiyyatın özündə olan, özü ilə bir bağlılıqda gördüm. Kainat qarşısında dörd peşə çox cavabdehlidir: müəllim, həkim, mühəndis, ev inşa edən (bənna, memar).

Bu baxışlarımda Elmanı da ilahiyyata, elmə, tarixə, fəlsəfəyə bağlı olduğunu gördüm. Auditoriyada fikirləri təmkinlə, səbirlə dinləmək bacarığını gördüm. Bu kiçicik qeyd-yazım nə xatirə, nə də nekroloq deyil. Bir fikirdəyəm: Elman aramızda vardı, indi isə o əbədiyyətində Elman kimi var Olandan vardır.

*Nə dolğun Azəri adıdır! Zər-Zərri! "Zərim", "Zərin" "Zərlim", "Azərim", "Vətənim"!*

*Azərbaycan adının (məhz) xoşbəxtliyinə bir bax, "zərin" işıq hissəsinin, parçasının Vətən mənası var!*

***Vahid Rzayev***

***Elman müəllimlə (Allah rəhmət eləsin) ilk dəfə Mirələkbər müəllimin yanında tanış olmuşdum. Bir rus jurnalistinin Gəmiqayaya hədsiz marağı və buranı xristianların ibadət yerinə çevirmək cəhdləri ətrafında fikir mübüdiləsi aparırdıq. Qədim mədəni irsimizə sahib çıxmaq istəyənlərə layiqli cavab verməyi özümüzə borc bilirdik. Söhbətin gedişində Gilançay vadisində aparılan arxeoloji qazıntılarla tanış olan Elman müəllim, bu haqda birlikdə sənədli film çəkilməsinin tariximizin təbliği üçün mühüm əhəmiyyətini qeyd etdi. Mən öz tərəfimdən lazım olan materialları hazırlamağa söz verdim. Təəssüf ki, bu işi başa çatdıra bilmədik. Elman müəllim dünyagörüşlü, hərtərəfli savada malik, milli ruhlu ziyalı idi.***

## *ÜMUMDÜNYA SUBASMASININ NAXÇIVANA METEOROLOJİ VƏ MƏDƏNİ TƏSİRİ*

Qədim zamanlardan ibtidai insanların təbiət qüvvələri ilə mübarizəsi nəticəsində cürbəcür miflər və əfsanələr meydana gəlmiş, dinlər və sonra isə müxtəlif fəlsəfi cərəyanlar yaranmışdır. Bir çox əfsanələrin real kökləri olsa da əsrlər boyu insan təxəyyülü onu fantastik bir duruma gətirib çıxarmışdır. Bu səbəbdən də insan ağlının yaratdığı həmin mif və əfsanələrin real köklərinin olub-olmamasının araşdırılması sivilizasiyanın indiki inkişaf mərhələsində cəmiyyətin qarşısında vacib bir elmi problem kimi durur. Digər tərəfdən Yer üzündə vaxtaşırı baş verən zəlzələlər, tufanlar və subasmalar bu əfsanələrin yaranma səbəblərini araşdırmağı bir daha aktuallaşdırır.

Min illərlə insan yaddaşında həkk olunmuş, onun təbiət və ilahi qüvvələr qarşısında nə qədər aciz olduğunu göstərən əfsanələrdən biri də Nuhun tufanı haqqında əfsanədir. Elmi ədəbiyyatda bu hadisə ən çox «Ümumdünya subasması» kimi qeyd olunur ki, bu da onun əsasən Bibliya variantına istinad edilməsi ilə bağlıdır. Ümumdünya su basması – Nuhun tufanı haqqında əfsanənin Yer kürəsinin müxtəlif yerlərində müxtəlif

xalqlar arasında yayılması, ona müxtəlif dini təlimlərdə real fakt kimi yanaşılması və hətta müasir xalqların Yer üzərində yayılmasının birbaşa bu əfsanə ilə bağlı olduğunun göstərilməsi onun daima elmi ictimaiyyətin diqqət mərkəzində olmasını şərtləndirmişdir. Qeyd edək ki, ümumdünya subasması əfsanəsinin dəhşətli tarixi hadisələrin mifləşdirilməsinin nəticəsində yarandığı fikrini irəli sürən alimlər də vardır (1, s. 78-79). Onların fikrincə Urun III sülalə dövründə yaranan subasma əfsanəsi sonradan Babilistan və Assur ideologiyasında üstünlük təşkil etmişdir. Bu mifologiyaya görə subasma Allahın cəzası və düşmən hücumu mifologiyası ilə bağlıdır. "Akkadın lənəti" mixi yazılı mətnində subasma kimi kutilərin hücumu-axını nəzərdə tutulur. Bu axın da 7 gün, 7 gecə davam etmişdir. Urun süqutundan sonra subasma ideologiyasında da dəyişikliklər olmuşdur (1,s. 78-79).

Nuhun tufanı haqqında əfsanənin ən qədim variantı XIX əsrdə arxeoloq Arno Pöbelin nəşr etdiyi Şumer variantıdır. Burada Enki allahı padşah Ziusudranın evinin divarına subasma olacağı haqda xəbər verir. Eyni ilə əfsanənin Babilistan variantında da Ninnihiku-Ea allahı Utnapiştimin daxmasının divarına fəlakət olacağı haqda xəbər verir. Bir çox tədqiqatçılar bu «xəbər vermə» faktının zəif zəlzələ silkələnmələrinin nəticəsi olduğunu qeyd edirlər. Nəhayət, Tövrat və Quran Kərimdə bu fəlakətin Allahın qəzəblənərək insanlara göndərdiyi cəza olduğu göstərilir. Qeyd edək ki, yuxarıda adı çəkilən variantların hamısında fəlakət təqribən oxşar şəkildə təsvir olunur: güclü cənub küləyi ilə müşayiət olunan və ardı-arası kəsilmədən 40 gün 40 gecə davam edən leysan yağışları. Buradan belə nəticəyə gəlmək olur ki, əfsanənin qədim Şumer və Babilistan variantlarında, Tövratda və Quran Kərimdə çox qədimdə baş vermiş bir təbii fəlakət haqqında məlumat verilir. Haqqında son 200 ildə saysız-hesabsız əsərlər yazılsa da Ümumdünya su basmasının tarixi hələ də tam dəqiqləşdirilməmişdir.

Geoloq, arxeoloq və tarixçi alimlərin ümumi rəyinə əsasən ən dəhşətli ümumdünya subasması e.ə. XII-IX minilliklər arasında

baş vermişdir. Lakin Nuhun adı ilə bağlı olan Ümumdünya su basmasının Dəclə və Fərat çayları arasında 5-6 min il bundan əvvəl olduğu da göstərilir (2,s. 19-29). Bu dəhşətli hadisənin baş verdiyi yerdən çox-çox uzaqlarda da yayıldığını, qədim yazılı mənbələrdə və dini kitablarda da öz əksini tapdığını nəzərə alsaq onun tarixinin, harada və hansı miqyasda baş verməsini aydınlaşdırmağın mühüm əhəmiyyətə malik olduğunu görərik. Ehtimal ki, bəhs etdiyimiz Ümumdünya su basması bəşər tarixində yazıya alınan axırıncı ən böyük su basma hadisəsi olmuşdur. Ondan sonra baş vermiş subasmalar miqyasca kiçik olmuş və qədim dünyada geniş rezonans doğura bilməmişdir. Yunan tarixçilərinin b.e.ə. 1550-ci ildə baş verdiyini ehtimal etdikləri Prometeyin oğlu Devkalionla bağlı su basma da lokal təbii fəlakətlərdən hesab oluna bilər.

Nuhun adı ilə bağlı Ümumdünya subasmasının həqiqətən baş verdiyi geoloqlar və arxeoloqlar tərəfindən artıq elmi tədqiqatlarla sübut olunmuşdur. Lakin hadisənin baş verdiyi (Dəclə və Fərat çayları arası) ərazi ilə əfsanənin yayıldığı ərazi arasında miqyasca olduqca böyük fərqin olmasının da obyektiv səbəbləri vardır.

1929-cu ildə, qədim Ur şəhərinin qazıntısı zamanı ingilis arxeoloqu Leonard Vulli subasmanın 3,5 m. qalınlığında izlərini aşkar etdikdən sonra Nuhun tufanı haqqında əfsanəyə elmi ictimaiyyətin münasibəti dəyişdi. Lakin L.Vullinin aşkar etdiyi izlər çox qədim mədəni təbəqənin üzərində yerləşdiyindən təbii olaraq subasma hadisəsinin də tarixini qədimləşdirirdi. Sonradan qədim Şuruppak şəhəri ətrafında və Kiş şəhərinin yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş qum qarışıq gil qatı e.ə. III minilliyin əvvəllərinə aid mədəni təbəqənin üzərində yerləşirdi. Məhz bu tarix Nuhla bağlı subasmanın tarixinə daha çox uyğun gəlirdi. Beləliklə, Nuhun Ümumdünya subasması hadisəsinin e.ə. 3100-2900-cü illər arasında baş verdiyi daha çox qəbul olunan tarixdir. Lakin, Cənubi Qafqazın bir çox eneolit abidələrində Mesopotamiya mədəniyyətinin güclü təsirinin aşkar olunması və

hətta bunun etnik miqrasiya zəminində yarandığını nəzərə alaraq bu dəhşətli hadisənin daha da qədimdə, ən azı eneolit dövrünün sonlarında baş verdiyi ehtimalı ilə razılaşmaq olar.

Bizi ən çox maraqlandıran Nuhun tufanı haqqında əfsanənin Naxçıvan variantıdır. Öncə qeyd edək ki, bu variant Avropa alimlərinə hələ də məlum deyil və ona öz tədqiqatlarında istinad etməmişlər və etmirlər. Buna baxmayaraq inamla deyə bilərik ki, Naxçıvan variantının başqa variantlardan üstün cəhətləri çoxdur və bu xüsusilə qeyd olunmalıdır.

Nuhun tufanı haqqında əfsanənin Naxçıvan variantına görə uzun sürən tufan və leysan yağışları nəticəsində hər tərəfi sel-su basır. Ancaq hündür dağların zirvəsi görünürmüş. Tufan yatandan sonra Nuhun gəmisi dayanmağa yer axtara-axtara hündür bir dağa yaxınlaşır. Sıldırım qayalar, qar, buz dayanmağa imkan vermir. Burada çox əzab-əziyyət çəkdiyindən dağın adı həmin vaxtdan «Ağrı dağı» olaraq qalır. Gəmi Ağrı dağından şərqə tərəf üzüb daha bir dağda dayanmaq istəyir, lakin çox əziyyət çəksə də burada da dayana bilmir və deyir ki, «bu dağ da o dağdan Kəm deyil». O vaxtdan da dağın adı «Kəmki dağı» adlanır. Oradan Nuhun gəmisi daha hündür dağlara tərəf üzür. Bir yerdə gəminin altı suyun altında qalmış dağın zirvəsinə ilişib dayanır. Oradan çətinliklə çıxdıqdan sonra Nuh deyir: «İnan ki, dağdır». Deyilənlərə görə həmin dağ İlanlı dağ olub. Hətta deyirlər ki, İlanlı dağın zirvəsini Nuhun gəmisi iki yerə parçalayıb. Ona görə də el arasında İlanlı dağa həm də «Haça dağ» deyirlər.

Gəmi ordan uzaqlaşıb hündür dağların ətəyində əlverişli bir yerdə dayanır. Bu zaman suyun səviyyəsi də artıq aşağı düşürmüş. Nuhun gəmisinin dayandığı yer Nəsirvaz kəndinin yaxınlığındakı dağ idi ki, bu dağ o vaxtdan «Gəmi qaya» adlanır. Deyirlər ki, gəminin qalıqları indi də həmin dağda qalır. Gəmi qaya indi elmdə tunc dövrünə aid qaya üstü rəsmləri ilə məşhurdur.

Gəmi dayandıqdan sonra Nuh peyğəmbər öz uşaqları ilə birlikdə Naxçıvan dağlarının ətəklərində, çay qıraqlarında kəndlər salıb yaşayırlar. İndiki Naxçıvan əhalisi də o vaxtdan burada

məskən salmış Nuhun övladlarıdır. Nuh peyğəmbərin ən çox Naxçıvan çayın Arazla qovuşduğu yer xoşuna gəlir. Burada kənd salıb yaşayır. Onun qəbri də Naxçıvandadır («Nuh daban» adlanan yerdə). Nəsirvaz kəndinin adındakı «Nəsir» sözünün əfsanənin Şumer variantındakı «Nisir» dağının adı ilə oxşarlığı da maraq doğurur.

Əfsanədən göründüyü kimi Naxçıvanda və ona yaxın ərazidə dörd böyük dağın adı Nuh peyğəmbərin adı ilə əlaqələndirilir.

Bəzi alimlər Nuhun tufanı haqqında əfsanənin müsəlman xalqlar arasında yayılmasının yalnız Qurani Kərimlə bağlı olduğunu göstərirlər. Bəlkə də bir çox müsəlman xalqlara bu əfsanə Qurani Kərim vasitəsilə məlum olmuşdur. Lakin yuxarıda gördüyünüz kimi əfsanənin Naxçıvan variantı Qurani Kərimdə olan variantdan köklü surətdə fərqlənir və dəqiq lokal xüsusiyyətlərə malikdir.

Min illərlə Naxçıvanın qədim qəbilələrinin yaddaşında qorunub saxlanan bu əfsanənin nə vaxt və necə yarandığı olduqca maraqlıdır. Ümumiyyətlə, Ümumdünya subasmasının Dəclə və Fərat çayları arasında (Mesopotamiyada) baş verdiyini artıq bilirik. Onda bəs sual oluna bilər, əfsanənin Arazboyu ərazi ilə, xüsusən, Naxçıvan bölgəsi ilə nə əlaqəsi? Əgər xəritəyə nəzər salsanız Dəclə və Fərat çaylarının coğrafi cəhətdən Araz çayından o qədər də uzaqda olmadığını görərsiniz. Başqa sözlə əfsanədə göstərilən təbii fəlakətin Naxçıvanla birbaşa əlaqəsi də ola bilərdi. Diqqət etsəniz əfsanənin Naxçıvan variantında təbii fəlakət «subasma» yox «tufan» adlanır. Bizim fikrimizcə Nuhun tufanı baş verən vaxt təkcə Mesopotamiyada deyil, qonşu regionlarda da, xüsusən dağlıq ərazilərdə güclü metereoloji dəyişikliklər baş vermişdir. Naxçıvan ərazisində dağıdıcı küləklə (tufan) müşayiət olunan leysan yağışları yağmışdır. Buna səbəb isə fars körfəzində dənizin dibində zəlzələ ilə müşayiət olunan vulkan püskürməsi nəticəsində çoxlu su buxarlanması və güclü küləklər olmuşdur. Ehtimal ki, güclü küləklər nəticəsində Zaqros dağlarının

cənubundan keçən buludlar Kiçik Qafqazın Zəngəzur və Qaradağ silsilələri rayonunda uzun sürən dəhşətli yağışlar törətmişdir. Ağlagəlməz sellər olmuşdur. Bu sellərin izlərini Naxçıvan ərazisində, Zəngəzur silsiləsinin cənub ətəklərində indi də açıq - aşkar müəyyən etmək olur. Deməli, Nuhun tufanı adlandırdığımız təbii fəlakət Naxçıvan ərazisinə də təsir etmişdir. Qədim insanların yaddaşında silinməyən izlər buraxmış bu hadisə əfsanənin Naxçıvan variantının yaranmasına səbəb olmuşdur.

İkincisi, Mesopotamiyada (Dəclə və Fərat çayları arasında) baş verən təbii fəlakət nəticəsində dəhşətə gələn əhalinin bir hissəsi ordan uzaqlaşıb başqa yerlərdə məskən sala bilərdi. Təbii ki, dəniz tərəfdən gələn fəlakətdən qaçan insanlar dağlara pənah gətirmiş, Kiçik Asiyanın şimal-şərq hissələrinə və Cənubi Q”afqaz ərazilərinə miqrasiya etmişlər (4,s. 154). Ehtimal ki, həmin vaxt Naxçıvan ərazisinə köçüb məskən salanlar da olmuşdur. Beləliklə, Nuhun tufanı haqqında əfsanə Naxçıvanda bu yolla da yarana bilərdi. Tunc dövründə Naxçıvan ərazisinin qədim sivilizasiya mərkəzləri ilə əlaqəsi məlumdur. Azərbaycan MEA müxbir üzvü V.Əliyevin ehtimalına görə artıq tunc dövründə Naxçıvan ərazisində şəhərlər mövcud idi. Bəlkə də qədim dünyanın mədəni mərkəzlərindən kənarda yerləşən Naxçıvan ərazisində şəhərlərin meydana gəlməsinin səbəblərindən biri də Nuhun tufanı vaxtı Mesopotamiyadan əhalinin bir qisminin buraya miqrasiyası olmuşdur. Mesopotamiyanın mədəni təsiri Naxçıvanın İlk və Orta Tunc dövrü abidələrində, xüsusən də keramika və bəzəklərdə daha aydın izlənilir (4,s. 3; 5,s. 9,187,190; 6,s. 86-93).

Nuhun tufanı haqqında əfsanənin Naxçıvan variantından danışarkən bir məsələni xüsusilə qeyd etmək lazımdır. Əsrlərlə Naxçıvan türklərinin yaddaşında qorunub-saxlanmış bu əfsanə son orta əsrlərdə ermənilər arasında da yayılmış və beləliklə əfsanənin «erməni variantı» meydana çıxmışdır. Öncə qeyd edək ki, erməni variantında Naxçıvan variantının yalnız dörddən bir hissəsi öz əksini tapmışdır. Nuhun tufanı haqqında əfsanənin erməni variantında gəmi Ararat (Ağrı) dağında dayandıqdan sonra Nuh

peyğəmbər Naxçıvanı özünə yaşayış məskəni etmişdir. Naxçıvan adı da o zamandan yaranmışdır. Guya Nax-ilk, içevan-dayanacaq mənasındadır.. Bu haqda «Yepiskop Sebeosun tarixini» tərcümə etmiş (İrəvan, 1939) Malxasyantsın qeydini olduğu kimi veririk: «...Naxçevan ili Naxçavan – qlavnıy qorod kantona toqo-je imeni Vaspurakanskoy provinüii na reke Araks. Slovo Naxçavan po sostavu oznaçaet mesteçko Naxç-a (ili Naxuça, Naxiça) kak Ervandavan, Vaqarşavan i pr. No v XVIII v. armənskie **qramotei** eqo istolkovali inaçe: Naxiçevan – pervaə stoənka, v svəzi s predaniem, budto Noev Kovçeq ostonovilsə na qore Ararat i Noy, soydə s qorı, tut, na meste gtoqo qoroda stroil svoö pervuö stoənku. Na osnovanii gtoy naivnoy gtimoloqizaüii s tex por nazvanie gtoqo qoroda stali pisatğ Naxiçevanğ» (7. prim. 90).

«Naxçevan yaxud Naxçavan Vaspurakan (ərəb mənbələrində Basfurracan adlanır – B.İ.) əyalətinin Araz çayı sahilində eyni adlı kantonunun baş şəhəridir. Naxçavan sözü tərkibinə görə «Naxça yeri» (yaxud Naxıça, Naxuça) deməkdir. Ervandavan, Vaqarşavan və s. olduğu kimi. Lakin XVIII əsrdə erməni savadlıları onu başqa cür izah edirdilər: Naxiçevan – ilk dayanacaq. Rəvayətə görə Nuhun gəmisi Ararat (Ağrı – B.İ.) dağında dayanmış, dağdan enən Nuh bu yeri özünə ilk dayanacaq yeri etmişdir. Bu bayağı etimologiya əsasında da şəhərin adı o vaxtdan Naxiçevan kimi yazılır». Gördüyünüz kimi şərhə ehtiyac yoxdur. Təəssüf ki, bir çox rusdilli nəşrlərdə şəhərin adı hələ də təhrif olunmuş şəkildə yazılır.

Nuhun tufanı haqqında əfsanənin erməni variantının necə yaranması haqqında İ.Sopenin də fikri maraqlıdır («İstoriçeskiy pamətnik sostoəniə Armənskoy oblasti v gpoxu prisoedineniə k Rossiyskoy imperii» S.P. – 1852 q.).

O, qədim yəhudi tarixçisi İosif Flafiyə ( 37-100 illər) əsaslanaraq Naxçıvan şəhərinin Nuhla bağlı olduğunu yazır. İ.Şopen eyni zamanda Nuhun qəbrinin Naxçıvanda olması faktının ilk dəfə erməni coğrafiyaşünası Vartan tərəfindən qeyd olunduğunu göstərir. O qeyd edir ki, Naxçıvanda təkcə Nuhun

deyil, onun bacısının da qəbri vardır. Lakin müəllif özü-özünə belə bir sual verir ki, qəribədir, nəyə görə Vartana qədər olan erməni müəllifləri, xüsusən də «erməni tarixinin atası» sayılan Moisey Xorenatsi bu haqda bir kəlmə də yazmamışdır? İ.Şopenin fikrincə Nuh əfsanəsi ermənilərə midiyalılardan keçmişdir. Guya həmin midiyalılar I Tiqran (e.ə. 565-520 illər) tərəfindən Astiaqın ölümündən sonra onun ailəsi ilə birlikdə əsir götürülən midiyalılar idilər ki, onlar da indiki Naxçıvan ərazisinə köçürülmüşlər. Naxçıvan ərazisində midiyalıların yaşadığını və ermənilərin Nuhun tufanı haqqında əfsanəni onlardan götürdüyünü ehtimal etmək olar. Yalnız həmin midiyalıların I Tiqran tərəfindən buraya köçürüldüyü inanılmazdır. Ona görə ki, Moisey Xorenatsidən başqa heç bir tarixi mənbədə bu haqda məlumat yoxdur. Digər tərəfdən XVII və XIX əsrlərdə Naxçıvan ərazisinə köçürülən ermənilər də sadəcə olaraq yerli əhalidən əfsanəni eşidib özününküləşdirə bilərdilər. Təkcə əfsanə və eposlarımız deyil mənəvi mədəniyyətimizin bir çox nailiyyətləri qonşularımız tərəfindən mənimsənilmişdir. Hələ də torpaqlarımızdan gözlərini çəkməyən bir sıra elmə yabançı ünsürlər Nuhun tufanı haqqında əfsanədən öz çirkli məqsədləri üçün istifadə etməyə çalışırlar. Onlar hətta xristian din xadimlərinin və dinə meyilli iş adamlarının Naxçıvana vaxtaşırı yürüşünü təşkil etməyə, Gəmi qayada Nuhun heykəlini qoymaqla buranı ibadətgah edib onların buraya mütəmadi səfərlərini planlaşdırmağa cəhd göstərmişdilər. Yaxşı ki, milli ruhlu ziyalılarımızın, Muxtar Respublika rəhbərliyinin və müvafiq dövlət orqanlarının səyi nəticəsində bu gülünc və eyni zamanda təhlükəli plan baş tutmadı. Biz alimlərin borcu «Nuhun tufanı haqqında əfsanənin» real tarixi köklərinin olub olmamasını bir daha araşdırmalı, xalqımızın mənəvi sərvətlərinin başqaları tərəfindən mənimsənilməsinə və ya elmə yabançı adamlar tərəfindən ucuz şouya çevrilməsinə imkan verməməliyik.

***Bəhlul İbrahimli,***
***Tarix elmləri namizədi,***
***AMEA-nın Arxeologiya və***
***Etnoqrafiya institutunun aparıcı elmi işçisi***

## *İdrakı, imanı olan insan*

Elman Əliyevlə ilk dəfə 2002-ci ilin 28 iyun tarixində "Təhsil" Cəmiyyətində Nəsrəddin Tusinin 800 illiyinə həsr olunmuş "Nəsrəddin Tusinin elmi xidmətləri və Nəsrəddin Tusi tədqiqatçı Ramiz Qasımov yaradıcılığında" elmi-praktik konfrans keçirilərkən tanış olmuşdum. Bu tanışlıq get-gedə dostluğa çevrildi. Həmin tarixdən başlayaraq Elman "Təhsil" Cəmiyyətinin bütün tədbirlərində yaxından iştirak edir, öz tövsiyələrini verir və əlindən gələn köməkliyini göstərirdi. O, "Təhsil" Cəmiyyətində keçirilən tədbirlərin əksəriyyətini təmənnasız olaraq lentə köçürmüşdür.

Elman xalqına, bəşəriyyətə xeyir verən bütün insanları sevir və onları təbliğ edir. O, çox mütaliə edir və münasibətini bildirir. Lütfizadə və Rafiq Əliyev elmi yaradıcılığına xalqının dünya elminə və fəlsəfəsinə yeni yol açan bir tapıntı kimi dəyərləndirirdi. O, əminliklə deyirdi ki, bütün bəşəriyyət gec-tez bu yolu qəbul edib rahat yaşamaq dövrünə qədəm qoyacaq. Yeni qütbləşməyə son qoyulacaq. Güc idarəçiliyi deyil, ağıl, zəka idarəçiliyi yaranacaq. Onda insanlar taxt-tac, var-dövlət uğrunda deyil, xeyir, haqq işlər görmək uğrunda əzmkarlıqla çalışacaqlar.

Elman 19 mart 2003-cü ildə "Təhsil" Cəmiyyətində gənc yazıçı Ramiz Qasımovun "Əsrləri qabaqlaşmış alim Nəsrəddin Tusi" əsərinin təqdimat mərasimində çıxış edərkən Tusidən misal gətirərək dedi. Nəsrəddin Tusi dünyaya gələnləri adam adlandırır. Bütün adamların insanlığa ucalması üçün onun idrakı, elmi və imanı olmalıdır.

Kimin idrakı, elmi var, imanı yoxdur onlar şeytandır.
Kimin imanı var, idrakı, elmi yoxdur onlar cahildir.
Kimin nə idrakı, elmi və imanı yoxdur onlar nadandır.
Kimin həm idrakı, elmi, həm də imanı var onlar insandır.
Bunların içində ən ziyan karı şeytan olanlardır.

Elmanın gözəl, məntiqli təhlil etmək qabiliyyəti vardı.

Onun zəngin arxivi olmalıdır. Orada müxtəlif insanlarla müsahibələr, müxtəlif tədbirlərin lent yazıları olmalıdır. Bunların üzə çıxarılması çox faydalı olardı. O cümlədən onların üzü köçürülüb televiziya arxivlərinə verilməsi və yeri gəldikcə onlardan istifadə edilməsi faydalı olardı.

Əfsuslar olsun ki, vaxtsız ölüm onu tanıyanlar tərəfindən məhəbbət və sevgi ilə qarşılanan Elman bəyə aramızdan apardı. Ona olan məhəbbət, sevgi onun yaş mərasimində iştirakı yuxarıda dediklərimizə bir sübutdur.

Allah rəhmət eləsin! Ruhu şad olsun.

***Nuqay Əliyev***
***Azərbaycan Texniki Universitetinin dosenti, texnika elmləri namizədi, "Təhsil" Cəmiyyəti İdarə Heyətinin sədr***


*Hörmətli* ____________________

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının
A.A.Bakıxanov adına Tarix İnstitutu və "Təhsil" Cəmiyyəti
Sizi
"Erməni millətçilərinin Naxçıvana iddiaları və tarixi gerçəklik" mövzusunda
"*Dəyirmi masa*"ya dəvət edir.

Dəyirmi masa 30 iyun 2006-cı il, saat 16.00-da keçiriləcək.

*Ünvan:* Milli Elmlər Akademiyasının Əsas binası, VI mərtəbə
("Elmlər Akademiyası" metrosunun yanı)
*A.A.Bakıxanov adına Tarix İnstitutunun direktorluğu*

*Telefon:* 439-36-15; 438-91-43

*Təşkilat Komitəsi*

***Təhsil cavanlara kamal, qocalara təsəlli,***
***yoxsullara dövlət, yaşlılara isə yaraşıq verir***

***DİAGEN***

## TƏHSİL İNSANLARA NƏ VERMƏLİDİR?!

1. Şərəf, ləyaqət, məsuliyyət
2. Mükəmməl bilik
3. Aldığı biliyi həzm etmək
4. Ondan istifadə edib xeyir vermək
5. Başqalarına çatdırmaq (ziyalı olmaq)
6. Yuxarıda göstərilənlərə mane olan əməllərə qarşı barışmaz olmaq


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL SİSTEMİ
Prezident
MM
Komissiyalar
Nazirlər Kabineti
Prezident Aparatı
İcra aparatı
Humanitar Şöbə
İctimai Şöbə
- - - - - - - - - -
və başqaları
Şöbələr
Təhsil Naziri
Səhiyyə Naziri
Hüquq Mühafizə Orqanı
Hərbi Nazir
və b.
Təhsil Akademiyası
Bağçalar
İbtidai təhsil I - V
Ümumi təhsil VI - IX
Tam orta təhsil X - XII
Peşə Təhsil IX, X, XI, XII
Texnikum
Bakalavr
Magistr
Doktorantura
Yaşlıların təhsili
Cəmiyyət
Elm aləmi
Mədəniyyət
Sənaye
Kənd təsərrüfatı
və başqaları

## *Unudulmaz insan*

Mən Elmanı 35 ilə yaxın bir müddətdə tanıdığıma görə mənim üçün onun haqqında danışmaq həm asandır, həm də çətin.

Asandır ona görə ki, onun şəxsiyyətini yaxşı tanıyıram. İnsanı səfərdə olanda daha tez tanımaq olur və mən Elmanla düz iki ay vətəndən çox uzaqda hər gün təmasda olmuşam, sonralarsa bir yerdə işləmişik və bu illər ərzində onu diqqətlə müşahidə etmişəm.

Çətindir ona görə ki, onun geniş erudisiyasını, dünyagörüşünü, fitri istedadını, yüksək intellektual səviyyəsini açmaq üçün gərək elə yazım, elə sözlər seçim ki, həqiqətə zərrə qədər xələl gəlməsin. Məhz bu nöqteyi-nəzərdən Elman haqqında xatirəmi uzaq, uzaq olduğu qədər də yaxın olan ötən əsrin 70-ci illərindən başlamaq istəyirəm. Sovet dövründən mənimlə Elman arasında olan bu yaxınlığın heç zaman unudulmayacaq başlanğıcı Smolensk vilayətinin Qaqarin şəhərində qoyulub. Hər şeydən əvvəl tarixə kiçik bir nəzər salmaq istəyirəm. Dünyanın ilk kosmonavtı Yuri Qaqarinin 1968-ci ildə faciəli vəfatından sonra anadan olduğu Qjatsk şəhərinin adı dəyişdirilərək onun şərəfinə Qaqarin şəhəri adlandırıldı. 1972-ci ildən başlayaraq Ümumittifaq Komsomolunun qərarına əsasən bu şəhərin tikintisinə bütün müttəfiq respublikalardan və qəhrəman şəhərlərdən tələbə inşaat dəstələri göndərilirdi.

1972-ci ildə Azərbaycanı o vaxt Politexnik İnstitutunu, 1974-cü ildən isə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu (indiki Neft Akademiyası) təmsil edirdi. Azərbaycan Komsomolu MK-nin qərarına əsasən respublikamızı təmsil edən tələbə-inşaat dəstəsinin təşkili və formalaşdırılması 1976-1979-cu illərdə mənə həvalə olunduğundan, elə Elmanla da 1978-ci ildə bu münasibətlə tanış oldum. O zaman Elman institutun "İstehsalat proseslərinin avtomatlaşdırılması" fakültəsinin 2-ci kursunda oxuyurdu. Bir neçə dəfə görüşüb söhbət etdikdən sonra fakültə

komsomol komitəsinin təqdimatı əsasında Elmanı Qaqarində respublikamızı təmsil edəcək 40 nəfərdən ibarət tələbə-tikinti dəstəsinin tərkibinə daxil etdim. Yay əmək semestri adlanan bu dövrdə (iyul-avqust ayları) tələbələr keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərində, eləcə də respublikamızın daxilində xalq təsərrüfatının müxtəlif sahələrində işləyir və əməkləri müqabilində zəhmət haqqı alırdılar. Qaqarin adına beynəlmiləl tələbə-inşaat dəstəsində isə tikinti quraşdırma işləri ilə yanaşı dəstələr arasında hər gün idman, mədəni kütləvi xarakterli müxtəlif tədbirlər həyata keçirilirdi. Hər həftənin sonunda dəstələrin fəaliyyəti mərkəzi qərargah tərəfindən qiymətləndirilirdi. Ayrı-ayrı respublikaları təmsil edən müxtəlif millətlərdən olan tələbələr öz xalqlarının mətbəx mədəniyyətindən tutmuş, folklor və etnoqrafiyasından irəli gələn yaxşı nə varsa nümayiş etdirməyə çalışırdılar.

Sözün yaxşı mənasında dəstələr arasında böyük rəqabət olurdu. Hər gün müxtəlif tədbirlərin hazırlanıb həyata keçirilməsi hamıdan böyük fədakarlıq, bilik, istedad və yüksək intizam tələb edirdi. Elman yaxşı tar çalması, rəsm qabiliyyəti, tapşırılan işlərə məsuliyyətlə yanaşması ilə başqalarından fərqlənirdi.

Əmək semestrinin sonunda Azərbaycan 25 dəstənin içərisində görülən işlərin nəticəsinə görə ikinci yeri tutdu. O zaman Elman Smolensk vilayəti, Qaqarin şəhər komsomol komitələrinin fəxri fərmanı ilə təltif olundu, “Ulduz şəhərciyinə” ekskursiyaya göndərildi. Bir sözlə, hamı kimi heç vaxt yaddan çıxmayan böyük təəssüratla Bakıya qayıtdı. Sonralar mən Ümumittifaq səviyyəsində bu işlərə rəhbərlik etmək üçün bir müddət Moskvada işləməli oldum. Elmanla bir də 80-ci illərin ortalarında Naxçıvanda rastlaşdım. Bu illər ərzində o, əvvəlcə Babək rayon komsomol komitəsində, sonralar isə həmin rayonda partiya işinə irəli çəkilmişdi. 1989-cu ilin may ayında mən Babək rayon partiya komitəsinə birinci katib seçildikdən sonra biz hər gün görüşürdük. Burada da Elman özünün prinsipial mövqeyi, düzgünlüyü, dərin savadı ilə başqalarından fərqlənirdi. O illər məlum olduğu kimi Dağlıq Qarabağla əlaqədar geniş xalq hərəkatı

vüsət almışdı. O, baş verən hadisələrə özünəməxsus şəkildə yanaşırdı. 1990-cı ilin yanvar hadisələri zamanı Elman mənə səmimi şəkildə bildirdi ki, partiya biletini atıb.

Şəxsi söhbətlərimiz zamanı mənə məlum olmuşdu ki, o yaxın zamanda daha perspektivli işə irəli çəkiləcəyini yaxşı bilir. Buna baxmayaraq o bu addımı atmışdı. Bir çoxları bir həftə sonra peşmançılıq keçirərək partiya sıralarına qayıtdı. Lakin Elman bunu etmədi. Mən onu yaxşı tanıdığımdan onun hisslərinə hörmətlə yanaşırdım və bilirdim ki, o yerdə ki, millətlə bağlı məsələlər ortaya çıxır, o heç bir partiya, hərəkat və hansısa birliyin fikrini yox, özünün şəxsi qənaətini əsas tutur. Bir sözlə, bu və ya digər prinsipial məsələlərdə öz şəxsiyyətinə söykənib qərar qəbul edən insan idi. Sonralar Muxtar respublikaya rəhbərlik edərkən onu qəbul etdim və birlikdə onun müvafiq işlə təmin olunması barədə ümumi qərara gəldik. Bu arada məlum avqust qiyamı baş verdi. Bu hadisələrdən sonra mən Bakı şəhərində fəaliyyət göstərdiyimdən bir müddət Elmanla görüşə bilmədim. Sonralar o da Bakıya köçdüyünə görə ara-sıra görüşürdük. Axır vaxtlar o mənim qonşuluğumda yaşadığına görə daha tez-tez görüşürdük. Elmanı həmişə qayğılı, bir qədər yorğun və harasa tələsən görürdüm. Deyirdi ki, son dövr fəaliyyətindən çox razıdır. İxtisasına, peşəsinə uyğun işlərlə məşğul idi. Böyük layihələr üzərində işləyirdi, bir sıra dövlət strukturlarından əlverişli sifarişlər almışdı. Oğluna təzəcə toy etmişdi. Sanki hər şey yavaş-yavaş yoluna düşürdü. Qəfil ölüm bütün bu işləri yarımçıq qoydu. İllərin prizmasından baxanda Elmanın şəxsiyyəti bütün çalarları ilə qarşımda durur. O vətənini, xalqını, dövlətini sevən bir insan idi. Azərbaycanın tarixini, ədəbiyyatını dərindən bilirdi. M.Araz şəxsiyyətinin və poeziyasının vurğunu idi. Nəsrəddin Tusi irsinə özünəməxsus fərqli baxış bucağından yanaşırdı. Heç kimdən eşitmədiyim bir sıra orijinal fikirləri var idi ki, qələmə alsaydı elm və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanardı. Bilmirəm, bəlkə də Onun arxivində bu barədə nələrsə var və varsa bunlar üzə çıxarılmalıdır. Elman içərisi dolu adam idi, çox heyfsilənirəm ki,

gündəlik qayğılar onun potensialının tam üzə çıxmasına, məqsədyönlü istiqamətə yönəlməsinə mane oldu. O gözəl insan, yaxşı dost, ailəsinə bağlı bir insan idi. Onun barəsində keçmiş zamanda danışmaq mənim üçün çətindir.

Yas mərasimi qurtarmışdı. Səhərisi gün xidmət sahəsinin işçiləri çadırı yığışdırırdılar. Hüznlə dayanıb onlara baxırdım. Bir cavan oğlan yaxınlaşıb salam verdi və bildirdi ki, Elmanın oğludur.

Yadıma Əbu Həmid Əl Qəzalinin "Sənin olan yalnız gəmi qəzaya uğrayanda itirə bilməyəcəyindir" fikri düşdü. Elmanın həyat gəmisi qəzaya uğrasa da, O bu dünyada sağlığında çox şeyi itirsə də, bizləri vaxtsız tərk etsə də, Onun da, bizim də itirə bilməyəcəyimiz övladları var və inanıram ki, onlar atalarına layiq övlad olacaq, vətənini və xalqını onun kimi sevəcək, onun həyata keçirə bilmədiyi işləri başa çatdıracaqlar.

***Əkbər Əliyev***

## *Acı xəbər*

Vətəndən çox-çox uzaqlarda olduğuma və tez-tez əlaqə saxlaya bilmədiyimə görə acı xəbəri bir az gec eşitdim. Bir anlığa quruyub qaldım, nə eşitdiyimə inandım, nə də deməyə bir söz tapdım. Öncə “Yox, ola bilməz!” - deyə ümidlənmək istədim, ancaq az sonra Əli bəy Şamillə danışanda o acı xəbərin doğruluğu ortaya çıxdı: artıq Elman bəy həyatda yox imiş, dünyasını dəyişib, Haqqın dərgahına qovuşubmuş...

Xatırladım ki, rəhmətlik qaynım Nail də on il öncə elə təxminən bu zaman – payızın girhagir vaxtında, sentyabrın 21-də maşın qəzası səbəbi ilə dünyasını dəyişmişdi... Özümü nə qədər ələ almaq istəsəm də, olmadı, doluxsundum, qəhər boğazımı göynətdi... Bir təhər özümə gəlib Fatihə oxudum, Ulu Tanrıdan Elman bəyə rəhmətlər, qalan yaxınlarına səbirlər dilədim. Sonra da yadıma düşdü ki, çoxdan, haradasa 15-20 il öncə bir gün Elman bəy əlimdəki Yunus İmrə “Divanı”nı alıb uzun-uzadı vərəqlədi, neçə-neçə şeirləri ürəyində oxudu, ancaq

Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun!
Bizim üçün xeyir-dua
Qılanlara salam olsun!

bəndini ucadan oxuyub dedi: “Nə qədər də dərin məna var bu sözlərdə...”

Elman bəyi haçandan tanıdığımı xatırlamıram. Naxçıvan kiçik şəhər olduğundan çox adam bir-birini tanıyırdı. Mən də Elman bəyi sadəcə üzdən tanıyırdım, hərdən qarşılaşanda salamlaşsaq da, İslam müəllimlə tanış olanadək Elmanla aramızda elə bir ciddi söhbət olmamışdı.

İslam müəllimlə 1970-ci illərin sonlarında tanış oldum. Mənim bir yazımı oxuyub maraqlanmış və özü demişkən, söhbət

etməyə ehtiyac duymuşdu. Hərdən iclaslarda, bəzən də yolda və ya çayçıda qarşılaşanda elmdən, dildən, ədəbiyyatdan, tarixdən söhbətlər edərdik. İslam müəllimin elmə, savada verdiyi dəyər, bir çox məsələlərdə tutduğu mövqe məndə ona qarşı dərin sayğı oyatmışdı. Söhbətlərimizin birində mənə aydın oldu ki, yaxından tanımadığım Elman bəy İslam müəllimin oğludur. Bundan sonra Elman bəylə də aramızda dostluq münasibətləri başladı və İslam müəllimdən daha çox Elmanla oturub-durduq.

İllər uzunu Elman bəylə görüşəndə, telefonda, ya da Skypeda danışanda elə bir yol olmadı ki, İslam müəllimi soruşmayım, ya da ona salam göndərməyim və Elman bəy də atasından mənə salam deməsin. Acı xəbəri eşidəndən sonra istər-istəməz ilk öncə İslam müəllimi düşünüb Tanrıdan ona səbirlər dilədim...

İslam müəllimlə yanaşı, Elman bəyin xanımını, övladlarını, qayınatası rəhmətlik Mahmud müəllimi də düşündüm, gedənlərə rəhmət, qalanlara səbir, dözüm, cansağlığı, uzun ömür arzuladım...

Elman bəyin xanımı tələbəm olmuşdu. Həmişə söhbətlərimizdə Elman bəy onu "Müəllimə" adlandırar, mən də sözümü bu deyimə uyğunlaşdırardım: Müəllimə necədir? Müəlliməyə salam de...

Elmanla birgə bir planımız vardı: İnternet TV açmaq və xaricdə yaşayan soydaşlarımız üçün bu İnternet TV-də bir "Distans Azərbaycan Məktəbi" təşkil etmək! Müəllimə də həmin məktəbdə "Azərbaycan Türkcəsi" dərslərini aparmalı idi. Düşünürdük ki, dərs planına uyğun olaraq Müəllimə bir-bir mövzuları danışıb, tapşırıqları verəcək, Elman bəy də bütün bu dərsləri videolaşdırıb səhifəyə qoyacaqdır...

Elman bəy sıradan bir kameraçı deyildi, film çəkməyi sevən, o işi yaxşı bacaran, çəkdiklərini, üzünü köçürdüyü lentləri, videoları sistemləşdirməkdə, arxivləşdirməkdə yüksək qabiliyyəti olan bir mütəxəssis idi. Başqa ixtisas sahibi olsa da, çəkiliş işinə ciddi önəm verir, əlindəki video materialların qorunmasına ayrıca qayğı göstərirdi. Ona görə də, mən bəzi dəyərli materialları Elman

bəyə verib xahiş etmişdim ki, üzlərini köçürsün və arxivləşdirsin. Elman bəy də təmənnasız olaraq bu işi görmüşdü, ancaq çox yazıqlar ki, vaxtsız əcəl həm Elman bəyin bu dünyadakı həyatını, həm də gördüyü dəyərli işləri yarımçıq qoydu...

Elman bəyin kimliyi ilə bağlı çox mətləblərdən danışmaq olar. Otuz ilə yaxın bir müddət ərzində gördüyüm, oturub-durduğum, dostluq elədiyim Elman bəy yalnız dəyərli bir insan, öz millətini, vətənini ürəkdən sevən üstün bir vətəndaş kimi xatırlana bilər. Ayrıca vurğulayım ki, Elman bəyi inanclı bir adam kimi tanıyırdım. Tam yəqinliklə deyə bilərəm: Elman bəy kimsənin yanında nümayiş etdirmədən illər uzunu oruc tutub, namaz qıldı, ancaq cahil fanatiklərdən olmadı.

Elman bəy nə qədər sərt görünsə və bəzən sərt davransa da, bilirdim ki, deyib-gülməyi, zarafatı çox xoşlayırdı.

Şahidəm ki, Elman bəy başqalarına təmənnasız yardım etməyə çox önəm verirdi...

Elman bəylə bağlı düşüncələr, xatirələr məni çox uzaqlara apardı. Onu düşünə-düşünə öz-özümə pıçıldadım: Ulu Tanrı öz rəhmətini səndən əsirgəməsin! Məzarın nurla dolsun! Ruhun şad olsun! Yerin behişt olsun!

***Arif Rəhimoğlu***

## *“Öyrəndim və öyrətməyə hazıram!”*

Haqqında yazdığım Elman Əliyev keçmiş zamanda xatırlanmağa layıq deyil. Sıradan sıravi vətəndaş da deyil. Bu şəxs, mütəfəkkir-ziyalı, müəllim, elmi dərəcəsi olmayan alim, ədəbiyyatşünas, dilçi-araşdırıcı, riyaziyyatçı, ilahiyyatçı, astronom, texnik, yaxşı ailə başçısı, əsl dost-sirdaş, sayğılı hörmətli ata, bir sözlə kamil insandır.

Bir çox hallarda bizə elə gəlir ki, Kamilliyin ölçü vahidi olmadığı üçün hər hansı bir insana kamil demək düzgün deyil və ya hər hansı bir şəxsin kamillik zirvəsinə çatması qeyri mümkündür. Lakin bunu Elman müəllimə şamil etmək olmaz.

Mənim onunla tanışlığımız olmamışdı. Yalnız sırf təsadüf nəticəsində və bu təsadüfdən doğan zərurətdən onunla dostları sayəsində tanışlığım baş tutdu. Neçə vaxtdır ki, onunla yanaşıyam, birlikdə düşünüb fikir mübadiləsi aparırıq və bu aura mənim o qədər xoşuma qəlib ki, onu tərk etmək istəmirəm. Bircə onu bilirəm ki, Elman müəllim haqqında yazmaq olduqca çətindir və bir o qədər də məsuliyyətlidir, çünki, o özü cismani aramızda olmasa da, ruhu bizimlədir. Hər şeyə nəzarət edir, göstəriş verir, özü haqqında yazdığımız fikirlərin, doğru-düzgünlüyünü istiqamətləndirir.

Mən onunla tanış olmamağımdan çox kədərlənirəm, hətta heyfsilənirəm, bu da səbəbsiz deyil. Axı mən onun yüz il əvvəli görəcək düşüncələrindən digər dostları kimi nur payımı ala bilməmişdim. Bu insanın kamillik dəryasından öz damlamı da götürə bilməmişdim. Təəssüf, min kərə təəssüf, bəlkə də, milyon...

Ruhu canlı insandan da faydalı Elman müəllimin balaca qeydiyyat dəftərini əlimə alıb vərəqləyəndə, elə ilk səhifədə ilk misrada, ilk hərifdə bütün varlığımı və düşüncəmi 10-15 il əvvəl bu qeyd dəftərinə yönəltdim, dəftərin ilk misraları belə başlayırdı:

“Nə?” – oxu! (Qur-an)
“Niyə?” – düşün!
“Nə səbəbə?” – öyrən və öyrət!

O bununla üç kəlmə sözlə bir insana gərək ola biləcək hər şeyi ifadə etməyə çalışmış, demək olar ki, buna nail olmuşdur.

Oxu deməklə o hər şeyin açarının elmdə olduğunu, inama bağlandığını ön plana çəkmişdir.

"Niyə?" - düşün! Deməklə insan düşündükcə daha böyük nailiyyətlər əldə edə biləcəyinə işarə edir, insan olan bəndələrə düşünməyi məsləhət görür.

"Nə səbəbə?" - öyrən və öyrət! Bu misrada isə Elman müəllim öyrənməyin nə qədər faydalı olduğunu önə çəkirsə öyrətməyin ondan da vacib olduğunu vurğulayır.

İlahi, bu balaca 15-20 vərəqli dəftərdə nələr var, nələr? Bəlkə də, bəşəriyyətə bu günə qədər məlum olmayan neçə-neçə kəşflər, bəlkə də, bəşəriyyətin "yaranış" açarının istiqaməti də burda göstərilmişdir.

Elman haqqında hal-hazırda oxuduğunuz bu kitab nəşrə hazırlanarkən, mənə də xoşbəxtlik nəsib oldu ki, nur, işıq, yaranış, ilahiyyat, bəşər kimi mühüm əhəmiyyətli məsələlərə qısa ömrünü həsr etmiş bu şəxsiyyət haqqında mən də yazım.

Mən də onun nurundan gec də olsa öz payımı alıb, onun ifadəsi ilə desək, *"öyrəndim və öyrətməyə hazıram."*

Elə düşünürəm ki, Elman müəllim (sözün əsil mənasında böyük həriflərlə yazılası müəllim) tərifdən çox-çox yüksəkdə bərqərar olan insandır (mən bunu indiki zamanda ona görə yazıram ki, o yaşayır, bizlərin-dostların qəlbində və əməlində. Deyə bilərik ki, hələ uzun illər yaşayacaq), o, yaşadığı zamana sığmayaraq, zamanı qabaqlamış və onu da geridə qoyaraq çox-çox irəliləmişdir.

Onun əlindəki qeyd dəftərində diqqətini çəkən başqa bir amil dinin elmi tərəfinə olan marağıdır. Daha doğrusu, Elman müəllim işlətdiyi hər ifadəsində, elmə istinad etmiş, elmi önə çəkməyə çalışmışdır. Dinin cəhalət üçün yox, inkişaf üçün yaranışına sübutlarla qane olmağa çalışmışdır, və bu ona əksər hallarda müyəssər olmuşdur.

Bütün bunlarla yanaşı o, həm də Tusi vurğunu, Məmməd Araz aşiqi kimi, dostları arasında şöhrət tapmış və öz daxili məhəbbətinin bu şəxslərə tükənməz olduğunu göstərmişdir.

Məhz bunun bariz nümunəsi onun son mənzilinin başdaşında da öz əksini tapmışdır "Dünya sənin, dünya mənim, dünya heç kimin..."

Elman müəllim həm də tarixi və dini baxımdan olduqca mühüm əhəmiyyət kəsb edən Əshabi-Kəhf haqqında elmi araşdırmaların aparılmasında, dini kitabların yazılmasında, teleradio verilişlərinin hazırlanmasında da özünəməxsus rol oynamışdır.

Yüksək intellekt sahibi, şəxsiyyət Elman müəllim, ssenarist, operator, məsləhətçi-rejissor, və texniki sahələrdə də bilik və bacarığını məharətlə sınaqdan keçirmişdir. Bu dəyərli insan, sözün əsl mənasında fəxri vətəndaş bunlarla kifayətlənməyərək, özünü kitabların tərtibatında, redaktə və koorrektəsində də bacarığını sınamış və bacarığının, fitri istedadını bu sahələrdə də göstərmişdi.

Elman müəllimlə yaxından tanış olduqca diqqətimi çəkən ən əsas cəhət - bu şəxsiyyətin təvazökarlığı özü də radikal təvazökarlıq belə ki, o hər yerdə bilik və bacarığını yoxlamış, dəyərli məsləhətlərinin vermiş, gecə-gündüz ideyalarını həyata keçirmək üçün yorulmadan çalışmış lakin həmişə proseslərin kənarında qalmağı xoşlamışdır. O özünün varlığını göstərməyi neçə deyələr özünü gözə soxmağı əməyinə müqavil, nəsə unmağı heç vaxt ağlına da gətirməmişdir, bəlkə də onun bu təvazökarlığı minlərlə ətrafındakı, insanların onu bu qədər ürəkdən sevməsinə səbəb oldu.

Doğrusu mən ilk öncə istədim ki, Elman müəllimin qeyd dəftərindən, xüsusi nəzərimi cəlb edib, diqqətimi çəkən bəzi qeydlərə münasibətimi bildirim, lakin qələmim və düşüncələrim başqa şeylər yazdı.

O hal hazırda haqq dünyasında təbii ki, cənnətdədir. Nədən mən bu qədər əminliklə onu cənnətdə olduğu vurğulayıram, çünki Elman müəllim kimi xeyir haqq insanlar haqq dünyasına qovuşduqda yalnız və yalnız cənnətdə məşkünlaşıllar.

***Məhərrəm Zaman***
***Yazıçı-publisist***



**Tariximizi deyən Gəmiqaya**






***Bəhruz Kəngərlinin Nuhun qəbrini əks etdirən altı rəsm əsərindən ikisi***



***Bəhruz Kəngərlininin Naxçıvan şəhərində Nuhun qəbri yaxınlığındakı məzarı***



**Gəmiqayadakı qayaüstü rəsmlərdən**





**Gəmiqayadakı qayaüstü rəsmlərdən**





**Gəmiqayadakı qayaüstü rəsmlərdən**





**Gəmiqayadakı qayaüstü rəsmlərdən**





**Gəmiqayadakı qayaüstü rəsmlərdən**





**Gəmiqayadakı qayaüstü rəsmlərdən**



***Elman Əliyevin alim dostlarından (soldan sağa)***
***A.Seyidov, A.Bağırov, Ə.Fərzəli***




***Elman uşaqlıq dostları ilə***




***Elman iş yoldaşları ilə***





***Elman dostları və həmkarları ilə***

## *Sənə görə sevərəm*

Cəlaləddin Rumi yaxın dostu Şəms Təbrizini itirir. Uzun müddətdən sonra bir nəfər Rumiyə Şəmsi gördüyünü deyir. O, ən bahalı kürkünü həmin şəxsə bağışlayır. Rumiyə deyirlər ki, həmin adam sizə yalan dedi, o, Şəmsi heç görməyib. Rumi cavab verir ki, mən bilirəm o, məni aldadır, ancaq dostum haqqında mənə məlumat verdiyi üçün mən onu mükafatlandırdım, əgər onun gəldiyini xəbər versəydi, mən canımı verərdim.

Bu misalı əziz dostum, qəlb sirdaşım, xatirəsi əbədi olaraq qəlbimizdə yaşayacaq Elmana da şamil etmək olar.

17 sentyabr…. Biləsuvarda toyda idim… Təxminən 16 radələrində telefonuma zəng gəldi… Söndürüb bayıra çıxdım… Zəng edən Hacı Cəfər idi. Şən əhvalı-ruhiyyə ilə təkrar nömrəni yığdım. O, harada olduğumu soruşdu. Biləsuvarda toydayam dedim. Hiss etdim ki, nə isə demir. Dedim ki, lazımamsa işimi yarımçıq qoyub gələ bilərəm. Yox, dedi - ancaq sənə bir bəd xəbər verəcəyəm…

- Nə olub ki? – deyə həyəcanla soruşdum.

- Elman Şamaxıdan gələrkən yolda rəhmətə gedib…

Daha sonra heç nə eşitmədim. Yavaşca yerə oturdum. Yaxşı ki adamlardan kənarda idim. Bir nəfər mənə yaxınlaşıb: - “Sizə nə isə olub?” – dedi. Bir az su istədim. Sonra dostlar gəldi. Mən istəmədim onları da narahat edəm: - “Dedim ki, təzyiqim var, başım fırlandı mən də yıxıldım. Özümü ələ alıb məclisə qayıtdım. Həmin günü qalmalıydıq. Mən xəstələndiyimi bəhanə edib Bakıya qayıtmağı təklif etdim. Onlar da mənimlə həmin gün Bakıya qayıtdılar.

Tez-tez Elman müəllimin sözləri yadıma düşürdü: **Ölüm hər kəsə vaxtında verilir: cavanlığından, qocalığından asılı olmayaraq.** Düşünəndə ki, əziz dostumu əbədi olaraq itirmişəm…

Elmandan bizə, xüsusi ilə mənə heç vaxt yaddan çıxmayan xoş xatirələr qaldı… Son bir neçə ildə elə gün olmazdı ki, biz görüşməyək, heç olmasa gündə bir dəfə zəngləşməyək. Mənim bir

çox filmlərimin ərsəyə gəlməsində onun böyük xidmətləri var. Bir gün mənə təklif etdi ki, **Əshabi-Kəhf** haqqında bir veriliş hazırla, məndə kifayət qədər material var. Bir az da zarafata salıb dedi ki, bəlkə bir az günahları yuyasan.

Onu da deyim ki, Elman müəllim olduqca optimist adam idi. Zarafatlaşmağı, lətifələr söyləməyi (ən çox da Nehrəm və nehrəmlilər haqqında) xoşlayardı. Dostların dediyinə görə məni çox istəyərdi. Və lətifələrin də ən çoxunu mənə aid eləyərdi.

Təxminən 2000-ci illərdə Yeni Müsavat qəzetində gedən bir qərəzli məqalə Nehrəmliləri bərk qəzəbləndirir, havaların soyuq olmasına baxmayaraq 30-40 nəfər təyyarə ilə Bakıya gəlib etiraz aksiyası keçirdilər. Sonra Nehrəm ziyalılarının iştirakı ilə mətbuat konfransı olur. Elə həmin vaxtlar Mən ANS-in nəzər nöqtəsində hadisə ilə bağlı çıxış etdim. Bütün bu hadisələri Elman müəllim nəinki, diqqətlə izləmiş, hətta video lentə də almışdı. Həmin vaxtlar mən ən böyük dəstəyi də məhz Elman müəllimdən alırdım.

Mən Nehrəm haqqında veriliş çəkmək istəyirdim. Lakin Ulu öndərimiz Heydər Əliyevin Nehrəm haqqında söylədiyi fikirləri demək olar ki, heç bir yerdən tapa bilmirdim. Neçə gün idi qanım qara idi, növbəti görüşümüzdə Elman mənə dedi ki, noolub əəə, Nehrəmli? Mən dedim ki, sənlik deyil, Qayıtdı ki, yalançının…Səbəbiini dedim. Xeyli güldü – dedi elə bu? Dedim bu azdı?

Dedi ki, 2 saatdan sonra o materialı sənə verəcəyəm. Əvvəlcə inanmadım, düz iki saatdan sonra O, videodiski mənə verdi. Mən də sevindiyimdən onun lopa bığlarından öpdüm…Və Nehrəm haqqında üç film hazırladım…

Daha sonra Nuhun qəbrinin Naxçıvanda tapılması ilə bağlı mənə çoxlu sayda materiallar təqdim elədi və zarafatla dedi ki, kişisən bunları da yarat. (Xüsusi olaraq qeyd edim ki bir çox materialların əldə olunmasında Elmanla bərabər tarix elmləri doktoru Abbas Seyidovun, Hacı Salmanın və Mirələkbər müəllimin xidmətləri var. Onları danmaq insafsızlıq olar. Onlara da bir dost kimi təşəkkür edirəm)

Həzrəti Nuh haqqında film İctimai televiziyada gedəndən sonra Elman müəllim həmin dostlarla birlikdə həmin filmin MEA-da müzakirəsini təşkil etdilər, sonra çox hörmətli Vasif Talıbovun sərəncamı ilə Naxçıvanda Nuhun möhtəşəm məqbərəsi inşa edildi.

Elman müəllim hərtərəfli biliyə malik bir insan idi - ədəbiyyatı ədəbiyyatçılardan yaxşı bilirdi. Ən çox sevdiyi şair Məmməd Araz idi. Hətta O, poeziyadan tamamilə uzaq olan insanları inandıra bilirdi ki, Məmməd Araz dahi şairdir. Mirzə Cəlili sevməzdi, mübahisəmiz də elə bunun üstündə olardı. Axırda mən hirslənərdim ki, sən mənim babamı necə sevməyə bilərsən?

O da gülə-gülə "sənə görə sevərəm" - deyərdi.

Son vaxtlar işləri yaxşı gedirdi. Mənə deyərdi ki, Kamil, darıxma hər şey yaxşı olacaq (söhbət bir neçə arzumuzun reallaşmasından gedirdi). Bir neçə dəfə biz başqa dostlarla yeyib içmək istəyəndə Şəmistan bəy deyirdi ki, heç narahat olmayın, bu dəqiqə Elmana zəng edəcəyəm. Elman da gəlib bizim hesabı ödəyərdi. Hətta biz onu hesab verməyə çağırmayanda möhkəm inciyərdi və tez-tez işlətdiyi "adam kişi olar əəə" deyərdi.

Elman müəllim həm də çox narahat adam idi. Övladına toy eləməyə hazırlaşırdı. Toy ssenarisini bərabər hazırlayırdıq. Bir gün möhkəm əsəbiləşdi və məni söyməyə başladı. Müşfiq müəllim də yanımızda idi. Mən bir anlığa heç nə demədim. Sonra üzümü Müşfiqə tutub məlum lətifədəki kimi dedim:

- Sizin nə yaman zarafatınız var?

Bu zaman Elmandan bir dəhşətli gülüş qopdu ki, sanki ürəyi gedəcəkmiş. Sonra yenə məşhur ifadəsini işlətdi**: "Nə əclaf adamsan əəə."**

Toy yüksək səviyyədə keçdi. Biz dostlar yaxşı iştirak elədik. Toydan 2 gün sonra mənə zəng etdi ki, bütün işlərini təxirə sal, dostlara da xəbər elə, sizinlə yeyib içmək istəyirəm. Elə biz də himə bənd idik. Elman gəlib çıxdı. Əhvalı çox yüksək idi. Üzü də gülürdü. Birdən gözləmədiyimiz halda mənə də süzün – dedi. Gözlərimizə inanmadıq. O heç vaxt içməmişdi.

- Dostlar, mən hamınıza minnətdaram. Toyda ürəklə iştirak etdiniz. Mən bu badəni siz dostların şərəfinə qaldırıram. Allah sizi mənə çox görməsin - dedi.

Allah onu bizə çox gördü……

Allah ona rəhmət eləsin, Ruhu şad olsun.

Daha heç nə demirəm…..

***Kamil Məhərrəmoğlu***

## *Elmanın unudulmaz xatirəsinə*

Həyatım boyu rast gəldiyim nadir insanlardan biri idi... Heç kimə bənzəməzdi, həyatda Elman müəllim. Geniş mütaliəsi olduğundan hadisələrə öz baxışı və münasibəti ilə seçilərdi. Olduqca sadə və səmimi idi. "Namusu nəfsindən yuxarı" olan kişilərdən idi. Mərd və sədaqətli idi eyni zamanda...

Sözü üzə şax deyərdi, heç nədən çəkinməzdi. Elə bu xasiyyətinə görə də, bəzən onu "Mirzə Səfər"ə bənzədirdim.

Gözəl yumor hissi olduğundan "Molla Nəsrəddin"dən misal çəkməyi xoşlayardı. Dostumuz Kamil Nehrəmli ilə zarafat etməkdən ləzzət alardı... Zahirən sakit görünsə də, içində bir təlatüm qaynayardı həmişə...

Sufiliyə dərindən bələd olduğundan idi ki, özü də ruhən sufi könüllü adam idi. Namaz qılardı, amma öz dilimizdə. Mövlanəni çox sevərdi Elman müəllim...

Mən ona "Xoca" deyə müraciət edərdim. O, əsl məfkurə adamı olaraq ucalıq zirvəsində dayanan bir şəxsiyyət idi...

Gözəl və mükəmməl qələmi olsa da az-az yazardı...

Həssas adam olduğu üçün əsəbi olardı... Həmişə narahat görünərdi, özünə sanki yer tapa bilmirdi...

Mənəviyyat axtarışında olan yol yolçusu idi Elman müəllim...

Hayıf ondan...

Millətimiz onun timsalında işıqlı və halal kişilərdən birini də itirdi.

Ruhun şad olsun, dostum!

***Şəmistan Əlizamanlı***

## *Xalqını sevən insan itkisi*

Səninlə biz bir neçə il bundan qabaq tanışmışdıq. Bu il heyfsilənirdik ki, niyə səninlə görüşə bilmədik. Nə biləydik! Demək taleyində ayrılmaq varmış. Nə də tez ayrıldın aramızdan, ay kişi! Sən enerji dolu idin. Səndə olan o enerjiyə, çalışqanlığa, valeh idik.

Bizim tanıdığımız Elman bəy, vaxtını çox yaxşı dəyərləndirməsini bilən, işini yaxşı və diqqətlə edən, nizam-intizama önəm verən, texniki işlərə böyük həvəsi olan və gəzməyi sevən bir insandı. Adam demirik: o, deyirdi ki: “adam olmaq başqa, insan olmaq başqa şeydir.”

Elman bəy, eyni zamanda, xalqını sevən və onun ülvi dəyərlərinə bağlı qalan, sağlam bir Türk Milliyyətçisi idi. Kitab oxumağı sevərdi və bəyəndiklərini də dostlarına tövsiyə edərdi.

Azərbaycan milli azadlıq hərəkatı ilə bağlı video arxivləri çox dəyərlidir. Ümid edirik ki, bu zəngin arxiv, Azərbaycanımızın milli siyasi tarixinə işıq tutması baxımından maksimum bir şəkildə dəyərləndirilər. Tanrıdan ona rəhmət və qalan ailə və dostlarına başsağlığı diləyirik. Allah rəhmət eləsin!

***Sayğılarla,***
***Məhəmməd Yenisey, Gülarə Yenisey***
***02.10.2011***

## *Yaxşıların dünyasında qalan adam*

Ölüm hamı üçündür. Buna görə də "ölüm haqdır", yəni ədalətlidir deyirik. Vaxtsız ölümü necə haqlı sayasan? Kimsə yaşamaqdan usanıb. Kiminsə yaşamaqda elə bir qəsdi yoxdur, yəni ömrü boş-boşuna keçir. Kiminsə də bir günü beş günə bərabərdir, 100 il, 200 il yaşasa da görəcəyi işlər qurtarmaz. Dəyərli insanların ömrü qəfildən, yarımçıq kəsiləndə, istər-istəməz belə düşüncələrin məngənəsinə düşürük, odsuz-ocaqsız yanıb-qovuruluruq.

Çağdaş Azərbaycanın ən zəkalı, ən qeyrətli, ən cəfakeş oğullarından biri olduğunu çoxdan ortaya qoymuş Elman Əliyevin nəcib, arzularla dolu, Azərbaycanın, türk dünyasının, insanlığın xoş günləri üçün təşnə qəlbinin qəfil susması ölkəmizdə Xeyrin Şərlə mübarizəsində ağrılı bir itkidir. Öz varlığında uca ideallar daşıyan, özünü bu ideallarin sıravi əsgəri saysa da, generalı qədər önəm daşıyan bu mübariz, zəkalı türk oğlu arzu və amallarını silahdaşlarına əmanət qoyub nurlu bir obraza çevrildi, cismini əbədiyyətə aparmaqla ölməz ruhunu xatirələrimizə köçürdü.

Nə yaxşı ki, yaxşılar getsə də onların yolu, məramı yeni-yeni yaxşıları yetirir, insanlığı irəli aparan bu mübarizə bitmir. Elmanın yoxluğu özündən də böyük boşluq yaradıb. Onun yeri hər gün sakitcə özünü yetirdiyi, başını aşağı salıb yoluna qoyduğu hər işdə, hər müşküldə açıqca görünür. Dəryada kiçik bir cisim batanda onun yaratdığı dalğalıq dərhal itir. İri obyektlər isə özündən sonra suyun üzündə dərin və böyük boşluq qoyur, dalğalar ləngərə gəlir. Əməli, fəaliyyəti ilə iri boşluqları dolduran Elmanın həyat dəryasında batması da belə bir təlatüm yaratdı.

Mən Şərlə mübarizəsini qələmlə aparan bir söz döyüşçüsü olaraq, Elmanla ilk dəfə görüşəndə elə bir məlhəmlik, doğmalıq duymuşdum ki, sanki, uzun illər bir yerdə olmuş, eyni duyğu-düşüncələrlə yaşamışdıq. Biz Məmməd Araz sevgisi ilə tanış olmuş, Azərbaycan və Türk dünyası eşqi ilə tənləşmiş, könül

ortaqlığına çatmışdıq. Elmanın tükənməz enerjisi, sonsuz səbri, dərin zəkası ən çətin məsələni də yoluna qoymağa imkan verirdi. O, bir addımlığımızdan başlayaraq dünyanı dolaşıb-bulaşıb yenidən üstümüzə qayıdan Şərlə mübarizədə böyüklü-kiçikli hər məsələyə əl yetirməyə macal və imkan tapmağı bacaran nadir insanlardan idi.

Elman qardaşımız üçün Haqq işi yolunda çarpışmaq nəyəsə çatmaqda vasitə deyildi, həyati tələbat, bir dəfə yaşanan ömürdən də qiymətli dəyər, məqsəd idi. Elman hər şeyin gəldi-gedər, Vətənin və xalqın isə bizim üçün doğma, gərəkli olanları bu günədək qoruyub saxlamış və sonsuzluğadək yaşadacaq maddi və mənəvi bir tutum olduğunu bütün gerçəkliyi ilə anlamışdı. Elman yaxşı bilirdi ki, hər şey insanı qula çevirir, yurd sevgisi, insanlığa ehtiram isə azadlığa qovuşdurur. O bu düşüncəsi və qənaəti ilə öz şəxsi azadlığını çoxdan qazanmış, kiməsə, nəyəsə qul olan soydaşlarının da bu ali nemətə çatmasına çalışanlardan idi.

Bir çox azadlıq aşiqindən fərqli olaraq Elman öz mübarizəsində kiminsə udub, kiminsə uduzması barədə düşünmək belə istəmirdi. Axı uduzan sənin soydaşındırsa bundan Vətən bir şey qazanmır. Birindən alıb o birinə verməklə nəsə artmır, dartışma bitmir. Elmanın istədiyi o idi ki, halallıq və nizam olsun. O yaxşı bilirdi ki, bu hədəf zaman-zaman insanlığa şərəf gətirən ali şəxsiyyətlərin başlıca istəyi, dadlı xəyalı olub. Nə yaxşı ki, bu istək və xəyal zaman keçdikcə də Şərqin zər-ziba libasını soyundurub, Haqqın işığını artırmaqla, zülmətin çevrəsini daraldıb.

İnsanlığı azad və ucada görmək istəyən bir ideya nəhənginin məzarı başında onun ən yaxşı silahdaşı təxminən belə demişdi: "Adı Şərqdən Qərbə yayılmış bu mərhumun dünyanın hər yerində çoxlu əleyhdarı var idi, fəqət bir nəfər də şəxsi düşməni yox idi". Elman bütün Azərbaycan tanımasa belə, çiyin verdiyi yük Vətənin özü boyda idi. Onun çiyindaşları bütün Azərbaycanı əhatə etdiyindən Elman yoxluğu Vətən yükü altında kiçik, fəqət çox qiymətli bir çiyin boşluğu yaratdı. Elmanın duyğu və düşüncələri,

istək və əməlləri dostlarının, silahdaşlarının varlığına yayılmaqla, bu boşluğu dolduracaq.

Elman məmləkətimizdə zaman-zaman gurlaşan İşığa öz nurunu qatmaqla, Zülməti də özü boyda əridib getdi. Əbədi olan işığı qaldı: ürəklərdə və diləklərdə, hər yerdə və hər şeydə. Elman özü də inanmışdı ki, İşıq yox olan deyil Zülmətsə ötəri və bitəndir. Elman qəti əmin idi ki, Vətən özü boyda İşıqdır. Zülmət isə onun ayaqlarında sürünən kölgədir.

İşığa dönmüş ruhun Vətənin başı üstündə dinclik tapsın, qardaşım!

***Tahir AYDINOĞLU***
***"Xalq qəzeti"***




## *Salam, əməlisaleh dost!*

**Kəbə evinə baxmaq ibadətdəndir.**
**( hədisi-şərif)**

**Bismilləhir-rahmənir rahim!**

*Cümə günün mübarək, hər cümə günü zəngləşərdik, ... Başımız elə qarışmışdır ki, dünya işlərinə ölümü az-az düşünərdik. Axirət azuqəsi tədarük etməli olduğumuzu unudardıq. Ölüm haqdır. Ölüm şərbətini hamı içəcək, kimi tez kimi gec. Qəbr evinin ilk gününün imtahanı da çox şiddətlidir. Buna hazırlıqsız yaxalanmaqdan Allah bizi qorusun.*

*Lövhu-məhfuzda hər birimizin aqibəti yazılıb, ölüm saatı əvvəlcədən müəyyən edilib, vaxt yetişəndə nə bir saat ertələnər nə də bir saat geri çəkilər. Sən önə keçdin. Orta məktəbdə də, institut*

*illərində də, həyatda da sən həmişə öndə oldun.* ***"Və öndə olanlar, Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, axirətdə də) öndədirlər! (Nə xoşbəxtdir öndə olanlar!)" ( Vaqiə-10 )*** *Xoş halına öndə olanların. Kaş qiyamət günü də öndə olanların, heç olmazsa* ***"Sağ tərəf sahiblərinin (Vaqiə-27)*** *sırasında olaq, Allah bunu bizə nəsib etsin.* ***"O kəslər ki, başlarına bir müsübət gəldiyi zaman: " İnnə lilləhi və innə iləyhi raciun". "Biz Allahınıq və ona tərəf qayıdacağıq" deyirlər. Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət (cənnət) gözləyir. Onlar doğru yolda olanlardır." (Bəqərə - 156-157)*** *Bunu dərk edənlərin xoş halına.*

*Sueyb (ə) peyğəmbər niyə ağlayırdı? Nə cəhənnəm atəşindən qorxub ağlayırdı, nə də behiştə şövqdən ağlayırdı. Qəlbində yer alan Allaha olan məhəbbətindən ona qovuşmaq sevdası ilə ağlayırdı Sueyb (ə) (Hədisi-Qütsi-39) Nə gözəl örnəkdir...*

*Elman, indi sən haqq dünyasındasan, əvvəlkilər də orda, biz də ora gələcəyik, sonrakılar da ora gələcək. Dünya fanidir.* ***"Həqiqətən, mallarınız və övladlarınız bir fitnədir (imtahandır). ( ət-Təğabun-15.)****Yəni bu dünyanın zinətindən başqa bir şey olmayan var-dövlətlə, oğul-uşaqla sınanırsınız, imtahan olunursunuz. Allah onları sizə verəcəkdir ki, şükrünüzü geri alacaqdır ki, səbrinizi yoxlasın.*

***Hörmətli İslam müəllim!*** *Üzümü sizə tutub dərin hüznlə baş sağlığı verib Allahdan sizə səbr diləyirəm. Övlad sınağı nəbilərdən, rəsullardan (hamısına salam olsun) da yan keçməmişdir. İslam Peyğəmbərimiz Hz. Muhammədin (salləllahu əleyhi və səlləm) iki oğlu Hz.Qasım və Hz. Abdulla peyğəmbərlikdən əvvəl dünyasını dəyişmiş, üçüncü –sonuncu oğlu Hz.İbrahim isə peyğəmbərlik veriləndən sonra, Rəsulullahın (salləllahu əleyhi və səlləm) ömrünün son illərində öz mübarək qolları üstündə can vermişdir. Bu zaman 62 yaşında olan atanın mübarək dodaqlarından yalnız bu kəlmələr tökülmüşdür: "Oğlum, bu iş bir əmri-İlahi olmasaydı, vədə tamamlanmasaydı sonra*

*gələnlər əvvəl gələnlərlə qovuşmağa məhkum olunmasaydı, sənin ölümünə daha çox məhzun olardıq. Göz yaşarır, qəlb məhzun olur, ya-İbrahim! Allahın rzasına uyğun olandan başqa bir söz söyləyə bilmərik".*

***Hədis:** "Bir dəfə Hz.Peyğəmbər (salləllahu əleyhi və səlləm) buyurdu: Hər kim yetkinlik çağına çatmayan üç çoçuğunu özündən əvvəl (Axirətə) yola salarsa, o çocuqlar Cəhənnəmə qarşı onu qoruyan bir qala olurlar." Əshabdan Əbu Dərda (radiyallahu ənh) soruşdu: "İkisini göndərən?" Rəsulullah (salləllahu əleyhi və səlləm) "İkisi də elə" buyurdu. Bu zaman Übey ibn Kəb (radiyallahu ənh) "Bəs bir çocuğunu göndərən?" deyə soruşdu. Rəsulullah (salləllahu əleyhi və səlləm) cavabında buyurdu: "Bir çocuğu göndərən də elə. Ancaq ölümün ilk anında səbr etmək şərti ilə." ("Nəfsimə nəsihət" Altay Cəmil ) Ey Elman dostları gəlin bu imtahandan səbrlə çıxaq.*

***Allahın dərgahında olan bir gün, sizin yer üzərində hesabladığınızın min ilinə bərabərdir. (Həcc – 47)** Yəni 70-80 il orta insan ömrü oranın bir saatı eləmir. Dünya bir pəncərədir hər gələn baxar gedər, deyib atalarımız. Peyğəmbərlərimizdən uzun ömürlüsü 950 il yaşamış,(Ənkabut-14) Nuh əleyhisalamın cənabi Cəbrayilin dünyanı necə gördün? sualına : "dünyanı iki qapılı ev kimi gördüm,  birindən girib o birindən çıxdıq" cavabı düşündürücü deyilmi?!!*

*Hamımız haqqa qovuşacağıq, bunu Allahdan diləməliyik. Burda alim qardaşımızın Altay Cəmilin bir mənzuməsi ürəyimizdən keçənləri gözəl ifadə edib deyə oxucuların diqqətinə çatdırmaq istərdim.*

## G Ö T Ü R S Ü N

**"Yalnız Allah istəsə siz doğru yola gəlməyi istəyə bilərsiniz. Allah Alimdir, Həkimdir ".**

*(əl-İnsan, 30 )*

**"Ey Rəbbimiz! Nurumuzu tamama yetir!"**

*(əl-Təhrim, 8)*

Hanı bir mürşidi-kamil qulu Sultanə götürsün.
Könlüm quş, köksüm qəfəs, alsın gülüstanə götürsün.

Ayırıb qəlbi qəlibdən fəqirə lütfdə bulunsun
Cismimi dərdə salıb canımı dərmanə götürsün

Dağılıb iç aləmim, hər şey dəyib bir-birinə
Səhv düşüb dünyalarım, varsın da səhmanə götürsün.

Heç nə verməz bizə zövq, kimsə bizi şad eləməz
O yolun yolçuları getdi, o karvanə götürsün.

Kainat bir bağça-bağ, şübhəsiz bir Bağbanı var
Söyləyin arzumu bağ istəməm, Bağbana götürsün.

Kim görür qəddimizi, abidələrdən sanır bizi
Görənlər etmiş xəta, bu koru ehsanə götürsün.

Nə gözəl sünnədi ki, qurbansız olmur xeyir iş
Bəslənib toğlu kimi nəfsimi qurbanə götürsün

Bir məqam ummadayıq ayıq başla yetişmək zor
Əhli-hal qılsın bizi mənzilə məstanə götürsün

Alsın məndən məni Ondan Onadır onsuzda yol
Rəhmi vardırsa bizə Rəhim və Rəhmanə götürsün

---

1 "Ehsan-Allahı görürmüş kimi ona ibadət etməkdir , çünki sən onu görməsən də O səni görür" hədisi-şərifinə işarə edilir.

*Elmanın könül quşu qəfəsdən uçub gülüstandadır, inşallah!*

*Elman, heç nə bizə zövq vermir, kimsə şad edə bilmir bizi, o yolun yolçuları getdi, o karvanə necə yetişə bilərik, behişt gənclərinin sərvəri İmam Hüseynin getdiyi karvanə, Əsabi-Kəhfin, Təmlixanın dəstəsinə necə çata bilərik, Nuhun gəmisinə necə minə bilərik ki, qurtulanlardan, nicat tapanlardan olaq. Gəlin birlikdə bunu ciddi-ciddi düşünək...*

***Hacı Salman ( Samik )***
***Cümə günü***

## *AĞIL VURĞUNU ELMANIN “AĞILLI EV” TİKMƏK ARZUSU*

Dostluq bəzən bir anda, bəzən də illərlə sürən yaxınlığın alışqanlığa çevrilməsindən başlayır. Bir anda başlayan dostluğu ortaq məqsəd, fikir, əməl daha da birləşdirir. Əgər xasiyyətin və sözün tutursa, onda bu dostluq ilahi tellərlə bağlanır. Elmanla mənim dostluğum da bu cür təməllər üzərində qurulmuşdur. Zaman irəlilədikcə dostluğumuz möhkəmlənmiş, o, mənim dərdləşə bildiyim, özümü yanında rahatlıqla ifadə edə bildiyim bir insan olmuşdu. Elmanın dostluğu həyatımda o qədər dərin bir yer almışdı ki, yoxluğu ilə böyük bir boşluq və “tək qala bilmək” qorxusu yaratmışdı.

Mən Elman bəyi atası İslam müəllimə görə deyil, özünə görə tanımışdım. İslam müəllim Naxçıvanın seçilən pedaqoqlarından biri olmaqla yanaşı, həm də rəssamlıq edirdi. Sərgisi də təşkil edilmişdi. Qəzetdə işlədiyimdən Naxçıvan Muxtar Respublikasında baş verənlərdən xəbərdar olur, toplantılarda, sərgilərin açılışlarında iştirak edirdim. Həm də seçilən və vətənpərvər insanlarla tez ünsiyyət qururdum. XX yüzilin başlanğıcında bölgədə qaçaqlıq etmiş Süleymanla bağlı material toplayanda da İslam müəllim mənə yardımçı olmuşdu. O, Qaçaq Süleymanın doğulduğu və yaşadığı Dərələyəzin Qaraqaya kəndindən, özünün də ata-babasının o yerlərdən olduğundan xeyli söhbət açmışdı.

Elmanla komsomolda işləyəndə görüşmüşdük. Texniki sahənin mütəxəssisi olsa da, ictimai-siyasi hadisələrə ayıq baxışı ilə diqqətimi cəlb etmişdi. Həmin illərdə komsomolda işləyənlərin çoxu “Bəli!”, “Baş üstə!” deməyə üstünlük verirdilər. Özündən vəzifəcə böyüklərin qarşısında o qədər müticəsinə davranırdılar ki, gəl görəsən. Hər sözlərini tərifləyər, rəhbər partiya-sovet işçilərinin qəzetlərdəki yazılarını, radio və televiziyadakı çıxışlarını az qala Quran ayəsindən üstün tutardılar. Vəzifədən

çıxanları isə arxalarınca kəskin tənqid edərdilər. Belə-belə gələcəkdə rəhbər partiya işçisi olmağa hazırlaşardılar.

Elə ilk söhbətlərdən Elmanın onlarla uzun müddət yol gedə bilməyəcəyini gördüm. O, ya fikrini sərbəst – özünün qəbul etdiyi, başa düşdüyü kimi deyir, yaxud da susmağa üstünlük verirdi. Bəzən açıq-aydın hiss edirdim ki, özlərini “daha təcrübəli”, “partiya işinə hazır” sayanlar ona him-cimlə sərbəst danışmamağı işarə edirdilər.

Onunla cəmiyyətdəki əyintilər və bu əyintilərin düzəldilməsi əvəzinə ört-basdır edilməsinin hansı fəsadlar törədə biləcəyi, hansı faciələrə yol açacağı haqqında söhbətlər edirdik. Hər ikimizi baxışları bir məsələdə eyniləşirdi. İstər ailədə, istər kollektivdə, istər cəmiyyətdə nöqsanlar, çatışmazlıqlar gizlədilərsə bu nə vaxtsa, haradasa partlaq verəcək, aradan qaldırılması da mümkün olmayacaq.

İşgüzarlığına və ixtisasına görə Elman Əliyevi rayon partiya komitəsində işə götürdülər. O dövrdə çoxları partiya işinə can atır, oradakı çətinliklərə səbirlə dözürdülər ki, gələcəkdə daha yüksək vəzifələrə gedə bilsinlər. Lakin onun partiya işindəki karyerası uzun sürmədi. Sərbəst fikirliliyinə, düşündüklərini açıq dediyinə, xüsusən də milli məsələdə güzəştə getmədiyinə görə partiya işindən uzaqlaşıb ixtisası üzrə işə keçdi.

Həmin illərdə Naxçıvan Televiziya və Radio Verilişlər Komitəsi ilə sıx əməkdaşlıq edir, onlara verilişlər yazırdım. Komitə şəhərin mərkəzində olduğunda, həyətindəki çayxana yaşıllıq içərisində yerləşdiyinə görə oraya gələnlərin sayı çox olurdu. Peşə yoldaşlarımızla, dostlarımızla televiziyanın çayxanasına yığışır müxtəlif mövzularda söhbətlər edirdik. Elmanda televiziyanın mühəndis-texnik heyətinin üzvü olduğuna görə vaxt tapanda çayxanaya gəlir və jurnalistlərin söhbətlərində, müzakirələrində iştirak edərdi.

Onunla daha yaxından tanışlığımız da çayxanadan başladı. Burada Elman fikir və düşüncələrini daha sərbəst ifadə edirdi. Onun millətini necə ürəkdən sevdiyini də orada gördüm. İslam

müəllimin oğlu olduğunu da həmin vaxt bildim. O, atası, nəsli və nəcabəti ilə qürur duyurdu. Amma, heç vaxt yeri gəldi-gəlmədi onlardan istifadə etməyə, nəslinin, ata-babasının şöhrətindən yararlanmağa çalışmırdı. Özünə inamı olduqca güclü idi. Hər şeyə öz gücü ilə nail olmağa çalışırdı.

Xalq Cəbhəsi yarandıqda Elmanla söhbətlərimiz çox gərgin keçirdi. O, cəbhənin ideyalarını qəbul edirdi, lakin təşkilata üzv yazılmaq istəmirdi. Təşkilatın fəallarının əksəriyyətini yaxşı tanıyırdı. Oradakı bəzi fəalların bəsit dünyagörüşünə, savadsızlıqlarına, çılğınlıqlarına dözə bilmirdi. Bərk əsəbiləşir və onların bizləri uçuruma aparacaqlarını söyləyirdi. Mən ona təklif edəndə ki, sizin kimi savadlı, dünyagörüşlü, vətənsevərlər gəlsinlər və təşkilatı sağlamlaşdırsınlar. O, əsəbiliklə təşkilatın üzvlərinin bəzilərinin adını çəkərək: “Onları sözlə deyil, heç kötəklə də başa salmaq olmaz” deyirdi. Mənə qəribə gəlirdi ki, qarışqanı da tapdalamağa qıymayan, islami dəyərlərə olduqca önəm verən Elman vətən və millət məsələsindən söz düşəndə necə çılğınlaşır, döyməkdən, cəzalandırmaqdan danışır. Onun bir devizi vardı: “Ağılsız dostdansa ağıllı düşmən yaxşıdır!”

Elman bəy, Əbülfəz Elçibəylə, Arif Rəhimovla, xalq cəbhəsinin bir çox öncülləri ilə də ünsiyyətdə olmağı, onlarla söhbətləşməyi, fikir mübadiləsi etməyi sevirdi. Amma, təşkilata üzv yazılmaq, təşkilatda hansısa bir rəsmi vəzifə daşımaq istəmirdi.

Mən 1993-cü il hadisələrindən sonra Bakıya köçməli oldum. Bir ara Elmanla əlaqəm tamam kəsildi. Bütöv Azərbaycan Birliyi yaranandan sonra Elmanla daha tez-tez görüşməli olduq. İnternet yeni-yeni respublikamıza ayaq açanda onu ilk öyrənən və öyrədənlərdən biri də Elman oldu. Pulsuz-parasız, təmənnasız və səbirlə tanışlarının, dostlarının hamısına internetdən istifadə etməyi öyrətmək istəyirdi.

İnternetdə “Paltak” deyilən bir otaq yaradılmışdı. Xaricdən gələn soydaşlarımız bu texniki vasitədən istifadə etməklə dünyanın müxtəlif guşələrində yaşayanların fikir mübadiləsinə

şərait yaratmağın, söhbət etməyin mümkünlüyündən söz açırdılar. Biz isə ondan yararlana bilmirdik. Həmin vaxt Elman İslam oğlu dadımıza çatdı. Bütöv Azərbaycan Birliyinin Bakı şəhərinin yeddinci mikrorayonunda yerləşən otaqlarında internet qurdu. İnterneti "Paltak" otağına qoşdu. Bizim "Paltak" otağı vasitəsilə dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızla əlaqəmizə şərait yarandı. Bu söhbətlər nəticədə DAK yaratdı.

Həmin vaxtlar çoxlarının hakimiyyət orqanlarının təqibindən qorxaraq Bütöv Azərbaycan Birliyinə yaxın gəlmədiyi, "Paltak"ın adını çəkməyə cəsarət etmədikləri halda Elman cəsarətlə onu idarə edir, BAB-ın toplantılarının elektron arxivini yaradırdı ki, gələcək nəsillərə qalsın. Qəribəsi burası idi ki, xalq hərəkatından tanıdığım insanların bəziləri xəbərdarlıq edir, ondan uzaq gəzməyi məsləhət görürdülər. "Nədən Elmandan uzaq olmalıyam?" sualını verdikdə çox bəsit bir cavab alırdım. "O, ki bu qədər işləri görür, nədən onu tutmurlar? Deməк, arxasında hökumətin xüsusi xidmət orqanları var! Onun vasitəsi ilə bizi tanımağa, nə iş gördüyümüzü bilməyə çalışırlar." Belələrinə ürək ağrısı ilə deyirdim: "Elmanın gördüyü işlərin onda birini sən də gör. Onda gedib hansı xüsusi xidmət orqanında işləyirsən də səninlə bir cəbhədə olacam. Mən vətən və millət üçün heç bir iş görməyib, hamıya səksəkə ilə yanaşa, vasvasılara yoldaşlıq edə bilmərəm!" Elman özü də bu dedi-qoduları eşidir və onlara heç bir əhəmiyyət vermədən başını aşağı salıb işini görürdü. Elələrindən söz düşəndə də bir ifadə işlədərdi: "Onlara yazığım gəlir. İçlərindəki şəkkaklıq, vəsvəsə onları bir iş görməyə qoymadığı kimi ailələrində də bədbəxtliyə yol açır. Yazıq onların arvadlarının halına!"

Avropa və Amerika ilə Azərbaycanın arasındakı zaman qurşağına görə "Paltak" otağında söhbət və müzakirələrə saat 24.00 da başlayırdıq. Bu Avropada yaşayan soydaşlarımız üçün münasib olsa da, ABŞ-da və Kanadada yaşayanlar üçün o qədər də münasib deyildi. Bütün bunlara baxmayaraq onlar da söhbətlərimizə qatılırdılar. Biz bir plan hazırlamışdıq. Bu plana

uyğun olaraq hər dəfə bir alim, siyasətçi, ictimai xadim, partiya rəhbəri məruzə hazırlayırdı və o məruzəsini internetdə öz səsi ilə oxuyurdu. Məruzə bitdikdən sonra sual-cavab və çıxışlar başlayırdı. İki saatlığa nəzərdə tutulmuş söhbətlər bəzən uzanaraq 4-5 saat çəkirdi. Gecənin o vaxtında gəlib-getməyə maşın tapmaq olduqca çətin idi. Əvvəlcədən taksi sifariş etməyə demək olar ki, heç birimizin pulu olmurdu. Elman bizi öz maşını ilə toplantı otağına gətirər, gecənin yarısı keçəndən sonra da evlərimizə apardı. Bir dəfə ona pulsuz-parasız və təmənnasız gördüyü bu gecə işinin ailəsində narazılıq yarana biləcəyini xatırlatdıqda o: “Əli, xanımım mənə inanmasa, ailə qurmazdı. İnanıb ailə qurubsa, mən də onun inamını doğrultmuşam. O yaxşı bilir ki, məni vətən və millət sevgisindən başqa heç bir güc bir saat da olsa, ailəmdən uzaqda saxlaya bilməz.”

Elmanın milli məsələyə də, islama da, dilimizin tarixinə də çox maraqlı və fərqli baxışları vardı. Hər dəfə də bu fərqliliyə aydınlıq gətirməsini istəyəndə o, gülümsəyərək bunu özünün qabiliyyəti kimi deyil ixtisası ilə bağlayırdı. Deyirdi: “Mühəndislər, texniki sahənin adamları humanitar elmlərə həmin sahədə çalışanlardan fərqli baxırlar”. Mən ona tanıdığım texnika sahəsinin alimlərinin bir çoxunu misal göstərirdim, “onlar nədən bəs sənin kimi düşünmürlər?” sualını verdikdə, “onların elmi adları var, amma, qəlibdən kənara çıxa bilməyənlərdir”. Elman texniki sahənin alimləri deyəndə Xudu Məmmədovu, Azad Mirzəcanzadəni, Rafiq Əliyevi qəbul edirdi.

O, bizim alışdığımız qəliblərə sığmayan bir insan idi. Amma ailədə, dostlara münasibətdə, işdə ənənəmizdən gələn bir çox məsələləri yaşadan birisi idi. Heç yadımdan çıxmaz. Bir dəfə vacib işi vardı, gecikirdi. İslam müəllim də onun maşınında idi. İslam müəllim Saray qəsəbəsində yaşadığı evə gedəcəkdi. İslam müəllim Elmanın işindən qalmamağı üçün 20 yanvar metrosunun yanında maşını saxlatdı. Buradan Saraya avtobusla gedəcəyini söylədi. Elman atasının xətrini çox istəsə də ona olduqca sərt cavab verdi. Dedi ki, birdən yolda sənə bir şey olar. Onda mən

necə yaşayar, adamların içərisinə necə çıxaram. Adamlardan necə deyə bilərəm: “Mən də oğulam, mən də kişiyəm”. Bilirdim ki, yanında pulu var. Taksi tutub atasını yola salar. Amma, heç vaxt belə bir şey etmirdi. Ataya-anaya özü xidmət, qulluq göstərmək istəyirdi. Həm də sonadək qulluq göstərirdi.

Bir dəfə onunla Saraya getmişdik. İslam müəllimi dilə tuturdum ki, ya özü xatirələrini yazsın, ya da mən diktofon gətirim, İslam müəllim danışsın, sonra mən diktofondan kağıza köçürtdürüm. Anası, bizə çay gətirmək üçün ayağa durdu. Elman bərk hirsləndi. Durub çayı özü qaynatdı, dəmlədi və əvvəlcə ata-anasına, sonra da mənə və özünə çay süzdü. Anasına dedi ki, sən çay qoyarkən və ya çay gətirərkən tökülər, əl-ayağın yanar. Mən ömrümün axırına kimi vicdan əzabı çəkərəm.

Oğullarını olduqca çox istəsə də, onlara qarşı da tələbkar və sərt idi. Onları sanki cəmiyyətin burulğanı içərisinə atmışdı. Amma, başlı başına da buraxmamışdı. Bütün hərəkətlərini izləyirdi. Xırda məsələlərə əhəmiyyət verməz, çox zaman görməməzliyə vurardı. Vəziyyət ciddiləşə biləcəyini düşünəndə isə sərt reaksiya verərdi. Çoxlu dostu-tanışı olmasına baxmayaraq onlara, övladları üçün, öz işi üçün ağız açmazdı. Dostlarına da deyərdi ki, mənə hörmətinizi övladlarımı əzizləməklə deyil, onlara məsləhət vermək, onlara doğru yol göstərməklə bildirin. Övladlarından da tələb edərdi ki, həmişə dostlarına sayğı ilə yanaşsınlar və onlardan sui-istifadə etməyə çalışmasınlar. Tez-tez xatırladardı ki, qorxudan kiməsə boyun əyməsinlər. İnsanlara, qohuma, dost-tanışa, ətrafındakılara, iş yoldaşlarına da həmişə hörmətlə yanaşsınlar, lazım gələndə dara düşənlərə əl tutsunlar.

Gənclərin gec ailə qurmaları ilə heç cür barışmırdı. Bəzən oturub hesablayırdı ki, hər bir oğlanın üç-beş il gec evlənməsi Azərbaycanda minlərlə qızın dul qalması deməkdir. Həmişə də özünün həyat yolundan misal çəkərdi. Deyərdi ki, 22 yaşında evləndim, ailə quracağım qızı da özüm seçdim. Amma valideynlərimlə məsləhətləşməyi də unutmadım.

Oğlanlarından da tələb edirdi ki, vaxtında ailə qursunlar. Bəzən hirslənərək deyərdi: “Vaxtında evlənməsəniz dost-tanış mənə deyəndə ki, niyə oğlunu evləndirmirsən, onda şadlıq evlərinin birində toy edəcəm, dostlarımı, qohumları da yığacam oraya. Deyəcəm: “Mən oğlumun toyunu etdim. Atalıq borcumu yerinə yetirdim. Həmin vaxta kimi siz özünüzə ömür-gün yoldaşı tapsanız lap yaxşı, gəlib gəlinlə birgə başda oturarsınız, tapmazasınız özünüz bilin”. Elmanın xasiyyətinə bələd idim. Bilirdim ki, dedisə eləyəcək.

Oğlanlarının qız seçməsinə qarışmadığını desə də, sərt tələb qoymuşdu; gərək qızın ailəsi də var-dövləti ilə deyil, cəmiyyətdəki mövqeyi, milli dəyərləri və əməlləri ilə seçilsin.

Millətə və vətənə xidməti olan hər bir insana hörmət etməkdən, onların qulluğunda durmaqdan, yardım etməkdən zövq alırdı. Elmanın Məmməd Araza qulluğu dediklərimə gözəl nümunə ola bilər. O, yalnız şan-şöhrətli insanlara deyil, çoxlarının tanımadığı insanlara da qayğı və diqqətlə yanaşırdı. Onlar xəstələnəndə tez-tez baş çəkməyi özünə borc bilirdi. Xüsusən haqsızlıqla sıxışdırılan, vəzifədən çıxarılan insanlarla tez-tez görüşməyə çalışardı, sanki həmin insanların vəzifədə olarkən ətrafında fırlanan, özlərini “dost” göstərənlərin boşalmış yerini doldurmaq istəyirdi.

İşinin çox olmasına baxmayaraq həmişə nağıllardakı sehrli Simurq quşu kimi dadıma çatırdı. Bilgisayar almaq lazımdı Elmanı çağırırdım, evdə televizor işləmir Elman özünü yetirirdi, televizoru, məişət avadanlıqlarını dəyişmək, yenisini almaq lazımdı mütləq Elman gələr, bizi mağazaya aparardı. Seçimə kömək edər, məsləhət verər, maşınında gətirib evdə qurub gedərdi. Bir devizi də o idi ki, hər şeyin sadəsini düşünmək lazımdır. Sadədən mürəkkəbə doğru getmək lazımdı. Bir dəfə dizüstü bilgisayarım işləmirdi. Onu bir neçə yerdə təmirə versək də “normal işləyir” deyib bizi yola salırdılar, evə gələndə işlədə bilmirdim. Elmanla bilgisayarımı aparıb növbəti dəfə satış firmasının özünün məsləhət gördüyü təmir ustalarına verdik. Onlar

düzəltdilər. Biz bilgisayarı geri alanda təmir pulunu da Elman ödədi və birdən ustaya müraciətlə: "Bilgisayara elektrik gəlib-gəlmədiyini yoxlayıbsanmı, adapter normal qidalandırırmı?" deyə xəbər aldıqda usta "yox" cavabını verdi. Elman bərk əsəbiləşdi. Bilgisayarı öz adapter ilə elektrikə qoşdurdu. Məlum oldu ki, bilgisayara elektrik gəlmir. Elman ustaya hirslə "Onda sən nəyini düzəldibsən?" dedikdə, o bilmədi nə cavab versin. Çaş başlıqla təmir pulunu Elmana qaytardı. Elman daha da hirsləndi və "Mən bu pula görə demirəm, məni hirsləndirən sənin kimilərinin öz işinə məsuliyyətsiz yanaşmasından adamların vaxtının itməsi, qanı qaralmasıdı!"

Elə ordan yeni bir adapter alıb bilgisayara qoşdu. Normal işləməyə başladı. Məlum oldu ki, ustalar bilgisayarın içərisində əlləşiblər, amma, heç biri öz adapterini qoşub yoxlamayıbdır. Hamısı, necə deyərlər mürəkkəb işi görməyə çalışıb, sadəsinə diqqət yetirməyib.

İnsanlara yaxşılıq, hörmət etməkdən zövq alan Elman həmişə xeyir-şərdən, ziyalı toplantılarından, xəstələrə baş çəkməkdən qalmazdı. Ona görə də xəbər tutduqlarımı Elmana bildirərdim. O da gələrək məni maşınında aparar, birlikdə iştirak edərdik, geri qayıdanda da gətirib evimizə qoyardı.

Ağıllı, savadlı, məntiqli, vətənsevər insan görəndə sanki çiçəyi çırtlayırdı. Onlarla söhbət etməkdən doymurdu. Bu xasiyyətini bildiyimə görə Türkiyədən, İrandan, Özbəkistandan, Tatarıstandan, Avropa və Amerikadan qonaqlarım gələndə onunla tanış edirdim. Bu tanışlıqları Elman dostluğa çevirməyi bacarır və davam etdirirdi.

İslamı dərindən öyrənməyə səy edirdi. "Qurani-Kərim"in ayələrinin bir çox təfsiri ilə razılaşmırdı. Özünün maraqlı təfsirləri vardı. "Elman bəy, bunları yaz" deyəndə də, "bir az imkan ver işlərimi qaydaya salım, hamısını yazacam deyərdi". "Qurani Kərim"də onlarla sözün türk kökənli olduğunu söyləyərdi. Mən isə etiraz edərdim. Fikrimi də əsaslandırmaq üçün bu mövzuda yazılmış mütəxəssis məqalələrini qaynaq göstərərdim. Deyərdim

ki, orada 3-4 sözün türkcə olduğunu yazırlar. Onda Elman gülə-gülə "Siz qəliblərdən çıxa bilmirsiniz. Onlar da ərəb dilinin 1300-1400 illik tarixinə əsaslanıb yazırlar. Dil dəyişir. Orxon Yenisey yazılarına bir bax, bu gün ki yazılarımızdan nə qədər fərqlənir. Siz ərəb dilinin 2500-3000 illik tarixində o dilə hansı dillərdən söz keçə bildiyinə nəzər salmırsınız" deyərdi.

2011-ci ildə Türkiyənin Kahramanmaraş şəhərində Əshabül-kəhflə bağlı bir elmi simpozium keçiriləcəkdi. O simpoziuma mən məruzə hazırlayırdım. Mövzu onun həmişə diqqətində olduğundan birlikdə getməyi təklif etdim. İki-üç gün sonra özü bir məruzə özəti – tezis yazıb gətirdi. Göndərdik. Simpoziumun təşkilat komitəsi onun da, mənim də özətimi qəbul etdiklərini bildirdi. Məruzəsini hazırlayırdı ki, birlikdə gedək...

Azərbaycanın ictimai-siyasi durumu da, istehsalatı da onu bərk əsəbiləşdirirdi. Deyirdi: "Harada görülüb ki, bina tikilə, iş görülüb başa çata, sonra layihə hazırlana?! Belə işlər yalnız bizlərdə ola bilər." Ürək ağrısı ilə deyirdi ki, Azərbaycandakı qədər işgüzar, bacarıqlı, yeniliyi tez mənimsəyib tətbiq edən insanlar az-az yerlərdə olur. Amma onlara şərait yaratmaqdansa həmişə sıxışdırır, işləməklərinə maneə törədirlər".

Xarici şirkətlərlə birgə işləyirdi. Dəfələrlə şahidi olmuşdum ki, onların mütəxəssisləri ilə mübahisədə Elman haqlı çıxmışdı. Ona öncə yuxarıdan aşağı baxanlar sonra üzr istəməli olmuş, yanıldıqlarını etiraf etmişdilər.

Anarın "Gün keçdi" əsərinin qəhrəmanı Oqtay "Günəş evi" tikməyi layihələşdirdiyi kimi Elman da Bakıda avtomatikanın son nailiyyətlərindən istifadə edərək "Ağıllı ev"-in layihəsini hazırlayırdı. Nə yazıq ki, nə cəmiyyət, nə də əcəl ona düşündüklərinin, reallaşdırılması mümkün olan işlərin yüzdə birini belə həyata keçirməyə imkan vermədi.

***Əli Şamil***

## *Mən də onu tanıyırdım...*

Təqribən beş-altı ay bundan əvvəl mərhum dostumuz Elman bəylə hər görüşdə olduğu kimi yenə də yer üzündə baş verən müsibətlərin əsasında nə dayanır sualı ətrafında xeyli söhbət etdik. Onun problemlərə tamamilə özünəməxsus formada yanaşma tərzi yenə də məni heyran etdi. Bir insanın eyni problemə tam müxtəlif istiqamətlərdən – demək olar ki, bir-birindən kifayət qədər uzaq olan müstəvilərdən baxa bilməsi və həmin problemin yaranma səbəblərini, aradan qaldırılması variantlarını görə bilməsi, ən çətini isə insanların anlaması üçün ifadə formasını düzgün tapması çox nadir rast gəlinən hal idi. Mən həmin günədək "İnsan taleyini özü yazır" kitabında olan "taleyazma"nın mexanizmini heç kimə axıradək çatdıra bilmədiyimə görə ruhdan düşməyə başlamışdım. Ancaq Elman bəy az bir müddətdən sonra problemi bütün incəliyinədək artıq mənə izah etməyə başladı. Təbii ki, çox yaxında işlərini tamamlayıb çalışmalarımda dəstək verəcəyini deməsi məni çox sevindirdi. Həmin sevinc hissi bu gündə mənimlədir və mənimlə olaraq qalacaqdır. Nə yaxşı ki, Elman bəy kimi bir insan var idi və məndə ONU tanıyırdım.

İndi çox çətin də olsa artıq mərhum dostumuz Elman bəy haqqında xatirə yazmaq məcburiyyətindəyəm. Nə etmək olar dünyanın işləri belədir.

Elman bəy haqqında yazmaq çox çətindir. Ona görə ki, nə yazsam da onun ÖZÜNÜ yaza bilməyəcəyəm. Ancaq dəqiq bilirəm ki, aşağıda onun xatirəsinə həsr etdiyim yazını bəlkə o özü də belə yazardı. Ona görə ki, Elman bəy düşünən qəlb sahiblərindən idi. O da bilirdi ki, bir insanın bu dünyada qazana biləcəyi ən böyük var-dövlət onu əbədi səadətə qovuşdura biləcək qəlb yazısıdır.

UCA ALLAHDAN ELMAN BƏYƏ RƏHMƏT VƏ YAXINLARINA SƏBİR DİLƏYİ İLƏ HÜSEYN CAVAD.

"AĞIL SAHİBLƏRİ" VƏ "SÖZÜN ƏN GÖZƏLİ" - "KÖNÜL GÖZLƏRİ" KODU!!!




Ali İmran 7.(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun bir hissəsi möhkəm, digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərin dəyərilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: “Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər.

KİMLƏRDİR (Ali İmran.7) ...ağıllı adamlar...?

Zumər 18. O kəslərki sözü dinləyib onun ən gözəlinə uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!

BU GÜNƏDƏK SAYSIZ – HESABSIZ FİKİRLƏR SÖYLƏNMİŞ, KİTABLAR YAZILMIŞDIR. TƏBİİ Kİ, BUNLARIN HAMISI SÖZLƏ İFADƏ OLUNMUŞDUR. BELƏ OLAN HALDA GÖRƏSƏN SÖZÜN (Zumər.18.)...ən gözəli...

HANSIDIR Kİ, ALLAH TƏRƏFİNDƏN ANCAQ O SÖZƏ UYMAQ ƏMR OLUNUR?

(Zumer23. Y.N.Öztürk Allah, sözün/hadisin en güzelini, bir-birine benzeri çiçekli imânalar ifade eden bir Kitap halinde indirmiştir...

A'RAF suresi 144.M. Esed, A'RAF suresi 145. M. Esed, Qəsəs51.)

NİYƏ QURANA GÖRƏ ...ağıllı adamlar... ANCAQ, ...sözü dinləyib onun ən gözəlinə ...uy...ANLAR SAYILIRLAR?

ONA GÖRƏ Kİ, QURANIN SURƏTİ (KOPYASI) ƏVVƏLCƏDƏN HƏR BİR İNSANIN QƏLBİNDƏ OLUR - (Rum30) ...fitri olaraq insanlara ver... İLİR - ALLAHIN (Bəqərə31) ...Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi... Yİ VAXTDAN. (Rum30, Ankebut 49, Araf 175)

ANCAQ (Rum30)...fitri olaraq insanlara ver... İLMİŞƏ - YƏNİ SÖZÜN (Zumər18)...ən gözəli... NƏ ...uy... ANDA, ƏVVƏLCƏDƏN HƏR BİR İNSANIN QƏLBİNDƏ OLAN (Qiyame 17)...cəm... OLUR - OYANIR. ƏKS HALDA KİMİN NƏ VAXT DEMƏSİNDƏN, YAZMASINDAN ASILI OLMAYARAQ SÖZÜN ...ən gözəli... NƏ DEYİL, BAŞQA SÖZLƏRƏ, İSTƏR-İSTƏMƏZ MƏNTİQ [Həcc52 ... /YaRəsulum!/ Biz səndən əvvəldə elə bir rəsul, elə bir nəbi göndərmədik ki, o, arzu etdikdə Şeytan onun arzusuna bir xələl qatmasın!...] QATILMIŞLARA, (Zumer 23)...içiçe ikili mânalar ifade... ETMƏYƏNLƏRƏ ...uy... ANDA , QƏLBDƏ OYANAN- (Qiyame 17)...cəm... OLAN, QURAN OLMADIĞINA GÖRƏ, QURAN DİNİ YAŞANMIR.(Şura 52, Əraf 20)

ANCAQ ALLAHIN GİZLİNLƏRİ BİLDİYİNİ VƏ ALLAHDAN BAŞQA HEÇ BİR YARANMIŞIN - MƏLƏKLƏRİN, CİNLƏRİN, İNSANLARIN

VƏ S. - GİZLİNLƏRİ BİLMƏDİYİNİ NƏZƏRƏ ALSAQ ONDA YARANMIŞLARDAN HEÇ BİRİ QURANDA OLDUĞU (Zumer 23) ...sözün ən gözəli... KİMİ (Zumer 23 )...içiçe ikili mânalar ifade... EDƏN BİR FİKİR- CÜMLƏ,

MƏNA, (Yunis 38) ORTAYA QOYA BİLMƏZLƏR (Bəqərə30 - 33). YER ÜZÜNƏ AİD OLAN MİSAL, MƏSƏL VƏ (İsra 89) BƏNZƏTMƏLƏRLƏ, YERƏ BƏNZƏR (Talak 12, Bəqərə 25, Rum 8) OLARAQ YARADILMIŞ GÖYLƏRDƏ - GİZLİNLƏRDƏ OLANLARI İFADƏ EDƏ BİLMƏZLƏR. (Qiyamə 16-19) ONA GÖRƏ DƏ QƏLBDƏ OLAN SURƏTİN (KOPYANIN) OYANMASI- ...cəm.. OLMASI ÜÇÜN (Muzzəmmil 4)...aramla... ... Quran oxu!... UNMASI ƏMR OLUNUR. ADİCƏ ( Muzzəmmil 4) ...aramla oxu!... UNMAMASINA GÖRƏ QƏLBDƏ ...cəm... OLMAYAN - OYANMAYAN QURANIN, MƏNASI DƏRK OLUNMADAN OXUNMASI ZAMANI ...cəm... OLMAS I- OYANMASI MÜMKÜNDÜRMÜ? (Muzzəmmil 4-5) ONDA MƏNASI DƏRK OLUNMADAN OXUNAN ZAMAN, QƏLBDƏ OYANMASI- ...cəm... OLMASI MÜMKÜN OLMAYAN QURANIN YERİNDƏ ...cəm...OLAN – "OYANAN NƏ OLUR"? (Fussilət 52, Hucurat 14, Bəqərə 176)

ANCAQ ƏLİMİZDƏ OLAN QURANI, YƏNİ QƏLBİMİZDƏKİNİN (KOPYASINI) - SURƏTİNİ OLDUĞU KİMİ, SÖZLƏRİ YOZMADAN, HƏR SÖZÜ ÖZ ŞƏKLİ+=

(Ala3... şeklini belirledi..., BAKARA 59: Derken o zulm edenler SÖZÜ DEGİŞTİRDİLER, KENDİLERİNE SÖYLENDİGİNDEN BAŞKA BİR ŞEKLE KOYDULAR.

Biz de o zalimlere kötülük yaptıkları için gökten pis biraz apindirdik.)

=+İLE, SÖZLƏR ŞƏKLƏ (Kiyamet 18...O halde, biz onu okuduğumuzda, sen onun okunuşunu izle...) ÇEVRİLƏ BİLSİN (Müzzemmil 4 ...Kuranı ağırağır, düşünedüşüneoku!...) DEYƏ OXUYUB VƏ YA DİNLƏYİB DƏRK EDƏRƏK YÖNƏLƏNDƏ QƏLBDƏKİ (Rum 30... Allahın insanları üzerinde yarattığı fıtrat... Doğru ve eskimez din...) SURƏT (KOPYA) ...cəm... OLUR VƏ YA OYANIR. YAZILANLAR MÜTLƏQ OLARAQ TƏQDİR OLUNMUŞ ZAMAN FƏRQİ İLƏ GÖNRÜNƏN DÜNYADA ORTAYA ÇIXIR (Hac 47.

Senden aceleyle azabı istiyorlar: Allah, vaadine aslaters düşmez. Şu da bir gerçek ki Rabbinin katındaki bir gün, sizin saymakta olduğunuzun bin yılı gibidir.) DEYƏ OYANAN- ...cəm... OLAN QURAN DİNİ YAŞANIR. ƏKS HALDA HƏR SÖZÜ ÖZ ŞƏKLİNƏ GÖRƏ YOX, YOZULMUŞ - YƏNİ MƏNTİQ QARIŞMIŞ - OLARAQ DƏRK ETMƏDƏN OXUYUB VƏ YA DİNLƏYİB YÖNƏLƏNDƏ, (Fussilet 52... onun üstünü örttünüzse...), Hucurat 14... İman sizin kalplerinize girme... DİYİ ÜÇÜN Bakara 176 ...bütünden uzaklaştırıcı bir kopuşun tam içindedirler... BUYURULUR. ...bütünden uzaklaş... DIRICI YÖNƏLMƏ-NİYYƏTETMƏ (SONA ÇATARSA YAŞANMASI MÜTLƏQ OLAN) SONA ÇATMASIN DEYƏ BAŞI QARIŞDIRMAQ, AĞILI, FİKRİ YAYINDIRMAQ, ...doğruyol...A YÖNƏLTMƏK ÜÇÜN ƏZABLAR-BƏLALAR-MÜSİBƏTLƏR YAŞANMAĞA BAŞLAYIR. YAYINDIRICI, YÖNƏLDİCİ ƏZABLAR-BƏLALAR - MÜSİBƏTLƏR VASİTƏSİLƏ ...doğruyol... A YÖNƏLTMƏ ALINMADIQDA İSƏ SON VARİANT - Bakara176... bütünden uzaklaş ... DIRICI YÖNƏLMƏ-NİYYƏTETMƏ (SONA ÇATARSA YAŞANMASI MÜTLƏQ OLAN) PROSESİ DAYANSIN DEYƏ TƏCİLİ OLARAQ... bütünden... "AYIRMA" - MƏHV ETMƏ MEXANİZMİ İŞƏ DÜŞÜR.

BU MƏNADA İNSAN (fərd, ailə, tayfa, xalq, ümmət, millət-bütün bəşəriyyət) DOĞRU YOLA-QURAN DİNİNƏ MÜNASİBƏTDƏ TALEYİNİ ÖZÜ YAZIR.

Furqan. 57 De: "Mənsizdən buna (dini, peyğəmbərliyi təbliğ etməyə) görə heç bir muzd (əvəz) istəmirəm, ancaq Rəbbinə tərəf doğru yol tapmaq diləyən kimsələr istəyirəm. - YƏNİ BU GÜNƏDƏK HEÇ BİR YARADILMIŞIN HƏTTA SÖZLƏ BELƏ İFADƏ EDƏ BİLMƏDİYİ ƏN ASAN OLANI:

De: "Mənsizdən.. ancaq Rəbbinə tərəf doğru yol tapmaq diləyən kimsələri istəyirəm.

***Hüseyn Cavadov***

## *"Elman əmi" və "Nənə"*

İndi "Elman" deyəndə onun həyat eşqilə dolu gözlərini xatırlamaq çox çətindir. Elmanın qaynar, enerjili, çılğın, yeni ideyalarla alışıb yanan və məncə, yorğunluğu heç vaxt yaxına buraxmayan ömrünün yarı yolda qırılacağına, ölümə belə asan təslim olacağına niyəsə inanmaq istəmirəm!

Ona da inanmaq istəmirəm ki, gəncliyindən Allahına üz tutan, müqəddəs kitabımızı stolüstü kitabına çevirən və tez-tez ondan misal gətirən Elman o dünyasına belə tələsirmiş. Çünki bu dünyada onun yarımçıq və görüləsi işləri çox idi.

Son 2-3 ildə görüşməsək də ara-sıra telefon zəngləri ilə bir-birimizdən xəbər tuturduq. "Nənə, başım dağda-daşda yaman qarışıqdır!" - deyirdi. Onun "nənə" müraciətinin tarixçəsi yadıma düşəndə həmişə gülümsəyirdim. Məndən vur-tut cəmi 1 gün böyük olsa da, bir dəfə zarafatla onu "Elman əmi" - deyə çağırdım. Deyəsən yaman dəydi ona və ondan sonra mənim adım qaldı" nənə". İllər sonra mən gerçək nənə olanda, Elmana zəng vurub dedim ki, axır ki, arzuna çatdın, mən əsl nənə oldum.

Elman özünəməxsus prinsipləri olan insan idi, əqidəsində möhkəm, dayanıqlı. Ən gözəl insani keyfiyyəti onun həddən artıq etibarlı olması idi. O, dostu-tanışı üçün hər zaman lazım olmağı bacaran idi. 90-cı illərin sonunda çalışdığım "SPASE" TV-də bir gün təsadüfən Elmanla rastlaşdım. Onu çoxdan tanıyırdım, hörmətim vardı. Söhbət əsnasında ailə, valideyn-övlad münasibətlərinə həsr olunan yeni layihə üzərində işlədiyimi dedim. Elman çox böyük coşqu ilə bu qəbildən olan verilişin zəruri olduğunu və mənə bu işdə kömək edəcəyini dedi.

Elmanın sözü boş vəd deyildi. O gündən Elman sözün əsl mənasında bu layihənin təkanverici qüvvəsi oldu. Şirkətdə çalışmadığından ona əmək haqqı vermək mümkün deyildi, bundan narahat olduğumu görəndə məni inandırdı ki, bu iş mənəvi baxımdan ona çox lazımdır.

Beləcə Azərbaycan teleməkanında ilk tok-şou kimi efirə çıxan “Ailə üçbucagı”nın iki ilə yaxın efir həyatında Elmanın adı koordinator getsə də, mən bilirəm ki, Elman bu verilişə nə qədər can qoydu, boynumda haqqı qaldı. İlkin dövrdə, çətinlikləri görüb ruhdan düşdüyüm vaxtlarda məni sınmağa qoymadı, bütün varlığı ilə inandırmağa, dayaq durmağa çalışdı. Telefon söhbətlərimizə, bəzən gərginləşən uzun-uzadı polemikalarımıza bizdə də alışdılar, Elmangildə də.

Elmanın ailəsinə qarşı çox həssas bir münasibəti vardı. Qızına olan xüsusi sevgisini duymaq çətin deyildi. Şəmidə haqqında böyük hörmət və rəğbətlə danışırdı, onu bir dəfə verilişə də gətirmişdi. “İstəyirəm Şəmidə fəal olsun!” –deyirdi. Bəlkə də bu zərif və sakit xanımını nə vaxtsa yarı yolda tək buraxacağından ehtiyat edirdi...

Elman dostcanlı idi, çox böyük çevrəsi vardı. Tez-tez ünsiyyətdə olduğumuz o illərdə dostlarının adı dilindən düşmürdü. Onları tanımasam da hər biri haqda artıq təsəvvürüm vardı. İndi düşünəndə ki, nə qədər insan yaxşı dost itirib, nə qədər insan Elman yoxluğunun acısını yaşayır, bu itki bir o qədər ağır gəlir.

***P.S. – Bu yazını isə, bizim ərəb qonağımız Elmanla görüşündən sonra və Elmanın vəfatı xəbərini eşitdikdən sonra yazmışdı:***

I was for the first time in Baku in March 2011. There I really knew some kind and fantastic friends, Mr. Elman were one of them. He was the most hospitable kindest one. I really remember him on lunch talking about similarities of Arabic names with Azeri names. I remember him as lover of his nationality, trying to offer us the traditional places, restaurants, dishes and drinks. I remember him walking fast to prepare a session and talking loud to all to harry and meet him in a certain place. Even it was less than ten days but I can not forget him. We shared some photos that every time I open my face book I found him between us smiling and talking rest in peace Mr. Elman. You will remain in

our hearts. God please forgive him; have your mercy upon him. WE LOVE YOU ELMAN

Mən ilk dəfə Bakıda 2011-ci ilin mart ayında olmuşam. Orada mən həqiqətən çox mehriban və fantastik dostlarla tanışdım, Elman da onlardan biri idi. O çox qonaqpərvər və mehriban insan idi. Doğrusu, mən onun naharda bizə azəri və ərəb adlarının oxşarlığından danışmasını xatırlayıram. Onun necə millətpərəst olduğunu xatırlayıram, ölkəsinin ənənəvi yerlərini, restoranlarını, yeməklərini, içkilərini bizə tanıtmağa çalışırdı. Mən onun sürətlə gedib sessiya hazırladığını, ucadan danışaraq hər kəsə tələsmək və danışdıqları yerdə görüşmək lazım olduğunu dediyini xatırlayıram. Bu 10 gündən də az bir müddət idi, amma mən onu unuda bilmirəm. Bizim birlikdə bir neçə şəklimiz var və mən hər dəfə Facebook ünvanımı açanda o şəkildə onun bizimlə necə danışıb güldüyünü görürəm. Mr.Elman, məzarın nurla dolsun. Sən həmişə bizim qəlbimizdə olacaqsan. ALLAH sənin günahlarını bağışlasın və rəhm etsin. BİZ SƏNİ SEVİRİK ELMAN...

***Nərminə Əlixanbəyova***

## *Mənim üçün ağırdır*

Elmanla ilk tanışlığım 1989-cu ildə Babək rayon Partiya Komitəsində-onun keçmiş iş yerində baş vermişdir. Dostlarımız bizi bir-birimizə böyük şairimiz Məmməd Araz poeziyasının vurğunları kimi təqdim etmişdilər. O vaxt bir-birimizə bir neçə şer deyib, o şerləri bir az təhlil elədik, fikirlərimizi söylədik, bu bizi daha da yaxınlaşdırdı.

Sonra Elman məni Naxçıvandakı "Köhnə Qala"ya apardı. Azərbaycan tarixinin canlı şahidi olan "Köhnə Qala"nın yer üstü, yer altı qatlarını mənə göstərdi. O, "Köhnə Qala"nı mənə elə təqdim edirdi ki, elə bil bu tarixi, bu qalanın içindəki həyatı, döyüşləri, savaşları özü yaşamışdı, özü iştirak etmişdi bu tarixi proseslərdə. Sonra məni ən yaxın dostları ilə tanış etdi. Mən də öz dostlarımı zaman-zaman onunla tanış etdim. Qısa müddət ərzində biz çox yaxın dostlar olduq. 1990-cı ilin 20 Yanvar faciəsində Elman partbiletini atdı. Qohum-əqrəba, dost-tanış ona təsir göstərməyə çalışdı. O heç kimi eşitmədi, yalnız içindən gələn milli səsi eşitdi və əqidəsindən, mövqeyindən dönmədi. Həmin ildə böyük Mirzə Cəlilin "Molla Nəsrəddin" toplusunun 1-ci cildi nəşr olundu, az tapılan kitab idi. Elman məndən xahiş etdi ki, kitabı tapıb ona göndərim. Bakıya qayıdan kimi tapıb göndərdim. Mirzə Cəlil bizi daha da yaxınlaşdırdı.

Hərdən bir görüşürdük, söhbət edirdik, bir çox məsələləri müzakirə edirdik. Hər bir məsələ ilə əlaqədar onun öz fərqli mövqeyi var idi. Çox güclü yumor hissi var idi. Bəzi məsələlərdə fikir ayrılığımız olsa da, bir çox məsələlərdə bir-birimizi yaxşı anlayırdıq. Bir gün mənə dedi ki: - "Mən Şairə (Məmməd Araza) sənin haqqında demişəm, bizi evdə gözləyirlər. Mən ona dedim ki, mən evə gedə bilmərəm, yaxşı deyil şairi narahat etməyək, həm də onu o vəziyyətdə görmək mənim üçün ağır olar. Elman təkidlə mənə dedi ki, nə qədər ağır olsa da biz ora getməliyik. 1998-ci ilin dekabrında bir yerdə böyük şairimiz Məmməd Arazgilə getdik. O vaxtdan etibarən Məmməd Arazlı günlərimiz başladı. Abşeron,

Sumqayıt, Quba, Naxçıvan, Əshabul-Kəhf və s. səfərləri, fikirlər düşüncələr, xatirələr. Allah hər ikisinin ruhunu şad etsin!

Heç yadımdan çıxmır, Naxçıvan səfəri çərçivəsində Culfa hərbi hissəsində qonaq idik. Çay süfrəsində böyük şairimiz Məmməd Araza müraciət etdim: Şair insan haqqında dünya haqqında nə deyirsiniz? Böyük Məmməd Araz dedi: Mən kiməm, Füzuli hər şeyi deyib.

- Kimi bu bivəfa dünyada gördüm bivəfa gördüm. Elman haqqında çox danışmaq olar. İnanmaq olmur ki, biz onun haqqında xatirələr danışırıq.

Hər zaman, hər vaxt, hər yerdə Elmanın yeri görünür və görünəcək. Tanrı çəkdiyi əziyyətlərin mükafatını onun ailəsinə, balalarına versin. Tanrı ruhunu şad etsin!

***Rauf Zeyni***

## *Elmanın sayəsində*

Bismillahir-rəhmanir rəhim Elmanla mən o, 9 №-li məktəbdən 2№-liyə bizim məktəbə 8-ci sinfə gələndən sonra dostluq etmişik. İlk olataq Elman Samiklə dostluq etməyə başladı. Biz məktəbdə əsasən riyaziyyat, həndəsə fənnindən dərs deyən sinif rəhbərimiz Fəridə müəllimənin dediyi dəsrlərlə maraqlanırdıq. Bütün günümüzün əksər hissəsini bir yerdə keçirdik. Elman həmişə sinifdə nümunəvi dost olub, həm də fizika, riyaziyyat üzrə əlaçı şagird kimi tanınmışdır. Elmanla mən indiyə qədər dost idik (o dünyasını dəyişənə qədər), yaxın yoldaş, həm də ən yaxın sirdaşı idi.

Demək olar ki, mən Elmanı itirməyi ən yaxınımı itirmiş kimi hesab edirəm. Elmanla biz hər bir çətinliklərdən keçmişdik. Yaxşı günlərimizdə olmuşdu, pis günlərimizdə. Heç vaxt çətinlikdən qorxmadıq.

Bizim sinif yoldaşlarımızın hamısı Elmanı çox istəyirdi. Nəyə görə? Çünki o bütün uşaqlara eyni diqqətlə, eyni nəzərlə baxırdı. O, heç vaxt heç bir insana yuxarıdan aşağı baxmırdı. Həmişə o, həyata öz gözü ilə baxıb, öz fikri ilə yaşamışdır. Mən bir şeyi də qeyd etmək istəyirəm ki, Elman həm də Məmməd Araz vurğunu olub. Mən ömür boyu minnətdaram ki, məni elə bir dahi insanla tanış edib. Mən Elmanın sayəsində dahi şairimiz Məmməd Arazla neçə dəfə bir yerdə oturmuşam. O, M.Arazın bütün əsərlərini əzbərdən bilir idi. O misallar da çəkəndə M.Arazdan çəkərdi. Elmanın çox işləri olurdu. Onun bir işini xüsusi qeyd etmək istəyirəm bizim məktəbi qurtarmağımızın 25 illiyinin təşkilində Elmanın böyük zəhməti olmuşdu. Bu 25 il müddətində elə uşaqlar olmuşdu ki, elə sinif yoldaşlarımız vardı ki, ötən illərdə görüşməmişdik. Elmanın sayəsində o uşaqları və müəllimlərimizi gördük və nostalji hisslərimizi bölüşdük.

Mən onu da qeyd etmək istəyirəm ki, Əliyar müəllimin bir sözü vardı, bu tədbirdə dedi ki: - "Biz neçə il çalışdıq bu tədbiri keçirə bilmədik. Burada Elmanın zəhməti odur ki, neçə adamların

ürəyində qalan bu tədbiri o həyat keçirə bildi. 25 il biz sinif yoldaşlarımızla ayrılıqdan sonra daha da yaxınlaşdıq.”

Elman gözəl insan, gözəl ailə başçısı, gözəl dost idi. Çünki o insan həyata həmişə öz ağlı, öz fikri ilə baxırdı.

O, heç vaxt kimin kasıb, kimin varlı olmasına məhəl qoymazdı. İnsana insan kimi hörmət eləyərdi. Bu da onun ən böyük, yaxşı xüsusiyyətlərindən bir idi.

Sinfimizin 25 illik yubiley tədbirindən bəzi misalları demək istəyirəm, qeyd edim ki, Elman bu tədbirə həm dəvətnamə hazırlamışdı, həm də video çəkiliş təşkil etmişdi (onun öz kamerası vardı). Dəvətnamədə bəzi yerlər var idi ki, bunları xatırlamaq olar: - “Bizdə, Naxçıvan şəhərində Sabir küçəsində Cavahirin diki deyilən bir yer vardı, dəvətnamədə də belə bir şey yazılmışdı ki, əgər görüşmək istəyirsənsə Cavahirin dikinə gəl. Bu deyilən ünvan Naxçıvanın ən tanınmış yerindən biridir.

Mən Elman haqqında nə deyim? O, gözəl ata, qayğıkeş ailə başçısı idi. Hamıya böyük qayğı göstərirdi. Orada belə bir şey oldu, sinif yoldaşımız Nazim bayıra çıxıb, zəngi gətirərək sinfə girdi. Müəllimlərimizdən biri orada oturmuşdu. Şəmsəddin müəllimə deyir ki, Əqil müəllim səni çağırır. Əqil müəllim də çoxdan rəhmətə getmişdi. Şəmsəddin müəllim bunun fərqinə varmadan qeyri-ixtiyari durub qapıya tərəf gedir, az sonra geri qayıtdı. Qayıtdı ki, kim çağırır, Əqil müəllim? Hamı gülüşdü...

Daha nə deyim? 30-35 il biz bir yerdə yoldaşlıq elədik, birgə çörək kəsdik. Onun itkisi mənim üçün böyük itkidir. Mən onu heç vaxt unutmayacam. O, unudulası oğlan deyil, unudulası insan deyil!

***Dostu Natiq***




*Naxçıvan şəhər C. Məmmədquluzadə adına*

*2 saylı orta məktəb*

# 10"a" SİNFİ

## DOSTUMA ELEGİYA

Ürəyimdən sanki qara bir daş asılıb...

Dolaşıq fikirlərin içində qovurula-qovurula nədən yazacağımı, necə başlayacağımı bilmirəm. Bəlkə də bunun əsas səbəbi səni çoxdan və çox yaxından tanımağımdır...

Əslində, səninlə bağlı düşüncələrimi ciyərparən Emilin zəng vuraraq, barəndə “Xatirələr” kitabı hazırlandığını deməsindən çox əvvəl bölüşmək, ürəyimdəkiləri xəyalınla paylaşmaq istəmişəm. Amma hər dəfə də acı qəhər boğazıma tıxanıb, itkinin ağırlığı, dəhşəti beynimi, barmaqlarımı dondurub. Eynən qəfil ölüm xəbərini aldığım sentyabrın 17-də olduğu kimi...

Həmin şənbə günü işə gedərkən evdə axşam gec qayıdacağımı, iki toy məclisinə dəvətli olduğumu demişdim. Günortadan xeyli keçmiş dostlarımızdan biri zəng edərək sənin avtomobil qəzası keçirdiyini, artıq həyatda olmadığını bildirəndə qulaqlarıma inanmadım, yer-göy başıma fırlandı...

Ölümün gözünə dik baxdığını yaxşı bilirdim. Hərdən söhbət düşəndə deyirdin ki, ölümün nə olduğunu bilən adam ondan qorxmaz, ölümdən yox, faydasız yaşamaqdan qorxmaq lazımdır...

Ömrünü şam kimi əridə-əridə hər kəsə faydalı olmağa çalışır, övladlarının əsl insan kimi yetişmələri üçün sağlamlığını belə əsirgəmirdin.

Bəzən yerində olmayan bir səlahiyyət sahibinin ədabaz davranışından, həyasız təkəbbüründən, “iti bazarında atından baha” olan dünyanın tərsəməssəb işlərindən yanıqlı-yanıqlı, ağrıya-ağrıya danışsan da, heç vaxt qürurunu sındırmır, şəxsiyyətini hər şeydən üstün tuturdun. Buna haqqın da çatırdı – ixtisasca mühəndis olsan da, tarixi tarixçilərdən, şeiri şairlərdən, fəlsəfəni filosoflardan yaxşı bilirdin. Ömrünün son illərində böyük şairimiz Məmməd Arazla dostluğun onun ölməz poeziyasına vurğunluğundan yaranmışdı... Söhbətlərində tez-tez Nəsrəddin Tusidən, Cəlaləddin Rumidən iqtibaslar gətirir, hikmət, xeyirxahlıq xəzinəsi olan qəlbini dostlarına açırdın.

Hər hansı bir sıxıntını, ehtiyacını isə büruzə verməməyə çalışır, bəzən təkidlə hansısa bir probleminə toxunanda xəfifcə gülümsünüb: "Narahat olma, hər şey düzələcək, müvəqqəti çətinlikdir," deyirdin.

Tez-tez təbiətin qoynuna səyahətə çıxıb, Azərbaycanın rayonlarını dolaşmaqdan zövq alırdın. Hər dəfə də geri qayıdanda Xızı dağlarının, Quba, Pirqulu yaylaqlarının göz yaşı kimi dumduru bulaq sularından gətirir, bununla mənə dünyanın sevincini yaşadırdın. Axı mənim saf, təmiz, təbiətin qoynundan süzülən bulaq sularına "can dərmanı" kimi baxmağımı, onu hər şeydən üstün tutmağımı yaxşı bilirdin.

Elə amansız əcəl də səni təbiətin qoynunda, Şamaxı-Muğanlı yolunda yaxaladı... Amma həmin gün səyahətə yox, mühüm bir sifarişi yerinə yetirmək üçün iş yerinə tələsirdin...

Deyirlər, böyük alman filosofu Hegel oğlunun ölüm xəbərini qəfildən ona çatdıranlara "Mən onsuz da onun əbədi yaşayacağına inanmırdım", – cavabını verir.

O dəhşətli qəzadan bir neçə saat keçəndən, yas mərasimi üçün bütün hazırlıqlar başa çatdıqdan sonra qardaşın Oqtay atanıza, sənin həm də dostun olan ağsaqqal ziyalı, gözəl insan İslam müəllimə zəng vuraraq: "Ata, özünü ələ al, dözümünü itirmə, artıq Elman yoxdur", – demişdi.

Bu sarsıdıcı xəbəri eşidən atan xəstə yatan ananı duyuq salmamaq üçün ilk günlər acı göz yaşlarını içinə axıtmış, ona heç nə hiss etdirməməyə, özünü tox tutmağa çalışmışdı.

Səni son mənzilə yola saldığımız Saray qəbiristanlığında isə hıçqırıqlarını boğa bilməyib için-için ağlayan bu ixtiyar kişiyə təsəlli verməyə söz tapa bilmirdim və bunu yəqin ki, sonralar da heç vaxt edə bilməyəcəyəm...

Allah heç bir valideynə övlad dağı göstərməsin!

Beləcə, heç kəslə sağollaşmadan, heç kəsə vida demədən bizi tərk etdin. Dərdi sevincindən çox olan nahaq dünyanın əzablarından, iztirablarından qurtulub haqq dünyasına qovuşdun.

Təxminən 3 ay əvvəl kiçik oğlun Emil üçün düzənlədiyin toy ziyafətinin səadətindən hələ doymamış, Eminini, dünyalar gözəli adlandırdığın Günelini yurd-yuva sahibi etməmiş əbədi olaraq gözlərini yumdun. 29 il yuxusuz gecələri, sevincli günləri, kədərli anları səninlə bölüşən ömür-gün yoldaşını sənsiz qoydun...

Axı sən bu fani dünyada heç bir varlığın tək olmasını istəmirdin.

Deyiblər, ölüm var ölüm kimi, ölüm var zülm kimi... Sənin ölümün zülm oldu dostlarına, əzizlərinə, atana, anana, bir də hər axşam bir ömür boyu qapı zənginə diksinən ciyərparələrinə, səninlə birgə səadətini itirən ömür-gün yoldaşına...

Nə yazıqlar ki, maraqlı, şirin söhbətlərini bir də eşidə bilməyəcəyik...

Xoş, incə zarafatlarını xatirələrimizdə yaşadacağıq...

***Sadiq Gözəlov***

## *Əziz dostumuz Elman Əliyevə ithaf olunur*

Elmanla mənim tanışlığım bir-neçə il öncə baş vermişdir. Çox hörmət bəslədiyim bir insanın – Mirələkbər müəllimin vasitəsi ilə biz tanış olmuşduq.

Elman çox gözəl xüsusiyyətlərə malik olan bir insan idi. Ailəsini çox sevərdi. Övladlarından ağızdolusu söhbət edərdi. Ailə üzvləri ilə Azərbaycanın müxtəlif guşələrinə səfər edərdi. Sadaladıqlarım haqda özü mənə söhbət edərdi.

Yaxşı yol yoldaşı idi. Bir gün mənə zəng etdi, Şamaxıda yerləşən obyektlərdən birinə gedəcəyimizi söylədi. Görüş yerini və vaxtını elə həmin anda təyin etdik. Vədələşdiyimiz vaxt yola düşdük. Yol boyu həyatından, ailəsindən, dostlarından və gördüyü işlərdən böyük həvəslə danışırdı. Şamaxıya getməkdə məqsədimiz tikinti obyektində işin gedişi ilə maraqlanmaq və yaranmış problemləri yerindəcə həll etmək idi. Obyektdəki işçilər Elmanı çox yaxşı tanıyırlarmış. Onun obyektə gəlişi sanki yeni ab-hava gətirirmiş. Bir an içərisində iş icraçıları və fəhlələr onun başına yığışdılar. Obyekti nəzərdən keçirdikdən sonra tikinti işçiləri ilə birlikdə layihənin tələblərinin yerinə yetirilməsi, layihədə olan çatışmamazlıqlar, həlli mümkün olmayan problemlərin müzakirələri aparılırdı.

Üzügülər bu insan tamam bir başqa şəxsə çevrilirdi. Verdiyi tapşırıqları, qəbul etdiyi qərarları tam ciddi və məsuliyyətli şəkildə icraçılara çatdırırdı. Elman yüksək intellektə malik, savadlı bir mühəndis idi.

Biz dəfələrlə elm və texnikanın son nailiyyətləri haqqında söhbət etmişik. Hər dəfə də vaxtın azlığı bizə kifayət qədər geniş müzakirə aparmağımıza imkan vermirdi. Sözsüz ki, bunu həmişə etiraf edirdik.

Mərhum dostumuz Elman haqqında danışarkən onun nə qədər yüksək səviyyəli mühəndis olmasını qeyd etməmək olmaz.

Orta və Ali məktəbləri çoxdan bitirdiyinə baxmayaraq, Elman fundamental elmləri həm ibtidai, həm populyar, həm də akademik formatlarda çox dərin mənimsəmişdir.

Hər ikimiz Azərbaycan Neft və Kimya institutunun avtomatika fakültəsinin yetişdirmələri idik. Bəlkə ona görə də biri-birimizi yaxşı başa düşürdük.

Kompüterdə çox işləyirdi, mühəndis qrafikasını mükəmməl bilirdi. Obyektlərin elektrik, avtomatika və siqnalizasiya sistemlərini çox vaxt özü layihələndirirdi. Yeni texnika, texnologiya və ümumiyyətlə elmdə hər bir yeniliyi izləyərdi, onu təhlil edib dərindən öyrənməyə çalışardı.

Onu tanıyanlar ola bilər ki, Elmanın digər xüsusiyyətlərini məndən daha yaxşı bilərlər. Ancaq, mənə elə gəlir ki, onun savadlı bir mühəndis olmasını məndən yaxşı bilən olmaz.

Mühəndislik onun həyatının məğzi, əsas hissəsi idi. Onun danışığında, hərəkətlərində, hətta geyimində (işlədiyi obyektləri ziyarət edərkən) mühəndislik əlamətləri var idi. Dəftər – qələmi ilə yanaşı hətta müxtəlif ölçü alətləri də onun üstündə olardı.

Son vaxtlar Şamaxı istiqamətindəki obyektlərə tez-tez səfər edərdi. Böyük işlər gözlənilirdi.

Qoşabulaqdan ailəsinə bulaq suyu aparardı.

Bu yollar onu daha haralara apara bilərdi...

Valideynlər-övladlarını, ailə-başçısını, qohumlar-qardaşını itirdilər.

Dostları-vəfalı bir insanı, əvəzolunmaz və bacarıqlı bir mühəndisi itirdilər.

Əzizlərinə, qohumlarına baş sağlığı verərək, dərdlərinə şərik olduğumuzu bildiririk.

Elmanın əziz xatirəsi bütün dostlarının - Elmansevərlərin qəlbində əbədi yaşayacaqdır.

ALLAH RƏHMƏT ELƏSİN.

***Hörmət və ehtiramla***
***Vaqif və Vidadi Cəfərovlar***

## *Qeyri-adi insan idi*

Mən Elmanla 1992-ci ildə Bakıda tanış olmuşam və o, vaxtdan onun qeyri-adi bir insan olduğu hiss etmişəm. Hər dəfə onunla təmasda olanda mən nəsə təzə bir şey öyrənirdim. O, sanki ömrünün qısa olduğunu hiss edirmiş kimi həmişə deyərdi: "Vaxtı boş xərcləmək olmaz.” Biz onunla dincəlməyə və ya hansısa bir səfərə çıxanda ətrafındakıları darıxmağa qoymazdı.

Yadımdadır, o deyərdi: “Mən iki şeydən sakitlik tapa bilirəm. Biri dənizdə dalğaların səsinə, ikincisi isə meşədə yarpaqların xışıltısına qulaq asmaqdan.

Elmanın bu həyatdan vaxtsız getməsi məni bir dost kimi çox ağrıtdı. Mən fikirləşirəm ki, ömrünün axır günlərinə kimi onun ağıllı misallarmı və zarafatcıl söhbətlərini unutmayacam.

***Q.Müşfiq***

## *Bazar günü görüşərik...*

Elmanla 1975-1976-cı ildə 10[a] sinfində oxuyurduq. Bizim mehribanlaşmağımız əsasən həmin o bir il içərisində başladı. Biz yaxın ünsiyyət tapdıq. Elman olduqca şux, deyən-gülən idi. Ona ədəbiyyat vurğunu demək olardı. Musiqini də sevərdi. Məktəbin özündə tar əlinə düşən kimi başlayardı yaxşı mahnılar çalmağa. Çoxları da ona həsəd aparardı. Nəyə görə? Elman savadlı, nizam-intizamlı idi. Bizim sinfimizdə otuz altı şagird vardı. Məktəbdə sayılan sinif idik. Sinfimizdə oxuyan uşaqların çoxu həddindən artıq savadlı idi. Təsadüfi deyil ki, 1976-cı ildə bizim sinfi qurtaran şagirdlərdən 36 nəfərdən, səhv etmirəmsə 25-30 arası birinci il ali məktəbə qəbul oldular. Ondan sonra institut illəri başladı. Elman instituta girəndən sonra Bakıda yaşamalı oldu. Mən həmin ili ailə məktəbə qəbul ola bilmədim. Bir anlıq haradasa biz ayrı düşdük Elmanla. Ancaq buna baxmayaraq mən yığma komandaya cəlb olunub, təlim-məşq toplanışlarına Bakıya gələndə mütləq Elmanı axtarıb tapırdım. Elman yataqxanada yaşayırdı. O, yataqxana həyatını da özünəməxsus, qəribə keçirirdi. O, kök idi, yeməyi xoşlayırdı. Həmin vaxtları onların institutlarında yemək üçün talon verirdilər və biz yanına gedən kimi Elman sevinərdi ki, talonum çoxdur, gəlin gedək, görün tələbə yeməyi necə olur? Və bizi başına yığıb həmin yataqxananın yeməkxanasına aparardı. Orada yeyib-içib zarafatlaşardıq. Elman həm də necə deyim öz qardaşlarına, valideynlərinə, qohumlarına hörmət etməyi bacaran idi. Kiminsə qayğısına qalmaq Elmanın hobbisinə çevrilmişdi. Buna bir bariz nümunə: Elmanın balaca qardaşı Sultan həmin illər instituta hazırlaşırdı. O, Sultanın üstündə çox əziyyət çəkirdi, çox istəyirdi ki, o instituta girsin. Bəzən görürdün ki, Sultan aradan çıxır, ora-bura qaçır, səhlənkarlıq eləyir. Belə hallarda o, həmişə deyirdi ki: - "Sultan, öz əziyyətin heç, mənim əziyyətim də heç, ancaq atanın əziyyətini heç eləmə. Atan çox əziyyət çəkib sənə görə. Çalış instituta daxil olmaqla atanı sevindir."

Hamı bilir ki, hər bir valideyn istəyir ki, uşağı orta məktəbi qurtaran kimi instituta daxil olsun və Elmangilin ailəsində də elə idi. Elman bu şeylərə çox qayğı ilə yanaşardı.

Bir neçə illiyə Elmanla ayrılası olduq. Mən əsgərliyə getdim. Əsgərlikdən qayıdandan sonra Elman da institutu qurtarıb Naxçıvana qayıtmışdı. Naxçıvanda o, komsomolda işləyirdi, Babək rayonunda. İşi çox ağır olurdu. Hər balaca işin dalınca o kənd-bu kənd qaçırdı. Ancaq buna baxmayaraq dostlarını heç vaxt yaddan çıxarmırdı. Elmanın evləndiyi vaxt indiki kimi mənim yadımdadır. Dedilər Elman toy eləyir, evlənir. Düzü hamımız yetişmişdik, bir-bir evlənirdik. Onda video, nə bilim belə çəkliş-filan yox idi. Elman isə özündən yenilik eləmişdi. Çünki o mühəndis idi və texnikadan da yaxşı başı çıxırdı. O, öz toyunu maqnitofona yazırmış. Bizsə bu şeyləri bilmirdik. Demə o hər tərəfə mikrofon qoşub. Təsadüf elə gətirmişdi ki, biz uşaqlarla gedib oturmuşduq mikrofonun düz yaxınlığında. Gənclik çağlarımız idi, ağzımıza gələni danışır, deyib-gülürdük. Toydan sonra Elman aparıb həyat yoldaşı Şəmidə xanımla toyun necə keçdiyinə, gedişatına qulaq asırlar. Bir də baxır ki, "dostlar danışır" - biz sinif yoldaşları. Nə biləydik ki, o səsimizi yazır. "Biri deyir Elmanın kiçik toyu belə keçib, o biri nəsə başqa bir söz deyir. Elman tez maqnitafonu söndürür. Bir neçə gündən sonra onunla görüşəndə gülə-gülə bizə dedi: - "Ağzınıza gələni gərək toyda danışaydınız?"

Məsələdən agah olanda bizi dəhşət götürdü. Ona dedik ki, ə, necə yəni, toyu yazırdın? Cavab verdi: - "Hə, yazırdım. Siz də gedib oturubsunuz mikrofonun altında, nə demişsiniz hamısı düşüb." Biz həm güldük, həm də xəcalət çəkdik, çünki öz danışıqlarımızı bilirdik. Belə günlərimiz də olmuşdu. Elman kirayədə yaşayırdı. Yaşadığı bina evində elə bir şərait yox idi. Nə isə günün birində ona yeni ev verirlər. Yeni evə köçmək lazım olur. Evin əşyalarını daşımaq üçün kömək axtarır və sinif yoldaşımız Zahid Əliyevə zəng edir. O, Naxçıvan şəhər komsomolunun birinci katibi işləyirdi. Elmanla görüşürlər ki, bəs

neyləsinlər? Elman deyir, ev almışam, köçmək lazımdır, ancaq adam tapa bilmirəm ki, əşyaları daşımağa kömək eləsin. Zahid deyir ki, mən bu dəqiqə taparam. Nəsə, zəng vurdular bizlərə ki, bəs Elman ev alıb yeyib-içmək verir, tez gəlin Elmangilə. Biz də sevincək 4-5 nəfər durduq getdik onlara. Qapıya çatanda gördük ki, qapıda yük maşını durub. Dedik görən nə olub? Bizi görəndə güldülər, dedilər sizi başqa adla gətirə bilməzdik bura. Ancaq yeyib-içmək tələsinə gələ bilərdiniz. Nəsə kömək elədik yükləri yığıb apardıq Elmanın yeni mənzilinə.

Komsomoldan sonra uzun müddət Elman partiya işlərində çalışdı. Orada da özünə layiqli hörmət qazanmışdı. Partiya sıralarında işləyərkən Nehrəm kəndi ilə sıx əlaqədə olduğundan Nehrəm haqqında çoxlu lətifələr öyrənmişdi. Allaha qurban olum, o başqa cürə oğlan idi, heyf aramızdan tez getdi.

Partiya sıralarını tərk etdikdən sonra Elman Naxçıvanda Su Elektrik Stansiyasının yanında Mərmər zavod deyilən bir zavod var idi, orada mühəndis işinə düzəlmişdi. Bu zavodda da Elman özünə layiq ad qazanmış, kollektivin sevimlisinə çevrilmişdi.

Elman haqqında çox xatirələr var. Hər dəfə görüşəndə bilirdim ki, bizə nəsə məzəli söhbət eləyəcək, bir lətifə danışacaq. Yeni elmi kəşflərdən xəbər verəcək.

Elman dost yolunda hər şeyə gedən idi. Gecə saat 2-də də, 3-də də zəng vurub desəydim ki, Elman mən filan yerdəyəm, gəl dalımca, dara düşmüşəm gələrdi. Və axırıncı tikəsini dostlarla bölüşməyi bacarırdı.

Elman haradasa bir neçə il sonra Naxçıvanda televiziya komitəsində işə düzəlmişdi. Orada işləyirdi və yaradıcılıqla məşğul olurdu. Ədəbiyyatı dərindən bilirdi. Məmməd Araz vurğunu idi. Elman Məmməd Arazdan saatlarla danışardı. Məhz onun M.Araza vurğunluğu o, Bakıya köçəndən sonra M.Arazla tanışlığı, dostluğu ilə nəticələndi. Bir evli kimi oldular. O, Bakıya köçəndən sonra mən Naxçıvanda yaşayırdım. Bir gün gəldim Bakıya, Elman dedi ki, bəs M.Araz Qubadadır, görüşünə gedirəm, gedirsən gəl gedək. Elə bil ki, onun söhbətlərindən bizim

hamımızda M.Araza məhəbbət hörmət yaranmışdı. Baxmayaraq ki, axşamüstü mən təyyarə ilə getməli idim. Ancaq dedim ki, deyirsə ki, arada M.Araz məsələsi var, onda gedək. Qubada mən onların necə deyərlər ata-oğul münasibətlərini, M.Arazın Elmana qarşı hörmətini gördüm. Haradasa biz 4-5 saat bir yerdə olduq. Ondan sonra qayıtdıq məni yola saldı.

Günlərin birində mənə zəng vurdu ki, Naxçıvanda M.Arazın yubiley günləri keçiriləcək. Orada mənə kömək lazımdır. Soruşdum nə köməklik? Dedi: - "Heç kitablarını gətizdirmək istəyirəm, bilmirəm hara yığaq." Dedim: - "Çətin məsələ deyil, göndər gəlsin mənim yanıma."

Gətirdik o kitabları, mən işlədiyim idarəyə yığdıq, orada saxladıq. Ondan sonra Elman M.Arazın özü ilə birlikdə gəldi Naxçıvana. Və biz onun kitablarının necə deyərlər paylanması ilə məşğul olduq. Bunu ona görə deyirəm ki, Elman, dostluğa, yoldaşlığa dəyər-qiymət verən olub. Bir tək M.Arazla deyil, bütün dostları ilə eyni münasibətdə olub.

Biz dəfələrlə oturardıq, hərtərəfli söhbətlər edərdik. Elmanın öncəgörmək bacarığı var idi. Dünyagörüşü çox yüksək idi. Elə məsələlər var idi ki, bəzən onlardan bəhs edirdik, mən deyirdim ki, Elman, filan şeyi mütləq etmək lazımdır. Deyərdi ki: - "Səbir elə."

Səbir eləməyi bacarırdı Elman. Və doğrudan da ona qulaq asandan sonra mən görürdüm ki, o nə qədər qabağı fikirləşir. Səbir eləyərdik və istəyimizə tezliklə nail olmasaydıq da, səbir sayəsində nəticəni alırdıq.

Vaxt, zaman gəldi ki, mən özüm də Bakıya köçəsi oldum. Gəldim Bakıya, hələ işim yox idi. Onu da deyim ki, o vaxt Elman "sputnik" antenaları Bakıya gətirənlərdən birincisi olmuşdur. O, antenaların quraşdırılması işləri ilə məşğul idi və evlərdə, ofislərdə antenalar quraşdırırdı. Dost-tanışı çox idi. Ancaq bəzi şeylər var idi ki, hər adamla bölüşə bilmirdi. Bizim öz sirlərimiz, öz söhbətlərimiz vardı. Heç kimlə bölüşə bilmədiyimizi aramızda bölüşərdik. Dərdlərimizə məlhəm tapardıq. Yuxarıda da qeyd

etdiyim kimi o, uşaqlıdan kök idi və o, çox vaxt pəhriz saxlayırdı. Görürdün həftələrlə yemək yemirdi. Ancaq qaynanmış su içirdi. Belə olan halda biz bir yerdə oturanda o yemək yemirdisə, biz də yeməməli idik. Elman bizim yeməyimiz üçün özündən bəhanələr uydurardı. Bir gün evdə işləyirdik. Elman zəng vurdu ki, haradasan? Günortaüstü idi. Dedim evdəyəm. Dedi ki, bilirsən də mən pəhriz saxlayıram. Oqtay acdır, tək yemək yeyə bilmir, düş aşağı gəlirəm dalınca.

Bilirdim ki, Oqtay məsələsi bəhanədir. O, fikirləşir ki, Cəfər Bakıda təkdir, gedib restoranda yemək yeyən deyil ki, evdə də hövsələsi çatmayacaq bişirməyə. Məni evdən çıxarmaq üçün isti ev yeməyi yeməyimdən yana Elman o şeyləri özündən uydurub gəlirdi mənim dalımca. Yedikdən sonra şirin lətifələr danışaraq gözlərimiz yaşaranacan bizi güldürərdi.

Onun özü ilə bağlı bir lətifəni danışacağam. Haqqında danışacağım digər dostumuz da indi Elman kimi haqq dünyasındadır.

Bir gün həmin dostumla birinci mikrorayonda oturmuşduq bir çayxanada. Elman zəng vurdu ki, haradasan? Dedim, bəs evin yanında çay içirik. Dedi ki, mən də elə buradan keçirdim, indi gəlirəm. Nəsə gəldi yanımıza. Biz Adıgözəllə onu qarşıladıq. Allah hər ikisinə rəhmət eləsin. Adıgözəlin həyat yoldaşı Zaqataladan idi. Təsadüf də elə gətirmişdi ki, bizim oturduğumuz, çayxanaya Zaqatala adı qoyublarmış. Elman da yanımıza çatan kimi dedi ki: - “Adıgözəl, arvaddan belə qorxursan ki, ancaq “Zaqatala” çayxanasında çay içirsən?” Adıgözəl ona baxdı, kinayəli şəkildə “hə, qorxuram nə olacaq?” Elman da zarafat elədi ki: - “Biz də Cəfərlə o biri binanın yanında bir çayxana açacağıq. Adını da qoyacağıq Nehrəm.”

Adıgözəl onun zarafatından, doğrudan da, çox incimişdi. Mən bir az Elmana məzəmmətlə göz-qaş eləyib dedim ki: - “Belə işlər görmə, get sən kompüterini düzəlt, “səhvlər” eləyirsən.” Ondan sonra Elman da gördü ki, “səhv” eləyibdir. Adıgözəlin qəlbini almaq lazımdır. Hərdən bir atmaca atırdı ki, onun keyfi

açılsın. Nəsə burdan getdik bir başqa yerdə nahar etməyə. Adıgözəl bir balaca içki qəbul edəndən sonra kefi duruldu. Və əksinə indi o Elmana söz atırdı. Elman gözlənilmədən qulağıma dedi: - "Cəfər, bəlkə bir 100 də deyim gəlsin Adıgözələ, çayxanada dediyimi bir də təkrarlayım." O, belə zarafatları xoşlayırdı.

Bir də görürdün səhərə yaxın saat 6-dır, telefona zəng gəlir. Elman zəng vurub: - "Siz hələ yatıbsınız?" Deyirdim: - "Ay Elman, imkan ver yataq da. Sənin yuxun onsuz da yoxdur. Bizi səhərin şirin yuxusundan eləmə." Deyirdi: - "Yox, mən oyanmışamsa, gərək dostlarım da oyana. Səhər nə qədər tez dursan işin o qədər yaxşı alınar." Belə günlər keçirmişdik Elmanla. Onunla bağlı təəssüratlarımız çox olub.

Axır vaxtlar o, işi ilə əlaqədar Azərbaycanın bütün bölgələrinə gedib-gəlirdi. Elman özünü çox yorurdu. Hərdən oturub dərdləşirdik. Deyirdi ki, bu gün bizim yatmağa haqqımız yoxdur. Biz çalışmalıyıq, işləməliyik. Bizdən sonra uşaqlarımız əziyyət çəkməsin. Ailəcanlı idi. Elmanın 2 oğlu, 1 qızı var. Mən bu gün şükür eləyirəm ki, uşaqları Elmanın arzularını gözündə qoymadı. Uşaqları ali məktəbi qurtarıblar. Elmanla mən son dəfə o rəhmətə getməmişdən haradasa bir həftə əvvəl telefonda danışmışdım. Dostum Samiq ilə Botanika bağında görüşüb gəzirdik... Elman zəng vurdu. Dedi ki, neyləyirsən? Dedim ki, Samiqlə gəzişirik, Botanika bağındaydıq, sən də gəl. Dedi ki, vaxtım yoxdur, iş dalınca gedirəm. Gələn bazar günü mütləq yığışarıq... İndi hər bazar Elmanın görüşə gələcəyini düşünsəm də, o daha gəlməyəcək. Elman haqq dünyasına, Tusisinə, Cavidinə, Məmməd Arazına qovuşdu. Özü ilə bir dünya ülvi amallarını da apardı. Təəssüflər olsun ki, son görüşümüz alınmadı. Sentyabr ayının 17-si qəfil ölüm Elmanı bizim aramızdan apardı..!

***Dostu Cəfər***

*Sən, əvvələ, gözlərindən barmağını çək.*
*Ondan sonra dilədiyini gör.*
*İnsan gözdən ibarətdir.*
*Geri qalansa əsarətdir.*
*Göz isə ancaq dostu göstərənə deyilir.*

Həzrəti Mövlana Cəlaləddin

Görüş ünvanı: **Cəvahirin diki**

X "a" sinif təşəbbüs qrupu
zəng və təklif gözləyir...

Əlaqə telefonları:
(8.50) 210 89 57 mobil; (8.12) 41 02 78 ev
Elman
(8.50) 314 83 99
Cəfər

*Əziz Elman!*




Əgər,
25 il keçmişə qayıtmaq
istəsən
Pəncərə deyilən bu dünyaya
baxa-baxa keçəndə
ötənləri
bir daha yaşamaq istəsən ...
Əgər,
son zəngdən məhrum
gənclik dünyan
bu səsi
yaşamaq istəsə
Əgər,
17 yaşın istəyi ilə
istəsən ...
Əgər,
istəsən...
istəsən...
Düşün ...
Əgər,
doğrudan istəyirsənsə,
onda
*25 may 2001-ci ildə səhər saat 7-də Naxçıvan şəhər C. Məmmədquluzadə adına 2 saylı orta məktəbdə*
olmaq yetər.

## *Qonşum Elman*

Dostların sayı azaldıqca onların qiymətini yaxşı başa düşürəm. Elman yaxşı dost və qonşu idi. Mən Naxçıvanda Elmanla bir binada böyümüşəm. Onu uşaqlıq illərindən tanıyırdım. Hz. Məhəmmədin bir kəlamı var: ən böyük sədəqə biliyi bilməyənlər arasında yaymaqdır Elman məhz həmin insanlardan idi. Onun çox gözəl musiqi duyumu var idi. O yaxşı tar çalırdı və mən dəfələrlə onun tarda ifasına qulaq asmışam. Bütün dərdləri səbirlə yola vermək olar. Mən dostum Elmanın ailəsinə səbir diləyirəm. Allah ona rəhmət eləsin.

***Əli Hüseynov Nadir oğlu***

## *Yüksək zəkalı...*

Elman İslam oğlu Əliyev - yüksək zəkaya, dərin biliyə, möhkəm yaddaşa, ciddi xarakterə, elmi və təkzibolunmaz məntiqə malik dəmir iradəli bir şəxs. Bu sözlərin hər biri ayrı-ayrılıqda müəyyən "fərdi" səciyyələndirmək üçün kifayət edə biləcək anlayışlardır. Lakin həmin xüsusiyyətlərin hamısı birlikdə və bütövlükdə Elman şəxsiyyətini səciyyələndirmək, onun daxili aləmini açmaq, onu geniş auditoriyaya təqdim etmək üçün kifayət etmir. Onun haqqında keçmiş zamanda yazmaq çox çətin və həddindən artıq ağırdır. Elman "şəxsi" kateqoriya çərçivəsindən çıxmış və artıq çoxdan "ictimailəşmiş" bir fərd idi. Onun üçün ictimai mənafe öndə olmuş olsa da, şəxsi və ailəvi maraqlar da vacib əhəmiyyət daşıyırdı. Çətinliyə düşmüş hər bir dost üçün "təcili və təxirəsalınmaz yardımçı" rolunda çıxış etməyi Elman həyati zərurət hesab edir və bu prinsipə ciddi əməl etməyi özünə mənəvi borc bilirdi. Ailəsinə son dərəcə sadiq, uşaqları üçün həyatını qurban verməyə hazır olan bir şəxs. Elmi biliklərinin hüdudlarını müəyyən etmək mümkün deyildi. Tarixçi onu bir tarixçi kimi, ədəbiyyatçı - bir ədəbiyyatçı kimi, alim - bir alim kimi, filosof - bir filosof kimi qəbul edir, beləliklə, ünsiyyətdə olduğu hər bir elm adamı onu "özününkü" kimi qəbul edir və həmin şəxslər Elmanın hansı sahənin nümayəndəsi olduğunu aydınlaşdırmağa ehtiyac da duymurdular. Çünki tarix, ədəbiyyat, fəlsəfə, ilahiyyat və sair elm sahələrindəki bilgilər və məlumatlar, məntiqi mülahizələr belə fikirləşməyə əsas verir və insanlara gəldikləri nəticənin həqiqət olduğunu aşılayırdı. Cəmiyyət üçün son dərəcə yararlı ola biləcək bir şəxsin həyatdan belə erkən köçməsi, onu tanıyanların və hətta tanımayanların uma biləcəkləri mənəvi yardımdan məhrum olmaları, yüksək insani keyfiyyətlərə malik şəxsin vaxtsız itirilməsi deməkdir. Bizlər həmişə gözümüzün önündə olan əvəzsiz varlığın qədir-qiymətini, nədənsə, onu itirdikdən sonra daha çox bilməyə çalışırıq. Elmanın

yoxluğu isə özünü dərhal büruzə verdi və biz qiymətsiz şəxsin itirilməsi faktı ilə üz-üzə qaldıq. Elman haqqında sonsuz fikirlər söyləmək, xatirələr yazmaq olar. Hələlik ilkin olaraq düşüncəmə gələnləri qələmə aldım və bunları diqqətə çatdırmağı özümə mənəvi borc bildim.

***Hörmətlə, Abdul Bağırov***
***08 oktyabr 2011-ci il, Bakı şəhəri***

## *Qarışdı torpağa, üz hayıf oldu!..*

Naxçıvana-düz dağına müalicəyə getmişdim.

Bakıda baş verənlərdən xəbərim yox idi. Evə döndükdə qızım İradə dedi ki, dostumuz Elman rəhmətə gedib...

Elman və Şəmidə... Bizə çox yaxın iki adam, iki dost.

Elmanı 1996-cı ildən tanımışıq...

Elman və Şəmidə... Bu iki sadə, saf insan bizə ən yaxın adam oldular.

Elman mənə ana deyərdi, Məmməddən sonra da yoldaşı ilə birlikdə həmişə məndən xəbər tutardılar.

Bəli, Elmanı oğlumuz kimi qəbul etmişdik... Və bir oğul kimi də Məmməd Araz ailəsinə yaxın olub. Saatlarla Məmmədlə birlikdə işləri müzakirə edərdilər. Fikirləri elə tutardı ki, Məmməd mat qalardı.

- Məmməd müəllim, şerlərinizdəki məqamları aydınlaşdırmaq üçün İbn Sinanı və Nəsrəddin Tusini təzədən oxumuşam və bir çox fikirləri özüm üçün aydınlaşdırmışam, - deyərdi, Elman.

Elmanın 90-cı ildən bu tərəfə çəkib saxladığı kadrlar, xəbərlər böyük bir tarixdir.

Bu tarixə kim sahiblik edəcək, kim onu üzə çıxaracaq, bilmirəm...

Elə Məmməd Arazın özünə aid nə qədər görülməli kadrlar, eşidilməli fikirlər var orada...

Məmməd Araz yaradıcılığını Qobustan qayalarının tarixi ilə bağlayıb yaxşı bir film yaratmaq arzusu vardı...

Deyirəm, çaşıb Məmməd Arazşünaslar tapılsa, Elmanın çəkib saxladığı arxivdən heç kimin eşitmədiyi fikirləri, görmədiyi kadrları çox şey tapa bilər. Və bitkin bir elmi əsəri xalqın istifadəsinə verə bilər.

Bir də onu əlavə edim ki, Elmanın çəkib saxladığı arxivdən bütün sənət sahibləri öz sənətlərinə aid nəsə tapa bilərlər.

Elman bu tarixi yarımçıq qoyub getdi. Bu arxiv böyük bir tarix deməkdi. Hər halda övladları onun arzularını həyata keçirməyə cəhd edərlər.

“Bu arxiv böyük bir tarixdir. Özü də yazılmamış, deyilməmiş bir tarix .

Elman bu həyatla uzlaşmayan bir ziyalı idi. O həyat həqiqətlərini olduğu kimi izah edər, başqa don geydirməzdi. Bir ürəkdən nələr gəlib keçdiyini sözlə ifadə etmək çox çətindir... Elə Elman haqqında da...

Bir daha qayıdışı mümkün olmayan keçmişi geri qaytarmaq arzusu ilə...

***Gülxanım Fətəliqızı***
***08.10.2011***

## *NURGƏZDİRƏN*

*(Görkəmli ziyalı Elman Əliyevin nurlu xatirəsinə)*

Gəzdirərdi sonsuz ümman nurunu,
İslam ocağından ürfan nurunu.
Yanmayan gəzdikcə möcüzələrlə,
Əcəmidən Nəqşi-cahan nurunu.
Nuhun sorağında Gəmiqayadan,
İlkdən gələn ağır karvan nurunu.
Əxz edib "Mağara qardaşları" tək
"Əshabi-Kəhf" içrə asman nurunu.
Nəsrəddin Tusidən dərs ala-ala,
Ayrılmaz elm ilə iyman nurunu.
"Fatehlər divanı"n qurduqca bir-bir,
Tacdan uca duran sultan nurunu.
Tuğ qaldırıb daim yalana qarşı,
Həqiqət önündə vicdan nurunu.
Təbriz baharını qəribsədikcə,
Şah İsmayıl kimi azman nurunu.
Cavid amalın həkk edərək qəlbə,
Turan ilə əhdü-peyman nurunu.
Məmməd Araz ilə dərdləşdikcə hey,
Yanar Sözdən qalxan tüğyan nurunu.
Qarabağ deyəndə, Vətən deyəndə,
Ön sırada mərdi-meydan nurunu!
İlham verən parlaq zəfərlər ilə,
Azərbaycan boyda dastan nurunu!
Səmavat necə də tez özləyərmiş,
Mövləviyə həmdəm insan nurunu!
Göy səslədi onu, qucduğu yerdə,
Şamaxı yolunda Şirvan nurunu!
Hələ açıldıqca sirləri bir-bir,
Yurda bəxş edəcək Elman nurunu!..

***Akif Azalp* (17.09.2011)**

## *Ziyalı siması və Nurgəzdirən obrazı*

Tanınmış ziyalı Elman Əliyevlə şəxsi tanışlığım olmasa da, onun xeyirxah əməlləri, əsl ziyalılara xas intellektual səviyyəsi və vətəndaşlıq qeyrəti haqqında dost-tanışlarımdan, o cümlədən, mərhumu (Allah qəni-qəni rəhmət eləsin!) yaxından tanıyan qələm dostum və tələbə yoldaşım Akif Azalpdan dəfələrlə eşitmişdim. Ona görə də təfəkkürünün yetkinləşdiyi və əməllərinin yenicə çiçəkləndiyi bir vaxtda Elman Əliyevin gözlənilməz ölümü başqa çoxsaylı dostları və tanışları ilə birgə, onu şəxsən tanıyan və tanımayan bütün Elmansevərlərin sırasında məni də bərk sarsıtmışdı...

Ancaq düzünü etiraf edim ki, bu itkinin nə qədər böyüklüyünü də, Elman Əliyevin ziyalı və vətəndaş əzəmətini də mən özüm üçün tam mənada “Ədalət” qəzetinin əlamətdar sayında (27 oktyabr 2011-ci il) dahi şairimiz Məmməd Arazın (Allah ruhunu həmişə şad eləsin!) ömür-gün yoldaşı Gülxanım Fətəliqızının “Qarışdı torpağa, üz hayıf oldu!...” sərlövhəli xatirəsini və onunla yanaşı Akif Azalpın “Nurgəzdirən” adlı şeirini oxuduqdan sonra kəşf etdim.

Mən janr xüsusiyyətlərinə görə bir-birindən kəskin şəkildə fərqlənən bu iki nümunənin nəinki bir-birindən xəbərsiz yazıldığına, hətta xatirə müəllifi ilə şeir müəllifinin şəxsən tanış olmadığına qəti əminəm. Belə olduğu təqdirdə, Elman Əliyevin xatirədə əks etdirilmiş ən səciyyəvi cəhətləri ilə şeirdə canlandırılmış ən əlamətdar cizgilərinin çox qəribə şəkildə və heyrətamiz dərəcədə üst-üstə düşməsi onun ziyalı ucalığının və vətəndaş böyüklüyünün ən gözəl isbatı deyilmi?! “Kəşf etdim” – deyərkən, mən, hər şeydən öncə, bax, bunu – Elman Əliyevin hər iki nümunənin kəsişmə nöqtəsindən, müştərək baxış bucağından yüksələrək, yaddaşlara həkk olunan nurlu portretini və obrazını nəzərdə tuturam. Bu portreti və obrazı yığcam və parlaq cizgilərlə, çoxçalarlı təşbehlərlə canlandırıb, oxucu kütləsinə

təqdim edən baxışların tarixi və coğrafi miqyasına gəlsək, onlardan birinin Elman Əliyevlə Məmməd Arazın çoxillik yaradıcılıq əlaqələrinin canlı şahidi, böyük şairin böyük yadigarı (Allah uzun ömür və cansağlığı versin) Gülxanım Fətəliqızına, digərinin isə çağdaş özbək və Azərbaycan poeziyasında mənsub olduğu ədəbi nəslin istedadlı nümayəndəsi Akif Azalpa məxsusluğunu vurğulamaq yerinə düşərdi.

Gəlin, yaxşısı, məsələyə aydınlıq gətirmək üçün mətndaxili (kontekstual) təhlilin imkanlarından istifadə edərək, hər iki nümunəni bir-birinə yaxınlaşdıran ortaq cizgilərdən birinə, xatirənin sərlövhəsinə ("Qarışdı torpağa, üz hayıf oldu!...") və şeirin adına ("Nurgəzdirən") diqqət yetirək. İlk baxışda onlardakı sözlərdən hər hansı biri digərində olmadığı üçün onların ifadə etdikləri mənalar arasında da təmas nöqtəsi yox kimidir. Ancaq bu yalnız ilk baxışda belədir. Dərindən fikir verdikcə, hər iki sərlövhədəki mənaların mərkəzində, əsasında "işıq", "nur", "ziya" anlayışlarının dayandığı məlum olur. Xatirənin sərlövhəsində bu mahiyyətə varmaq üçün bizə "üz" sözü bələdçilik edir. Yaddaşımızda "üz"ün "işıq" assosiasiyası doğurmasından başqa, üstəlik, biz xalqın ənənəvi baxışından və çoxlu deyimlərindən onu da yaxşı bilirik ki, söhbət artıq sadəcə və hərfi mənadakı, adi "üz"dən deyil, torpağa qarışmaqla hayıf olan "üz"dən, itkisi ilə təəssüf doğuran "üz"dən, başqa sözlə, "nurlu üz"dən gedir. Nurlu üz isə öz növbəsində ziyalı simasının ilkin əlamətlərindən sayılır. Göründüyü kimi, xatirənin sərlövhəsi Elman Əliyev haqqında bədii-publisistik üsluba uyğun çox uğurlu tapıntıdır. İkinci sərlövhəyə, yəni şeirin adına gəlsək, şair burada ziyalı anlayışı ilə sıx əlaqədar olan "nur" məfhumunu birbaşa ön sıraya çıxarsa da, Elman Əliyev fəaliyyəti və təbiətinin ənənəvi sözlərə və ölçülərə sığmadığını hiss edib, dilin yaddaşına və imkanlarına arxalanaraq yeni söz və yeni obraz yaradır. Bu mənada "Nurgəzdirən" şeirinin sərlövhəsini də eyni cəsarətlə istedadlı şairin özünəməxsus poetik kəşfi kimi qiymətləndirmək lazımdır.

İstər Gülxanım Fətəliqızı qələminə məxsus xatirənin, istər Akif Azalp şeirinin Elman Əliyev haqqında qarşınızdakı kitabdan yer aldıqlarını nəzərdə tutub, hər iki nümunəyə dair qısaca fikirlərin yekununda bir həqiqəti də vurğulamaq istəyirəm. Bu örnəklər Elman Əliyevin işıqlı xatirəsini yaşatdıqca, gələcəkdə daha ciddi, daha geniş tədqiqat və məqalələrin mövzusu olacağına əminəm. Bir də mən ilk dəfə bu yazıları "Ədalət" qəzetində oxuyanda Elman Əliyev kimi bir aydınla şəxsən tanış olmadığım üçün necə təəssüf hissi keçirmişəmsə, o hissi başqalarının da keçirəcəyinə inanıram!..

***Yaşar Azsoy***
***Azərbaycan Yazıçılar Birliyinin və***
***Özbəkistan Yazıçılar İttifaqının üzvü,***
***filologiya elmləri üzrə fəlsəfə doktoru***

## *Rəhmətlik əziz-aqil-ağır dostum, sirdaşım Elman İslam oğlu Əliyev haqda xatirələrimin xülasəsinin xülasəsi*

Mən Elmanı 2005-ci ilin əvvəllərindən yaxından tanımağa başlamışam. (baxmayaraq ki, eyni şəhərdə anadan olmuşuq, bir-birimizi görürdük, tanıyırdıq, o, Babək rayon partiya komitəsində təlimatçı işləyərkən mən də 1988-1990-cı illərdə həmin rayonda İctimai İaşə birliyinin direktoru olmuşam.)

2004-cü ilin son günləri idi, Naxçıvanda qonşumuz, rəhmətlik dostum Arif Mövsümovun anası Əxtər xala rəhmətə getmişdi. "Qurd Qapısı" deyilən yerdə dəfn mərasimində, bir nəfər mənə yaxınlaşıb, özünü təqdim etdi: - "Mən Rafiqəm, Şəfi ustanın oğluyam, qardaşım Hacı Salman (Samik) Məmmədli Əshabi-Kəhf haqqında kitab buraxdırıb həmin kitabla tanış ol, xoşun gələrsə tanıdığın ziyalılara paylamaqda kömək elə!" - deyə müraciət etdi.

Kitabla tanış oldum, çox xoşuma gəldi. Sonralar Rafiq məni qardaşı Hacı Salmanla (Samiklə), o isə rəhmətlik Elmanla tanış etdi. Məlum oldu ki, Əshabi-Kəhf kitabını bir yerdə buraxıblar. Elman kitabın mətnini və kitabla əlaqəli bütün foto, video çəkiliş və dizayn işlərini görmüşdü, "Oskar" nəşriyyat-poliqrafiya müəssisəsində dəfələrlə çox nəfis üsulla nəşr olunmuşdu. Elman bu kitabın hazırlanmasında – nəşrində müstəsna xidmətlər göstərmişdi. Hacı Salmanın təklifi və xeyir-duası ilə "Əshabi-Kəhf" adlı internet saytı yaratmaq üçün araşdırmalara başladıq, Elmanla mədəniyyət məsələləri üzrə əməkdaşlığımız davam etdi. Mənim "Xətai" metrosunun yaxınlığında yerləşən ofisimdə birgə oturaraq, çalışmaq qərarına gəldik. Köməkçim Anar Həsənzadədən xahiş etdim ki, internetdə "Əshabi-Kəhf" barədə araşdırma aparsın. Müəyyənləşdirsin ki, bu adda sayt mövcuddur ya yox? Məlum oldu ki, bu adda sayt mövcud olmasa da rus jurnalisti və eyni zamanda, alpinisti A.N.Polyakovun

“www.poan.narod.ru.” saytında dəfələrlə Əshabi-Kəhfin adı çəkilir (bu çox uzun tarixə malik bir əhvalat olsa da, ümumiyyətlə, Elman şəxsiyyətini səciyyələndirmək və təqdim etmək baxımından önəmli olduğu üçün baş vermiş hadisələri qısa şəkildə də olsa, çatdırmağa çalışacağam). O da məlum oldu ki, həmin A.Polyakov, yanında da guya dünya xalqlarının 99 dilini bilən V.Melnikov və başqaları, 2004-cü ilin ikinci yarısında Naxçıvan MR-na səfər etmiş, Xaraba Gilan, İlanlı dağ, Əshabi-Kəhf, Qarabağlar, Naxçıvan, Ordubad və digər bölgələrdə tarixi abidələri araşdırma adı altında iki gün ərzində gəzmiş, bu diyarın tarixi barədə öz internet saytı və digər KİV-də tarixi mənbələrdən indiyədək məlum olmayan, əsasən gizli saxlanılan sensasiyalı açıqlamalar verməyə başlamışdı. Ümumiyyətlə, bu diyarın tarixi barədə internet saytlarında və digər informasiya kanallarında bəzi anlaşılmaz təxribat xarakterli məlumatlar baş alıb gedirdi:

- “Nuh Peyğəmbərin (ə.s) qəbri Naxçıvandadır (eyni zamanda, qeyd edilirdi ki, həmin qəbri 1960-1970-ci illərdə Naxçıvanlılar buldozerin qabağına qataraq dağıdıb, məhv ediblər).

- Nuh Peyğəmbərin (ə.s) gəmisi Gəmiqayadadır (baxmayaraq ki, o Naxçıvanda olarkən, Gəmiqayaya gedə bilməmişdi, Naxçıvandan qabaq isə Türkiyədə Ağrı dağına Rusiyanın bayrağını aparıb, iddia edirdi: - Daha “Nuhun gəmisini Ağrı dağında axtarmaq lazım deyil, o elə burada – Naxçıvandadır”.

- Naxçıvan Nuh (ə.s.) daşqınından sonra dünya mədəniyyətinin və sivilizasiyasının ilk təkrar yaranış məskənidir.

- Nuh (ə.s.) su çəkildikdən sonra Əshabi-Kəhf mağarasında yaşamış və sonra Naxçıvanın təməlini qoyaraq ora köçmüşdür.

- A. Polyakovdan qabaq Tibetdən Naxçıvana gəlmiş kahinin və V.Melnikovun dediyinə görə, Əshabi-Kəhf mağarasında enerji çox güclüdür və bu məkan dünyada olan müsbət enerji məkanlarından ən önəmlisidir.

- Naxçıvan, ümumiyyətlə, tarix baxımından öyrənilməmiş qoruq kimi qalmışdır və onun öyrənilməsinə Rus və dünya

alimlərini cəlb edərək, bu araşdırmaları biz apara bilərik. Məhz bu səbəbdən də ekspedisiyamız bu yöndə işlərə dünya alimlərinin iştirakı ilə gecikmədən başlamalıdır.

- Azərbaycanda elm yoxdur, alim yoxdur, dövlətin də gücü çatan iş deyil, MEA-nın rəhbərliyi ilə görüşmüşəm və razılığa gəlmişik ki, biz bu dünya əhəmiyyətli məsələni araşdıraq və dünyanı heyrətə gətirəcək elmi kəşfləri ortaya qoyaq."

Bir az sonra isə həmin saytda yeni daha da maraqlı və eyni zamanda, çox qorxulu başqa məqamlar üzə çıxmağa başladı:

- Qriqori Potocski adlı bir dünya şöhrətli heykəltəraşa sifariş verirlər ki, Nuh Peyğəmbərə (ə.s.) heykəl düzəltsin, o düzəldir və heykəlin əksini də internetdə yerləşdirirlər (xristianlığı təqdim edən şəkildə arxası dairə). Həmin heykəli Nuh Peyğəmbərin (ə.s.) Naxçıvanda sovet dönəmində uçurulmuş məqbərəsinin yerində yox, aparıb Gəmiqayada da yox, Kiçik Qafqazın ən hündür zirvəsi olan Qapıcıqda (3904 m) yerləşdirmək qərarına gəldiklərini açıq-aşkar bildirməyə başlamışdılar. İnternetdə və sair KİV-lərdə A.Polyakov və tərəfdaşları çox böyük bir reklam təbliğat kompaniyası yaradaraq artıq Naxçıvana ekspedisiyanı təşkil etdiyini, heykəli aparıb Qapıcıqda qoyacağını əminliklə bildirərək, hətta davamlı turist marşrutu təşkil edərək həmin marşruta bilet (putyovka) satmağa başlamışdılar. Nəyə görəsə ekspedisiyanı 13 may 2005-ci il cümə gününə təyin etmişdilər.

- Ekspedisiya arxeoloji qazıntıya Əshabi – Kəhfdən və Nuh (ə.s) qəbrindən başlamalı idi.

- Ekspedisiyanın iki marşrutu var idi, biri Naxçıvandan başqa, həmdə Türkiyənin Doğubəyazit şəhərini də özündə əhatə etmişdi.

- Bütün araşdırmalar və tədqiqatlar özləri ilə gətirdikləri birbaşa televiziya yayımı vasitəsi ilə bütün dünyaya translyasiya edilməli idi və s. və i.a.

Elmanla birlikdə materiallarla diqqətlə tanış olduqdan sonra, onlarla Hacı Salmanı və yaxın dostumuz, (hal-hazırda xəstə

olduğu üçün O Böyük Yaradandan ağsaqqalımıza şəfa diləyirəm, Tanrı köməyi olsun) Mahmud Mahmudovu (əslən Şərurun, indiki Kəngərlinin Şahtaxtı kəndindəndir) da tanış etdik. Hamımızı aşağıdakı suallar düşündürürdü:

- İki gün Naxçıvanda olmaqla o cür nəticələrə gəlmək və elə sensasiyalı açıqlamalar vermək hansı məqsədi güdür və bu, ümumiyyətlə, iki günə mümkündürmü?

- Niyə bu məhz indi, 2005-ci ilin əvvəlində baş verir?

- Niyə məhz cümə günü, 13 mayda gəlib, elə həmin gün də tədqiqata başlayırlar?

- Niyə qazıntıya məhz Əshabi-Kəhf mağarasından və Nuh (ə.s.) qəbrindən başlayırlar? **Ümumiyyətlə, bu cür müqəddəs yerlərdə qazıntı aparmaq olarmı?!**

- Niyə Nuh Peyğəmbərin (ə.s.) heykəli düzəldilib və niyə məhz xristianlığı təqdim və təsvir edən (başının arxası dairə) formadadır?

- Niyə heykəl Nuhun Naxçıvan şəhərindəki tapılması ehtimal edilən qəbrinin üstündə yox, “Qapıcıq” zirvəsində - Ermənistan və Azərbaycan sərhədinin qurtardığı yerdə ucaldılır? Bu heykəli (bir neçə ton ağırlığında) ora nə üsulla və necə qoymaq olar?

- Nuh Peyğəmbər (ə.s) dönəmində, axı, indiki dinlərdən heç biri yox idi, Tanrıçılıq - tək, vahid olan Yaradana inam var idi, axı, ondan çox-çox sonra (İbrahim əleyhissəlamdan sonra) bütün səmavi dinlər, o cümlədən, Musavilik, İsavilik, Müsəlmanlıq ortaya çıxacaqdı?! Bəs ondan Nuh (ə.s.) xristianlığı haradan peyda oldu?!

- A. Polyakovun yazdığı kimi, “Нахичевань станет местом паломничества миллионов и миллионов людей” (yəni Naxçıvan milyonlarla insanların ziyarətgahına çevriləcəkdir) fikri baş tuta bilərmi? Ola bilərsə, bu Azərbaycana və Naxçıvana nə verəcək? Tərəzi kimin xeyrinə işləyəcək? Biz itirən tərəf olaraq zaman-zaman itirdiyimiz torpaqlar kimi (son olaraq 1988-1994-cü illər göz önünə alınaraq) Naxçıvanı da itirmərik ki?!

- Doğrudanmı Azərbaycanda bu məsələləri araşdıra bilən alimlər yoxdur?

- Bu işləri, ümumiyyətlə, kim maliyyələşdirir və bu kimə lazımdır, sonu hara gedir bu işin?

- Ümumiyyətlə, Respublika rəhbərliyinin və hökumətin müvafiq orqanlarının bu işdən xəbəri varmı?

Əlbəttə, suallar siyahısını daha da artırmaq olar, lakin mən bu yazıda bunlarla hələlik kifayətlənmək qərarına gələrək, rəhmətlik Elmanın, xüsusilə, vurğuladığı bir neçə sualı da ayrıca qeyd etmək istərdim:

- Axı niyə A.Polyakov və dəstəsi bu qədər tələsir? Axı Gəmiqayaya ancaq və ancaq yayın ən isti vaxtı-iyulun sonu – avqustun əvvəli qaxmaq olar, niyə onlar may ayında, yəni üç ay əvvəl bura gəlib, Nuh Peyğəmbərin (ə.s.) heykəlini də gətirirlər?

- Birbaşa televiziya yayımı (ən maraqlısı və qorxulusu, Elmanın fikrincə bu idi) niyə olmalıdır, nəyisə özlərinə lazım olan kimi dedikdən-göstərdikdən sonra hansı qorxulu, qarşısı alınmaz məqamlarla biz üz-üzə qala bilərik?

www.poan.narod.ru

# АНДРЕЙ ПОЛЯКОВ. НОЕВ КОВЧЕГ

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| В поисках Ноева Ковчега 2004 | Экспедиции 2003-2004 | Нахичевань - родина послепотопного человечества | Нахичевань: по следам Ноя 2004 | А смысл? | Рекомендую | Гостевая книга | Форум | E-mail | AddWeb | Книги на Эсперанто |

*...и нарёк тому сыну имя Ной, ибо он утешит землю в вознаграждение за всю погибель...*



Azərbaycan Respublikası
Milli Elmlər Akademiyası
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA
İNSTITUTU
Bakı Az 1143.,H.Cavid pr.,31
Tel.: 439-36-49, 439-36-61
Yasamal YXO
Hesab Nc-si: COR-324665 AZM-3201-01
VÖİN: 130013064
№ 52-7-35

Национальная Академия Наук
Азербайджанской Республики
ИНСТИТУТ АРХЕОЛОГИИ
И ЭТНОГРАФИИ
г.Баку,Аз. 1143.,пр. Г.Джавида, 31
Тел.:439-36-49, 439-36-61
Ясамальский ОК
№ счета: COR-324665 AZM-3201-01
ВОИН: 130013064
«2» ...... 2005 г

Azərbaycan MEA-nın Humanitar
və İctimai Elmlər Bölməsinin
Akademik katibi A.A.Axundova

Hörmətli Ağamusa müəllim!

Azərbaycan Respublikası Xarici İşlər Naziri E.Məmmədyarovun AMEA-nın prezidenti M.K.Kərimova ünvanlanmış 4/5-028/01 №-li məktubunda qeyd olunan rus jurnalisti A.Polyakovun Naxçıvan MR abidələrində arxeoloji qazıntılar aparmaq təklifinə Arxeologiya və Etnoqrafiya İnstitutunun mütəxəssisləri tərəfindən baxılmış və rəy yazılmışdır.

Əlavə: Rəy- 3 səh.

Hörmətlə
İnstitutun direktoru: A.A.Abbasov

По следам Ноя
Экстремально-познавательная экспедиция в Нахичевань и восхождение на Арарат
14 дней/13 ночей

Для сборных групп
Сроки проведения Май - Сентябрь
Программа экспедиции:
1 день
Прилет в Нахичевань, встреча в аэропорту. Размещение в гостинице. Ужин.
2 день
Открытие Экспедиции. Знакомство участников друг с другом. Обзорная экскурсия по городу **Нахичевань: Музей под открытым небом; Музей ковров;** другие объекты (по желанию участников экспедиции).
3 день
Выезд в **пещеру «Асхаби-Кэф».** Эта пещера упоминается в **18-й суре Корана,** в ней рассказывается о семи праведниках, которые проспали по воле Всевышнего 309 лет.
Выезд в город **Хараба-Гилан.** Покорение вершины холма, на котором располагается рукотворно пирамидальнообразное строение неизвестного происхождения.
4 - 5 дни
Восхождение на **гору Джамигая.** Сюда, согласно местным легендам, **причалил Ковчег Ноя.**
6 день
Переезд до **Догубейазита.** Ночь в отеле в Догубейазите.
7 день
Трансфер до деревни **Эли** (2000 м). **Восхождение до первого лагеря** (3200 м), 3-часовой переход. Ночь в палатках. (На данный участок можно нанять лошадей).
8 день
Выход на высоту 4200 метров. Возвращение на 3200 м. (4 часа ходьбы).
9 день
Переход в лагерь 4200 м. Установка палаток. Ночь в палатках (на 4200 м.).
10 день
Восхождение на вершину (5165 м.). Спуск в лагерь на 4200 м.
11 день
Снятие лагеря. Спуск до деревни Эли. Трансфер до отеля в Догубейазите. Ночь в отеле.
12 день
Резервный день (на случай плохой погоды). В случае удачного восхождения в день 6-й - в этот день экскурсии в районе Догубейазита: **посещение музея Ноева Ковчега, Метеора** (место падения метеорита на границе между Турцией и Ираном), посещение **дворца Исхак Паши.**
13 день
Завтрак в отеле. Трансфер в Нахичевань.
14 день
Вылет в Москву.
Цены уточняются.
**Размещение:** гостиницы г. Нахичевань (3-4*), г. Догубейазит (3-4*), палатки.
***<u>В стоимость включено:</u>*** разрешение на восхождение; трансферы; экскурсионная программа; проживание в гостинице и палатках; услуги сопровождающих; 3-х разовое питание и полупансион; транспортные услуги; повар; использование группового и специального оборудования; страховка.
Примечание:
Предоплату, в размере 30% от полной стоимости тура, необходимо внести за 2,5 месяца до поездки. Эта сумма является невозвращаемым взносом. Полная оплата вносится за 1 месяц до поездки.
Внимание: за 2,5 месяца до начала экспедиции набор на программу закрывается!

***Интересно, как Турция относится к этому вопросу?***

*Они себя вот так уверенно чувствуют!*

**По следам Ноя**
**Экспедиция в Нахичевань**
**Экстремально-познавательная экспедиция в Нахичевань в составе группы ученых, журналистов и исследователей**
**13 - 22 мая**
**10 дней – 9 ночей**
**Программа экспедиции:**

**Экскурсионная программа**: обзорная экскурсия по городу Нахичевань; Музей под открытым небом; Музей ковров; посещение Могилы Ноя; пещера «Асхаби-Кэф»; древний город Хараба-Гилан; горы Иландаг и Джамигая.

***1 день(13 мая)***

Прилет в Нахичевань, встреча в аэропорту. Размещение в гостинице. Ужин.

***2 день**(**14 мая)***

Открытие Экспедиции. Знакомство участников друг с другом. Обзорная экскурсия по городу **Нахичевань: Музей под открытым небом, Музей ковров**, другие объекты (по желанию участников экспедиции).

***3 день(15 мая)***

Выезд в пещеру **«Асхаби-Кэф»**. Эта пещера упоминается в **18-й суре Корана**, в ней рассказывается о семи праведниках, которые проспали по воле Всевышнего 309 лет.

Торжественное открытие Экспедиции. Начало археологических, геологических, палеонтологических и других научных работ в пещере.

***4 день(16 мая)***

Выезд в город **Хараба-Гилан**. Покорение вершины холма, на котором располагается рукотворно пирамидальнообразное строение неизвестного происхождения.

Продолжение научных работ. Археологи остаются на месте раскопок.

***5-6 день(17-18 мая)***

Восхождение на гору **Иландаг**. Проведение научных работ.

***7-8 день(19-20 мая)***

Восхождение на гору **Джамигая.** Сюда, согласно местным легендам, **причалил Ковчег Ноя.**

Проведение научных работ.

***9 день(21 мая)***

Город Нахичевань. Начало раскопок **Могилы Ноя** (возможно, начало раскопок будет в день открытия, а в этот день можно будет обнародовать их предварительные результаты).

***10 день(22 мая)***:

Участники, не задействованные в дальнейших раскопках, отправляются в Москву.

**Размещение:**

Гостиницы г. Нахичевань (3-4*).

**Цены уточняются.**

***В стоимость включено**:* трансфер – Аэропорт - Отель; экскурсионные программы; проживание в гостинице; услуги сопровождающих; услуги гида; 3-х разовое питание.

*Они себя вот так уверенно чувствуют!*

- Televiziyanın, ümumiyyətlə, KİV-in işini gözəl bilən bir mütəxəssis kimi rəhmətlik Elman həm də tarixi, folkloru, ədəbiyyatı, dilçiliyi gözəl bildiyi, uzun müddət Babək rayon Partiya komitəsində, özü də təşkilat-təbliğat şöbəsində işlədiyi üçün bu məsələləri və bu işlərin verəcəyi nəticələri əvvəlcədən yaxşı təsəvvür edirdi.

Dəfələrlə dörd nəfər – rəhmətlik Elman, Mahmud müəllim, Hacı Salman (Samik), və mən bir yerə yığışaraq, yuxarıda göstərdiyim məsələləri birlikdə müzakirə edirdik. İş vaxtı Mahmud müəllimin və Hacı Salmanın vaxtı az olduğundan hər gün əsasən sübh çağı saat 6-da Botanika bağında görüşərək, həmin gün nə edəcəyimizi konkret müəyyənləşdirir və planlaşdırdığımız işləri görməyə çalışırdıq. Elman onda Papanin küçəsində, mən isə A. Sultanova heykəli yaxınlığında yaşayırdım, Elman hər gün səhər tezdən gəlib məni öz köhnə, ağ rəngdəki 10-623 nömrəli jiqulisi ilə götürər, biz Botanika bağına gedər, sonra evə qayıdıb, daha sonra yenə Elmanla birgə "Xətai" metrosu yanındakı ofisə gələrdik.

**TANRI ÖZ HÜZURUNA GEDƏN YOLU bizim üçün açmağa başladı.**

Düşüncələrimiz, xoş niyyətlərimiz öz bəhrəsini verdi, tezliklə çoxlu alimlərlə, ziyalılarla, vətənsevərlərlə dövlət orqanlarının məsul işçiləri ilə bu məsələlərlə əlaqəli görüşlərimiz baş tutdu... Bir neçə önəmli xidməti olan şəxslərin adlarını çəkmək istərdim (gündəlik qeydlər aparmadığım üçün kiminsə adını çəkməsəm, inciməz, deyə düşünürəm). Rəhmətlik Elman isə bu cür məsələlərə çox diqqətli idi, gündəlik də aparırdı. Nə vaxtısa o yazılar ortaya çıxarsa, mənə də Tanrı əgər ömür, sağlamlıq, işləmək, düşünmək qabiliyyəti verərsə, bu məsələyə yenidən qayıtmaq qənaətindəyəm, eyni zamanda, həm də rəhmətlik Elmanın yaradıcılığına, düşüncələrinə, arxivinə də, qismət olsa, yenidən dönərik, İnşallah !!!

Mətləbdən yayınmadan ilk əvvəl filologiya elmiləri doktoru, böyük ədəbiyyatşünas, türkçü, dilçi alim Elməddin Əlibəyzadəni və rəhmətlik filologiya elmlər namizədi "Gəmiqaya-Qobustan əlifbası", "Dədə-qorqud yolu", "Dədə-qorqud sözü" və s. bu kimi çoxlu əsərlərin müəllifi Əjdər Fərzəlini və tarix elmləri doktoru Abbas Seyidovu qeyd etməliyəm. Onlar bir çox qəzet və digər KİV, xüsusən, "Kredo" və "Mərkəz" qəzetlərində A.Polyakovun əleyhinə məqalələrlə çıxış etməyə başladılar. Eyni zamanda, AMEA-nın Arxeologiya, Tarix, Ədəbiyyat, Dilçilik institutlarının əməkdaşları ilə, AMEA-nın prezidenti, (**İmran Əzim oğlu Mehdiyevin köməyi ilə)** Azərbaycan Respublikası XİN-nin nəzdində fəaliyyət göstərən YUNESKO-nın Azərbaycan nümayəndəliyinin rəhbəri Şahin müəllimlə, M.Mahmudovun köməyi ilə MTN-nin işçiləri ilə və s. və. i.a. görüşməyə başladıq. Elman Əliyev müxtəlif dövlət orqanlarına – AMEA-ya, Heydər Əliyev adına Fonda, Mədəniyyət Nazirliyinə, Azərbaycan televiziyasına, Qafqaz Müsəlmanları İdarəsinə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinə ümumi həcmi yüz səhifələrlə ölçülən müraciətlər hazırlamağa başladı. KİV-də həm bunların bir qisminin işıqlandırması, həm də alimlərin müntəzəm çıxışları öz bəhrəsini verməkdə davam etdi. Lakin, xüsusilə, bu məsələdə Naxçıvan Muxtar Respublikası Rəhbərliyini, Naxçıvanın müxtəlif qurumlarını və o cümlədən, AMEA-nın Naxçıvan bölməsinin, Tarix, arxeologiya və etnoqrafiya institutunun, eyni zamanda, Naxçıvan Dövlət Universitetinin Rəhbərliyini, AMEA-nın həqiqi üzvləri İsmayıl Hacıyev və İsa Həbibbəylini, müxbir üzvlər H.Q.Qədirzadə və V.Baxşəliyevi, eləcə də başqalarını qeyd etmək yerinə düşərdi.

*Son dərəcə yüksək qətiyyət və əzmkarlığı isə Ulu Öndər H.Ə. Əliyevin yetirməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İ.H.Əliyevin yaxın silahdaşı, Naxçıvan MR Ali Məclisinin Sədri, çox hörmətli Vasif Talıbov göstərdi.*

*Polyakovun qarşısını O BÖYÜK YARADANIN-ULU TANRININ köməyi ilə Vasif Talıbov nəinki aldı, çox böyük, möhtəşəm dövlət və hökumət qərarlarına imza atdı, Azərbaycan və Naxçıvan alimlərinin iştirakı ilə xaricdən də alimlər, o cümlədən, türkoloq alim Murad Acını da dəvət etməklə və özü də şəxsən bu məsələlərə başçılıq etməklə həmin ilin yayında Gəmiqaya, Əshabi-Kəhf, Xaraba Gilan, Qarabağlar və s. önəmli tarixi yerlərə elmi ekspedisiyalar təşkil etdi və bu andan sonra elmi-tarixi-etnoqrafik araşdırmalar bir sistem halını aldı, hər il keçirilən beynəlxalq səviyyəli tədbirlərə, AMEA-nın Naxçıvan bölməsinin gündəlik işinə çevrildi. AMEA-nın müxtəlif qurumları Naxçıvan alimlərinin dünya mədəniyyətinin, türk mədəniyyətinin Azərbaycan mədəniyyətindən qaynaqlanaraq yarandığını və bu əsasdan, bu kökdən qidalandığı fikrini yavaş-yavaş qəbul etməyə başlayaraq, istər-istəməz bu araşdırmalara - bu cür elmi yanaşmalara önəm vermək məcburiyyətində qaldılar.*

Paralel olaraq həm də Azərbaycanın görkəmli alim və ziyalılarından dəstək gördük. Mahmud müəllim Mahmudov rəhmətlik akademik Əhməd Mahmudovun yaxın qohumu idi. Onunla birgə AMEA-nın həqiqi üzvü akademik Əhməd Mahmudovun yaxın dostu Asəf Nadirovun yanına getdik. Məsələyə çox ciddi yanaşdı: Mən ona “sağ olun” deyə minnətdarlıq etdikdə o buna sağ ol düşməz, bu bizim vətəndaşlıq borcumuzdur dedikdə elə bil bizə dünyanı bağışladılar. Bir çox yerlərə zəng edib tapşırdı, o cümlədən akademik Məhərrəm Məmmədyarovla, arxeologiya institutunun direktor əvəzi Maya xanımla və s.. Bu məsələdə akademiklər Budaq Budaqovun, Nadir Seyidovun, Əli Abbasovun da göstərdiyi səyləri qeyd etməyə bilmirəm. Əli Abbasova bu məsələ barədə tarix elmləri doktoru Abbas Seyidov məlumat verdikdə o: - “Bir neçə vaxt bundan öncə Rüstəm İbrahimbəyov mənə Moskvadan zəng edib demişdi ki, ermənilər başqa millətlərin nümayəndələrinin adları ilə Naxçıvana soxulmağa çalışır, ehtiyatlı olun” – deyə, söyələmişdi. Mahmud Mahmudov da bizi akademik Əli Abbasovla görüşdürdü. Ondan

da ciddi dəstək gördük. Eyni zamanda AMEA-nın müxbir üzvi Vəli Əliyev, f.e.d. İsmayıl Vəliyev, Pənah Xəlilov, Aida Feyzullyeva, Qara Məşədiyev, tarix elmləri doktoru Bayram Allahverdiyev, 2005-ci ilin əvvəllərinədək Moskvada Rusiya Federasiyası EA-nın arxeologiya institutunun Qafqaz şöbəsində çalışan tarix elmləri namizədi – Bəhlul İbrahimli, Təhsil Cəmiyyətinin sədri Nuqay Əliyevin başqalarının da xidmətlərini qeyd etmək lazımdır.”

Həmin vaxtlar xalq şairi Nəbi Xəzri ağır xəstə idi, evində yatırdı, Elmanla birgə bir neçə dəfə onu ziyarət edib, həm əhval tutur, həm bu məsələləri müzakirə edir, həm də Elman fürsəti əldən verməyərək ondan müsahibələr alaraq video lentə köçürürdü. Nəbi müəllimin bu məsələlərdə çox ciddi qatqıları oldu, evindəki hökumət telefonundan istifadə edərək bir çox idarə və təşkilatları, şəxsləri silkələməyə nail oldu. Onun dəyərli məsləhətlərindən yaralanan Əjdər Fərzəlinin “Ноев ковчег и Гямигая Гобустанский Алфавит” kitabı “Qapp Poliqraf” nəşriyyatında (naşir Qoşqar İsmayıloğlu) çapdan çıxdı.

Bu onun 2003-cü ildə Azərbaycan ensiklopediyası nəşriyyatında İsmayıl Vəliyevin redaktorluğu ilə buraxılmış, “Gəmiqaya Qobustan Əlifbası” kitabının yenidən işlənmiş və rus dilinə tərcümə olunmuş yeni nəşri idi. Kitabın nəşrində iş adamları Tofiq Həmidov, Səfər Əliyev, Yusif Qədimalıyev öz köməklərini əsirgəmədilər, kitabın üz qabığının və ona bitişik səhifələrinin dizaynını Elman özü etdi, redaktə, korrektə işlərini birgə etdik, belə ki, həmin mətnlər bizim ofisdə yığılırdı. Belə ki, kitabdakı “Qızıl orta” məqaləsinin də əsil müəllifi rəhmətlik Elmandır (sonralar bu məqalə müxtəlif yerlərdə nəşr olundu).

**Elman rəhmətlik həmişə oxu-düşün-öyrən-öyrət deyərdi. Təəssüf ki, bunun hamısını etməyə ömür çatmadı.**

Bu fikrin təsdiqi olaraq bir faktı qeyd etmək istərdim: rəhmətlik Elmanın təklifi ilə 30 iyun 2006-cı ildə “Təhsil Cəmiyyəti” (sədr Nuqay Əliyev), eyni zamanda AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu ilə birgə “Erməni

millətçilərinin Naxçıvana iddiaları və tarixi gerçəklik" mövzusunda dəyirmi masa təşkil edildi. Elman texniki bilik və imkanlarını işə salaraq, müasir elektron vasitələrdən istifadə etməklə, gözəl bir tərtibatla həmin tədbirin yüksək səviyyədə keçirilməsinə və təbliğatına nail oldu.

2005-ci ildə A.Polyakovun Naxçıvana gözlənilən, lakin vaxtında qarşısı alınan eskpediyası nəyi göstərdi və buradan hansı nəticələri çıxarmaq olar?

***Başda onu qeyd etmək lazımdır ki, dövlətin səlahiyyətli orqanları bu ekspedisiyanın qarşısını ona görə aldılar ki, ermənilərin birbaşa olmasa da dolayı yollarla Azərbaycan torpaqlarına və onun ayrılmaz hissəsi olan Naxçıvana növbəti elmi-ideoloji-tarixi hücumu onun nəticələri ilə çox uzaqlara gedib çıxa biləcək informasiya müharibəsinin bir hissəsi olmasını birmənalı şəkildə qəbul etdilər və Elman kimi mərd, bacarıqlı, bilikli, vətənpərvər insanların torpaq, vətən, millət sevgisinin məhz olduğu kimi, təmənnasızlığına əmin olaraq, onların verdikləri təkliflərin önəmini anladılar, həm 2005-ci ildə, həm də sonralar bu təkliflərdən istifadə etdilər.***

Eyni zamanda, rus səyyahı A.Polyakova və başqalarına cavab olsun, deyə rəhmətlik Ə.Fərzəlinin "Gəmiqaya Qobustan əlifbası" kitabını rus dilində yenidən işlənməklə "Ноев Ковчег и Гямигая-Гобустанский алфавит" adda nəşrinə nail olduq.

Müəllif mətni bitdikdən sonra Elman "Qızıl Orta" (Золотая середина) adlı bir məqalə yazdı və bu məqaləyə rəhmətlik xalq şairi Nəbi Xəzri, ilahiyyatçı alim Nəriman Qasımoğlu, ümumən bu məsələlərdə böyük zəhməti keçən Mahmud Mahmudov, Anar Həsənzadə, mən və digərləri də imza etdilər. (Həmin mətin bu kitabda 279-299-cu səhifələrdə getmişdir).

Aydın məsələdir ki, bu məsələ ilə məşğul olduqca bir çox alim və ziyalılarla, önəmli düşüncə sahibləri ilə görüşürdük və bu görüşlərdən mən çox şeylər öyrənirdim. Get-gedə gözüm açılır, dünyaya, həyata, tarixə, özümün özümə baxışım dəyişirdi.

Mənim həyatım üçün önəmli olan bir məsələni xüsusilə qeyd etmək istəyirəm: məni tamamilə aydınlığa doğru – işıq-nur mənbəyinə doğru aparan məhz bu məsələ olubdur, demək olar ki, mənim həyatımın dönüş nöqtəsinə çevrilmiş bu məsələ! Bu da yazının əvvəlində qeyd etdiyim kimi, rəhmətlik Əxtər xalanın yası – Rafiq - Hacı Salman Məmmədli (Samik) – rəhmətlik Elman ardıcıllığı və bu ardıcıllığın dördlüklə təkmilləşməsi mənim sonradan çox böyük bilgilərə və mətləblərə sahib olmağıma səbəb olmuşdur. Bütün bunların kökündə rəhmətlik Elmanın “Əshabı-Kəhf” kitabının üz qabığında – “***TANRI HÜZURUNA GEDƏN YOL”un*** olması və bu yolun sonunda məni ən müqəddəs bilgilərə və dəyərlərə aparıb çıxarması danılmaz faktdır. Tam məsuliyyətlə, fərəhlə, sevinclə, minnətdarlıqla, TƏŞƏKKÜRLƏ və şükrlə deyə bilərəm ki, bu gün bu yol məni gətirib məhz Elman – El-mən (elin məni) deyən yerə, yəni ***insan = adam+iman (inam)+elm (helm) dördlüyünə çıxarmaqdadır.***

Bir tərəfdə və ən başda Rzayev Vahid Zeynal oğlu ilə şəxsi tanışlığım (bunun üçün dostum, hörmətli Hüseyn Cavadova varlığımla minnətdaram) və onunla ilahiyyat üzərində səmimi, insani münasibətlərin qurulması, digər tərəfdən isə bir çox dəyərli elm adamları, o cümlədən, Ümumdünya sistemoloqlar klubunun müxbir üzvü Tahirbəyov Bahadur Bayram oğlu və Vahid müəllimin böyük qardaşı gözəl insan, gözəl mühəndis, gözəl ziyalı “Сөзүн сирри – сәсин сирри” (Bakı, Təhsil Elm İstehsalat mərkəzi, 1998) və “SÖZ” (Bakı - 2012) kitablarının müəllifi fonemlərin ilahi açılışını izah edən Rzayev Fikrət Həsən oğlu ilə şəxsi tanışlığlarım onlarla dostluğa gətirib çıxardı.

Vahid müəllimlə və Bahadur müəllimlə Elmanı yenicə tanış etmişdim. Bir neçə dəfə və çox qısa görüşlərimiz oldu. Son görüşümüzdə Elman, Bahadur Tahirbəyov, Vahid Rzayev və Hacı Salman (Samik) bir yerdə Albert Enşteyinin “nisbilik nəzəriyyəsi işləyir ya yox?” məsələsini müzakirə edirdilər. Bahadur müəllim lövhədə məsələni bir alim kimi izah edəndə mən də onların yanına gəldim. Elman çox diqqətlə qulaq asır və suallar verirdi.

Lövhədəki həmin yazı və Eynşteyinin məşhur düsturu (E = MS$^{2)}$ indi də bizim ofisdə - lövhədə Elmandan bir xatirə kimi durur (həmin şəkil B. Tahirbəyovun Elman haqda yazdığı məqaləyə əlavə olunub). Müzakirəni otağı dəyişərək, davam etdirməyə çalışdıq. Mən orada Elmanı bir az da ruhlandıraraq, "bildiklərini sən də bölüş, tök, özün dediyin kimi, Həzrəti Məhəmmədin (s.ə.s) hədislərindəki elmin təbliği ilə bağlı "Beşikdən qəbirə kimi elm ara" fikrini həm Qurani-Kərim, həm də Nəsirəddin Tusi irsi və o cümlədən, onun məşhur "Əxlaqi nasiri" əsəri və həm də başqa qaynaqlarla əlaqəli bildiklərin, yazdıqların haqda bizə mühazirə oxu. Bu da, bax, sənin o dediyin məşhur bərabər tərəfli üçbucaqlı prizma, Türkiyəli dostumuz Borhan Yılmazın dediyi kimi yığdıqlarını tök boşalt, həm özün, həm də biz feyziyab olaq!" – dedim.

O, gedib başdakı qırmızı kresloda oturdu və dedi: - İndiyə kimi mənim fikirlərimi başa düşən auditoriya olmayıb, danışmamışam, sizə isə bunları danışmağa hazıram, mütləq gəlib danışaram, ancaq mənə bunun üçün hazırlaşmaq lazım gələcək.

Mən isə bir az da israr edərək: - Ancaq yubatma ha, gəl, gözləyəcəyik – dedim.

Bu mənim rəhmətlik Elman İslam oğlu Əliyevlə bizim ofisdə son görüşüm oldu-bir baxın, bu bir təsadüfdür, yoxsa zərurət, axı, 2005-ci ilin əvvəlində də biz Elmanla məhz bu otaqda Hacı Salmanla birgə görüşmüşdük... RAMAZAN ayının son günləri idi, 17.09.2011- ci il şənbə günü məhz ondan ayrıldığım həmin otaqda, həmin yerdə saat 14:19 da Vidadi Cəfərov (elektrik mühəndisi – rəhmətlik Elman onunla və qardaşları Vaqif müəllim və Nizami ilə avtomatika – elektrotexnika ilə əlaqəli müəyyən işlər görməyi planlaşdırırdı...) mənə zəng edərək, Elmanın Şamaxı yolunda maşın qəzasına düşdüyünü dedi, çünki, ona da o cür demişdilər, sonra isə artıq onun həyatda olmadığı vaxtda Elmanın həyatdan getməsinin səbəbi qəza yox, güclü ürək tutması və ya yüksək təzyiq olması aydınlaşdı. Yəni rəhmətlik dostum Elmanın

da qayıdış anı gəldi və o qayıtdı: "Müddət gələr, an gələr, hər bəşərin qayıdış anı gələr."

Elmanla ofisdə son görüşümüzdən sonra o rəhmətə gedənə qədər bir neçə dəfə zəngləşdik, yadına salırdım ki, imkan tap gəl mühazirələrini oxu, səni dinləməyə hazırıq, deyirdi ki, gələcəyəm. Rəhmətə getməmişdən bir neçə gün qabaq zəng etmişdi ki, gedirəm Bilgəhə istəyirsən bərabər gedək, dostumuz Mahmud Mahmudovu bir də görək – o bərk xəstə idi və bu yay boyu və ona qədər də tez-tez Elmanla gedib onu görürdük (Mahmud müəllim haqda bu yazıda müəyyən qeydlərimi vermişəm və gələcəkdə onun da haqqında müəyyən fikirlərimi bölüşməyi düşünürəm). Axırıncı dəfə də onun yanına Bilgəhə gedəndə yolda mənə bir çox sevinc doğuran şeylər danışdı, işindən, ailədən, dostlarından hətta haqqında narahat danışdığı cəmiyyətin də içərisində inkişaf, tərəqqi cücərtilərinin olduğunu sezdiyini gizlətmədi. Elə bil ki, nə isə hiss etmişdi... bir çox yaxşı şeyləri mənimlə bölüşürdü. Elə bil ki, cəmiyyətin - ətrafdakıların onu başa düşməməyindən həmişə narazı olan hirsli (bəzən haqlı) Elman indi başqa bir bucaqdan baxaraq yeni bir şeylər – uğurlar, həzz alınası dəyərlər tapmış işlərin də yenidən özü istədiyi kimi qurmaqda olan şəxs həyatda bir çox pisliklər gördüyünü və başa düşülməməyini unutmuş, ruhlanmış və qanadlanmışdı.

Nə isə... bizlik deyil, düzünü O Böyük Yaradan bilər. Böyük Yaradanın öz deyimlərini düşünərək, başa düşməyə çalışaraq ümidimizi Onun Rəhminə, Səbrinə, Mehribanlığına bağlayaq:

"Onlar ölü deyil, ölüm yoxdur, ölü deyil; etdiklərinin əksi (aynada əksi) ilədir, ölü deyil."

Yenidən qayıtmaq istəyirəm rəhmətlik Elmanla olan son elmi müzakirəyə. Beləliklə, Elman tələsirdi, dostu, sinif yoldaşı Natiq də gəlmişdi və sonra mən onu bir daha bu dünyada görə bilmədim və İnşallah etdiklərinin, yığdıqlarının əvəzini layiqincə alacaqdır... Lakin onun elm-helm haqda mənim onun əvəzindən deməyə çalışacağım aşağıdakı fikirlərini tam olmasa da, hər halda

vicdanım rahat olsun deyə bəzi məqamları açmağa cəhd edəcəm: O, həmişə axtarırdı, xüsusən, elm, ilahiyyat üzrə elm, hikmət, həqiqət axtarışında idi. Bir neçə misal çəkmək istərdim.

2001-ci ildən 2005-ci ilə kimi bir neçə dəfə rəhmətlik Elmanın və Hacı Salman Məmmədlinin iştirakı ilə hazırlanmış "Əshabi-Kəhf: Tanrı hüzuruna gedən yol" kitabı nəfis şəkildə nəşr edilmişdir. Kitabın sonundakı onun müraciəti diqqətinizə bu kitabın əvvəlində çatdırmışdır.

Maraqlıdır ki, bu müraciətə hələ indiyə kimi akademik Vasim Məmmədəliyev cavab verməmişdir. Mən özüm bu məsələ ilə əlaqədar olaraq, həm şəxsən tanıdığım hörmətli akademiklə, həm də Qismət nəşriyyatının direktoru Xəlil Öztürklə (Qurani-Kərimin göstərilən tərcüməsinin ən çox nəşr olunduğu yer), Qafqaz Universitetində görkəmli ilahiyyatçı alim Mehmet Rıhtımla və bir çox digər bu sahənin biliciləri ilə görüşmüşəm. Bu polemikanı rəhmətlik Elman dünyasını dəyişənə kimi yaddan çıxarmadı və biz də yaddan çıxarmağı düşünmürük.

Sağlam məntiq doğurdan da bunu deyir: Əgər Əshabi-Kəhf mağarasının yerləşdiyi yer müqəddəs kitabımız "Qurani-Kərim"də göstərilməyibsə, niyə adı çəkilən tərcümədə göstərilməlidir? Bu tərcümədir, yoxsa təfsirdir?

Hansı qaynaqlarda Əfsus-Tərsus göstərilir? Digər qaynaqlarda hansı məkanlar öz əksini tapıb? Heç birini göstərməməkmi düzdür, yoxsa hansınısa göstərmək, yoxsa bu illər boyu (2001-2011) susmaq? Nəşrlər bu qaydada da davam etməlidirmi? Elman "Fatehlərin divanı" adlı dörd seriyalı televiziya tamaşasını çox sevərdi, hazır televiziya variantının üzərində işləyərək, onu ustalıqla əlavə montaj etmişdi, disklərini də öz hesabına başa düşənlər arasında yayırdı ki, bir nəticə çıxarsınlar: Niyə biz həmişə itirə-itirə gəlmişik və gəlib bu günə düşmüşük?

Həmişə deyərdi ki, Böyük Yaradan – Tanrı mələklərə buyurur ki, mən bir türr – dürr (Türk) yaradacağam. Həmin o türr – dürr – Türk böyük imperiyalar yaratdı. Lakin onun qədrini

bilmədi, indi gəlib bu hala düşmüşük, nə etməliyik ki, özümüzə qayıdaq! Bu haqda çox önəmli orijinal fikirləri var idi, onların da çoxunu yazıb qoyub, zaman – zaman vaxt olduqca, onun arxivi ortaya çıxdıqca bu məsələləri onun adından təqdim etmək bizim, yəni yaşayanların, qalanların borcudur, deyə düşünürəm. Həmin film tamaşanı mən f.e.d. Elməddin Əlibəyzadəyə verdim, o isə hörmətli f.e.d. "Ərəb ədəbi-bədii qaynaqlarında Türk"-ü araşdıran, Qurani – Kərimin gözəl həmtərcüməçisi "Həzrəti Məhəmmədin (s.ə.s) hədislərində ümumbəşəri dəyərlər", "Qaynaqlardan gələn soraqlar" və s. bu kimi önəmli əsərlərin müəllifi, sözün həqiqi mənasında böyük alim Məmmədhəsən Qəmbərliyə vermişdi. Bir neçə dəfə rəhmətlik Elmanla birgə onlarla görüşüb bu barədə söhbətlər etdik. Elman həm də bu cür şəxslərin qulluğunda durmağı, onlara diqqət göstərməyi özünə borc bilirdi. Bir dəfə M. Qəmbərli ürəyindən şikayətlənirdi, Elmanın maşını ilə bir yerdə gedib, onu evindən götürüb, kardioloq Tofiq  həkimin yanına apardıq. Yolda - o az zamanda çox qiymətli fikir mübadiləsi getdi, həm "Fatehlərin Divanı", həm "insan = adam + elm + iman", həm də "Qurani-Kərim"in tərcümələri barədə... Sağ olsun Məmmədhəsən müəllimi, Elmanın rəhmətə getməyini eşidib, Elməddin müəllimlə və onun oğlu Cahangirlə bir yerdə yasa gəlmişdi... Elman da Məmmədhəsən müəllim haqda çox yüksək fikirdə idi və onun araşdırmalarını da özünün gözəl bilgilərinin üstünə haqq ilə, yəni ona istinad etməklə əlavə etməyi unutmazdı. Məmmədhəsən müəllimin kitabında elm haqda olan hədislərin bir qismini Elmanın sevdiyini, bəyəndiyini (bizə oxuyacağı baş tutmayan mühazirəsinin... bir hissəsi kimi) düşünərək, burada qeyd etmək qərarına gəldim, azından ona görə ki, Elmanla hər görüşümüzdə ondan mütləq yeni bir dəyərli fikir, İlahi kəlam, elm haqda, mənəviyyat haqda yeni şeylər eşidərdik...Hətta əsəbi vaxtlarında belə mütləq ibrətamiz bir şey danışar, dəyərli söz söyləyərdi. Kitabdan gətirilən bu fikirləri və digər deyimləri mən və ya digər tanış dostları ondan müxtəlif vaxtlarda eşitmişdik.

**«Əvət, şu kainatı idarə edən Zat hər şeyi nizam və mizan içində mühafaza ediyor. Nizam və mizam isə: Elm və hikmət və iradə ilə qüdrətin təzahürüdür...»**

**«Beşikdən qəbirə qədər elm ara» (Hz. Məhəmməd)**

**"İnsanın ata-anasından sonra ən çox sayğı göstərdiyi məhz bilik aldığı kəsdir. Hz. Əlinin bu faktı vurğulamaq və alimin layiq olduğu dəyəri göstərmək üçün söylədiyi "Mənə bir hərf öyrədənin 40 il köləsi olaram" kəlamına haqq qazandırmamaq olarmı?!.."**

**İlk orta çağların böyük din və elm xadimi İmam Mucahid ""Utanan və kibrli (təkəbbürlü, lovğa – M.Q.)" olan kimsə elm əldə edə bilməz" – demişdir. Ondan elmi necə əldə etdiyini soruşduqda "başqalarını oxudub öyrətməkdə xəsislik, öyrənməkdə isə lovğalıq etməməklə" – deyə cavab vermişdir.**

**Hz. Məhəmməd insanları elmə münasibət baxımından üç qismə bölür:**

**"Birincisi, elm alır, özü ona əməl edir, başqalarına isə çatdırmaq iqtidarında olmur.**

**İkincisi, elm alır, əməlində tətbiq edir, başqalarına öyrədir, təbliğ edir və hamısı ondan faydalana bilir.**

**Üçüncüsü isə əsla elmi və doğru yolu qəbul etmir, kafir halında qalır, imandan və elmdən məhrumdur."**

**Bəri başdan qeyd edək ki, bu bölgü bu gün də insanların elmə münasibətini səciyyələndirmək üçün bir meyar olaraq, öz orijinallığını və aktuallığını itirməyib. Bu isə peyğəmbər kəlamının zaman və məkan məhdudiyyətsizliyini bildirir."**

Yuxarıda qeyd etdiyim kimi, mən onunla birlikdə bir çox adamlarla görüşmüşəm və onlardan bir neçəsindən Elman bir jurnalist kimi müsahibə alaraq, video lentə köçürüb və indiyə kimi öz arxivində heç kimə göstərmədən saxlamışdır. O cümlədən:

- Azərbaycanın Xalq şairi Nəbi Xəzrini – bir neçə dəfə evində.

- Görkəmli geoloq-geologiya-mineralogiya elmləri doktoru Sübhi Bektaşidən - evində,

- Avstriyalı operator – rejissor tarixçi, ermənilərin Türklərə qarşı etdiyi vəhşilikləri dünyada yayan Erik Faylerdən, İçərişəhərdə qaldığı oteldə.

Bunların hər üçü indi haqq dünyasındadır...

- Filologiya elmləri doktorları: E.Əlibəyzadə və Ə.Səfərlidən Naxçıvanda qonşusu Əli Nadir oğlu Hüseynovla birgə (o ud salırdı) – bizim ofisdə.

- Rəhmətlik Əjdər Fərzəli və Nizami Məmmədovla (Murad oğlu) Gəmiqaya və Qobustan əlifbası haqda müsahibələrini həm özü çəkib, həm də Türkiyənin Samanyolu TV-na (efirə gedib 12.04.2005-ci ildə - Kosmonavtlar günündə) çəkdirib – bizim ofisdə,

- Atası İslam müəllimin ədəbiyyat müəllimi, ədəbiyyatşünas-dilçi olmasından belə istifadə edərək, bu faktdan da yararlanmağa çalışmışdı. Dünyada 50 milyondan artıq Azərbaycanlıları mənəviyyat baxımından bir araya gətirmək üçün belə bir fikir irəli sürmüşdü: dünyada yaşayan azərbaycanlılar bir dildə danışırlar, onların danışıqlarında dialekt fərqi var, müxtəlif ölkələrdə yaşayırlar, gəlin bunu nəzərə alaq və heç bir əlifbanı əsas götürməyərək, bizim bildiyimiz, öyrəndiyimiz kiril və latın əlifbalarını bir-birinin qarşısına yazaq, ərəb, fars və türk əlifbasının da uyğun həriflərini onların qarşısında yazaraq bir lövhədə, cədvəl halında birləşdirək, "ata, sən dil ədəbiyyat müəllimi kimi dünyanın hər yerində yaşayan bizim azərbaycanlı balalara əlifba dərsi de, sonra onu internetdə yerləşdirək, qoy onlar bir-birinin əlifbasını öyrənərək, bir-birini başa düşməyə çalışsınlar. ***Bu həm də Azərbaycanda son yüz ildə dörd dəfə aparılmış əlifba islahatlarından doğan çətinlikləri müəyyən qədər aradan qaldırmış olar!"***

Mən Elmanı gördüyüm insanlar içərisində, bəlkə də, ən kamil insanlardan biri kimi görmüşəm. "Kamillik – mehribanlığın, cəm yaranışa mehribanlığın, sözünə düz, işinə düz, təmənnasızlığın; varlığın, əqlin Pak, hər addımın Pak, baxışın Pak!"

Müəllimlərini və savadlı bilikli alimləri və şəxsləri çox yüksək qiymətləndirirdi. Yadımdadır, dəfələrlə rəhmətlik akademik Azad Mirzəcanzadənin kollecində, yeniyetmələrə dərslər keçilən otaqda boş yerlər olduqca, biz də oturub qulaq asardıq. Akademik İsmayıl İbrahimovu və onun yaratdığı uşaq fondunu çox sevərdi, məni də onunla görüşlərə aparmışdı, 90 illik yubileyində də bir yerdə olmuşduq...

Saymaqla – deməklə qurtarmır və qurtarmaq bilmir rəhmətlik Elmanın etdikləri, yaratdıqları, dedikləri... Və mənə elə gəlir ki, heç vaxt bizim yolumuzu, dünyamızı, sabahımızı tərk etməyəcək bu İşıq!..

***Mirələkbər Seyidov***



**Nuh peyğəmbərin məzarının yeri**





***Dostu, arxeoloq Abbas Seyidov Nuhun Naxçıvanda yenidən tapılan məzarı önündə***






**“Gəmiqaya-2005” Beynəlxalq ekspedisiyasının üzvlərindən**



***Bu yolda zəhməti olanlar...***



**Mahmud Mahmudov nəvəsi ilə**



***Elman Əliyev Türkiyəli qonaqla***



***Elman həmfikirləri ilə***



**Bu da YOL...**



**Salvador Dali "Xilas"**



**_Salvador Dali - digər əsəri_**

# *Əlavələr*

***Elman Əliyev haqqında alim və ziyalıların xatirələrindən sonra onun çoxşaxəli fəaliyyətindəki əsas qayələrlə səsləşən və həyata keçməmiş arzularının üfüqlərini göstərən, işığını əks etdirən bəzi materialların bu kitaba əlavə olunması məsləhət bilindi.***

## *Özümüzü tanıyaq*

Dünya şöhrətli rəssam Salvador Dalinin məşhur "Dünyanın xilası" əsəri barəsində yazıcı-publisist Məhərrəm Zamanın "Davam" qəzetinin 01.11.2011-ci ilin 18-ci sayında dərc edilmiş "Yaranış-Xilas" məqaləsi ətrafında düşüncələrimi sizinlə bölüşmək istərkən yadıma düşdü ki, ömrümün yetkin çağında olsam da indiyə kimi heç vaxt bu məqsədlə - yəni, məhz məqalə və ya buna oxşar bir yazı yazmaq üçün qələmi əlimə almamışam. Lakin təqdim olunan mövzu və onun aktuallığı o qədər məni cəlb etdi ki, yazmaya bilmədim, məqalə yazmağı da sınaqdan keçirmək qərarına gəldim. Yadıma düşdü ki, bu şəkli ilk dəfə mənə yaxın, ziyalı dostum Vahid Rzayev vermiş, verərkən dəyərli fikirləri ilə bölüşmüş, mən də bu fikrin davamı olaraq bu əsəri tanıdığım ziyalılara və o cümlədən (bu yaxınlarda rəhmətlik dostum Elman Əliyevin vəfatı ilə əlaqədar yaxından tanıdığım) yazıçı Məhərrəm Zamana verdim, əsəri o necə ruh yüksəkliyi və sayğı ilə qarşıladı, bunu dillə ifadə etmək çox çətindir. Birgə başlanan işi daha sövqlə, geniş oxucu auditoriyasına çatdırmaq üçün əməli işə keçərək bu haqda məqalə yazdı və onu dərc etdirdi.

Salvador Dalinin əsərindəki qəhrəmanının Azərbaycana tuşlanmış barmağı həm də onu göstərir ki, dünya bizi – yəni, bizim Azərbaycanı və biz azərbaycanlıları özümüzdən çox-çox yaxşı tanıyır. Vahid Rzayev demişkən: - "Tanıdıq, tanıdıq, dünyada hamını tanıdıq. Təkcə özümüz-özümüzü tanımadıq ki, tanımadıq."

Bu qüsuru qismən aradan qaldırmaq məqsədilə imkanlarımız daxilində Azərbaycanlıları – ilk növbədə özümüzə, sonra isə vətəndən kənarda tanıtmağa səy göstərməyə qərar verdik. Siz necə düşünürsünüz, əziz oxucular, bu bizdə alınacaqmı?

Hər halda risk etməyə dəyər. İtiriləsi bir şey olmasa da, qazanılası çox şeylər var, deyə düşündüm. Biz Bismillah deyərək başlayırıq və sizləri də bu işə dəvət edirik...

Gəlin özümüzü tanıyaq və çalışaq kimliyimizi, daha doğrusu böyüklüyümüzü aydınlaşdıraq ki, biz Azərbaycanlılar

dünyaya – bəşər mədəniyyətinə nələr vermişik? Verdiyimizin əvəzini almışıqmı? Onu bizə az da olsa qaytarıblarmı? Bundan sonra nə verə bilərik? Verdiklərimizdən özümüz də faydalanmağı düşünürükmü? Yoxsa yenə də töhfələrimiz əvvəlkilər kimi qarşılıqsız olacaq?!

Əziz oxucular!

İlk yazımız 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti Daxili İşlər nazirinin müavini işləmiş, sonradan Almaniyada mühacir həyatı yaşayaraq xalqımızı ləyaqətlə təmsil etmiş, şərqşünas alim, general Sadıq bəy Ağabəyzadə haqqında olacaqdır.

Əvvəlcədən qeyd etmək yerinə düşər ki, Sadıq bəy haqda Gülər xanım Abdullabəylinin

***(http://www.gunaz.tv/aze/35/videoCatID/2/videoID/985-30-APREL-2008-SECERE-Xanlar-Bayramov-Guler-Abdullabeyli-Sadiq-bey-Agabeyzade_haqda.html/videoPg/22)*** araşdırmaları mövcuddur və bu haqda 525-ci qəzetin 09.11.2011 tarixli sayında görkəmli ilahiyyatçı alim Nəriman Qasımoğlunun "Hicrət və Cihad mücadiləsinin bəhrəsi" adlı məqaləsi də dərc edilmişdir.

Bu yazıda rəhmətlik Sadıq bəyin dəyərli həyatının ancaq bir hissəsi öz əksini tapıb ki, bu da müqəddəs "Qurani Kərim"-in alman dilindən rus dilinə tərcüməsində göstərdiyi danılmaz xidmətdir. Bu işdə, yəni "Quran"-ın nəşrində oynadığı rolu anlamaq üçün tərcümənin bir hissəsinin Azərbaycan dilinə də tərcüməsini sizə təqdim etmək qərarına gəldik. Diqqətinizə onun nurlu ruhunu yad edərək həmin nəşrdən Nur surəsinin (24)35-ci ayəsinin ana dilimizdə nəzərinizə çatdırırıq.

Mətn, rus dilindən Azərbaycan dilinə Yusif Rəhimoğlu tərəfindən tərcümə edilmişdir. Allah ondan və bu işləri təmənnasız görən digər insanlardan - rəhmətlik Elman dostumuz da daxil olmaqla hamısından - razı olsun!

***Mirələkbər Seyidov***

***"Davam" qəzeti, 13.12.2011 (№23)***

## *"Qurani-Kərim"in Nur surəsinin (24) 35-ci ayəsi və təfsiri (Yusif Rəhimoğlunun tərcüməsində)*

***Allah (129) göylərin və yerin (130) Nurudur. Onun nuru eynən (131) içərisində bir çıraq olan taxçadır. Çilçıraq bir şüşənin (133) içindədir. Şüşə - sanki bir inci (mirvari) ulduzudur. (134) O, bir bərəkətli zeytun (135) ağacından alışır. Bu ağac nə qərbdə, nə şərqdədir. (136) Onun yağı alışıb yanmağa hazırdır – (137). Yüksək saflıq dərəcəsi üzündən od (atəş) ona toxunmasa belə (138) Nur üzərində Nur (139)! Allah istədiyi (140) kəsi öz Nuruna doğru aparır və Allah insanlar üçün misallar çəkir. Allah hər şeydən xəbərdardır (141).***

**(129):** Bu ayə sağlam ailə və cəmiyyət həyatına aid bəlli qayda və qanunlara əsaslanır. Bu ayə dərin mənəvi sirlərin çoxcəhətli məcazlarını (alleqoriyalarını) ehtiva edir. Təfsirdə onun məhrəm, əsrarəngiz mənasını tam şəkildə əks etdirmək mümkün deyildir. Bu mövzuya dair çoxlu kitab, o cümlədən Əl-Cəzəllinin* (Yusif Əlinin)* "Misqət Əl-Ənvər"* əsəri yazılmışdır.

*** Burada və sonradan gələn mətndə: bu tərcümədən əvvəl ərəbcədən almancaya və almancadan ruscaya edilən tərcümələrdə həmin tərcüməçilərin istifadə etdiyi mənbələr göstərildiyindən Azərbaycancaya edilən tərcümədə də həmin mətnlər olduğu kimi saxlanılmışdır.**

**(130):** O onu (Günəş və Ayı) ay və günəşlə işıqlandırır (Əl-Cəlaleyn)* Fiziki işıq - Əsl Nurun yalnızca elə reallıqlar aləmindəki yansımasıdır (inikasıdır), əsl Nursa – Allahdır. Biz Allahı yalnız öz fenomenal təcrübəmizin anlayışlarında təsəvvür edə bilərik, bu fenomenal (görsənişli, izhari) dünyadasa işıq – bizə məlum olan ən təmiz, saf şeydir. Fəqət fiziki işıq onun fiziki təbiəti ilə şərtlənmiş bir sıra çatışmamazlıqlara malikdir, məsələn

1. O, özündən kənarda olan işıq mənbəyindən asılıdır; 2. onu enerjinin hərəkəti və ya forması kimi başa düşsək keçici bir fenomendir, bütün başqa fenomenlər (görsəntilər) kimi o da dayanıqsız, qeyri-stabildir; 3. zaman və məkandan asılıdır: onun sürəti saniyədə 299 792,2 kilometr təşkil edir və elə ulduzlar vardır ki, onların işığının yerə gəlib çatması üçün min illər gərəkdir (Yusif Əli)*.

O, imanlıların könüllərini və evlərini işıqlandırır (Dəryabadi)*.

Göylərin və yerin əsaslarının, quruluşunun ondan gəldiyi, onların substansiyasının və mövcudluğunun ona əsaslandığı, onların qanunauyğunluqlarını təyin edən bir Nur (işıq) (Qütb)*.

İşıq şeyləri görünən edən şeydir; onun özü də qavranılandır və onun sayəsində başqa şeylər qavranılır. Belə ki, insanın duyğu orqanları işığı qavrayır. İşığın əskikliyi zülmət və korluqdur. Təməl mənasında Allahın adı burada insan sinirinin reaksiya verdiyi işıq şüası mənasında çəkilməmişdir. Allahdan bəhs edilərkən (Onun barəsində) insani anlayışlar heç vaxt özlərinin fiziki, cismani mənasında işlədilmirlər. Belə ki, məsələn, biz deyirik ki, Allah eşidir və görür. Lakin O, bir insan və ya heyvan kimi bəlli orqanlardan asılı deyildir. Belə sözlər məcazi mənalarında işlədilir və yalnız olduqca gerizəkalı kəslər bundan belə bir nəticə çıxara bilərlər ki, Allaha bizim anlamımızda görmə və eşitmə kimi bu qədər adi özəlliklər xasdır. Eyni şey həm də işığın işıqlanan cisimdən gələn və gözün torlu qişasına təsir edən fiziki işıq şüaları mənasında anlaşımına da aiddir. Sözün bu cür məhdud mənasını Allaha tətbiq etmək olmaz. Söhbət yalnız onun mütləq mənasından gedə bilər, yəni Kainatda işığın tək səbəbi Odur, əks təqdirdə zülmətdən başqa heç nə olmazdı. Bu mənada Allah mütləq işıqdır, belə ki, gerçəkliyi və həqiqəti bilməni yalnız Ondan almaq olar. Onun Nuruna ərmək, yetmək mümkün olmasaydı dünyada yalnızca elə nadanlıq və şər zülməti hökmran olmuş olardı (Mövdudi)*.

**(131)** Bu müqayisə bizim məhdud təfəkkürümüzə hüdudsuzu anlamağa və onu hissi təcrübəmizə yaxınlaşdırmaq üçün bizə kiçildilmiş modeli təsəvvür etməyə kömək etməkdən ötrü aparılır. Bu kontekstdə "kimi" sözü, Onunla heç nə müqayisə edilə bilmədiyinə görə, (bax surə 42:11) Allahı hətta metafora (məcaz) və ya məsəlin köməyi ilə təyin etməyin mümkünsüzlüyünə bir işarədir, buna görə də onunla heç nəyi müqayisə etmək olmaz (bax surə 112:4). Buna görə də onun Nuru barədə məsəl (ayə) Onun yaratdıqlardan heç birinin təsəvvür edə bilmədiyi və insan dilinin ifadə etmək iqtidarında olmadığı varlığını izah etmək üçün deyil, yalnızca elə Ona tapınan hər kəsə bəxş etdiyi nurlanmaya toxunmaq üçün çəkilir. O – Mütləq həqiqət olan kəsdir. Buna görə bəzi məşhur təfsirçilər belə deyirlər: "Bu məsəl (ayə) Onun möminin qəlbindəki Nuru barədədir" (Əsəd)*.

**(132)** Özündəki işığı hər şeydən daha yaxşı odaqladığına (fokusladığına) görə. Bunun sayəsində işıq hər tərəfə ziya saçır (Dəryabadi).

**(133)** Bu ayənin (məsəlin) ilk üç bəndində taxça, çıraq və şüşə nəzərdən keçirilir. 1. Taxça ("misqət") – şərqlilərin evlərinin divarında döşəmədən bir xeyli hündürdə olan bir oyuqdur, elektrik işığı meydana çıxanadək çırağı adətən oraya qoyurdular. Bunun sayəsində işıq bütün otağa yayılır və kölgə salmır. Divarın arxa fonu və taxçanın yan tərəfləri işığın evdə daha yaxşı yayılmasına kömək edirlər. Ağ divarlar əksetdirici rolu oynayırlar. Mənəvi işıq, ziya da elə bu cürdür: O, dünyəvi olan hər şeydən çox hündürdədir, onun öz taxçası və yaxud İlahi Vəhydə və sair əlamətlərdə öz yeri vardır. İnsan ona yetişə bilər, O, eyni zamanda onun ziyasından üz döndərənlər üçün erişilməz, əlçatmaz olaraq qalmaqla O hamı üçün açıq, çatımlıdır. 2. Çıraq – mənəvi, ruhani həqiqətin əsl özəyi, onsuz taxçanın bihudə bir şey olduğu həqiqi nurlanmadır. Əksinə, taxça məhz elə çıraq üçün yaradılmışdır. 3. Şüşə - şəffaf bir mühitdir, işıq ondan keçərək gəlir. Bir tərəfdən o, işığı pərvanələrdən və sair ibtidai heyvani formalardan (insanın

rəzil motivlərindən) və külək əsintilərindən (ehtiraslardan) qoruyur, o biri yandansa o, işığı elə öz torpağımızdan alınan və onunla bir qəbildən olan (kvars qumu və sair) materialın köməyi ilə ötürür. Ancaq şüşənin quruluşu elədir ki, öz şəffaflığı sayəsində o , incə olanı kobudlaşdırır. Beləcə həqiqət insana anlaşıqlı olmaq üçün insan dili və zəkası süzgəcindən keçir (Yusif Əli)*.

**(134)** Bu şüşənin özü işıq saçmır. Amma əgər onun içərisində işıq varsa, o, bir ulduz kimi şəfəq saçır. Allahın həqiqətini bəyan edən Allah elçiləri də elə bu cürdürlər, onlar özləri Allahın Nuru ilə nurlanmışlar və Allahın Nurunu yayan və insanın həyatına nüfuz edən işıqsaçan varlıqlara çevrilirlər (Yusif Əli)*.

Çıraq – Allahın öz elçilərinə göndərdiyi və zəkaları tərəfindən şüurlu surətdə qəbul edildikdən sonra inanclıların ürəyində - “taxçada” inikas edən Vəhydir, elə əsl iman da insanın qəlbinə gedən yolunu yalnız ağıl vasitəsi ilə, ondan keçməklə tapır (Əsəd)*. **(135)** Zeytun ağacı zahirən xüsusi bir gözəlliyi ilə seçilmir. Onun yarpaqları tünd-yaşılımtıl rənglidirlər, ağac özü isə hündür deyil. Lakin onu yağı dini mərasimlərdə istifadə olunur və sağlam bir qida məhsulu verir. Meyvəsi xüsusən dadlıdır. 23:20-ci surəni müvafiq və qeydləri, habelə aşağıdakı qeydi müqayisə et (Yusif Əli)*.

O dövrdə ən təmiz işığı onun yağı verirdi. Bu misal təkcə elə buna görə deyil, həm də bu ağacın müqəddəs kölgə, yəni Sinay yarımadasında Müqəddəs vadiyə kölgə saldığına görə gətirilir. Eyni zamanda bu yer bu ağacın vətəni olan Ərəbistan yarımadasına ən yaxın bir yerdir (Əl-Kurtubi)*.

“Bərəkətli”: o çoxlu xeyir verir (Mövdudi)*.

**(136)** Bu mistik ağacın - zeytun ağacının olduğu yer təyin edilməyib. O, nə şərqdən, nə də qərbdən gəlib, Allahın Nuru kimi əbədi mövcuddur. Güney (şərq) yamacda bitən bu zeytun ağacının üzərinə yalnız sübh günəşini, qüzeydə isə (qərbdə) onun üzərinə axşam günəşinin şüaları düşür. Şimal yarımkürəsində qərb yamacı daim kölgədə olduğu sürədə cənub yamacını bütün gün boyu

günəş işıqlandırır, cənub yarımkürəsində isə hər şey tərsinədir. Lakin açıq düzənlikdəki və ya təpənin üstündəki ağac bütün gün ərzində gün işığı altında olur; o daha yaxşı yetişər və onun barı və yağı daha yaxşı keyfiyyətli olar. Eləcə də Allahın Nuru hansısa bir bəlli yerlə bağlı deyil, o, mükəmməl və hər şeyi sarandır (Yusif Əli)*.

**(137)** Öz-özünə işıq saçır (Dəryabadi)*.

**(138)** Təmiz zeytun yağının rəngi gözəl, qatılığı lazımi qədərdir və o yaxşı yanır. Yanar maddələrin bütün növləri sınaqdan keçirilmişdir, təsərrüf və praktiki səbəblərə görə biri digəri ilə əvəz olunur. Lakin dayanıqlılığına  və gözə xeyirli təsirinə gəldikdə isə, bitki yağları elektrik işığından, mineral və heyvani yağlardan çox-çox yaxşıdır. Bitki yağları arasında isə yenə də zeytun yağı ən yüksək yeri tutur və Müqəddəs yağla müqayisə edilməyə ən layiqlisidir. Onun saflığı özlüyündə elə az qala işıqdır; o, demək olar ki, rəngsizdir. Mənəvi (ruhani) həqiqətlə də məsələ bu cürdür: O, sezilmədən zəkanı işıqlandırır, xeyir ağla və qəlbə şüurlu surətdə nüfuz edir (Yusif Əli)*.

**(139)** Burada yenə mütləq işığa, göyü və yeri işıqlandıran İlahi Nura qayıdırıq. Nur - əzəmətinin nə qədər böyük olduğunu bilmədiyimiz əsl möcüzədir - o, yalnızca elə onu qəlblərə uzlaşdırmaq və onlarda onu görmək istəyi oyatmaq cəhdidir (Əl - Kurtubi)*.

Yağın yanma zamanı güclənən işığı (Əl-Cəlaleyn)*.

Taxçada üç işıq birləşmişdir: biri-piltənin yanmasından, o biri şüşədən, üçüncüsü isə yağdan gələn işıq. Onların hamısı mükəmməl işıq verir. Allahın əlamətləi (nişanələri) də elə bu cür aşkardırlar. Bir sübut o birisinin, işarə başqa bir işarənin ardınca gəlir (Əl-Kurtubi)*.

Quran “Risaləsinin (Quranın göndərilməsinin) mahiyyəti başqa bir yerdə” elə özlüyündə həqiqəti açıq aydın göstərən bir mahiyyət kimi qeyd edilmişdir (12:1 surəsini və müvafiq qeydi müqayisə et) və güman edirəm ki, bu cümlə Quranın bu aspektinə aiddir. Onun göndərilişi Nur bəxş edir, çünki göndərən Allahdır,

lakin əgər biz ona ilahi naziletmə odunun toxunduğunu dərk etmiş olsaq, o elə özü-özündən ziya saçmuş olardı, çünki onun daxili məğzi həqiqəti və hikməti onun ön - yarğısız (xurafatsız, mövhumatsız) öz zəkasının işığında görən hər bir kəsə anlaşıqlı olmalıdır (Əsəd)*.

**(140)** Nə təsvir edilməsi, nə də ölçülməsi mümkün olan sonsuz işıq (Nur). Onun insanın demək olar ki, təsəvvür belə edə bilməyəcəyi ruhi (mənəvi) ucalıqların transsendental (o taya adlayan) sahələrinə keçən müxtəlif dərəcələri mövcuddur. Ən yuxarıda olan əsl Nurdur, bütün qalanları isə Allahın Nurunun yalnızca əks etməsidir. Buna görə Peyğəmbər İlahi "Nurdan olan yetmiş min örtükdən" bəhs edir (Yusif Əli)*.

Qəlblərini nura açanlar və bu zaman onlar onu görürlər (Əl - Kurtubi).

Kor üçün gecə və gündüzün fərqi olmadığı kimi daxilən anlamayan insanla da bağlı vəziyyət bu cürdür: O, elektrik işığını, gün işığını və ya ay işığını görə bilir, lakin Allahın Nurunu dərk edə bilmir. Onun üçün Kainatda zülmətdən başqa heç nə mövcud deyildir. Və kor yalnız ayağı ona dəydiyi zaman yolunda daş olduğunun fərqinə vardığı kimi daxili anlaşımı olmayan insan da onu əhatə edən mühitin reallığından yalnız öz haqsız əməllərinin nəticələrini gördüyü zaman xəbərdar olur (Mövdudi)*.

"Allah öz nuruna doğru o kəsləri aparır ki, onlar bunu istəyirlər", və yaxud "Allah öz nuruna özü kimi istəsə", onu aparır. Hər iki tərcümə məqbuldur (Əsəd)*.

**(141)** Bu o deməkdir ki, çox mürəkkəb olduqlarından bir qisim həqiqətləri insanlara yalnız məsəl və məcazlar şəklində çatdırmaq olar.

3:7-ci surələri və müvafiq qeydləri müqayisə et (Əsəd)*.

Ayənin sonu iki şeyi bildirir: 1. Allah bilir ki, bəzi həqiqətləri məsəllər şəklində ifadə etmək daha yaxşı olar. 2. O, kimin bu inayətə layiq olmadığını da bilir. Allah öz Nurunu buna tələbatı olmayan, dünya işlərinə qərq olub getmiş və yalnız bu dünyanın nəşələrini axtaran kəslər üçün çatımlı etməməlidir. Bu inayəti Allah yalnız cani-dildən, səmimi qəlblə buna can atan şəxsə göstərir (Mövdudi)*.

## *Müraciət*

### Özümüzü tanıyaq, milli kimliyimizi, dəyərlərimizi unutmayaq!

Müasir elm bu məsələlərdə hər şeydən əvvəl əlində olan, yəni araşdırılaraq çap olunmuş və cəmiyyətə çatdırılmış qaynaqlara əsaslanır. Ən başlıcası nəzərə almalıyıq ki, biz hələ indi-indi öz tariximizi açmaq, çoxminillik mədəniyyətimizi öyrənmək istəyirik. Milli kimliyimizi və əzəli dəyərlərimizi ortaya qoymaq əzmindəyik.

Gəlin nəzərə alaq ki, cəmi 20 yaşımız var, yeniyetməlikdən gənclik dövrünə qədəm qoyduğumuzu nəzərə alsaq, bunlar təbiidir.

Bəşər mədəniyyəti tarixi bir tamdır. İndiyə kimi olan araşdırmalar da tarixi ilkdən yox, müəyyən dövrünü və ya dövrlərini götürüb öyrənmək və ya təqdim etmək cəhdidir. Belə cəhdlər də çox vaxt yanlışlıqlara aparıb çıxarır.

Milli kimliyimizi dərk etmək üçün gəlin ərazimizə, iqlimimizə, yerləşdiyimiz coğrafi məkana nəzər yetirək.

Şərqlə-Qərb, Şimalla-Cənub arasında yerləşirik, demək biz mərkəzdəyik.

Dünyada mövcud olan iqlimlərin 9-u Azərbaycandadır.

Ölkəmizin forması-xəritəyə diqqətlə baxsaq-qanadlarını açıb uçan quşlar şahı Qartal da böyük mətləblərdən xəbər verir.

Milyon illərdir Kür və Araz çayları bizim ərazimizdən axıb gedir.

Gözəl dənizimiz və onun təbii sərvətləri və ehtiyatları ixtiyarımızdadır. Günəşimiz də dənizdən doğur.

Dünyadakı ən qədim yazılar bizim ərazidə Gəmiqaya-Qobustan abidələrindədir.

Bəşər mədəniyyətinin ən inci nümunələrini özündə əks etdirən Mingəçevir-Sudağılan epitapiyası bizim ərazimizdən tapılıb. (Ancaq öyrənilmədən dağıdılıb Ermənistana daşınıb –

20000 yaxın eksponatdan cəmi 2-3 ədədi bu gün Azərbaycandadır).

- Dünyanın ən qədim yaşayış məskəni Azıx mağarasından insan kəlləsi tapılmışdır.

Azərbaycan xalçalarının tarixi minilliklərlə ölçülür.

Azərbaycan muğamının əvəzi dünyada yoxdur və onlar ilkin çağırışı – ilkə qayıtmaq - qayıdış nalələridir.

Heç bir xalqın tarixində bizim qədər, yəni hərtərəfli sürətdə dünya mədəniyyətinə xidmət edən, bəşəri ideyalar daşıyan mütəfəkkirlər olmayıb. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmaməddin Nəsimi, Şah İsmayıl Xətai, Nəsirəddin Tusi, Əbubəkr Əcəmi, Şəms Təbrizi, Şöhrəvərdi, Bəhməniyar, Əlis Kərəmli, Mirzə Fətəli Axundov, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Maqsud Şeyxzadə, Fikrət Əmirov, Qara Qarayev, Vaqif Mustafazadə, Qurban Qurbanov, Sadıx bəy Ağabəyzadə, Fərman Salmanov, Sabit Orucov, Kərim Kərimov, Abbas Zamanov, Əlibəy Hüseynzadə, Asif Ata, Əhmədbəy Ağayev, Yusif Məmmədəliyev, Məmməd-Əmin Rəsulzadə, Əhməd Cavad və nəhayət ümummilli lider Heydər Əliyev...

Hal-hazırda da bu tendensiya davam edir: Lütfizadə, Bahadır Tahirbəyov, Rafiq Əliyev, Əjdər Fərcəli, İsa Həbibbəyli, Zümrüd Quluzadə, Ağamusa Axundov, Bayram Tahirbəyov, Afad Qurbanov, Qəzənfər Kazımov, Buludxan Xəlilov, Məmməd Araz, Fikrət Rzayev, Arif Əliyev, Məmmədhəsən Qəmbərli, Elməddin Əlibəyzadə, İsmayıl Vəliyev, Qeybulla Qeybullayev, Vahid Rzayev, Elmir Quliyev, Alim Qasımov və ən sonda adları sadalananlarla bərabər adının çəkilməsi vacib olan ruhu bizlərlə yaşayan Elman Əliyev və s və i.

Dünya bizi, yəni biz azərbaycanlıları və Azərbaycanı bizdən çox-çox yaxşı tanıyır. Biz isə "Tanıdıq, tanıdıq, dünyada hamını tanıdıq, təkcə özümüzü tanımadıq ki, tanımadıq"! Salvador Dalinin "Dünyanın xilası" əsərindəki qəhrəmanının Azərbaycana tuşlanmış barmağı da bunu sübut edir. Biz mərd azərilərik – həm a-zər-lərik – zər, işıq, nur daşıyıcılarıyıq həm də as-ərlərik. Hər

şeyin də kökü işıqdır, hər bir varlıq özlüyündə işıq payıdır, işıq zərrəsidir.

Gəlin özümüzü tanıyaq və çalışaq kimliyimizi, daha doğrusu, böyüklüyümüzü aydınlaşdıraq ki, biz Azərbaycanlılar bəşər mədəniyyətinə nə vermişik? Verdiklərimizin az da olsa əvəzini almışıqmı? Bundan sonra nə verə bilərik? Verdiklərimizdən özümüz də faydalanmağı düşünürükmü? Yoxsa, yenə töhfələrimiz əvvəlkilər kimi qarşılıqsız olacaq?

Balalarımızın gələcəyini göz önünə gətirərək ən vacib olan bu işlərin görülməsini vacib sayırıq:

- Bu gün dünyada tariximizi, xüsusilə arxeologiyamızı dəqiq elmlərinköməkliyi ilə (sistemologiya, o cümlədən müasir elmi-texniki nailiyyətlərə əsaslanaraq) araşdırıb, tədqiqatlar aparıb təkzib olunmaz dəlilləri ortaya qoyaq!

Hesab edirik ki, AMEA-sının A.A.Bakıxanov adına tarix institutu AMEA-nin arxeologiya və etnoqrafiya institutu, AMEA-nın Nəsimi adına dilçilik institutu, Nizami adına ədəbiyyat institutu, AMEA-nın folklor institutu. AMEA-nın fəlsəfə institutu. AMEA-nin digər strukturları ilə birlikdə araşdırıb dəqiq tariximizi ortaya qoymalıdır. Bizim başqa yolumuz yoxdur!

Bügünkü dünyada mövcud olan və əsas tarix kimi götürülən ikiçayarası mədəniyyətdən də yəni (Dəclə-Fərat çayları arasında aşkar edilən) Şumer mədəniyyətindən də qədim tarix mövcuddurmu.

Axı Gəmiqaya-Qobustan abidələri, Azıx mağarası bizdədir. Məhz bu-daşlar üzərində yazılmış tarixi mədəniyyətin əsasları burda Azərbaycanda qoyulub. Demək ilk əlifba və ilk söz haqda fikirlər də öz aydınlığını tapmalı, kimin kim olduğu müəyyənləşməlidir.

***Ziyalılardan bir qrup***

# Kitabın içindəkilər:

## *Elman zəkasından qətrələr...*

**Həsrətində olduğum İnsana məktub .......................................... 7**
**Öyrətmənim ........................................................................... 9**
**Dostum Samiqə ..................................................................... 15**
**Unut məni ............................................................................. 18**
**“Yanıq Kərəm” ..................................................................... 19**
**Elmanın gündəliyindən ......................................................... 23**
**Orta məktəb yazıları ............................................................. 24**
**İnşa dəftərindən .................................................................... 25**
**Hazırladığı kitablardan... ...................................................... 26**
**Sözü Məmmədsiz qalan yurdum heyyy!!! ............................... 40**
**M.Araz – qəlblərə işıq daşıyan insan ...................................... 48**
**Ozan yurduna gəldi ............................................................... 53**
**Palıdın şikayəti ...................................................................... 58**
**Qızıl orta ................................................................................ 60**
**Hamının tanıdığı insanı bir daha tanıtmaq istəyi ilə ............. 69**
**Müraciət ................................................................................. 73**
**Müraciət ................................................................................. 76**
**“Əshabi-Kəhf” kitabının (Bakı, 2001) müqəddiməsindən .... 77**
**Elman Əliyevin ilahiyyat haqqında elmi düşüncələri ............ 83**
**Elmanın qeyd dəftərindən ...................................................... 86**
**Tələsən adam ......................................................................... 93**
**Ruslar Nuhun gəmisini Azərbaycanda axtarırlar ................. 94**

## *Ailə xatirələri*

**İslam Əliyev. Əbədi dünyanla yaşa!.. ..................................... 106**
**Asya Əliyeva. Bala dağı ......................................................... 133**
**Oqtay Əliyev. Allah rəhmət etsin hər ikisinə ........................ 134**

**Lətafət İslamqızı. Yuxuda gördüm səni! ............................ 136**
**Sultan Əliyev. Zəng vurdum, çağırdı, amma... .................... 137**
**Rasim Əliyev. İbrət nümunəsi ............................................. 140**
**Şəmidə. Nəvə arzusu ilə yaşayırdı... ..................................... 145**
**Günel. Mənə şirin-şirin "Quzum!" deyərdi ......................... 146**
**Emin. Gözün arxada qalmasın! ............................................ 147**
**Emil. Nə yaxşı, mənim toyumu gördün! ............................... 147**
**Şəmil Mahmudov. Heyf Elmandan! ...................................... 148**
**Nahidə. Sıradan biri deyildi... ............................................... 149**
**Aidə Mahmudqızı. Savadı qarşısında baş əyirəm... ........... 150**
**Ümidvar İbrahimov. Olduğu kimi görünən insan .............. 151**

## *Alim və ziyalı dostlarının xatirələri*

**Elməddin Əlibəyzadə. Zəkalı dost harayı ........................... 161**
**Bahadur Tahirbəyov. Ömrün bir anı ..................................... 168**
**İsmayıl Vəliyev. Ruhun ucalığı ............................................. 179**
**Adil Bağırov. Elman – sevimli şagirdim .............................. 182**
**Abbas Seyidov. Sən qalan ömrünü dostlarında yaşayırsan, Elman! ....................................... 184**
**Vahid Rzayev. Elman – sadəcə Elman ................................. 186**
**Bəhlul İbrahimli. Ümumdünya subasmasının Naxçıvana meteoroloji və mədəni təsiri ................. 188**
**Nuqay Əliyev. İdrakı, imanı olan insan ................................ 196**
**Əkbər Əliyev. Unudulmaz insan ........................................... 200**
**Arif Rəhimoğlu. Acı xəbər ..................................................... 204**
**Məhərrəm Zaman. "Öyrəndim və öyrətməyə hazıram!" .... 207**
**Kamil Məhərrəmoğlu. Sənə görə sevərəm ........................... 222**
**Şəmistan Əlizamanlı. Elmanın unudulmaz xatirəsinə ......... 226**
**Məhəmməd Yenisey, Gülarə Yenisey. Xalqını sevən insan itkisi... ............ 227**
**Tahir Aydınoğlu. Yaxşıların dünyasında qalan adam ........ 228**
**Hacı Salman (Samik). Salam, əməlisaleh dost! .................... 231**

**Əli Şamil. Ağıl vurğunu Elmanın "Ağıllı ev" tikmək arzusu ........................................................ 236**
**Hüseyn Cavadov. Mən də onu tanıyırdım... .......................... 245**
**Nərminə Əlixanbəyova. "Elman əmi" və "Nənə" ................ 250**
**Rauf Zeyni. Mənim üçün ağırdır ........................................... 253**
**Natiq. Elmanın sayəsində ........................................................ 255**
**Sadiq Gözəlov. Dostuma Elegiya ........................................... 258**
**Vaqif və Vidadi Cəfərovlar. Əziz dostumuz Elman Əliyevə ithaf olunur ... 261**
**Müşfiq. Qeyri-adi insan idi .................................................... 263**
**Cəfər. Bazar günü görüşərik... .............................................. 264**
**Əli Hüseynov. Qonşum Elman .............................................. 271**
**Abdul Bağırov. Yüksək zəkalı... ............................................ 272**
**Gülxanım Fətəliqızı. Qarışdı torpağa, üz hayıf oldu!.. ....... 274**
**Akif Azalp. Nurgəzdirən ......................................................... 276**
**Yaşar Azsoy. Ziyalı siması və Nurgəzdirən obrazı .............. 277**
**Mirələkbər Seyidov: Rəhmətlik əziz-aqil-ağır dostum, sirdaşım Elman İslam oğlu Əliyev haqda xatirələrimin xülasəsinin xülasəsi ............................. 280**

## *Əlavələr*

**Mirələkbər Seyidov. Özümüzü tanıyaq ................................ 311**
**"Qurani-Kərim"in Nur surəsinin (24) 35-ci ayəsi və təfsiri ................................ 313**
**Müraciət ......................................................................... 319**